Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
Azərbaycan İlahiyyat İnstitutu

№ 2, iyul, 2020-ci il

# İLAHİYYAT

## elmi-publisistik jurnal

Təsisçi:
Azərbaycan İlahiyyat İnstitutu

BAKI - 2020

**Baş redaktor**
i.f.d.
Aqil Şirinov

**Redaktor müavini**
Rəhilə Misirxanova

**Ədəbi redaktor**
Rəna Həsrətova

**Texniki redaktor**
Hilal Ağamoğlanov

**Korrektor**
Elnarə Ağaoğlu

**Redaksiya heyəti**

i.f.d., dos.
Mübariz Camalov

f.f.d.
Mirniyaz Mürsəlov

i.f.d., dos.
Elnurə Əzizova

f.f.d.
Kövsər Tağıyev

f.f.d.
Əhməd Niyazov

f.f.d., dos.
İlkin Əlimuradov

f.f.d., dos.
Elvüsal Məmmədov

f.f.d., dos.
Anar Qafarov

f.f.d., dos.
Ələddin Məlikov

i.f.d., dos.
Namiq Abuzərov

s.f.d.
Asəf Qənbərov

# BU SAYIMIZDA


**Rəsmi guşə**

*A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*....................................................4

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki*............................5

**Cəmiyyət və din**

**Aqil Şirinov,** *Qafqazda dini tolerantlıq tarixi ənənə kimi*............................................6

**Mübariz Camalov,** *Peyğəmbərlik: meydanoxuma*................................................8

**Əhməd Niyazov,** *İslamda boşanma (talaq)*......11

**Vüqar Səmədov,** *İslamda Qurban*................15

**Tədris**

**Mirniyaz Mürsəlov,** *Təcvid elmində "ləhn" anlayışı və onun namazla bağlılığı*................17

**Zərifə Əliyeva,** *Distant təhsil*.........................21

**Vətənpərvərlik**

**Anar Qafarov,** *Vətənpərvərlik şüuru din müstəvisində*..................................................24

**Emin Orucov,** *Erməni xisləti*..........................28

**Nicat Hüseynov,** *Qarabağ əzəli Azərbaycan torpağıdır*......................................................30

**Araşdırma**

**Elvüsal Məmmədov,** *Ateizm və din*..............32

**Məmmədəli Babaşlı,** *Yazılı abidələrimizin Çar Rusiyası dövründə başlanan faciəsi*........36

**İradə Tağıyeva,** *"Nicat" və "Səadət" xeyriyyə cəmiyyətlərinin Azərbaycan təhsil tarixində yeri*........................................39

**Aişə Baxşiyeva,** *Ərəb Şərqində VII-VIII əsrlərdə kitab və kitabxana mədəniyyəti*........45

**Baxış bucağı**

**Faiq Əhmədzadə,** *Dörd məfhum*..................48

**Mehrixanım Miryaqubqızı,** *Səmavi dinlərdə müqəddəs bayramlar*.......................50

**Aygül Məmmədova,** *Əbül-Müin ən-Nəsəfinin yaradıcılığında insanın iradə azadlığı*........................................................53

**Müsəlman mütəfəkkirlər**

**Ələddin Məlikov,** *Görkəmli empirik alim əl-Biruni*......................................................55

**E.Nurullahoğlu,** *İbn Heysəm optika problemlərinin müsəlman tədqiqatçısı kimi*.....59

**R.İsmayılqızı,** *Azərbaycanı dünyaya tanıdan dahi*..................................................62

**İslam əxlaqı**

**Namiq Abuzərov,** *İslam əxlaqına görə nəfs tərbiyəsinin önəmi*..................................66

**Hilal Ağamoğlanov,** *Nur və zülmət*................70

**Məhəmməd Əliyev,** *Əxlaq və din*..................72

**Analitik təhlil**

**Ayşən Aslanova,** *Media və din*.....................74

**İslam tarixi**

**Fərid Qasımzadə,** *Fatimilər dövlətində vəzirlərin rolu*................................................76

**Ədəbiyyat**

**Şahin Ələsgərov,** *Nəcib Məhfuz: Başqaları üçün yaşanan ömür*........................80

**Elif Yusif,** *Uşaqların cənnəti*...........................85

**Tural Türksoy,** *Əlifba*....................................88

*Saylar*..........................................................89

**Dəyərlərimiz**

**Azad Məmmədov,** *Dəyərlərimizə sahib çıxsaq, sarsılmaz birliyimiz*............................90

**Məzun sözü**

**Firudin Həmidli,** *Aİİ haqqında təəssüratlarım*................................................92

**Təbəssüm**

**Rəhilə Misirxanlı,** *Miniatürlər*........................93



# A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 may 2020-ci il.***

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbriki



***Hörmətli həmvətənlər!***

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

İnsanlar arasında həmrəylik və qardaşlığın, humanizm və mərhəmətin rəmzi olan Qurban bayramı İslam dininin əsas bayramlarından biridir. Müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına qurbanlarla Allaha yaxınlığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Yüz illərdir ki, ayrı-ayrı xalqların və dinlərin mənsublarının mehriban ailə kimi yaşadıqları Azərbaycanda qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayış mühitinin formalaşmasında və etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasında İslam dininin müstəsna rolu olmuşdur.

Hər il ölkəmizdə keçirilən dini bayramlar mütərəqqi milli-mənəvi dəyərlərin, sosial yardımlaşmanın və xeyirxahlıq duyğularının təntənəsinə çevrilir. Builki Qurban bayramı dünyanın qarşılaşdığı çətin sınaq dövrünə təsadüf etsə də, mömin vətəndaşlarımız Allah və din yolunda mənəvi borclarını layiqincə yerinə yetirir, öz nəcib əməlləri ilə cəmiyyətimizdə birlik və bərabərlik ovqatını daha da gücləndirirlər.

***Əziz bacı və qardaşlarım!***

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini minnətdarlıqla yad edir, onların yaxınlarına və bütün xalqımıza səbir diləyirəm. İnanıram ki, xalqımızın firavanlığı və əmin-amanlığı, Vətənimizin çiçəklənməsi və tərəqqisi naminə etdiyiniz dua və diləklər gerçəkləşəcəkdir.

Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə cansağlığı və xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 iyul 2020-ci il.***

# Qafqazda dini tolerantlıq tarixi ənənə kimi



**Aqil Şirinov,**
**i.f.d., AİI-nin rektoru**

Qafqaz tarixən dünyanın ən mürəkkəb etnik struktura malik bölgələrindən biri olub. Burada 50-dən çox müxtəlif dil və ləhcələrdə danışan etnik qruplar mövcuddur. Qafqaz, eyni zamanda, müxtəlif dini konfessiyaların da məkanı olub. Burada çoxluğu təşkil edən müsəlmanlarla yanaşı, müxtəlif yəhudi və xristian məzhəblərinin nümayəndələri də yaşayır. Bütün bu müxtəlifliklərə baxmayaraq, müəyyən istisnalar xaric, Qafqazda dini zəmində heç vaxt ciddi münaqişələr baş verməyib. Məşhur tədqiqatçı Paul B.Henzeyə görə, din həmişə Qafqazda etnik kimliyin tamamlayıcı ünsürü olub. Yəni burada etnik kimlik xalqlararası münasibətlərin müəyyənləşdirilməsində dini kimlikdən daha güclü amil kimi çıxış edib. Əslində, müxtəlif dinlərə mənsub Qafqaz xalqları arasında dini zəmindən çox etnik zəmində mübarizələrin baş verməsi bu fikri qismən təsdiqləsə də, Henzenin fikri reallığı tam əks etdirmir. Ötən əsrin 20-ci illərinə qədər Qafqazın müsəlman xalqları arasında dini kimlik həmişə ön planda olub. Xüsusilə, İslam dini Qafqazın müxtəlif etnik qruplarını birləşdirən bir ünsür kimi çıxış edib.

Fikrimizcə, bölgədəki dini dözümlülüyü şərtləndirən əsas amili Qafqaz xalqlarının milli və dini dünyagörüşündə axtarmaq lazımdır. Biz burada, xüsusilə, Qafqazda hakim olan dini dünyagörüşün birgəyaşayış ənənəsinə necə yol açdığından bəhs etmək istərdik. Bölgə xalqlarının əksəriyyəti İslam dininə mənsub olduğu üçün bu dinə mənsub olan xalqların dünyagörüşünü əsas götürəcəyik.

Qeyd etmək lazımdır ki, Qafqazda tarixən birgəyaşayış və dözümlülük ənənəsini təmin etmiş ən mühüm ünsürlərin başında sufi-irfan ənənəsi dayanır. Belə ki, Qafqazdakı İslam anlayışı tarix boyunca daha çox təsəvvüf mərkəzli olub. Təsəvvüf İslamın dərunı tərəfini təmsil etməklə dinin zahiri hökmlərinin arxasındakı həqiqi mənanın üzə çıxarılmasına xidmət edir. Bu dünyagörüşünə görə, varlıqlar bizə çox və fərqli görünsələr də, dərinliyə vardıqda, əslində, aralarında bir vəhdətin olduğunu görərik. Bu vəhdət həm ontoloji, həm də qneseoloji bir vəhdətidir. Buna görə də təsəvvüf düşüncəsi vəhdətdən kəsrətə, yəni təklikdən çoxluğa deyil, kəsrətdən vəhdətə doğru hərəkət edən bir düşüncə şəklidir. Bu baxımdan, sufinin kainata baxışı da ayıran deyil, birləşdiricidir. Bunun ictimai təzahürü müxtəlif dini qruplar arasındakı fərqlərə xor gözlə baxmamaqdır. Düzdür, bu, o anlama gəlmir ki, sufilər üçün bütün dinlər və məzhəblər eynidir. Sufilər müsəlmandır və çoxu da müəyyən bir məzhəbə bağlıdır. Sufinin digər dinlərə və məzhəblərə baxışı müsəlman teoloqların (mütəkəllim, kəlamçı) baxışından fərqlidir. Teoloq zahiri fərqlilikləri, yəni kəsrəti əsas alır və başqalarını buna görə dəyərləndirir. Sufi isə zahirən görünənin arxasındakı ilk baxışda görünməyən vəhdəti axtarır. Bu baxımdan sufi fərqlilikləri minimuma endirməyə çalışır.

Təsəvvüfün yuxarıda qeyd etdiyimiz nöqteyi-nəzəri sufilərin tarix boyunca zahir üləmasına nisbətlə başqa dinlərə və məzhəblərə qarşı daha tolerant olması ilə nəticələnib. Buna görə də tarixən təsəvvüf təriqətlərinin yayıldığı bölgələrdə ümumən tolerant mühit hakim olub. Müasir dövrdə, xüsusilə, Şimali Qafqazda təsəvvüf ənənəsinin zəifləməsi və sələfi-vəhhabi dünyagörüşünün daşıyıcılarının çoxalması ilə birlikdə dini dözümsüzlüyün də artması bu fikrin doğruluğunu təsdiq edir.

Azərbaycan Qafqazda tolerantlığın və birgəyaşayışın qarantı olan irfani-sufi həyatın mərkəzi olub və bu dünyagörüşü bütün Qafqaza məhz buradan yayılıb. Belə ki, nəinki Qafqazın, hətta Osmanlı dövləti başda olmaqla İslam dünyasının bir çox bölgəsinin dini həyatında önəmli rol oynayan xəlvətiyyə təriqətinin mərkəzi məhz Azərbaycan olub. Təriqəti sistemləşdirən və intişar tapmasını təmin edən əsas şəxsiyyət Seyid Yəhya Şirvani məhz ölkəmizdə yaşayıb-yaradıb. Bir versiyaya görə, təriqətin qurucusu Ömər Xəlvəti də Şamaxıdandır. XIX əsrdən başlayaraq bütün Şimali Qafqaz bölgəsinin müsəlman əhalisinin dini-irfani dünyasını müəyyənləşdirən əsas mürşid də azərbaycanlı Şeyx İsmayıl Şirvani

(Kürdəmiri) olub. Nəqşbəndi təriqətinə mənsub bu sufi mürşid bütün Qafqazda tolerantlığa əsaslanan ictimai strukturun formalaşmasında önəmli rola malik olub.

Şirvani nəqşbəndi təriqətinin əsas qollarından biri olan xalidiliyin qurucusu Mövlana Xalid Bağdadinin (v. 1242/1827) tələbəsi olub və birbaşa ondan təsəvvüf ənənəsi üzrə icazət alıb. Şirvani Qafqaz müsəlmanları arasındakı məzhəb fərqliliyini ədavətə çevirmək istəyənlərə qarşı mübarizə aparıb, hətta məzhəblərarası fərqliliyə münasibətində öz şeyxindən də xeyli fərqlənib. Belə ki, hər halda dövrün siyasi hadisələrinin də təsirində qalan Xalid Bağdadinin şiə məzhəbinə qarşı münasibəti mənfi olub. Xüsusilə, təsəvvüfdəki rabitə mövzusunu müzakirə etdiyi “Risalə fi təhqiqir-rabita”(رسالة في تحقيق الرابطة) adlı əsərinin sonunda şiələrə qarşı mənfi fikirlər səsləndirib. Şeyx İsmayıl Şirvanidə isə bu münasibətin tam əksini görürük. Yetişdirdiyi tələbələr vasitəsilə Qafqazda sufiliyi yayan bu şeyx bölgədəki məzhəblərarası münasibətin müsbət məcrada davam etməsində xüsusi rola malik olub. Onun tələbəsi Mir Həmzə Nigari məsələyə münasibətdə müəllimindən də irəli gedərək, xüsusən, Qarabağ və Qazax-Borçalı bölgələrində hər iki məzhəbin dəyərlərini birləşdirən bir irfan ənənəsinin əsasını qoyub.

Şeyx İsmayıl Şirvaninin bu ənənəsi təkcə Azərbaycanda deyil, bütün Qafqaz müsəlmanları arasında yayılaraq, həm bölgədəki müsəlman xalqlarının eyni ənənə ətrafında birləşib bir-biri ilə müsbət əlaqə qurmalarına, həm də digər dinlərdən olan insanlara qarşı



dözümlü yanaşmalarına böyük töhfə verib. Bu ənənə Qafqaz xalqlarının birləşərək yadelli işğalçılara qarşı mübarizə aparmalarında da böyük rola malik olub. Belə ki, Şirvaninin fikirlərini Şimali Qafqazda Xas Məhəmməd Şirvani, daha sonra isə Məhəmməd Yarağı və Cəmaləddin Qazıkumuki davam etdirib. Yarağının müridi Qazi Məhəmməd və onun davamçısı Həmzə bəy Qafqazı işğal edən ruslara qarşı mübarizə aparıb və nəticədə qətlə yetiriliblər. Qafqaz xalqlarını birləşdirərək işğalçılara qarşı əsas mübarizəni isə Qazıkumukinin müridi və elmi ədəbiyyatda müridizm hərəkatının lideri kimi tanınan Şeyx Şamil aparıb. Şeyx Şamil də öz müəllimləri kimi məhz İsmayıl Şirvani ənənəsinə mənsub olub.

Qafqazın müsəlman olmayan əhalisi arasında da dini tolerantlığın çox sayda nümunələrinə rast gəlirik. Erməni kimliyində olduğu kimi, din və etnik ambisiyaların iç-içə keçdiyi nümunələri istisna etsək, Qafqazda yaşayan digər qeyri-müsəlman qrupların həyatında da əsasən tolerantlığın hakim olduğunu görürük. Tarixin müəyyən dövrlərində gürcü çarları pravoslavlığın hamisi kimi çıxış etsə də, IV Davidin (1073 –1125) nümunəsində olduğu kimi Gürcüstan tarixində də başqa dinlərə dözümlü yanaşmanın nümunələrinə rast gəlmək mümkündür. Bəzi gürcü mənbələrində bu barədə mübaliğələrə yol verilsə də, Davidin başda müsəlmanlar olmaqla, digər dinlərin nümayəndələrinə qarşı dözümlülük nümayiş etdirməsi bir çox tədqiqatçının vurğuladığı bir xüsusdur. Başqa dinlərin mənsublarına qarşı dözümlü münasibəti Qafqazın qədim yəhudi icması olan dağ yəhudiliyində, eləcə də Qədim Qafqaz-Alban Kilsəsinin davamçıları olan Udi icmasının ənənələrində də görmək mümkündür.

Nəticə olaraq qeyd etmək mümkündür ki, tarixən Qafqaz xalqlarının dini dünyagörüşləri eksklüzivist (kənarlaşdırıcı) deyil, inklüzivist (birşləşdirici, əhatəedici) bir xarakterə malik olub. Bu da qeyd olunan bölgədə dini zəmində ümumən dözümlü bir mühit yaradıb.



**Mübariz Camalov,**
i.f.d., dos.,
Aii-nin prorektoru

# PEYĞƏMBƏRLİK: MEYDANOXUMA

***Tarixə nəzər saldıqda görürük ki, status-kvonu dəyişdirmək iddiası ilə meydana çıxana "xoş gəldin" deyilməyib. Hansı sahə olduğunun əhəmiyyəti yoxdur, fikir yenidirsə, etirazla qarşılanır. Çox yeni və daha miqyaslı dəyişikliyə səbəb olacaq fikirlərə isə kəskin etiraz edilir. Bu düz mütənasiblik etirazın qətlə çevrilməsinədək davam edib və edə bilər. Bir neçə misal: Pifaqor, Aristotel, Sokrat, Hipatia, Kopernik, Servet, Tesla, Lavuazye, Bruno, Bekon... Üstəlik, bunlar bütün bəşəriyyətin borclu olduğu dahilərdir.***

Dəyişiklik insan həyatının labüd qanunu olub, yeniliyin və tərəqqinin əsasını təşkil edir. İnkişaf etmək üçün yeni fikir, yeni fikir üçün dəyişiklik şərtdir. Başqa sözlə desək, dəyişiklik olmadan yenilik olmaz, yenilik yoxdursa, inkişaf da yoxdur. Yeniliklər və dəyişikliklər sayəsində bəşəriyyət modern inkişaf həddinə gəlib çatıb. Bu həqiqəti çox yaxşı bilən insan dəyişiklikdən qorxur, onu təhlükə olaraq görür və qətiyyən sevmir. İnsanın dəyişməsindən qorxub, qorumağa çalışdığı nəsə olmalıdır. Bu halda, insanın dəyişikliyin əleyhinə olmasını anlamaq üçün səbəblərə baxmaq lazımdır. Mövzu ilə əlaqəli olaraq üç səbəbdən bəhs edəcəyik:

**Güvən.** Şüur daim insana güvəni təlqin edir. Bu, yaşama duyğusunun məntiqi nəticəsi olaraq, ehtimal ki, canlı olmağın əsas xüsusiyyətidir. İnsan seçim qarşısında qaldıqda həmişə güvəni seçir. Buna görə də güvən hissi insan davranışlarına hakimdir. Güvəndə olmaq üçün bilmək və bildiyindən əmin olmaq lazımdır. Mövcud olan məlum, gələcəyin nə gətirəcəyi isə naməlumdur. Eyni ilə qaranlıq qorxusu kimi.

**Alışqanlıq.** İnsan alışqanlıqlar içində rahatdır. Həyatın müəyyən rejimdə axıb-getməsi, gündəlik həyat tərzinin nizam-intizamlı olması insana dinclik qazandırır. Alışqanlığın dəyişməsi isə çətinlik yaradır. Sonrakı mərhələdə nə ilə qarşılaşacağını və nə edəcəyini bilməyən insan bunun əndişəsini yaşayır. Adət-ənənələrin yaranması və qorunub-saxlanması məhz alışqanlıq hissinin məhsuludur.

**Yiyələnmə.** İnsan sahib olduğu mal-mülk, şan-şöhrət və məqamı itirmək istəmir. Üstəlik, bunların artıb-çoxalması üçün yaşamağı unutmaq bahasına olsa da durmadan çalışır. Yenilik və dəyişiklik isə bunlar üçün təhlükəlidir. Sistem dəyişərsə, nə baş verər?

Beləliklə, insanın yeniliyi təhlükəli görüb, ona qarşı çıxması yeniliyin özündən irəli gəlmir. Yeniliyin nə gətirəcəyinin bilinməməsi insanın güvən hissini təhdid edir, onun alışqanlıqlarını pozma ehtimalı yaradır və sahib olduqlarını itirmək qorxusu meydana gətirir.

Bütün peyğəmbərlər yenilik iddiası ilə ortaya çıxıblar. Buna görə də hər bir peyğəmbər öz missiyasını təbliğ edərkən müxtəlif səpkidə çətinlik və etirazlarla qarşılaşıb. Bunun ictimai, iqtisadi, siyasi, dini və psixoloji səbəbləri olub. Peyğəmbərlər insan həyatının bütün sahələrində dəyişiklik edib yenilik gətirməyi və bunun nəticəsində cəmiyyəti islah etməyi təklif ediblər. Peyğəmbərlərin bu təklifi isə heç də birmənalı qarşılanmayıb. Bu isə ilk mərhələdə gücü əsas tutub, haqsız mənfəət əldə edənlərin etirazına səbəb olub.

İslam Peyğəmbəri Həzrət Məhəmmədin həyatı da bu baxımdan asan olmayıb. Onun peyğəmbərliyinin ilk illəri çox çətin keçib. Həzrət Məhəmmədin peyğəmbərliyinə qarşı etirazların ilki cahiliyyə ərəblərinin peyğəmbər təsəvvürləri zəminində idi. Onların anlayışına görə, peyğəmbər adi insan kimi olmamalı, bəşərüstü və qeyri-adi xüsusiyyətlərə sahib olmalı idi. Qurani-Kərimdə bir neçə ayə bu məsələni belə təsvir edir: *"(Müşriklər) dedilər: "Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib-dolaşır? Məgər ona özü ilə birlikdə (insanları Allahın əzabı ilə) qorxudan (və onun həqiqi peyğəmbər olduğunu təsdiq edən) bir mələk göndərilməli deyilmi? Yaxud ona (ruzi qazanmaqdan ötrü bazarları dolaşmasın deyə göydən) bir xəzinə endirməli və ya ondan (onun meyvəsindən) yeyib-dolanmaq üçün bir bağı olmalı de-*

*yildimi?". Zalımlar (müşriklər möminlərə) dedilər: "Siz ancaq ovsunlanmış (buna görə də ağlını itirmiş) bir adama tabe olursunuz!"* ("Furqan", 25/7-8). *(Müşriklər) belə dedilər: "Bizə yerdən bir bulaq çıxarmayınca, sənə iman gətirməyəcəyik. Yaxud (ağacları) arasında şırıl-şırıl çaylar axan xurma və üzüm bağın olmayınca; Yaxud, iddia etdiyin kimi, göyü parça-parça edib başımıza endirməyincə, yaxud Allahı və mələkləri (peyğəmbərliyinin doğruluğuna şahid olaraq) açıq-aşkar qarşımıza gətirməyincə; və ya qızıldan bir evin olmayınca, yaxud sən göyə qalxmayınca (biz sənə iman gətirməyəcəyik). Əgər bizə (səmadan) oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da əsla inanmayacağıq!". (Ya Rəsulum!) De: "Rəbbim pakdır, müqəddəsdir! Mən isə yalnız peyğəmbər olan bir insanam!"* ("İsra", 17/90-93).



Digər tərəfdən, müşriklərin Həzrət Peyğəmbərdən öz peyğəmbərliyini sübut etmək üçün tələb etdiyi dəlillər, yaxud möcüzələr onların həqiqətən inanmaq üçün deyil, onu çətin vəziyyətə salmaq üçün olduğu da düşünülə bilər. Müşriklər Peyğəmbəri bu yoldan çəkindirmək üçün ona təkliflərlə müraciət edərkən, əvvəlcə peyğəmbərlik iddiasının onların başlarına gələn ən böyük müsibət olduğunu qeyd edərək sözə başlayıblar. Onlara görə, Həzrət Peyğəmbər peyğəmbərlik iddiası ilə ərəblərin birlik və bütünlüyünü dağıdır, onların dinlərini təhqir edir və ata-babalarını dinsiz sayırdı. Belə ağır ittihamlardan sonra Peyğəmbər onların mal-mülk və şan-şöhrət təkliflərini qəbul etmədi. Bundan sonra isə müşriklər Peyğəmbərdən dağları qaldırıb ölkələrini genişlətmək, səhradan çay axıtmaq, ölmüş ata-babalarını diriltmək, Allahdan ləl-cəvahirat və bağ-bağça gəlməsi kimi möcüzələr istədilər. Məqsədlərinin inanmaq deyil, Peyğəmbəri çətin vəziyyətə salmaq olduğu aşkar idi. Bütün bunlar qarşısında Həzrət Peyğəmbər öz mövqeyini heç dəyişmədi və vəzifəsinin bunlar deyil, dini təbliğ etmək olduğunu təkrarladı.

Ümumiyyətlə, peyğəmbərliyi, xüsusi olaraq da Həzrət Məhəmmədin peyğəmbərliyini rədd edən ərəblərin başqa bir əndişəsi siyasi və iqtisadi əsaslı idi. Həzrət Məhəmmədin peyğəmbərliyinin zaman keçdikcə yayılıb uğurlu olduğunu görən ərəblər arasından çox sayda saxta peyğəmbərin ortaya çıxması bunun əlamətlərindən idi. Bu saxta peyğəmbərlərin əsas məqsədlərinin siyasi və iqtisadi nüfuz olduğunu görmək üçün onların Həzrət Peyğəmbərə peyğəmbərliyində şəriklik təklif etmələrinə baxmaq kifayətdir. Peyğəmbər dövründəki saxta peyğəmbərlərdən Hövzə ibn Əli və Müseylimə Həzrət Peyğəmbərə təklif etdilər ki, ya onlar da peyğəmbərlikdə şərik olsunlar, ya da Peyğəmbərin vəfatından sonra peyğəmbərlik onlara miras qalsın. Həzrət Peyğəmbərin İslama dəvət məktubunu alan Hövzə ibn Əli belə bir cavab məktubu yazdı: "Sənin məni dəvət etdiyin şey nə qədər gözəl və mənalıdır. Mən isə xalqımın şairi və xətibiyəm. Buna görə də ərəblər mənə hörmət göstərirlər. O halda sən əlindəki mülkün bir qisminə məni şərik et, mən də sənin yolunda gedim". Hövzə ibn Əlinin bu təklifi peyğəmbirliyi ilahi elçilik kimi deyil, şan-şöhrət və səltənət vasitəsi kimi gördüyünü göstərir. Onun Həzrət Məhəmmədin peyğəmbərliyini qəbul etməməsi teoloji əsaslı deyil, cəmiyyətdəki nüfuzunu itirmə qorxusuna bağlı idi. Buna bənzər bir anlayışı Həzrət Peyğəmbərin Bəni Amir ibn Səsəə qəbiləsini İslama dəvət edərkən görürük. Peyğəmbərin də-

vətini bəyənən qəbilədən bir nəfər belə dedi: "Biz sənin dəvətini qəbul etsək, Allah da səni müxaliflərinə qarşı qalib etsə, səndən sonra hakimiyyət bizə keçər?". Həzrət Peyğəmbər bu təklifi qəbul etmədi, onlar da dəvəti.

Həzrət Peyğəmbərin təbliğinin mərkəzində tövhid dururdu. Bu isə bütlərə olan inancı təhdid etmək idi. Halbuki bütlər məkkəlilərin orada, yəni Kəbənin ətrafında yaşama səbəbləri idi. Bütlər olmadan hacılar gəlməz, bazarlar qurulmaz və nəhayət məkkəlilərin digər ərəblər yanında dəyəri olmazdı. Mənbələr Həzrət Məhəmmədin peyğəmbərlik iddiasında qəti qərarlı olduğunu anlayan müşriklərin bu əndişələrini açıq şəkildə ifadə etdiklərini yazır.

Həzrət Peyğəmbərin yaşadığı dövrdə Ərəbistanda dövlət yox idi. Ərəblər qəbilələr halında iki formada – köçəri və oturaq həyat yaşayırdılar. Oturaq həyat yaşayan qəbilələrdən biri də Məkkədə yerləşən Qüreyş qəbiləsi idi. Məkkə şəhəri həm siyasi, həm də dini baxımdan xüsusi əhəmiyyətə sahib idi. Kəbə vəzifələrinin məkkəlilər arasında bölüşdürülməsi kiçik də olsa, siyasi bir struktur meydana gətirib. Bu vəzifələri əllərində tutanlar siyasi hesab edilə biləcək nüfuza sahib idi. Bununla yanaşı, məkkəlilərin Şam-Yəmən ticarət yolunu bu yol üzərindəki qəbilələrlə andlaşmalar bağlayaraq güvənli saxlamaları da onlara iqtisadi imkanlar yaradırdı. Həzrət Peyğəmbərin yeni bir din anlayışı ilə meydana çıxması hər iki sistem üçün təhlükəli idi.

Həzrət Məhəmmədin peyğəmbərliyinə etirazlar hicrətdən sonra da davama etdi. Etiraz edənlər dəyişsə də etirazın mahiyyəti eyni idi. Həzrət Peyğəmbərin Mədinəyə hicrət etməsinin yolu mədinəli ərəblərin həcc ziyarəti əsnasında İslamı qəbul etmələri ilə açıldı. Onlar yaxın bir zamanda bir peyğəmbər gələcəyini mədinəli yəhudilərdən eşitmişdilər. Üstəlik, mədinəli yəhudilər bu peyğəmbərin özlərindən olacağını və ona tabe olaraq ərəbləri məğlub edəcəklərini də deyirdilər. Mədinəli ərəblər yəhudi deyil, ərəb peyğəmbərin dəvətini eşitdikləri zaman dərhal bu dəvəti qəbul etdilər. Ardından Əqəbə beyətləri ilə həm Həzrət Məhəmməd, həm də məkkəli müsəlmanlar Mədinəyə dəvət edildilər. Məkkədə çətin şəraitdə yaşayan müsəlmanlar da bu dəvəti qəbul edərək Mədinəyə köçdülər. Bu vaxta qədər bir peyğəmbərin gəlməsini gözləyən mədinəli yəhudilər Həzrət Məhəmmədin peyğəmbərliyini qəti şəkildə rədd etdilər. Bununla da kifayətlənməyib, sonrakı mərhələdə baş verən Xəndək döyüşü kimi bir çox həssas məqamda müsəlmanların düşmənləri ilə birgə hərəkət etdilər. Nəticədə, müsəlmanlarla mədinəli yəhudilər arasında düşmənçilik dərinləşdi və yəhudilər sürgün edildilər. Bütün bu hadisələrin fonunda siyasi amilləri müşahidə etmək mümkündür. Həm mədinəli ərəblərin İslamı dərhal qəbul etmələri, həm də yəhudilərin Həzrət Peyğəmbər əleyhinə fəaliyyəti siyasi əndişələrlə əlaqəli idi.

Təsadüfi deyildir ki, Həzrət Peyğəmbərin vəfatından sonra meydana gələn ixtilaflar və yaranan müxalifət də məhz siyasi xarakterli idi. Bu, elmi müstəvidə müzakirə və mübahisələrin olmadığı şəkildə anlaşılmamalıdır. Bunların teoloji və hüquqi izahları sonrakı nəsillərin məharəti idi. Buna baxmayaraq, günümüzə qədər davam edən ixtilaflar və hətta məzhəb fərqliliklərinin kökündə siyasi, ictimai və iqtisadi faktorlar yatır. Bu yanaşmanı həm tənqid kimi, həm də reallıq kimi qəbul etmək mümkündür.



**Əhməd Niyazov,**
**f.f.d. AİI-nin İslamşünaslıq kafedrasının müdiri**

# İslamda BOŞANMA (TALAQ)

Hər bir ictimai quruluşun özünəməxsus tənzimləyici əsasları mövcuddur. Cəmiyyətlər öz düşüncə sistemlərinə və həyat tərzlərinə müvafiq örf-adət, əxlaq qaydaları, dini inanclar və hüquqi qaydalarla tənzimlənir. Xalqların ictimai-sosial zəmini məhz bu nizam-intizam qaydaları əsasında formalaşır. İctimai həyatda gedən proseslər toplum düşüncəsi ilə sıx əlaqəli olmaqla, bəzən məhz həmin düşüncənin nəticəsi kimi özünü büruzə verir. Ailənin meydana gəlməsi və nikahın xitamı ilə bağlı hər bir məsələdə bu kimi təzahürləri asanlıqla müşahidə etmək mümkündür.

İlkin sosial qrup kimi ailə tarixin müxtəlif dövrlərində fərqli şəkil və formalarda təzahür etmişdir. Adətən, ailənin meydana gəlməsinə təsir edən ünsürlər həm də onun taleyində və xüsusilə də sonrakı həyatında mühüm rol oynayan amillərə çevrilir.

Məlumdur ki, tarixdə xüsusi, dini və mədəni evlilik formaları mövcuddur. Ən qədim və ən geniş yayılmış şəkli isə xüsusi evlənmə, sərbəst evlənmə şəklində olub. Hər hansı bir müqaviləyə əsasən qurulmadığı kimi, nikahın xitamı da ixtiyaridir və tərəflərin istəyi ilə sona çatır. Dini evlənmədən məqsəd Xristianlığın katolik məzhəbinin nikah anlayışıdır. Bu məzhəbə görə, evlənmək qadınla-kişi arasında müqəddəs birgəlik ifadə etdiyi üçün onların boşanması qadağandır. Digər növü isə mədəni evlilikdir. Bu növ nikahlar qarşılıqlı razılıq əsasında dövlətin də qeydiyyatında olan müqaviləyə əsaslanır. Həmçinin İslam hüququ da iki şahid və əqddən sonra elanın şərt olduğu nikah şəkli ilə bu növ evliliyin xüsusiyyətlərini daşıyır. Ümumiyyətlə, mədəni evliliklərdə əqdin şərtləri qanunlarla nizamlanır. İslamda ailə hüququnu tənzimləyən Quran, sünnə, icma və doktrinalardır. Bir müsəlmanın nikah əqdində yuxarıda sadalanan bu şərtlər varsa, evlilik dini baxımdan səhih və sağlam əsaslara bağlı nikah hesab edilir. Məhz belə bir evlənmə şəraitində qurulan nikahın xitamı da müəyyən şərtlərə bağlıdır ki, bu, eyni zamanda, mədəni evliliklərə xas xüsusiyyətdir.

**İslam dinində boşama, yaxud nikahın xitamı məsələsi bir çox səbəbə və şərtlərə bağlı olub çoxşaxəlidir.** İstər qadının, istərsə də kişinin məhkəməyə müraciət etməsi ilə – ərin müəyyən səbəblərə görə qadınını boşaması halları mövcuddur. Qadın isə "təfvizi-talaq" və "müxaliə" yolu ilə nikaha xitam verə bilər. Qeyd edək ki, ümumi qayda olaraq, boşanma İslam dinində qadağan deyil, ancaq Allahın xoşlamadığı hallardandır. Yəni nikahla elan edilmiş birgəlik qadınla-kişi arasında davam etməsi çətin bir həddə, yaxud mümkünsüz vəziyyətə çatarsa, onlar bir yerdə qalmağa məcbur edilə bilməzlər. Belə olduğu halda, çıxış yolu kimi nikaha xitam verilməsi həyatın bu və ya digər şəkildə davam etməsi üçün vacibdir.

### Boşanmağa gedən yol

İslam dinində nikah qadınla-kişi arasında bağlanan elə bir əhd-peymandır ki, Uca Kitabımız Qurani-Kərim buna "ميثاقا غليظا / **əhd edilmiş ağır bir söz"** deyib. "Nisa" surəsində bu barədə deyilir: *"Siz onu (mehri) necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdılar"* ("Nisa", 4/21).

Quranın bu ayəsi hər iki tərəfin hansı şərtlər daxilində bir-biri ilə sözləşdiklərini xatırladaraq, onlardan ailənin ictimai məsuliyyəti qarşısında aralarındakı nikahdan doğan hüquq və vəzifələrini təkrar götür-qoy etmələrini tələb edir. Nikah çox böyük məsuliyyəti olan bir sözləşmədir. Məhz bu səbəbdəndir ki, nikah müqaviləsinə əsassız, quru bəhanələrlə və ya müvəqqəti problemlər kimi xırdaçılıqlarla xitam verilməsi Quranın prinsiplərinə ziddir.

Söz yox ki, cəmiyyətdə nikaha olan ehtiyac qədər onun ərlə-arvad arasında davamiyyətin mümkünsüz halda xitamı da bəzən zərurətə çevrilir. Qeyd etmək lazımdır ki, bu hal birbaşa verilən qərar, dərhal müraciət edilən yol olmamalıdır. Ən axırıncı hədd olan boşanma bir neçə mərhələdən sonra çarəsiz qalan ər-arvadın seçdiyi çıxılmaz vəziyyət olmalıdır. Qurani-Kə-

rimdə bu əsasların axarını belə göstərmək olar:

### Nəsihət və gözəl rəftar

Ülvi dəyərlərin hamisi olan ailənin qorunması və möhkəm bağlarla bağlanması ictimai bir zərurətdir. O halda ata-ana arasındakı münasibət bu dəyərlərin inkişafına xidmət məqsədi daşımalı və ailəiçi hər bir işdə onun mənafeyini güdəcək kiçik-böyük addımlar atılmalıdır. Evliliyin xoş güzəranını təmin etmək məqsədilə Quran əvvəlcə kişiyə ailədə qadınla yaxşı rəftar etməsini, xoşagəlməz hallarda isə səbirli və təmkinli olmasını tələb edir. Xoşa gəlməyən bəzi işlərin də xeyirə aparacağına ümid edərək, Allahdan nicat gözlənilməsini tövsiyə edir. Bu barədə Qurani-Kərimdə deyilir:

*"Onlarla (qadınlarla) gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz, (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun"* ("Nisa", 4/19). *(Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzsə) onlardan yatağınızı ayırın və döyün! Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!)* ("Nisa", 4/34).

*"Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, onların öz aralarında bir növ barışıb düzəlişmələrindən (ər-arvada) heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb (dava-dalaşdan, kobud rəftardan) çəkinsəniz, (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!" ("Nisa", 4/128.)*

### Ağsaqqal məsləhəti

Qurani-Kərimə görə, giley-güzar artıb xoşbəxtlik pozulduğu təqdirdə, boşanmağı düşünmək əvəzinə, ailəiçi münasibətləri tənzimləmə yollarını axtarmaq lazımdır. Təhlükənin eşiyində olsa belə, nə qadın, nə də kişi belə bir vəziyyətdə boşanma yolunu seçməməli, iki ağıl-kamal sahibi insanın məsləhətinə müraciət etməlidir. Quranda bu haqda deyilir: *"(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların köməyi olar. Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır)* ("Nisa", 4/35).

### Qadın iddəni ərin evində gözləyə bilər

Cidd-cəhdlər və səylərdən bir nəticə hasil olmadığı təqdirdə, işin son mərhələsi olaraq boşanmaq mümkündür. Quranda deyilir: *"Əgər onlar (ər-arvad) bir-birindən ayrılacaq olsalar, Allah onların hər birini Öz geniş lütfü (kərəmi) ilə ehtiyacsız edər. Həqiqətən, Allah geniş lütf sahibi, hikmət sahibidir!"* ("Nisa", 4/130).

Uca Allah ailənin dağılmaması baxımından boşanmış olsalar da, qadına öz iddəsini (3 ay) ərinin evində gözləmə hüququ tanımaqla, bu ərəfədə onların verdikləri ayrılıq qərarını təkrar götür-qoy etmə və peşmançılıq ehtimalında həmin xətadan dönmə imkanı vermişdir. "Talaq" surəsində deyilir: *"Onları – açıq-aşkar bir pis iş (zina) etməyənə qədər – (gözləmə müddəti qurtarmamış) yaşadıqları evlərdən çıxarmayın və onlar özləri də çıxmasınlar. Bu, Allahın hədləridir. Allah müəyyən etdiyi hədləri aşan kimsə özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin (ərin ürəyinə yenidən zövcəsinin məhəbbətini salsın və onlar barışsınlar)"* ("Talaq", 65/1).

Bütün bunlar göstərir ki, İslamın əhəmiyyətli hesab etdiyi müqəddəs ailə ünsürü qadınla-kişinin ömürboyu davam edəcəkləri niyyət və istiqamətdə qurulmuşdur. Sadalanan hökmlər isə öz növbəsində əyani sübut edir ki, İslam ailə anlayışı müasir dövrün ən böyük problemlərindən olan dağılan ailələr üçün köklü həll yolu təklif edir.

### Kişinin boşaması

Məlum olduğu kimi, Quran kişiyə üç dəfə boşaya bilmə səlahiyyəti verib ("Bəqərə", 2/229). Bir, yaxud iki talaqla boşadığı qadınla evliliyə davam etmə imkanları da var. Kişi bəzi hal və davranışları ilə bunu əldə edə bilər. Kişi xanımını üç talaqla boşadığı anda, ər-arvad nikahı davam etdirmək istərsə, Quranın bu mövzudakı qadağası onlar üçün bir maneədir. Bununla bağlı ayə aşağıdakı kimidir:

*"Əgər (kişi) övrətini yenə də (üçüncü dəfə) boşarsa, o zaman (qadın) başqa bir ərə getməmiş ona (əvvəlki ərinə) halal olmaz. (İkinci əri) onu boşadıqdan sonra Allahın (ər-arvadlıq haqqındakı) hədlərinə (hökmlərinə) riayət edəcəklərinə inamları olduqları təqdirdə, (həmin qadının əvvəlinci əri ilə) təkrar evlənməsində günah yoxdur. Bunları anlayan bir qövm üçün Allahın bəyan etdiyi hədləridir (hökmləridir)"* ("Bəqərə", 2/230.)

Onu da qeyd edək ki, sünnəyə uyğun olub-olmaması baxımından talaq iki yerə bölünür. Quran və

Həzrət Peyğəmbərin sünnəsində müəyyənləşdirilmiş əsaslara müvafiq boşama *"sünni boşama"*, bu əsaslara müvafiq olmayan boşama isə bidət mənasında *"bidi boşama"* adlanır. Aybaşı (heyz) halındakı qadının boşanması təmizləndikdən sonra cinsi əlaqədə olaraq boşama və bir dəfədə üç boşama bidi boşamadır. Bütün məzhəblərə görə belə hallarda boşama keçərli olsa da, günah hesab edilir.

İslam hüquq alimlərinə görə sünni, yaxud bidi boşamaların həm dini, həm də hüquqi cəhətləri var. Bu baxımdan, dini cəhətdən günah hesab edilən boşanmalar hüquqi cəhətdən bəzən qəbul edilsə də, bəzən rədd edilib. Ümumiyyətlə, demək olar ki, bidi talağın həm də hüquqi baxımdan meydana gələcəyi əhli-sünnə üləmasına xas xüsusiyyətdir. İmamiyyə və zahiri məzhəbləri ilə İbn Teymiyyə və İbn Qayyim əl-Cövziyyə isə talağın, ancaq sünni olanını qəbul edib, dinin haram saydığı bidi talağın nəinki dini, hətta hüquqi təməlinin də olmadığını iddia ediblər. Təbii haldır ki, bu daha çox məzhəb alimlərinin görüşlərində özünü büruzə verir. Belə boşanmalar bidi boşanmalar olub, hüquqi nəticəsi üləmanın təyin edəcəyi hökmə əsaslanır. Məhz bu baxımdan üç talağın bir dəfəyə verilməsi məsələsi həm məzhəblərin, həm də məzhəbiçi ixtilafların ortaya çıxmasına səbəb olub. Onların geniş izahı isə aşağıdakı kimidir.

## Çox verilən talağın hökmü

Üç talağın bir anda verilməsi İslam boşama hüququnun mübahisəli məsələlərindən biridir. Bu, kişinin xanımına *"Sən üç və ya daha çox talaqla boşsan"* deməsi ilə hüquqi baxımdan hökmünün nə olacağı məsələsidir. Əhli-sünnə alimləri bir dəfədə üç boşamanı bidi (günah) hesab etsələr də, belə sözün mütləq bir hüquqi hökmlə nəticələnəcəyi rəyində müttəfiqdirlər. Alimlər bu cür bidi talaq nəticəsində ya bir boşama, ya da üç boşamanın meydana gələcəyi haqqında isə ixtilaf edərək iki qrupa bölünüblər. Sünnəyə müvafiq olmayan boşamaların hüquqi qüvvəyə malik olacağı məsələsini aşağıdakı isnadlarla müdafiə edirlər.

1. Cümə namazı əsnasında alış-veriş etmək ayə ilə qadağan edilsə də ("Cümə", 62/9), ancaq həmin anda ticarətlə məşğul olanın günah işləməsinə baxmayaraq etdiyi ticarət məqbuldur.

2. İbadətin hər hansı bir qəsb edilmiş ərazidə yerinə yetirilməsindən Allah və Rəsulu razı olmaz, ancaq həmin ibadətin qəbul edilməyəcəyini heç kəs iddia edə bilməz.

Sünnəyə müvafiq olmayan boşamalar da belədir. Boşayan kəs ayə və hədislərin prinsiplərinə riayət etməzsə, müamilənin nəticəsi olsa belə, özü günahkardır. Əhli-sünnə alimlərinin başqa dəlili isə belə bir boşamanı Peyğəmbər əleyhissalamın talaq saydığı bəzi rəvayətləridir. Onlardan biri də İbn Ömər hədisindəki "Mənim xanımımı aybaşı ikən boşamam bir talaq sayıldı" ifadəsidir (Buxari, Talaq 2).

## Bir anda üç dəfə (çox) boşamanın üç talaq sayılacağını iddia edənlər

Dörd məzhəb imamı da daxil olmaqla, səhabi və tabiinin əksəriyyətinə görə, bidət də olsa, eyni anda birdən çox boşama məqbuldur. Söylənən rəqəm və ya təkrarlanan talaq meydana gələr. Boşama anında üç və daha çox miqdarın tələffüzü ilə talaq bain xüsusiyyəti qazanar və o andan etibarən qadın boşayana haram olar. Bundan sonra evliliyə davam etmək istəsələr, qadın başqası ilə evlənmədikcə ona halal olmaz. Digər rəy sahiblərinin özünəməxsus dəlilləri olduğu kimi, bu görüşü iddia edənlərin də rəylərinə müvafiq dəlilləri mövcuddur. Bunlar aşağıda qeyd olunanlardır:

1) Qurandan dəlillər: *"Boşama iki dəfədir, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir... Əgər (kişi) övrətini yenə də (üçüncü dəfə) boşayarsa, o zaman (qadın) başqa bir ərə getməmiş ona (əvvəlki ərinə) halal olmaz"* ayələridir ("Bəqərə", 2/229-230). İsnad cəhəti isə ayənin istər bir, istər üç olsun, boşamanın meydana gəlməsində hər ikisinə şamil olan ümumi mənasıdır.

2) Hədislərdə də bir neçə dəlil mövcuddur. Onlardan biri Üveymir əl-Aclaninin mülaənə hadisəsidir. Üveymir xanımı ilə mülaənə etdikdən sonra, Rəsulullahın (s.a.) hüzurunda xanımını üç dəfə boşadı. Rəsulullah (s.a.) buna müdaxilə etmədi (Buxari, Talaq, 16; Müslüm, Talaq 17).

3) Səhabədən Həzrət Abdulah b. Məsud, Həzrət Ömər və Həzrət İbn Abbas və başqalarının bu mövzuda bəzi fitvaları isnadedici amillərdir. Belə ki, onlardan biri də İbn Abbas (r.a.) tərəfindən verilən fitvadır. Onun yanına bir adam gəldi və ona "Mən xanımımı üç talaqla boşadım", – söylədi. İbn Abbas bir qədər sükut etdi. Sonra adama "Siz bəzən axmaqlıq edirsiniz. Sonra mənim yanıma gəlib, "Ey İbn Abbas! Ey İbn Abbas!" – deyirsiniz. Uca Allah "Kim Allahdan qorxarsa, Allah onun üçün bir çıxış yolu tapar", – deyir, sən isə Allahdan qorxmadığın üçün sənə bir çıxış yolu tapa bilmərəm", – söylədi.

4) Talaq bir haqq olaraq kişiyə aid olub, onun mülkiyyəti kimidir. Kişi bu hüququndan istifadəetmədə ixtiyar sahibidir. Üç müxtəlif vaxtda istifadə edə bildiyi kimi, hamısını bir yerdə də istifadə etmə haqqına malikdir ki, bu da qiyas dəlilinə əsaslanır.

### Üç talağın bir anda verilməsini bir boşama kimi qəbul edənlər

Səhabi, tabein və sonrakı nəsillərə mənsub bir çox müctəhid, İbn Teymiyyə, İbn Qəyyum əl-Cövziyyə, Şövqani, Şəltut, Sayis, Əbu Zəhra və zəmanəmizin mötəbər alimlərindən Xeyrəddin Karaman ilə Cəfəri fəqihlərdən Şeyx Müfid və Şeyx Tusi başda olmaqla, əksəriyyəti çox verilən talağın bir boşama sayılacağı fikrində yekdildir.

İbn Qəyyum müxaliflərinə qarşı bir sıra dəlil sadalayaraq, onların başlıcası olan ayələrə isnadında belə deyib: "Mütləq ayələr, bir sözlə, üç talağın meydana gələcəyini rədd edən sabit dəlillərlə təqyid edilib. Başqa dəlil olmasa belə, boşamanın iki olduğunu bildirən ayə təqyid üçün təkbaşına kifayətdir".

Qurana müraciət edən digər üləma *"Boşama iki dəfədir"* ayəsi ilə Uca Allahın boşama ehkamını tənzimləyərək, üç boşamanın cəm edilməsinin mümkün olmadığını və boşamanın, ancaq ardıcıllıq əsasında ola biləcəyini deyib. Bu səbəbdən kim talaq haqlarını bir məclisdə və yaxud bir sözlə cəm edərsə, ancaq bir boşama hüququndan istifadə etmiş olar.

Üləmanın sünnədən gətirdiyi dəlil isə İbn Abbasın üç verilən talağın Həzrət Peyğəmbər (s.a.) zamanında bir sayıldığını söyləyən aşağıdakı rəvayətidir:

"Rəsulullah (s.a.), Həzrət Əbu Bəkr və Həzrət Ömərin xilafətinin ilk iki ilində üç talaq bir sayılırdı. Xanımlarını çox talaqla boşadıqları üçün Həzrət Ömər onlara "İnsanlar diqqətlə hərəkət etmələri lazım olan bir şeydə tələsirlər. Bunu onların əleyhinə qiymətləndirsək, üç talağı üç boşama saydı". Həzrət Ömər dövrünədək tətbiq edilən bu hökmün həm də o dövrə aid icma təşkil etdiyi bildirilmiş və dəlil baxımından ən qüvvətlisi hesab edilmişdir.

Müasir İslam hüquqşünaslarının bu məsələ ilə bağlı görüşlərinə gəlincə, onlar hər iki hökmə dəlalət edən rəvayətlərlə yanaşı, Həzrət Ömər ictihadının əsası olan *məsləhət* prinsipi əsasında fitva vermişlər. Onlar problemin üç talaq hesab edilməsi ilə şəriət və dini baxımdan ortaya çıxaracağı mənfi xüsusiyyətlərə diqqət cəlb edərək, belə bir hökmün qeyri-mümkünlüyünü ifadə etmiş, bir boşama sayılmasının həm də hüquqi baxımdan ən ideal olduğunu bildirmişlər.

Üç talağın bir anda verilməsi məsələsi yuxarıda da şahid olduğumuz kimi, İslam məzhəbləri, hətta məzhəbiçi ixtilafların ortaya çıxmasına səbəb olmaqla haqqında dörd hökm və fitva vardır. Hazırda alimlərin haqqında bəhs etdiyi görüşlər onun üç, yaxud bir sayılacağı mübahisəsidir.

Qeyd etməyimiz vacibdir ki, iki görüşün hər biri asanlıqla qəbul edilə bilər. İddia edən tərəflərin özünəməxsus dəlilləri mövcuddur. Bunların hər biri isə *"Əzmanın təğayyuru ilə əhkamın təğayyuru inkar edilə bilməz* / zamanın dəyişməsi ilə ehkamın dəyişməsi inkar olunmaz" qaydası əsasınnda şərtlərin gətirdiyi bəzi çətinlikləri aradan qaldırmaq üçün fitva siyasəti baxımından əhəmiyyət kəsb edən məsələdir. Ona görə də hər iki ehtimalın – bunun istər üç sayılması, istərsə də bir sayılmasının meydana gətirdiyi nəticələr nəzərə alınmalıdır; məsələn: müasir dövrdə bir talağın meydana gələcəyini qəbul etmək üç talağın meydana gələcəyini qəbul etmə nəticəsində ortaya çıxacaq fəsad (məfsədət) baxımından daha azdır. Bu səbəbdən, bir talağın meydana gələcəyi ictihadın daha tutarlı olacağı görünür.

Həzrət Ömərin məsləhətə uyğun ictihadı ilə aldığı qərar da belədir. İmamların bu şəkildə fitva vermələrinin əsl səbəbi yenə də Həzrət Ömərin bu qərarıdır. Həzrət Ömərin bu qərarı sonradan dinin qəti bir əmri olaraq başa düşülür. Bunun üçün əshabi-kiramın verdikləri fitvalar hədislərin qabağına keşiş, imamların görüşü də səhabilərin fitvaları ilə dəstəklənib.

Mövzuya geniş perspektivdən baxmaq, bu haqda fikir söyləyəcək kəsləri hər cəhətdən doğruya aparacaq yeganə yol olub. Unutmamaq lazımdır ki, üləmanın əksəriyyətinə görə, ictihad sahəsinə girən hər mövzuya həm əsli, həm də fəri dəlillər prizmasından baxış təməl prinsipdir. Zənnimizcə, üç talağın bir anda verilməsinin nəticəsi məsələsi də məhz belə bir şeyin məhsulu olmalıdır.



**Vüqar Səmədov,**
**Aİİ-nin müəllimi**

# İslamda qurban

*"Qurban" ərəb dilində istər maddi, istərsə də mənəvi yaxınlığı ifadə edən bir kəlmədir. Dini terminologiyada isə "qurban" Uca Allaha yaxınlaşmaq məqsədilə bəlli vaxtda müəyyən edilmiş cinsdən heyvanları kəsməyə deyilir. Uca Allahın rizasını qazanmaq üçün kəsilən heyvanlara da "qurban" deyilir. İslamdan öncə ərəb toplumunda qulların və əsirlərin bütlərə qurban edilməsi adətinin izlərinə rast gəlinsə də, əsasən, qurban adəti heyvanların bütlər adına kəsilməsi şəklində idi (Malik, Müvəttə, Nəzir; 7).*

Cahiliyyə ərəbləri müəyyən zamanlarda və ya önəmli hadisələr zamanı istər Kəbədəki, istərsə də onun xaricindəki bütlərə olan təzimlərini və bağlılıqlarını göstərmək, onlara yaxınlaşmaq üçün dəvə, mal-qara, qoyun-keçi, ceyran kimi heyvanları kəsərək, qanını onların üstünə tökürdülər. Qurbanı parçalayıb ətini bütün üzərinə qoyurdular ki, yırtıcı heyvanlar və quşlar onu yesinlər. Cinlərdən qorunmaq və ölüyə faydası olması üçün ölən kimsənin qəbri başında qurban kəsilərdi. Həmçinin uşaq dünyaya gəldiyi zaman əqiqə qurbanı kəsilərək ziyafət verilir, bərəkət gətirəcəyi düşüncəsi ilə dəvə və ya qoyunun ilk balasını "fəra" adı ilə qurban edirdilər. Bununla yanaşı, rəcəb ayının ilk on günündə "atirə" adı verilən bütlərə kəsilən qurban cahiliyyə ərəbləri arasında geniş yayılmışdı. İslam gəldikdən sonra, cahiliyyə ərəblərinin qurban adəti tovhid inancına zidd olan xüsuslardan təmizlənərək, Həzrət İbrahimin hənif inancına uyğun hala gətirilmiş ictimai faydaları ilə zənginləşdirildi.

Bütlər üçün heyvan qurban etmək şirk, bu məqsədlə kəsilən heyvanlar da murdar sayılmışdır ("əl-Bəqərə", 2/173; "əl-Maidə", 5/3; "əl-Ənam", 6/121, 145; "ən-Nəhl", 16/115). Əqiqə qurbanı adəti İslam dönəmində də qorunmuş, son iki qurbanın isə Allah üçün olması şərti ilk dönəmlərdə saxlanılsa da, " İslamda nə fəra, nə də atirə vardır" hədisi ilə qadağan edilmişdir (Buxari, "Əqiqə", 3, 4; Müslim, "Ədahi", 38).

Qurani-Kərimdə Həzrət Adəmin iki oğlunun Uca Allaha qurban təqdim edilməsindən bəhs olunur ("əl-Maidə", 5/27) və səmavi dinlərin hamısında qurban hökmünün qoyulduğu bildirilir ("əl-Həcc", 22/34). Quranda Həcc ibadəti əsnasında kəsilən heyvanlarla əlaqəli bəzi hökmlər qeyd edilsə də, digər qurban növləri haqqında işarələr xaricində ("Kövsər", 108/2) bir hökm yoxdur. Bunlar Həzrət Peyğəmbərin söz və tətbiqləri ilə təsbit edilmişdir.

Allah Rəsulunun (s.ə.s.) hicrətin 2-ci ilindən etibarən (624) Qurban bayramlarında qurban kəsməyə başlaması, həcc və ümrədə kəsdiyi qurbanlar və qurbanla əlaqəli müxtəlif açıqlamalarından meydana gələn hədislər bu sahədəki dini adətin, fiqhi hökm və dəyərləndirmələrin formalaşmasının zəminini təşkil etmişdir.

İbadətlərdə fərd və toplumun mənfəəti ilə yanaşı, qulluğu və Uca Allaha bağlılığı təmsil edən rəmzi davranışlar çox vaxt bir yerdə cəm olur. Maddi bir ibadət olan qurbanın təabbudi tərəf olmaqla yanaşı, fərdin və toplumun mənfəətinə faydası da çoxdur. Yalnız qurbanı əti və dərisi üçün kəsilməsindən ayıran əsas xüsusiyyət onun Uca Allahın rizasını qazanmaq və Onun istəyinə boyun əymək məqsədi üçün olmasıdır. Bu məqsəd, ancaq Uca Allahın və rəsulunun bildirdiyi şərtlərə tabe olunduqda reallaşır. Bəndə qurbanını kəsdikdə Uca Allahın əmrinə boyun əydiyini və qulluq şüurunu qoruduğunu canlı bir formada təzahür etdirir. Quranda qurbanın qan və ətinin deyil, kəsənlərin dini hissiyyatının (təqva) Uca Allaha çatacağının bildirilməsi ("Həcc", 22/37) açıq bir şəkildə bunu göstərir. Həmçinin qurban Allahın bizə bəxş etdiyi nemətlərə şükür mahiyyəti də daşıyır. İnananlar hər qurban kəsəndə Həzrət İbrahim ilə oğlu İsmayılın Uca Allahın buyuruğuna itaət etmələri mövzusunda Qurani-Kərimdə verilən xülasədə qeyd olunan ("əs-Saffat", 32/012-107) uğurlu imtahanı xatırlayıb, özlərinin də buna bənzər buyuruğa hazır olduqlarını rəmzi surətdə göstərirlər.

Qurban cəmiyyətdə qardaşlıq və yardımlaşma ruhunu canlı nümayiş etdirir, sosial ədalətin reallaşmasına xidmət göstərir. Xüsusilə ət almaq imkanı olmayan və yaxud az olan yoxsulların mövcud olduğu şəraitdə bu, açıq görülür. Zənginə öz malını Allah rizası üçün xərcləmək, yardımlaşmaq və başqaları ilə paylaşmaq zövq və alışqanlılığını daddırır. Həmçinin onu xəsis-

lik xəstəliyindən, dünya malına hərislikdən qurtarır. Fəqirin də Uca Allaha şükür etməsinə, dünya nemətlərinin Yer üzündə paylanması haqqında ümidsizliyə düşməkdən və özünü toplumun bir fərdi olduğunu hiss etməsinə vəsilə olur.

Qurban ibadəti yalnız bununla məhdudlaşmamalıdır. Hər bir ibadətin öz mənası və başqa bir hikməti mövcuddur. Buna görə də qurbanın yerinə pul paylamaq, fəqirlərə ərzaq almaq, namaz qılıb, oruc tutmaq kimi başqa bir ibadətin yerinə yetirilməsi heç vaxt doğru deyildir.

### Qurbanın növləri

Örf və adətdə "qurban" deyiləndə Qurban bayramında ibadət olaraq kəsilən heyvan ilk növbədə anlaşılır. Burada əsas məsələ bəlli vaxtda müəyyən heyvanların şəri üsulla Uca Allahın rizası üçün kəsilməsidir. Bu qurbandan başqa yenə ibadət niyyəti ilə kəsilən və kitablarda xüsusi adlarla qeyd edilən başqa qurban növləri də mövcuddur. Bunun başında nəzir (adaq) qurbanı gəlir. Nəzir qurbanı dini nöqteyi-nəzərdən mükəlləf olmadığı halda, Allaha qarşı belə bir vəd verərək üzərinə vacib etdiyi qurbandır. Ətindən istifadə etmək xüsusiyyətilə nəzir qurbanı digər qurbanlardan fərqlənir. Övladın dünyaya gəlişinin ilk günlərində Uca Allaha şükür əlaməti olaraq kəsilən "əqiqə qurbanı", qiran və təməttö həccini yerinə yetirənlərin kəsdikləri "şükür qurbanı", həcc və ümrədə vacibin tərki və ya ehram qadağalarının pozulması halında kəsilən cəza və kəffarə qurbanlarının da təməlində ibadət niyyəti dayanır.

### Qurbanın dini hökmü

Qurban müsəlmanlar tərəfindən



ittifaqla qəbul edilsə də, dini hökmü fəqihlər arasında münaqişə edilmişdir. Hənəfi və bəzi maliki məktəblərində vacib, digərlərində cəfəriyyə, zeydiyyə, şafei kimi məktəblərdə isə müəkkəd sünnə (tərk edilməyən) qəbul edilmişdir. Vacib olduğunu söyləyən fəqihlər Quranda Peyğəmbərə xitabın "Namaz qıl, qurban kəs" ("əl-Kövsər", 108/2) buyurulmasının bütün müsəlmanları əhatə etdiyini iddia etmişlər. Həmçinin Həzrət Peyğəmbərin (s.ə.s.) bir çox hədislərində vəziyyəti yaxşı olanların kəsməsi əmr edilmiş və ya məsləhət görülmüş, hətta "Kim imkanı olduğu halda qurban kəsməzsə, bizim məscidlərə yaxınlaşmasın" (Müsnəd, II,321), "Ey insanlar, hər il hər ev sakininə qurban kəsmək vacibdir" (Tirmizi, Ədahi, 218) kimi ifadələrlə vurğulanmışdır. Dİgər tərəfdən, Həzrət Peyğəmbər (s.ə.s.) qurban kəsməyi heç vaxt tərk etməmişdir. Bu və bunabənzər dəlillərdən çıxış edən fəqihlər lazımi şərtləri daşıyanların Qurban bayramında qurban kəsməsini vacib sayırlar. Sünnə olduğunu söyləyənlər isə Quranda bu mövzuda açıq əmrin olmadığını söyləmişlər.

Əqiqə qurbanı sünnə məndup, zahirilərdə isə vacibdir. Nəzir qurbanı ilə qiran və təməttö həcci edənlərin şükür qurbanı, həcc və ümrədəki cəza qurbanları vacibdir.

Bir şəxsin qurban kəsməkdə məsul olması üçün müsəlman olması, həddi-büluğa çatması, müqim (səfərdə olmaması) və zəngin olması şərtlərini daşıması lazımdır.

Dəvə, mal-qara, qoyun-keçi cinsi dini olaraq kəsilməsi qəbul edilən heyvanlar sayılmışdır. Bunlara heç bir heyvan qiyas edilə bilməz. Xoruz, toyuq, qaz, ördək qurban olaraq kəsilməz. Dəvə 5, mal-qara 2, qoyu-keçi isə 1 yaşında olmalıdır. Yalnız qoyunlarda 6-7 aylıqdan yuxarı 1 yaşa kimi və ya bundan yuxarı olanlar kəsilə bilər. Həmçinin qoyunlarda erkək, digərlərində dişi heyvanın kəsilməsi fəzilətli sayılmışdır. Qoyunu bir nəfər kəsə bilər. Digərlərində isə yeddi nəfərə qədər ortaq ola bilər. Qurban edilən heyvanlar sağlam olmalıdır. Xəstə, zəif, bəzi orqanları əskik, məsələn, bir və ya iki gözü kor, qulaqları və buynuzları kökündən qopmuş, dili kəsilmiş, dişlərinin hamısı və ya yarıdan çoxu tökülmüş heyvanlardan qurban olmaz.

Qurbanın keçərli olması üçün müəyyən edilmiş vaxtda kəsilməsi şərtdir. Qurban "əyyami-nəhr" deyilən bayramın üç günü, zilhiccə ayının onu, on biri, on ikisi bayram namazı qılındıqdan sonra kəsilməlidir. Üçüncü günü axşama qədər qurbanın kəsilməsi davam edir. Bəzi fəqihlər isə "Dördüncü günü axşama qədər davam edər", – demişlər.

Qurban ibadət niyyəti ilə kəsilməlidir. Niyyət əsas olan qəlbin niyyətidir. Ortaq kəsilən qurbanlarda hər kəsin ibadət niyyəti ilə iştirak etməsi şərtdir. Təkbaşına kəsmək üçün alınan qurbana, sonradan yeddi nəfərədək ortaq iştirak edə bilər.



Mirniyaz Mürsəlov,
f.f.d., AİI-nin prorektoru

# Təcvid elmində "ləhn" anlayışı və onun namazla bağlılığı

Qurani-Kərim hər kəsin heç bir qaydaya riayət etmədən, istədiyi kimi oxuya biləcəyi bir kitab deyil. Mənbəyi Allah-Taala olduğu üçün müsəlmanlar bu İlahi kəlamı oxuyarkən müəyyən qaydalara tabe olmaq məcburiyyətindədirlər. Eyni zamanda, Qurani-Kərimin ərəbcə nazil olması da onun müəyyən qaydalara riayət edərək oxunmasını zəruri edir. Bu qaydalar toplusu "təcvid" adlanır. Qurani-Kərimin təcvid qaydalarına riayət edilərək oxunması onun vəhy edilməsi ilə başlamışdır. Başqa bir ifadə ilə Qurani-Kərim təcvid ilə nazil olmuş və onunla oxunmuşdur. Qurani-Kərimdə onun mənasının başa düşülməsi üçün tətbiq edilən ölçülü oxunuşa təcvid ilə eyni mənada işlədilən "tərtil" sözündən istifadə edilmişdir.

...كَذَٰلِكَ لِنُثَبِّتَ بِهِ فُؤَادَكَ وَرَتَّلْنَاهُ تَرْتِيلًا

*"...(Ya Rəsulum!) Biz onu sənin qəlbinə yaxşı təsbit etmək üçün beləcə hissə-hissə nazil etdik və ağır-ağır oxuduq".* Quranın az-az endirilib, ağır-ağır oxunması onun əzbərlənməsini və mənalarının anlaşılmasını asanlaşdırır. Əli ibn Əbi Talibdən (ə.s.) tərtilin mənası soruşulduqda o, "Tərtil hərfləri təcvidlə (yəni lazımi və arizi xüsusiyyətləri ilə) oxumaq və vəqfləri bilməkdir", – buyurmuşdur.

Bildiyimiz kimi, namaz hər bir müsəlmana vacib buyurulan ibadətlərdəndir və bu əməli icra edərkən, Qurani-Kərimin müəyyən surə və ayələrinin oxunması onun zəruri rüknlərindəndir. Belə olduğu halda, namaz əsnasında təcvid qaydalarına riayət etmədən oxunan surə və ayələr onun səhihliyinə təsir göstərəcəkdir. Bu məqalədə Quran oxunarkən təcvid qaydalarına riayət etmədikdə meydana gələcək xətaları (ləhn) və bunun namazla bağlı fiqhi hökmlərə təsirini araşdırmağa çalışacağıq.

"Ləhn" (اللَّحن) sözünün lüğətdə çox mənası olsa da, burada bizi maraqlandıran onun xəta mənasıdır. Təcvid elmində Quran oxuyarkən hərflərin lazımi xüsusiyyətlərində, hərəkələrdə və təcvid qaydalarının tətbiqi zamanı meydana gələn xətalara "ləhn" deyilir.

Qiraət alimləri ləhni iki yerə ayırmışlar: ləhni-cəli (اللَّحن الجلي) və ləhni-xəfi (اللَّحن الخفي).

"Ləhni-cəli" açıq-aşkar "xəta" deməkdir. İstər Quran və qiraət elmi sahəsində mütəxəssis olan şəxslərin, istərsə də Quran oxumağı bacaranların fərqində olub, anlaya biləcəyi xətalı oxunuşlar "ləhni-cəli" adlanır. Bu xətalar hərflərin məxrəclərində və xüsusiyyətlərində, hərəkələrdə və sükunlarda meydana gəlir.

ط Hərfini ت kimi, خ hərfini هـ kimi, ص hərfini س kimi və s. oxumaq hərflərin məxrəclərində və xüsusiyyətlərində edilən xətalardır. "Əl-İxlas" surəsinin 2-ci ayəsindəki الصَّمَد kəlməsini السَّمَد şəklində oxuduqda məna tamamlilə dəyişir.

İstər kəlmənin əvvəlində, istər ortasında, istərsə də sonunda bir hərəkəni başqa hərəkə və ya sükunla dəyişmək də ləhni-cəlidir. Bu zaman məna əksər hallarda dəyişir. Məna dəyişsə də, dəyişməsə də, hökm eynidir. Yəni hər iki halda baş verən xəta ləhni-cəli sayılır; məsələn: "əl-Maidə" surəsinin 117-ci ayəsindəki (مَا قُلْتُ لَهُمْ) قُلْتُ kəlməsini قُلْتَ və ya قُلْتِ şəklində oxuduqda məna dəyişir. "Əl-Fatihə" surəsinin 1-ci ayəsindəki (الْحَمْدُ لِلَّهِ) لِلَّهِ kəlməsini لَلَّهِ və لِلَّهُ şəklində oxuduqda isə məna dəyişmir. Yuxarıda qeyd etdiyimiz kimi, mənanın dəyişib-dəyişməməsi nəticəni dəyişmir, hər iki ayədə meydana gələn xəta ləhni-cəlidir.

Sükunlu hərfin hərəkəli olaraq oxunması da ləhni-cəlidir. Bu zaman məna bəzən dəyişir, bəzən isə dəyişmir; məsələn: "əl-Ənam" surəsinin 148-ci ayəsindəki (وَلَا حَرَّمْنَا مِنْ شَيْءٍ) لَا حَرَّمْنَا kəlməsini لَا حَرَّمَنَا şəklində oxuduqda məna dəyişir. "Əl-İxlas" surəsinin 3-cü ayəsindəki (لَمْ يَلِدْ وَلَمْ يُولَدْ) لَمْ يَلِدْ kəlməsini لَمْ يَلِدُ və ya وَلَمْ يُولَدْ kəlməsini وَلَمْ يُولَدُ şəklində oxuduqda məna dəyişmir. Hər iki halda meydana gələn xətalar ləhni-cəli sayılır.

İbnul-Cəzəri isə ləhni-cəlini iki yerə ayırmışdır:

1. Kəlmələrdə meydana gələn və həm mənanı, həm də təcvid qaydalarını pozan ləhni-cəli; məsələn: أَنْعَمْتَ kəlməsindəki ت hərfini fəthəli və ya damməli oxuduqda həm məna, həm də təcvid qaydası pozulur.

2. Kəlmələrdə meydana gələn və yalnız təcvid qaydasını pozan

ləhni-cəli; məsələn: لِلّٰهِ kəlməsindəki ل hərfini fəthəli və ya damməli oxuduqda məna dəyişmir, təcvid qaydası isə pozulur.

Qiraət xətalarının namaza təsiri və ya hansı şəkildə baş verərsə, namazı pozacağı həm fiqh, həm də təcvid elminin mövzusudur. Bu, eyni zamanda, hər iki elmin bir-biri ilə sıx əlaqəli olduğunu göstərir. Ona görə də təcvid kitablarında bu məsələyə qısa da olsa, toxunulur.

Quran oxuyan hər kəsin öz oxunuşunu ləhni-cəlidən qoruması fərzi-eyndir. Tilavət əsnasında ləhni-cəli sayılan xətalar baş verərsə, çox vaxt məna dəyişir. Hənəfi məzhəbinə görə, Quran oxuyarkən hər hansı bir kəlmə məna pozulacaq şəkildə qəsdən dəyişdirilsə, namaz pozular. Sözlərin sonundakı hərəkə xətaları mənanı dəyişdirsə, namaz pozulmaz. Hərflərin məxrəclərində və xüsusiyyətlərində edilən xətalar da namazı pozmaz. Xüsusilə, س və ص kimi məxrəcləri bir-birinə yaxın olan hərflərin yanlış tələffüzü namazı pozmaz; məsələn: الصمد kəlməsini السمد , فَلَا تَقْهَرْ kəlməsini فَلَا تَكْهَرْ şəklində tələffüz etmək namazı pozmaz. Alimlərin çoxuna görə, قُلْ هُوَ اللّٰهُ اَحَدٌ ayəsindəki اَحَدٌ kəlməsinin د hərfini ت kimi tələffüz etmək namazı pozar. Eyni zamanda, bu ayədə اللّٰه kəlməsinin əvvəlinə أ sual ədatını əlavə edərək tələffüz etmək də mənanı dəyişdirdiyi üçün namaz pozular.

Hənəfi məzhəbinin bir çox alimlərinə görə, məxrəcləri bir-birinə yaxın olmayan hərfləri qarışdıraraq (məsələn, ض hərfini ذ və ya ز kimi), yanlış tələffüz etmək namazı pozmaz.

Şafei və hənbəli məzhəbinin alimlərinə görə, "əl-Fatihə" surəsi xaric, digər surələri oxuduqda meydana gələn xətalar qəsdən baş verməsə, namaz pozulmaz.

Cəfəri məzhəbinə görə, hərflərin məxrəclərində və xüsusiyyətlərində meydana gələn ləhni-cəli (məsələn, ض hərfini ظ kimi tələffüz etmək) namazı pozar. Eyni zamanda, bir hərəkənin başqa bir hərəkə ilə dəyişdirilməsi də, təşdidli hərfi təşdidsiz tələffüz etmək də namazı pozar.

Yeni öyrənənlərin və yaşlıların bu növ xətaları etməmələri mümkün olmadığı üçün onlar üzrlü sayılırlar. Şübhəsiz, tənbəllik edərək, diqqətsizlik, laqeydlik göstərərək eyni xətaları edənlər mənəvi məsuliyyət daşıyır və üzrlü sayılmayacaqlar.

Ləhni-xəfi اللحن الخفي "gizli xəta" deməkdir. Hərflərin arizi xüsusiyyətlərində meydana gələn xətalara "ləhni-xəfi" deyilir. Quran oxuyarkən ləhni-xəfi meydana gələrsə, məna pozulmaz. Bəzi qiraət alimləri ləhni-xəfini iki növə ayırmışlar:

1. Qiraət və təcvid elmi ilə əlaqəsi olan hər kəsin anlaya biləcəyi xətalar; məsələn: ixfa, izhar, iqlab, idğam kimi təcvid qaydalarını düzgün şəkildə tətbiq etməmək, ğunnəni tələffüz etməmək, incə hərfi qalın, qalın hərfi isə incə oxumaq, qəsrlə (qısa) oxunacaq hərfləri uzatmaq, uzadılaraq oxunacaq hərfləri qəsrlə oxumaq, hərəkə ilə vəqf etmək, şiddətli hərfi zəif, zəif hərfi isə şiddətli tələffüz etmək ləhni-xəfi sayılır.

2. Qiraət və təcvid elmində mahir mütəxəssis olan şəxslərin fərqində olub anlaya biləcəyi xətalar; məsələn: ر hərfini tərqiq (incə) əvəzinə təfxim (qalın) ilə, təfximin yerinə isə tərqiq, ل hərfini təğliz (qalın) əvəzinə tərqiq ilə, tərqiqin yerinə isə təğliz ilə oxumaq, bir sözlə ر və ل hərflərinin hökmlərinə riayət etməmək bu növ xətalardandır.

Quran oxuyarkən ləhni-xəfinin birinci növünün meydana gəlməsi təhrimən məkruh sayılır. Ona görə də üzrlü səbəb olmadan tilavət əsnasında bu xətanı edənlərin məsuliyyət daşıdıqları bildirilir. Ləhni-xəfinin ikinci növünün hökmü isə tənzihən məkruhdur. Bu xətanı edənlərin savabının az olacağı bildirilir. Oxunuşu bu xətadan qorumaq müstəhəb sayılır. Ümumiyyətlə, Quran oxuyarkən təcvid qaydalarını müvəffəqiyyətlə tətbiq edə bilməyənlər namaz qıldırmaq kimi məsuliyyətli bir işi öz üzərlərinə götürməməlidirlər.

Ən-Nəsəfiyə görə, Quranın qiraətində altı növ xəta vardır. Qiraət əsnasında bu xətaların bəziləri meydana gələrsə, namaz pozular.

1. Ayədə baş verən xətalar. Bu xətalar altı halda baş verə bilər:

1.1. İki ayə arasına həmin surədən olmayan başqa bir ayə əlavə edilərsə; məsələn:

مالك يوم الدين – ان الله هو الرزاق
ذو القوة المتين – اياك نعبد

1.2. İki ayə arasında olan ayə oxunmazsa; məsələn:

الحمد لله رب العالمين – مالك يوم الدين

1.3-4. Ayənin təqdim və təxiri ilə, yəni hər hansı ayəni özündən sonra gələn ayədən sonra və ya sonrakı ayəni ondan əvvəl gələn ayədən əvvəl oxumaq; məsələn:

الرحمن الرحيم مالك يوم الدين

1.5. İbdal ilə, yəni bir ayənin yerinə başqa bir ayə oxunarsa; məsələn:

الرحمن الرحيم – ان الله هو الرزاق
ذو القوة المتين – اياك نعبد

Burada مالك يوم الدين ayəsinin yerinə ان الله هو الرزاق ayəsi oxunmuşdur.

1.6. Təkrar ilə, yəni eyni ayə təkrar edilərsə; məsələn:

الرحمن الرحيم – الرحمن الرحيم
مالك يوم الدين

Quran oxunarkən hər ayədən sonra vəqf edilərsə, yuxarıda sadalanan xətalar namazı pozmaz. Ayələr bir-birinə vəsl edilərsə və məna dəyişərsə, namaz pozular.



2. Kəlmələrdə edilən xətalar. Bu xətalar da altı halda baş verə bilər.

2.1. Kəlmə əlavə edilərsə. Əgər bu kəlmə Quranda varsa və məna dəyişmirsə, namaz pozulmaz; məsələn:

الحمد لله رب العالمين (اجمعين)

Əgər Quran kəlmələrindən olsa da, mənanı dəyişirsə, namaz pozular; məsələn:

ان الذين آمنوا (وكفروا) و عملوا الصالحات

Quranda olmayan bir kəlmə əlavə edilərsə və mənanı dəyişməzsə, Əbu Hənifə və Məhəmmədə görə, namaz pozulmaz, Əbu Yusufa görə isə pozular; məsələn:

فيهما فاكهة و نخل (و تفاح) ورمان

Quranda olmayan kəlmə əlavə edilərsə və məna da dəyişərsə, namaz pozular. Bu barədə alimlərin fikir birliyi vardır; məsələn:

فلعنة الله على الكافرين (الموحدين)

2.2. Ayədəki kəlmənin birini oxumamaq. Bu zaman məna dəyişmirsə, namaz pozulmaz; məsələn: الرحمن الرحيم ayəsindəki kəlmələrdən birini oxumamaq kimi. Oxunmayan kəlmə səbəbi ilə məna dəyişirsə, namaz pozular; məsələn: فما لهم لا يؤمنون ayəsindəki لا inkar ədatını oxumamaq kimi.

2.3-4. Kəlmənin təqdim və təxiri ilə. Yəni ayədəki bir kəlmənin sonra gələn ayədəki kəlmə ilə yerinin dəyişdirilməsi kimi; məsələn:

ان الأبرار لفي جحيم – و ان الفجار لفي نعيم

2.5. İbdal ilə, yəni bir kəlmənin yerinə başqa bir kəlmənin gətirilməsi. Əgər bu kəlmə Quran kəlmələrindəndirsə və məna dəyişmirsə, alimlərin fikirbirliyi vardır ki, namaz pozulmaz; məsələn:

الرحمن (الكريم)

Əgər gətirilən kəlmə mənanı dəyişirsə, namaz pozular; məsələn:

انا كنا فاعلين     انا كنا غافلين

Yox, əgər gətirilən kəlmə Quran kəlməsi deyilsə və məna dəyişirsə, namaz pozular.

2.6. Təkrar ilə, yəni ayədəki bir kəlmə təkrar olunarsa. Kəlmə təkrar olunduğu zaman məna dəyişmirsə, namaz pozulmaz; məsələn: الحمد لله رب العالمين Kəlmə təkrar olunduğu zaman məna dəyişirsə, namaz pozular; məsələn:

مالك يوم الدين

3. Hərflərdə edilən xətalar. Bu xətalar da altı halda baş verə bilər.

3.1. Hərf əlavə etməklə. Bu da iki halda baş verir. Birinci halda məna dəyişməz qalır; məsələn:

ان الذين آمنوا – و ان الذين آمنوا

İkinci halda isə, məna dəyişir; məsələn:

وزرابي مبثوثة     وزرابيب مبثوثة

Birinci halda namaz pozulmaz, ikinci halda isə pozular.

3.2. Hərfi oxunuşdan düşürməklə; məsələn:

والذين آمنوا – الذين آمنوا

Burada məna dəyişməzsə, namaz pozulmaz.

3.3-4. Kəlmələrdəki hərflərin təqdim və təxiri ilə; məsələn:

كهيعص – كيعصها

və ya

فرت من قسورة – فرت من قوسرة

Bu zaman məna dəyişərsə, namaz pozular, məna dəyişməzsə, namaz da pozulmaz.

3.5. Hərflərin ibdalı ilə, yəni bir hərfin yerinə başqa bir hərf gətirmək. Əgər bu məxrəclər bir-birinə yaxın olan hərflər arasında baş verərsə və məna pozulmazsa, namaz da pozulmaz; məsələn:

الصراط – السراط

Məna dəyişərsə, alimlərin çoxuna görə namaz pozular; məsələn:

الضيف – السيف

Əgər bu məxrəclər bir-birinə uzaq olan hərflər arasında baş verərsə və məna da dəyişərsə, namaz pozular; məsələn:

السعير – الشعير

Məna pozulmazsa, namaz da pozulmaz. Məsələn,

الكوثر – الكوثر

3.6. Hərfi təkrar etməklə. Əgər bu, müzaf feildə baş verərsə, namazı pozmaz; məsələn:

يرتدّ – يرتدد

4. İrabda. Bu da altı halda baş verir.

4.1. Təşdidli və sükunlu oxumaqla.

4.2. Məd və qəsrlə oxumaqla.

4.3. Həmzə və təshil ilə oxumaqla.

4.4. İdğam və izhar ilə oxumaqla.

4.5. Sükun və hərəkə ilə oxumaqla.

4.6. İbdal ilə, yəni bir hərəkəni başqa bir hərəkə ilə dəyişdirərək oxumaqla.

Bunlar ümumi xətalar sayıldığı üçün bəzilərinə görə namazı pozmaz. Bəzilərinə görə isə məna dəyişmədiyi təqdirdə, namaz pozulmaz. Dəyişdiyi təqdirdə isə namaz da pozular.

5. Kəlmənin qəti (kəsilməsi) ilə. Bu xətalar altı halda baş verə bilər.

5.1. Müəyyənlik artikli olan ال birləşməsini sözdən ayırmaqla; məsələn: ال حمد

5.2. Bitişən şəxs əvəzliklərini sözdən ayırmaqla; məsələn: اهد نا

5.3. Bitişən şəxs əvəzliklərini (cəm formasını) sözdən ayırmaqla; məsələn:

رب العالمين – رب العالم ين

5.4. İsmi iki yerə ayırmaqla.

5.5. Kəlmənin ortasında vəqf etməklə.

5.6. Kəlmənin yarısını digər yarısından ayırmaqla; məsələn:

اهدنا – اهـ - دنا

İlk beş haldakı xətalar namazı pozmaz. Altıncı halda isə məna pozular.

6. Vəqf və ibtida. Bəzi alimlər vəqf və ibtida səbəbindən meydana gələn xətaların mənanı çox dəyişdiyi təqdirdə namazı pozacağını bildiriblər.

Göründüyü kimi, həm qiraət alimləri, həm də fəqihlər qiraət xətaları baş verən zaman daha çox mənanın dəyişib-dəyişməməsinə diqqət yetirmiş, məna dəyişdiyi təqdirdə, namazın da pozulacağını bildirmişlər. Bəzi hallarda məna dəyişməsə də, hərflərin lazımi xüsusiyyətləri, bəzən də ilahi kəlamın çatdırmaq istədiyi mənanı ifadə edən kəlmələr dəyişildiyi üçün namaz pozulur. Ona görə də hər bir müsəlman vacib buyurulan namaz ibadətini icra etdikdə namazın zəruri rüknlərindən olan Quran qiraətinə həssas yanaşmalı və gücünün çatdığı qədər təcvid qaydalarına riayət etməlidir.

# Distant təhsil



**Zərifə Əliyeva,**
**AİI-nin Tədris şöbəsinin müdiri**

Qloballaşma prosesi elmin bütün sahələri ilə yanaşı, təhsil sahəsində də bir çox ciddi dəyişikliklərə səbəb oldu. Belə ki, müasir texnologiyalar, xüsusilə internetin geniş yayılması tədris prosesinin təşkili üçün yeni və daha "cəlbedici" imkanlar yaratdı. Ənənəvi öyrənmə mühitinə fərqli və canlı xarakter qatmaq üçün təlimin innovativ forma və metodlarından, eləcə də müasir texnologiyalardan geniş istifadə edilməyə başlandı.

Təhsilin innovativ formalarından biri olan distant (məsafədən) təhsil məhz internetə çıxışın təmin olunması ilə təhsil dünyasında populyarlıq qazandı. Distant təhsili, eyni zamanda, elektron təhsil və ya onlayn təhsil də adlandırırlar. Avropada bu təhsil növünün yaranma tarixi XIX əsrin ortalarına, Qərbdə isə XIX əsrin sonlarına təsadüf edir. Azərbaycanda bu təhsil formasının rəsmi yaranma tarixi «Təhsil haqqında» yeni Qanunun təsdiq edildiyi 19 iyun 2009-cu il hesab olunur. Davamlı inkişafda olan və artıq müasir təhsil "dünya"sının tərkib hissəsinə çevrilən bu təhsil forması üzrə pioner 1976-cı ildə ABŞ-ın Arizona ştatında təsis olunan Feniks Universiteti hesab edilir. 400 mindən çox tələbəsi olan bu özəl təhsil müəssisəsi distant təhsil texnologiyasını erkən qəbul edənlərdən biri idi.

Son illərdə ölkədə öz tədris fəaliyyətində distant təhsil formasını tətbiq edən ali təhsil müəssisələrinin sayı gündən-günə artmaqdadır. Belə ki, bu gün bizdə də artıq xeyli sayda vətəndaş bu təhsil formasından yararlana bilir.

Azərbaycanda təhsilalmanın 4 formasından biri olan distant təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkilidir. Burada tələbə ilə müəllim arasında fiziki təmas olmur, bu əlaqədən, həmçinin tələbələrin öz aralarındakı ünsiyyəti asanlaşdırmaq məqsədilə texnologiyalardan istifadə edilir. Müxtəlif səbəblərə görə ənənəvi dərslərdə iştirak etmək imkanı olmayan tələbələrin rəğbətini qazanan bu təhsil növü qeyri-ənənəvi tələbələrə, tam ştatla işləyənlərə, hərbçilərə, bölgələrdə yaşayanlara, sinif mühazirələrində iştirak edə bilməyən, fiziki məhdudiyyəti olan şəxslərə aiddir. Bu təhsil növünün əsas məqsədi müasir informasiya texnologiyalarından istifadə etməklə ixtisaslaşmadır. Bu, ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluluğunu, yaradıcılığını optimal inkişaf etdirir, qısa zaman ərzində onlar üçün daha çox elmi məlumatların toplanması, sistemli biliklər əldə edilməsi kimi imkanlar yaradır.

Distant öyrətmə (müəllimin fəaliyyəti) və distant öyrənmə (tələbənin fəaliyyəti) birlikdə distant təhsili təşkil edir. Distant təhsil vasitələri dedikdə bütün növ informasiya texnologiyaları (kompüter şəbəkələri, multimedia sistemləri və s. ) nəzərdə tutulur.

Distant təhsilin ən çox rast gələnən (əsas) formalarına aşağıdakılar daxildir:

**1. E-təhsil və ya onlayn təhsil.** Burada internet əsas təlim vasitəsidir.

**2. Virtual təhsil.** Adətən, sinifdənxaric ümumi təhsil pilləsinin ibtidai, ümumi orta və tam orta təhsil






səviyyələrində istifadə olunan təlim metodudur. Burada da internetin istifadəsi şərtdir.

**3. Qiyabi təhsil.** Təlim poçt (e-mail) vasitəsilə həyata keçirilir.

**4. Açıq təhsil.** Tədris "açıq" universitetlər vasitəsilə aparılır. Bu sistem daha çox Avropada və Qərbdə geniş istifadə olunur.

Distant təhsilin əsas ünsürləri kimi bunları qeyd etmək olar:

*a) təhsilalanlarla təlim vasitələri arasındakı interaktiv və qarşılıqlı əlaqə;*

*b) tədris-təlim məlumatlarının kompüter vasitəsi ilə vizuallaşdırılması;*

*v) böyük həcmdə məlumatların arxivdə saxlanılması, onların çatdırılması və emal olunması;*

*q) informasiya-axtarış fəaliyyətinin avtomatlaşdırılması prosesləri və metodiki təminatı;*

*d) təhsilalanların təlim materiallarını mənimsəyib-mənimsəmədiyinə (nəticə) nəzarət.*

Distant təhsili səciyyələndirən 4 əsas xüsusiyyət var:

*1) təhsil müəssisələri tərəfindən həyata keçirilir. Burada öz-özünə (müstəqil şəkildə) təhsil və ya qeyri-akademik bir təhsil mühiti mövcud ola bilməz.*

*2) Coğrafi məsafə (uzaqlıq) xasdır, zaman tələbə və müəllimləri bir-birindən ayıra bilər.*

*3) İnteraktiv ünsiyyət forması təlim qrupu daxilində fərdləri və eyni zamanda, onları müəllimlə birləşdirir.*

*4) Bütün təhsil formaları kimi, tələbə, müəllim və tədris mənbələrindən (e-kitab, audio, video və s.) ibarət öyrənmə qrupu yaradır, hansı ki tələbəyə təlimin məzmununa daxil olmaq imkanını yaradır.*

Distant təhsil aşağıdakı sektorlara ayrılır:

*1. Korporativ. Şirkət və təşkilatlar öz strukturları tərkibində distant təhsil mərkəzləri yaradır və işçi heyət iş yerlərini tərk etmədən şirkət daxilində lazım olan təlimləri keçə bilirlər.*

*2. Təhsil. Orta və ali təhsil sistemində peşəkar, əlavə, ikinci, ixtisasartırma kimi təhsil imkanlarını yaradır.*

*3. İdarəetmə. Dövlət və yerli idarəetmə orqanlarında kadrların ixtisasartırma və yenidənhazırlanma imkanlarını yaradır.*

Distant təhsilin üstünlükləri:

*1. Əlçatan və açıqdır. İnternetə çıxış olan hər yerdə (evdə, iş yerində, qatarda noutbukla vəs.) təlim keçmək mümkündür.*

*2. Sosialdır. Sosial gərginliyi azaldır. Belə ki, yaşayış yerindən, maddi şəraitdən, yaş və sağlamlıq durumundan asılı olmayaraq bərabər təhsil almaq imkanını yaradır.*

*3. Keyfiyyətlidir. Yüksəkixtisaslı müəllimlərdən öyrənmək və məsləhət almaq, biliklərin mənimsənilməsini izləmək, digər tələbələrlə daim əlaqə saxlamaq imkanlarını yaradır. Eyni zamanda, qrup işləri (kurs işləri, layihələr) sayəsində tələbələr komanda işi bacarığını əldə etmiş olurlar.*

*4. Fərdidir. Tələbələr, xüsusilə işləyən, fiziki məhdudiyyəti olan, gənc analar və digərləri üçün fərdi*

*tədris proqramları, tədris planları, fərdi dərs cədvəlləri hazırlanır, tələbələrə uyğun fənlərin öyrənilmə ardıcıllığı və öyrənilmə müddəti təyin olunur.*

*5. Obyektivdir. Biliklərin qiymətləndirmə sistemi obyektivdir və müəllimdən asılı deyil. Tərəfkeşlik və digər subyektiv hallar istisna olunur.*

*6. İnnovativdır. Müasir informasiya texnologiyalarından istifadə olunur və dinləyicilərə onları mənimsəməkdə və tətbiq etməkdə bilavasitə köməklik edir.*

*7. Ekonomikdır. Məkana, nəqliyyat vasitələrinə, zamana qənaət olunur. Tələbələr tələb olunan tədris materialları ilə elektron şəkildə təmin olunurlar. Konspektlərin hazırlanmasına ehtiyac qalmır, videomühazirələri isə istənilən sayda dinləmək olur.*

*8. Davamlılıdır – bir mərhələni mənimsədikdən sonra asanlıqla növbəti mərhələdəki proqramın öyrənilməsinə davam etmək mümkündür.*

*9. Mobildir. Təqdim olunan məlumat müəllim tərəfindən hər gün yenilənir. Bu da o deməkdir ki, təhsilalan aktual, müasir bazara cavab verən oxu materialı ilə təmin olunur.*

*10. Genişmiqyaslıdır. Hədəf auditoriyasının əhatə dairəsi genişdir.*

Beləliklə, distant təhsil tələbələri qeyri-ənənəvi məlumat mənbələrinə çıxışla təmin edir, onlarda müstəqil işin keyfiyyətini artırır, yaradıçılıq, müxtəlif peşəkar vərdişlərin əldə edilməsi üçün yeni imkanlar yaradır. Müəllimlərə isə təlimin yeni forma və metodlarından istifadəsi üçün şərait yaradır.

Distant təhsilin üstünlükləri ilə yanaşı, müəyyən çatışmazlıqları da vardır. Onlara aşağıdakıları aid etmək mümkündür:

*1) müəllim və tələbə arasında əyani əlaqənin və ünsiyyətin olmaması, eyni zamanda, qrup işinin olmaması;*

*2) tələbəyə vaxtında veriləcək dəstəkdə və əks-əlaqədə geriləmə;*

*3) internet-provayder asılılığı;*

*4) tədris prosesində tələbənin aktiv və müstəqil şəkildə oxumağa hazır olmaması (bu tamamilə tələbənin fərdi motivasiya və təşəbbüskarlığından asılıdır);*

*5) təsadüfi təcridolunma hissləri (qrup tərəfindən kifayət qədər dəstəyin olmaması tələbənin təcrid olunmasına və proqramın tamamlanmamasına səbəb ola bilər);*

*6) müvafiq materiallar hazırlamaq üçün böyük səy və xərcin tələb olunması;*

*7) texnoloji infrastrukturun yaradılması və saxlanması üçün böyük səyin tələb olunması;*

*8) əmək tələb edən təlim kursları;*

*9) texniki tədris vasitələrinə yüksək tələblər (kompüter, İnternetin mövcudluğu);*

*10) təcrübi biliyin olmaması;*

*11) tələbə biliklərinin tam şəkildə nəzarətolunma imkanının olmaması.*

Təhsilalanları gələcək təcrübi fəaliyyətlərində lazım olacaq bacarıqlarla təmin etmək, onlara qloballaşan və gündən-günə yenilənən əmək bazarında rəqabət aparmaq imkanını yaratmaq üçün ali təhsil müəssisələri öz təlim-tədris proseslərində innovativ təlim metodlarını geniş şəkildə tətbiq etməlidirlər.

Qeyd etmək lazımdır ki, ölkədə 2009-cu ildən etibarən distant təhsilin qəbul edilməsinə baxmayaraq, hələ də bir çox ali təhsil müəssisələri bu təhsil formasından istifadə etmir, mövcud olanların da bir çoxunda, sadəcə, "formal" xarakter daşıyır. Buna səbəb kimi, bəzi təhsil ocaqlarında bütün standartlara cavab verən elektron-informasiya və elektron-öyrənmə mühitinin yaradılmamasını, eləcə də kömpüter əsaslı birgə təhsil, elektron tədris mənbələrinin və tədrisin idarəetmə sisteminin qurulmamasını göstərmək olar. Qeyd olunan şərtləri özündə ehtiva etməyən təhsil müəssisələri normativlərə cavab verən bu innovativ təlim metodunu təklif edə bilməzlər.

Bunun üçün distant təhsili həyata keçirmək istəyən ali təhsil müəssisələri öz infrastrukturlarını, eləcə də maddi-texniki bazalarını yenidən gözdən keçirməli və bu təlim formasının təmin edilməsi üçün ənənəvi resurslarla yanaşı, multimedia müşahidə vasitələri ilə təchiz olunmuş elektron tədris-metodik komplekslər, kompüter laboratoriyaları, nəzarət-testləşdirmə dəstləri, tədris videofilmləri, audioyazılar və s. kimi resursları da öz bazalarına daxil etməlidirlər.

# VƏTƏNPƏRVƏRLİK şüuru din müstəvisində



**Anar Qafarov,**
**f.f.d., dos.,**
**AİI-nin müəllimi**

İnsanların yurdu fərdi müstəvidə ev, millət və xalq müstəvisində isə vətəndir. Rifah və təhlükəsizlik aspektindən evsiz yaşamaq mümkün olmadığı kimi, vətənsiz yaşamaq da mümkün deyildir. Bir millətin və xalqın dilini, ortaq inanclarını, adət-ənənəsini, mədəniyyətini, bir sözlə, özünəməxsus dəyərlərini azad şəkildə yaşaması müstəqil bir vətən olmadan mümkün deyildir.

"Vətən" etimoloji olaraq "bir yerdə yaşamaq, ömür sürmək", "bir yeri yurd halına gətirmək", "özünü bir şeyə öyrəşdirmək", "insanın doğulduğu, yaşadığı və qorunduğu yer" mənasına gəlir. Bu mənada ərəb dilində "məvtin" (cəmi: məvatin = مواطن), "bələd", "dar", Azərbaycan dilində "yurd" və "ölkə" kimi sözlər də istifadə edilir. Quranda keçən "məvatin" sözü Bədr, Hüneyn və başqa müharibələrdə müsəlman ordularının qərargahını və müharibə meydanla- rını ifadə edir. Məsələn, "Tövbə" surəsinin 25-ci ayəsində belə buyurulur: ***"Allah sizə bir çox yerlərdə,*** في مواطن كثيرة ***həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi...".***

Bundan əlavə, İslam mənbələrində "vətən" və "ölkə" mənalarına gələn "bələd", "bilad", "dar" və "diyar" sözləri də həm axirət yurdunu, həm də dünya yurdunu ifadə edir. Bəzi ayələrdə haqsız yerə yurdlarından çıxarılan və ya çıxarılmağa layiq olanlardan bəhs edilərkən, qədim qövmlərin etdikləri günahlara görə ölkələrinin böyük fəlakətlərə məruz qaldığından bəhs edilərkən "diyar" sözündən istifadə edilir.

Hədislərdə də vətən uzun və ya qısa müddətdə yaşanılan yeri ifadə edir.

İslam dünyasının tanınmış alimlərindən olan Cürcani iki növ vətəndən bəhs edir. O, insanın doğulduğu və yaşadığı yerə "əsl vətən" (vətəni-əsli), on beş gün və ya daha çox müddətdə qalmaq üçün getdiyi yerə də "yaşanılan vətən" (vətəni-iqamət) deyir.

Termin kimi isə "vətən" "bir millətin və ya millətlərin ömür sürdüyü, yaşadığı müəyyən sərhədləri olan torpaq"dır. "Vətən" sözünü, sadəcə, ərazi ilə məhdudlaşdırmaq da doğru olmaz. Vətən təkcə torpaq, yurd-yuva deyildir. Vətən bizik, hamımızıq. Vətən bir millətin və ya xalqın yaşadığı əraziyə aid olan, ona xas bütün maddi-mənəvi dəyərlərin məcmusudur. Məsələn, Azərbaycan Vətəndir, Azərbaycan torpaqları ilə yanaşı, həm də Bəhmənyardır, Sührəverdidir, Eynəlqüzad Həmədanidir, Nizamidir, Nəsimidir, Füzulidir, Şah İsmayıl Xətaidir. Vətən Azərbaycan muğamı, sənəti, incəsənəti və ədəbiyyatıdır. Vətən milli və dini adət-ənənələrimiz, milli-mənəvi və əxlaqi dəyərlərimizdir. Yaşadığımız ərazini bizim üçün "Azərbaycan" adlı vətən edən də məhz bu dəyərlərdir.

Bəs onda vətənpərvəlik nədir?

Vətənpərvərlik vətən sevgisini, vətəndaşlıq borcunu və məsuliyyətini özündə ehtiva edən bir anlayışdır. Vətənin mahiyyəti ilə bağlı yuxarıda qeyd edilənləri nəzərə alsaq, deyə bilərik ki, vətənpərvərlik insanın yaşadığı torpağa və onun maddi-mənəvi dəyərlərinə bəslədiyi qüvvətli hissi bağdır ki, bunun adı "Vətən sevgisi"dir. Vətənpərvərlik bir milləti, bir cəmiyyəti və bir dövləti yaşadan, onun mövcudluğunu qoruyan dərin məzmunlu dəyərdir. Vətəndaşlıq borcu və məsuliyyəti məhz belə bir dəyər sayəsində formalaşır. İlk baxışdan mücərrəd görünən bu anlayış, əslində, konkret əməllərdə təzahür edir. Vətəni sevmək, Vətən naminə yaşamaq, ona xidmət göstərmək üçün hansısa seçilmiş bir sənət, peşə sahibi olmağa ehtiyac yoxdur. Fəhlə də, həkim də, alim də Vətən üçün yaşaya, öz əməli ilə Vətənin şöhrətini artıra bilər. Bunun üçün ürəkdə təpər, istək və təəssübkeşliyin olması kifayətdir. Əsgər döyüş meydanlarında vuruşur, Vətən qarşısında borcunu səngərdə yerinə yetirirsə, fəhlə və mühəndis öz əməyi ilə Vətənin iqtisadi qüdrətinə töhfə verir, onun iqtisadi inkişafını təmin edir. Müəllim və alimin yaradıcılıq fəaliyyəti isə Vətən üçün Günəş işığına bənzədilə bilər. Onlar öz elmi-pedaqoji yaradıcılıqlarının nuru ilə Vətən övladlarının daxili dünyalarını aydınladırlar.

Hər bir sənət sahibi öz layiqli fəaliyyəti sayəsində, əslində, və-

təndaşlıq borcunu yerinə yetirmiş olur.

Vətəndaşlıq borcu vətənpərvərlik hissinin təcəssümüdür. Kökü bəşəriyyət tarixi qədər qədim olan vətənpərvərlik hissi, demək olar ki, tarixdə dövlətlərin yaranması ilə daha da möhkəmlənmiş və əhəmiyyət kəsb etmişdir. İnsanlar tarix boyu öz yaşadıqları evi, ərazini, mülkü, ümumilikdə ölkəsini, xalqını sevərək qorumuş, bunu özlərinə borc və mühüm bir vəzifə bilmişlər. Tarixə nəzərə salanda vətənlərini qoruyan, onun keşiyində duran millətlərin bir millət və xalq olaraq öz mövcudluqlarını davam etdirdiklərini, vətənlərini itirən millətlərin isə tarix səhnəsindən silindiklərini görürük. Mübariz ruhlu vətənsevər millətlərin tarixin bütün dövr və mərhələlərində müəyyən bir ərazini əllərində qoruyub-saxlayaraq dünyadakı siyasi təşkilatlar tərəfindən qəbul edildiklərini, söz sahibi olduqlarını, şəxsiyyət qazandıqlarını və müəyyən kimliyə malik olduqlarını deyə bilərik.

Vətənpərvərlik əxlaq tərbiyəsinin tərkib hissəsidir. Belə ki, əxlaq tərbiyəsi fərdin özü, başqaları, əmək, vətən, ictimai quruluş, sosial-siyasi qrup və təşkilatlar, dövlət və s. qarşısında olan mənəvi-əxlaqi vəzifələrini şüurlu surətdə dərk etməsini nəzərdə tutur. Vətənpərvərlik tərbiyəsi də məhz belə bir tərbiyə əsasında formalaşır və inkişaf edir. Bir cəmiyyətin və dövlətin maddi-mənəvi sərvətlərinin qorunması və çoxaldılması vətəndaşlıq borcu və cəmiyyət üzvlərinin şəxsi məsuliyyəti ilə düz mütənasibdir. Bu isə yalnız vətənpərvəlik hissi sayəsində mümkün olur. Vətəndaşlıq borcu və məsuliyyəti kimi vətənpərvərlik də yüksək insani keyfiyyətlərdəndir. Vətənpərvərlik duyğusu cəmiyyət üzvlərinin milli-mənəvi və əxlaqi tərbiyəsi sayəsində formalaşır. Bu duyğu mahiyyət etibarilə vətəndaşlıq borcu kimi, insanın cəmiyyət qarşısında öz vəzifəsini dərk etməsidir.

İnsan, insan olduğu dövrdən etibarən ailə, kollektiv, sinif, millət, xalq, ümumiyyətlə, cəmiyyət qarşısında müxtəlif vəzifə və öhdəliklər daşıyır. Bu vəzifə və öhdəliklərin reallaşmasını təmin edən mühüm amillərdən biri məhz vətənpərvəlik duyğusudur. Bu duyğu özlüyündə insanın daxili aləminin tələbləri ilə vətəndaşlıq borcunun tələblərini çulğalaşdırır. Dərin vətənpərvərlik hissinə malik olan insanın həyat fəlsəfəsinin mərkəzində "mən" yox, "biz" anlayışı var. Belə bir insanın ictimai həyatında cəmiyyətin digər üzvlərinin və vətəndaşlarının həyatına, yaşama haqqına da yer var.

İnsanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi də məhz vətənpərvərlik duyğusu sayəsində yaranır. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir. Vətənpərvəliyin ən ali və uca forması özünü Vətən üçün ölümə hazır olmaqda büruzə verir. Bu mənada, vətənpərvərlik bir millətin bütövlüyünün və mövcudluğunun əsasını təşkil edir. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millətlər tərəfindən qəbul edilməsi, tanınması, hörmətlə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür.

Bəs belə bir ali hiss olan vətənpərvərliyə dinimiz necə münasibət bəsləyir? Ümumiyyətlə, dinimizin müqəddəs mətnlərində vətən və vətənpərvərlik anlayışlarına nə dərəcədə və hansı kontekstdə toxunulur? Bu anlayışların dini-metafizik dəyərindən bəhs edə bilərikmi?

Quranda Vətən sevgisi və Vətənə bağlılıq kontekstində müxtəlif ayələrə rast gəlmək olar. Həmin ayələrdə Vətən sevgisinin insanda fitri bir duyğu olduğuna, vətənpərvərliyin insanın öz canını sevməsi ilə eyniləşdirildiyinə və vətən, el-oba, yurd uğrunda mübarizənin Allah yolunda mübarizə olduğuna dair mühüm məqamlar yer alır. Məsələn, bu qəbildən olan ayələrin birində belə buyrulur: ***"Əgər Biz onlara: "Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!" - deyə yazıb əmr etsəydik, içərilərində az bir hissəsi müstəsna olmaqla, (bu əmri) yerinə yetirməzdilər. Əgər onlar verilən nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və daha düzgün olardı".***

Bu ayədən çıxan nəticəyə görə, vətənpərvərlik və Vətən sevgisi insanda fitrətdən gələn bir duyğudur. Bu mənada, vətən və vətənpərvərlik kimi mövzulara öz yaradıcılığında geniş yer verən dahi İslam alimi Cahizin "əl-Hənin iləl-əvtan" ("Vətən həsrəti") adlı əsərində vətənpərvərliyin, vətənə olan sevginin insanda fitri bir hiss olduğu fikrini irəli sürərkən məhz "Nisa" surəsinin sözügedən ayəsinə yer verməsi heç də təsadüfi deyildir. Ayədən çıxan digər nəticəyə görə isə vərənpərvərlik və Vətən sevgisi insanın öz canını sevməsi qədər dəyərli bir duyğudur. Burada Vətənin insanın canı qədər dəyərli olduğu dilə gətirilir. İnsanlar vətənlərinə qarşı hər hansı bir hücüm və təcavüz olanda, canlarını fəda edərək onu müdafiə etməyə çalışırlar. Bu ruhun arxasında insanın gələcək nəsillərə öz ölümünün bahasına olsa belə, bir vətən qoyub getmə arzusu yatır. Torpaq o halda vətən olur ki, onun övladları hə-

min torpağın maddi-mənəvi bütün dəyərlərini sevsin, canı ilə, qanı ilə üzərində yaşadığı əraziyə sahib çıxsın. Bu prinsipi məşhur türk şairi Mithat Camal Kuntayın vətənə dair şeirindən əxz etdiyimiz bir hissə ilə ədəbi şəkildə belə ifadə etmək olar:

*Bayraqları bayraq edən*
*üstündəki qandır.*
*Torpaq, əgər uğrunda ölən*
*varsa, vatandır.*

Başqa bir ayədə isə vətən uğrunda mübarizə ilə Allah yolunda mübarizə eyni məzmunda dəyərləndirilir. Məsələn, "Bəqərə" surəsinin ayələrinin birində Uca Allah belə buyurur: ***"(Ya Rəsulum!) Musadan sonra bir dəstə (tanınmış) İsrail övladının başına gələnləri görmədinmi? Onlar öz peyğəmbərinə: "Bizə bir hökmdar göndər ki, (onun köməyi ilə) Allah yolunda (zülmkarlarla) vuruşaq!" - dedilər. O da (onlara): "Sizə vuruşma əmri olduqda, bəlkə, vuruşmadınız?" - söylədi. Onlar cavabında dedilər: "Allah yolunda nə üçün vuruşmayaq ki, yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq". Lakin onlara vuruşmaq vacib olduğu vaxt, içərilərindən az bir qismi müstəsna olmaqla, (hamısı döyüşdən) üz çevirdilər. Allah (özlərinə) zülm edənləri tanıyır!".***

Bu ayənin, xüsusilə ***"Allah yolunda nə üçün vuruşmayaq ki, yurdumuzdan çıxarıldıq, övladlarımızdan ayrıldıq"*** hissəsindən çıxan nəticəyə görə, Vətən uğrunda vuruşmaq Allah yolunda vuruşmanın tərkib hissəsini təşkil edir. Ayənin arxasında yatan əsas anlayış odur ki, Vətən uğrunda vuruşmaq haqq uğrunda mübarizədir. Bu mənada ayədə Vətən uğrunda mübarizə ilə Allah yolunda mübarizənin eynişləşdirilməsi böyük məna kəsb edir.

Ayənin sözügedən hissəsində Vətən sevgisinin insanlarda köklü bir duyğu olduğuna dair sətiraltı işarə var ki, bu məqam İslam alimləri tərəfindən vurğulanır.

Peyğəmbərlər tarixinə nəzər saldıqda, orada da Vətən sevgisi və vətənpərvərliyin əhəmiyyətini dilə gətirən bəzi hekayələrin yer aldığını görürük. Bu mənada, Həzrət Yusifin cənazəsinin ataları Yəqub, İshaq və İbrahimin ölkəsinə aparılmasını vəsiyyət etməsi hekayəsi nümunə gətirilə bilər.

Vətən və vətənpərvərlik duyğusunun əhəmiyyətini dilə gətirəcək dini mətnlər arasında hədislərin də xüsusi yeri var. Belə hədislərin birində Həzrət Məhəmməd buyurur: *"İki gözü cəhənnəm alovu yandırmayacaq. Bunlardan biri Allah qorxusundan ağlayan göz, digəri isə Allah yolunda sərhədlərdə vətəni qoruyub növbət çəkərək gecəni oyaq keçirən gözdür"*. Hədisdən çıxan mənaya görə, haqq uğrunda Vətəni qorumaq məqsədilə sərhədlərdə növbə çəkən əsgərlər cənnətlə müjdələnir.

Vətəni sevmək, haqq yolunda və Vətən uğrunda canı və malı ilə mübarizə aparmaq, dinimizə görə müqəddəs vəzifədir. Vətən uğrunda canını fəda etməyin müqabilində İslam dini adı şəhidlik olan mənəvi bir rütbə verir.

"Şəhid" sözü etimoloji olaraq ərəbcə bir söz olub, öz gözləri ilə görən, haqqa şahidlik edən mənasına gəlir. Bu sözün Quranda 50 yerdə keçmiş olması onun İslam dinindəki əhəmiyyətinə işarə etməsi baxımından diqqətəlayiq məqamdır.

Şəhid, İslam dinində Allah/Haqq, din, millət və Vətəni müdafiə uğrunda vuruşarkən ölənlərə verilən addır. Müharibə iştirak edib ölməyənlərə isə dinimizdə "qazi" ünvanı verilmişdir. Qeyd edək ki, şəhidlik və qazilik, sadəcə, İslam dinində və müsəlmanlar üçün böyük əhəmiyyət kəsb edən anlayışlardır. İslam xaricindəki heç bir dində bu anlayışlara yer verilmir, bu iki müqəddəs rütbə heç bir dində mövcud deyil.

Şəhidlik rütbəsinin aliliyini dilə gətirmək üçün Quranın "Ali-İmran" surəsində belə buyurulur: ***"Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur. Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə, həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar".***

Ayədən çıxan nəticəyə görə şəhidlər ölməzdir. Elə isə şəhidlik əbədi və mənəvi bir rütbədir. Bunun mahiyyət və məzmununun daha dərindən anlaşılması üçün müsəlman alimlərinin şəhidliyə dair irəli sürdükləri fikir və şərhləri nəzərdən keçirmək kifayətdir. Belə ki, müsəlman alimlərinə görə, haqq uğrunda, millətlərin şərəf və namusunu qorumaq və xilas etmək, yurdunu, Vətənini yadellilərin işğalına məruz qoymamaq üçün düşmənə sipər olan insanların bilərək və istəyərək şəhid olmaları sonrakı nəsillərin məfkurəsində güclü təsirə malik iz qoyub gedir. Şəhidlər sonrakı nəsillərə uğrunda şəhid olduqları

ali dəyərlərin qorunması və bunun müqəddəs bir vəzifə olduğuna dair mühüm mesajlar verir, beləliklə ölümsüzləşirlər. Buna görə də şəhidlər həyatı inkişaf etdirmə və istiqamətləndirmə məsələsində fəal, sövqedici və təsirli gücə malikdirlər ki, bu da onların ölümsüzlüyünün işarəsi kimi başa düşülə bilər. Bu məsələ dahi müsəlman alimi Fəxrəddin Razinin Hippokratdan əxz etdiyi fikirlərin işığında da izah edilə bilər. Belə ki, Hippokrat insanlara ölməzdən əvvəl öz iradələri ilə ölməyi tövsiyə edir, çünki Hippokrata görə, insanın təbii varlığı olan ruhu ilə yaşaması onun öz iradəsi ilə ölməsi sayəsində mümkündür. Bu fikirləri İslamın şəhidlik anlayışı aspektindən dəyərləndirsək, deyə bilərik ki, elə şəhidlik də insanın öz iradəsi ilə ölməsidir və bu ölüm ali dəyərlər uğrunda ölümdür. Elə isə insanın ruhən yaşaması dini aspektdən iki mənada başa düşülə bilər. Bu mənalardan birincisinə görə, insanın öldükdən sonra axirətdə yaşaması, ikincisinə görə isə iradəsi ilə ölən insanın ali ideal mübarizə ruhu ilə sonrakı nəsillərin qəlb və zehin dünyalarında yaşaması nəzərdə tutulur. Məsələyə bu prizmadan nəzər saldıqda, İslam dinində şəhidlərin ölməz və əbədi olduqlarının mahiyyət və məntiqi başadüşüləndir.

Şəhidliyə bir dəyər kimi hədislərdə də yer verilir. Məsələn, hədislərin birində Həzrət Peyğəmbər şəhidlər haqqında belə buyurmuşdur: *"Cənnətə daxil olub oradakı nemətləri gördükdən sonra dünyaya geri dönməyi şəhidlərdən başqa heç kim arzulamaz. Yalnız şəhidlər qiyamət günündə gördükləri lütflərin çoxluğuna görə (şəhid olmaq üçün) yenidən dünyaya qayıtmağı arzularlar".*

Başqa bir hədisdə isə İslam peyğəmbərinin özü haqqındakı istəyi İslam dinində şəhidliyə verilən dəyəri bariz şəkildə ortaya qoyur. Sözügedən hədisdə Peyğəmbərimiz belə buyurur: *"Məhəmmədin nəfsi qüdrət əlində olan Allaha and olsun ki, Allah yolunda savaşmaq və öldürülmək, sonra savaşmaq və yenə öldürülmək, sonra yenə savaşmaq və öldürülmək istərdim".*

Nəticə etibarilə deyə bilərik ki, dinimiz Vətənə, Vətənlə bağlı olan ali dəyərlərə və onları qoruma ruhunun göstəricisi olan vətənpərvərlik və şəhidliyə böyük əhəmiyyət verir. Bu məsələ, başda Quran olmaqla, İslam peyğəmbərinin hədislərində və həyat fəlsəfəsində də kifayət qədər öz əksini tapır.

Dinimizin böyük dəyər verdiyi şəhidlik mərtəbəsinə qovuşmaq üçün Azərbaycanın milli mübarizə tarixində də neçə-neçə igid oğul və qızlarımızın qəhrəmanlıq dastanı yazdığının şahidiyik. Vətən torpağı Azərbaycan xalqı üçün daim bir səcdəgah və müqəddəs olmuşdur. "Vətən" anlayışının müqəddəsliyi Azərbaycan Respublikasının Himnində, ölkəmizin görkəmli bəstəkarı və mütəfəkkiri Üzeyir Hacıbəyovun "Koroğlu" uvertürasında, Həsən bəy Zərdabi, Abbasqulu ağa Bakıxanov, Əhməd Cavad, Hüseyn Cavid, Əhməd Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Cəfər Cabbarlı, Bəxtiyar Vahabzadə və başqa dahi ədib və mütəfəkkirlərin yaradıcılığında, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şıxlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Mübariz İbrahimov, Fərid Əhmədov və digər igid, cəsur sərkərdə və döyüşçülərimizin nümunəsində öz əksini tapmışdır. Daha əvvəl də qeyd edildiyi kimi, Vətən təkcə torpaq, yurd-yuva deyil. Vətən bizik, hamımızıq. Vətən bütün maddi-mənəvi dəyərlərimizdir. Onun dünəninə, bugününə və sabahına da hamımız cavabdehik. Unutmayaq ki, "Azərbaycan" adlı bu müqəddəs məkan keçmişlə-gələcəyimizin qovuşduğu yerdir.

Vətənpərvəlik isə yaşadığımız bu torpaq uğrunda lazım gəldikdə həyatını, sahib olduğu hər şeyi Vətən yolunda düşünmədən fəda edə bilmək duyğusunun təcəssümüdür. Qeyd edək ki, bu ali dəyər və duyğunun Ulu Öndərin söz və fəaliyyətində də xüsusi yeri olmuşdur. Belə ki, Heydər Əliyev Azərbaycanın gələcəyı olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır.

Vətəndaşı vətənpərvərlik ruhunda tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, ölkənin yüksəlişində iştirak edən insan yetişdirmək deməkdir. Əsl vətəndaş dedikdə, bilavasitə Vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Şübhəsiz ki, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin təməli ailədə qoyulur. Ailə cəmiyyətin və dövlətin ən əsas nüvəsidir. Bu səbəbdən dinimizin əhəmiyyət verdiyi dəyərlər arasında ailə dəyərlərinə xüsusi yer verilməsi heç də təsadüfi deyildir.



**Emin Orucov,**
**Aİİ-nin əməkdaşı**

# ERMƏNİ XİSLƏTİ

*İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq, artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdu. Ağır döyüşlər zamanı hərbçilərimiz şəhid oldu. Sərhədboyu kəndlərdə yaşayan mülki əhaliyə, o cümlədən dövlət əmlakına ciddi ziyan dəydi. Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri özünü çox gözlətmədi, müxtəlif təyinatlı hərbi texnikası, döyüş vasitələri, mühüm obyektləri və yüzlərlə canlı qüvvəsi məhv edildi.*

*Döyüşlərdə ordumuza dəstək məqsədilə minlərlə vətəndaşın yürüşü Azərbaycan xalqının işğalçı rejimə qarşı həmrəy etirazının, eləcə də xalq və hakimiyyət birliyinin göstəricisi idi. Bu yürüş Azərbaycanın öz torpaqlarının işğalı faktı ilə heç vaxt barışmayacağını təsdiq etdi.*

*Ali Baş Komandan cənab İlham Əliyevin çağırışından sonra isə minlərlə insan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək Vətənə könüllü xidmət etmək üçün orduya yazıldı.*

Müasir dünyanın daha çox sekulyar xarakterli olmasına baxmayaraq, baş verən bir sıra hadisələrdə və cərəyan edən proseslərdə din amili hələ də öz böyük rolunu oynamaqda davam edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən ekspertlər, adətən, siyasi, iqtisadi və hərbi səbəblər üzərində dayanır, problemi nədənsə daha çox “maddiləşdirməyə” çalışır, dini mövqe arxa plana keçir.

Ermənilər ciddi-cəhdlə Xristian dünyasına verdikləri mesajda münaqişəyə dini don geyindirməyə çalışaraq, özlərini müsəlmanların ortasında qalmış “zavallı xristian azlıq” kimi qələmə verməyə çalışırlar. Halbuki, mənfur qonşumuzun hərəkətlərini heç bir halda Xristianlığın adına yazmaq və bunu dinə bağlamaq yolverilməzdir. Bədnam qonşularımızın I Qarabağ müharibəsində “din təəssübkeşliyi” pərdəsi altında hərbi geyimlərinin qollarında və kürək hissələrində ağ xaçlar gəzdirməsi, həmçinin, Şuşaya daxil olan ermәni zirehli tanklarının da üzərində eyni fərqləndirici nişanların əks olunması xristian özünüidentifikasiyasının əlamətləridir. Qonşudan söz düşmüşkən, elə xristianların müqəddəs kitabı olan Bibliyanın Əhdi-Ətiq toplusunun “Levillilər” kitabında bu barədə belə deyilir:

*13. “Qonşunu istismar etmə, onu soyma”.*

*15. “...Qonşunun qanının tökülməsini istəmə”.*

*17. “...Ancaq qonşunu özün kimi sev (Müqəddəslik və ədalət)”.*

Kitabın başqa bir yerində isə yazılır: “Məsum və günahsızları öldürmə, çünki mən günahkarları əfv etməyəcəyəm” (Çıxış, 23:7).

Müqəddəs Kitabımız olan Qurani-Kərimdə isə sözügedən məsələyə aşağıdakı şəkildə münasibət bildirilir: *“Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddini aşanları sevməz!”* (“Bəqərə”, 190).

Tarixə nəzər salsaq, görərik ki, ermənilər azərbaycanlılara, bütünlükdə türklərə qarşı vandallıqlara çox imza atıblar. Hələ keçən əsrin əvvəllərində Azərbaycanın görkəmli mütəfəkkirləri əsərlərində bu vandallıqların nümunələri haqda məlumat veriblər. Məsələn, Məmməd Səid Ordubadi “Qanlı sənələr” əsərində Şuşada baş verən hadisələrdən yazarkən “erməni-müsəlman” ifadəsini işlədir: “1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilər küçədə şəhər fanarlarını yandıran Kərbəlayı Məmmədhüseyin adlı müsəlmanı xəncərlə doğrayıb vəhşicəsinə öldürməklə ermənilərlə müsəlmanlar arasında yeni münaqişə toxumları səpdilər”.

Digər azərbaycanlı ziyalı Mir *Möhsün Nəvvab da “1905-1906-cı illərdə erməni-müsəlman davası” əsərinin elə adındaca eyni məsələni vurğulayır: “Ermənilər təpədən-dırnağa qədər silahlandırılırdı. Erməni daşnaklar müsəlmanlarda olan silahı ələ keçirmək üçün belə bir hiylə işlətmişdilər. Tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança 6 ma-*



*nata satılırdısa, 30 manata alırdılar. Nəticədə müsəlmanlarda olan silahların ermənilər tərəfindən belə baha qiymətə alınması, müsəlmanların evlərində nə qədər silah-sursat var idisə, tamamilə ermənilərin əlinə keçməsinə səbəb oldu".*

Ermənilərin istər tarixi Azərbaycan torpağı olan İrəvanda, istərsə də işğal olunmuş ərazilərdə müsəlman dini abidələrini dağıtması bir "ənənə" şəklini alıb. 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti – Ermənistan Respublikası qurulduqdan sonra, azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandalcasına münasibət göstərilib, onları dağıdaraq yer üzündən siliblər. İrəvan qalasındakı bütün tarixi abidələr, o cümlədən, Xan sarayı və möhtəşəm Sərdar (Abbas Mirzə) məscidi məhv edildi. Bu gün Ermənistan ərazisində azərbaycanlılara məxsus yalnız iki tarixi-memarlıq abidə qalıb ki, onlardan birini – İrəvan şəhərindəki Göy məscidi "fars məscidi", digərini – İrəvan yaxınlığındakı Əmir Səəd məqbərəsini isə "türkmən abidəsi" kimi qələmə verməyə çalışırlar. Ermənistan hökumətinin qərarı ilə "heç bir əhəmiyyət daşımadığı üçün" azərbaycanlıların qəbiristanlıqlarının qorunmaması qərara alınıb. İrəvan şəhərindəki Dəmirbulaq məscidi, Hacı Novruzəli bəy məscidi, Rəcəb Paşa məscidi, Sərdar məscidi, Təpəbaşı məscidi, Zal xan məscidi kimi ibadət ocaqlarımız erməni xislətinin qurbanı olub.

2015-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi-mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması"na dair qəbul olunan qətnamə dini zorakılıq və ayrıseçkiliyin Ermənistan tərəfindən yürüdülən siyasətin tərkib hissəsi olduğunu bütün dünyaya açıq şəkildə bəyan edib.

Tovuz hadisələrini təhlil edərkən sərhəddə baş verənlərin siyasi prizmadan qiymətləndirilməli olduğuna və dinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində, sadəcə, bir "pərdə" rolunu oynadığına bir daha şahidlik edirik. Zəruri insani keyfiyyətlərdən məhrum olan ermənilər lazım gəldikdə öz qadınlarını məkrli siyasətlərinə qurban verdikləri kimi, din və mənəviyyatlarını da bu yolda peşkəş etməyə hazırdırlar. Məhz məlum hadisələrdən bir neçə gün sonra Vaşinqton, Los Anceles, Toronto, Varşava, Brüssel, Paris və digər ölkələrin paytaxt və şəhərlərində həyata keçirilən təzavüzkarlıq siyasəti dünya ictimaiyyətinin diqqətini yayındırmaq üçün ermənilər tərəfindən atılan növbəti iyrənc addım olduğunu göstərməklə yanaşı, dinin də bu yerdə susqunluğundan xəbər verir.

2016-cı ilin Aprel və 2020-ci ilin İyul döyüşləri bizim hər zaman haqlı olduğumuzu, həmçinin düşmənə layiqli cavab vermək qüdrətimizi göstərdi. Biz bununla həm mövqeyimizi bildirdik, həm də müharibə qanunlarına məhəl qoymadan hər gün mülki əhalini atəşə tutan, Sahibə xanım kimi ağbirçəkləri, Zəhra kimi körpələri amansızcasına qətlə yetirən düşməndən fərqli olaraq, *"Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!"* ("Maidə" surəsi, 8) deyən Allah kəlamından çıxış edərək haqqımız olanı haqsızlıq etmədən alacağımızı bütün dünyaya bəyan etdik.



**Nicat Hüseynov,**
**AİI-nin II kurs tələbəsi**

# Qarabağ əzəli Azərbaycan torpağıdır

***Şərqlə-Qərbin qovuşuğunda yerləşən Azərbaycan ən qədim dövrlərdən bəri yadellilərin hücumlarına məruz qalıb. Ölkəmiz əlverişli coğrafi şəraiti, əkinəyararlı münbit torpaqları, şirin su ehtiyatları, mülayim iqlimi, yerüstü və yeraltı zəngin sərvətləri ilə hər zaman digər xalqların diqqətini cəlb edib. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi də belə ərazilərdən biridir. Müxtəlif zamanlarda aparılan arxeoloji qazıntılar nəticəsində burada ilk ibtidai insanların yaşadığı məlum olub və həyat tərzi, yaşayışı öyrənilib.***

Qədim daş dövrünün insanları haqqında məlumatların böyük bir qismi Dağlıq Qarabağ ərazisində mövcud olan mağaralardan əldə edilərək, maddi sübut kimi saxlanılıb. Ermənilər nə qədər öz istəklərinə nail ola bilməsələr də, müəyyən vaxtlarda tarixi saxtalaşdırmaq yoluna da əl atıblar. Quruçay arxeoloji mədəniyyəti ilə bağlı əldə edilən maddi sübutlar onların mənfur niyyətlərinə çatmalarına mane oldu. Qarabağda yerləşən Azıx və Tağlar mağaralarından əldə edilən maddi tapıntılar Azərbaycan tarixi və mədəniyyətinə çox böyük töhfə verdi.

Dağlıq Qarabağın ermənilərə məxsus olması xülyasını alt-üst edən başqa bir sübut isə "Kitabi-Dədə Qorqud" dastanıdır. Bu dastanın bəzi boylarında Qarabağın oğuzlara məxsus olması haqqında məlumatlar öz əksini tapıb. Ermənilərin Dağlıq Qarabağla bağlı iddiaları mifologiyadan başqa bir şey deyildir. XX əsrdə Naxçıvan və İrəvan torpaqlarının hesabına meydana çıxan Ermənistanın tarixi başdan-başa uydurma və cəfəngiyatla doludur.

Tarixən Azərbaycana qarşı işğalçı münasibət bəsləyən dövlətlərin hər birinin Qarabağla bağlı xüsusi siyasi mövqe nümayiş etdirməsi bu bölgənin nə dərəcədə strateji əhəmiyyətli məkan olmasından xəbər verir. İstər Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay müqaviləsi, istərsə də Rusiya ilə İran arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Qarabağ bölgəsinin erməniləşdirilməsi üçün istənilən şərait yaradıldı. Həyata keçirilən köçürmə siyasəti nəticəsində Qarabağın türk-müsəlman əhalisi boşaldılır, əvəzində isə çox böyük imtiyazlar alan ermənilər bu bölgəyə yerləşdirilirdi.

Bu gün "Böyük Ermənistan" adlı dövlətdən dəm vuran ermənilərin bu fikrə necə gəldikləri heç kimə sirr deyildir. Onlara daim yardım əlini uzadan xalqa qarşı bu cür mənfur siyasət həyata keçirmələri onların necə xəstə xislətə sahib olduqlarının sübutudur. İstər Çar Rusiyası dövründə, istərsə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən ermənilər xalqımıza qarşı amansız cinayətlər törətdilər. Sovet hakimiyyətinin yenicə qurulduğu illərdə onlar üçün yaradılan əlverişli şəraitdən "məharətlə" istifadə edərək, Dağlıq Qarabağa muxtariyyət verilməsinə nail oldular. Daha sonrakı dövr ərzində də öz təbliğatlarını genişləndirərək, müxtəlif illərdə Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağa qarşı əsassız ərazi iddiaları ilə çıxış etdilər.

XX əsrin 60-70-ci illərində müxtəlif yüksək vəzifələrdə çalışan ümummilli lider Heydər Əliyev dəfələrlə ermənilərin qurduğu planları alt-üst etməyə nail oldu. Hər vəchlə Dağlıq Qarabağ Muxtar Vilayətini özününküləşdirməyə çalışan mənfur düşmənə qarşı düzgün siyasət yeridən Ulu Öndərin bu yöndəki fəaliyyəti danılmazdır. Tarix səhnəsində hər zaman qətiyyətli addımları ilə seçilən Heydər Əliyevin Dağlıq Qarabağda yürütdüyü siyasət nəticəsində ermənilər iflasa uğradılar.

1988-ci ildən başlayan yeni işğal dalğası xalqımız üçün çox böyük faciələrə səbəb oldu. O dövrdə ölkə rəhbərliyində çalışanların siyasi qətiyyətsizliyi nəticəsində yüz minlərlə insan öz ata-baba yurdundan deportasiya edildi, vəhşicəsinə öldürüldü və əsir götürülərək işgəncələrə məruz qaldı. Azərbaycanın əzəli torpaqlarında yeni bir erməni dövləti yaratmaq iddiası ilə çıxış edən ermənilərin XX əsrin 90-cı illərində törətdiyi dünya tarixində görünməmiş vəhşilikləri nəticəsində Dağlıq Qarabağ ərazisi işğal edildi.

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişindən sonra, Qarabağ cəbhəsində uğurlu

addımlar atıldı, Azərbaycanın müəyyən əraziləri düşmən tapdağından azad edildi. Ulu Öndərin həyata keçirdiyi düzgün siyasət nəticəsində erməni separatçıları bu gün də öz layiqli cavablarını almaqda davam edirlər. Azərbaycan müxtəlif dünya miqyaslı layihələrə imza atmaqla Ermənistanı bölgədən təcrid etməkdə davam edir.

Ümummilli Liderin Azərbaycanın işğal edilən əraziləri ilə bağlı fikirləri hər zaman birmənalı olub: “Azərbaycanın keçmişi də, bugünü də, gələcəyi də Dağlıq Qarabağla sıx bağlıdır və bu bölgə Azərbaycanın ayrılmaz parçasıdır”. Heydər Əliyev hər zaman Vətəninin və millətinin keşiyində duraraq, düşmənə qarşı qətiyyət nümayiş etdirib. Görkəmli dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində bütün dünya Azərbaycan və Qarabağ həqiqətlərindən xəbərdar oldu, Azərbaycanın haqlı mübarizəsi öz yüksək qiymətini aldı.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan cənab Prezident İlham Əliyev Azərbaycanın əzəli torpaqları barəsində birmənalı mövqe nümayiş etdirməkdədir. İstər dünya miqyaslı tədbirlərdə, istərsə də ölkəmizin müxtəlif bölgələrinə səfərləri zamanı öz çıxışlarında Dağlıq Qarabağ məsələsinin bizim daxili məsələmiz olduğunu vurğulayan Ali Baş Komandan Azərbaycanın bir qarış torpağının da güzəştə gedilməyəcəyini nəzərə çatdırır.

Bütün bunların sayəsində də Azərbaycan Ordusu 2016-cı ilin aprel ayında baş verən döyüşlər zamanı düşmən təxribatının qarşısını qətiyyətlə aldı, düşmənə layiq olduğu tutarlı cavabı verərək qələbə qazandı. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edildi, on minlərlə hektar torpaq sahəsinin nəzarəti Azərbaycana keçdi. Aprel döyüşləri zamanı düşmən Azərbaycan Dövlətinin, xalqının, ordusunun gücünü gördü. Xalqımız Aprel döyüşləri zamanı birlik nümayiş etdirərək, böyük iradəyə sahib olduğunu sübut etdi.

Bütün dünya Azərbaycanın öz əzəli torpaqlarından vaz keçməyəcəyini bir daha anladı. Ölkə başçısı Aprel döyüşləri haqqında danışarkən vurğulayıb ki, “Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan Bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir”. Azərbaycan Dağlıq Qarabağ münaqişəsində düşmənə əsla güzəştə getməyəcəkdir. Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu bir daha açıq şəkildə bəyan etdi: Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, “Qarabağ Azərbaycandır və nida işarəsi”.



# ATEİZM və DİN



**Elvüsal Məmmədov,**
f.f.d., dos.,
Aİİ-nin müəllimi

### Din adi məsələ deyil

Elmi ateizm nəzəriyyəsinin və bu ideologiyaya havadarlıq edən kommunist rejiminin, Sovet İttifaqının süqutundan sonra şüurda baş verən müsbət dəyişiklik göstərdi ki, din heç də elmin antipodu, əks təzahürü olmayıb, insan oğlunu düşündürən vacib və mühüm, həm də taleyüklü suallara cavab verən dünyagörüşüdür. Söhbət həyatın mənası ilə əlaqəli suallardan gedir.

Biz nədən ötrü işlədiyimizi, nə üçün yediyimizi, içdiyimizi bilirik. Başa düşürük ki, yalnız belə primitiv nüanslar üçün yox, əksinə, ali məqsədlər üçün yaşayır və intuitiv olaraq bunu dərk edirik. Bu kontekstdə intuitiv olaraq onu da hiss edirik ki, insan ətrafda müşahidə etdiyimiz canlı növləri kimi ola bilməz. İntuitiv hisslər bizə pıçıldayır ki, insan oğlu digər canlılar kimi ölüb itə bilməz, nə isə başqa bir şey bizi mənən və zehnən qurcalayır. Düzdür, bu hisslər qəribədir, rasional arqumentasiya bazasına malik deyil, amma mövcuddur.

### Müasir elm: metodoloji xüsusiyyətləri və funksiyaları, ilahi mahiyyətə münasibəti

Qərbdə qəbul olunmuş ümumi nöqteyi-nəzərə görə, elmin əsas tədqiqat obyekti materiyadır. Bu səbəbdən əsas metodlar olaraq təcrübə, müşahidə və induksiya seçilib.

Müasir elm kainatın necə fəaliyyət göstərdiyini izah edir. Bunun sayəsində kainatda baş verən əksər prosesləri izah edə bilirik. Elm bizə ətrafımızdakı dünyanı başa düşmək üçün külli miqdarda informasiya təqdim edir. Kimya sayəsində atomlar və molekullar arasındakı mürəkkəb reaksiyaları başa düşürük, biologiyadan canlı hüceyrələrin necə işlədiyini öyrənirik və s. Elm möhtəşəm və ecazkar biliklər məcmusudur. O bizə həyat haqqında, dünya və kainat haqqında danışır.

Amma...

Amma elm əsla izah edə bilmir ki, kainat nə üçün yaranıb, varlıq kateqoriyaları yaranmazdan əvvəl nə baş verib? Eləcə də biologiya planetimizin yaşanması mümkün olmayan materiya-mühitində ilk canlıların necə meydana çıxdığını, nüvəli hüceyrələrin necə inkişaf etdiyini izah edə bilmir. Elm canlılarda şüurun (düşüncənin) necə meydana gəldiyini izah etməyi bacarmır. Rəmzi və məntiqi təfəkkür, təsəvvür haradan meydana çıxmışdır və s. Bütün bunların cavabı elmdə mövcud deyildir, çünki bunu kimyəvi-bioloji proseslərlə izah etmək mümkün deyildir.

Amma din deyir ki, Allah insanı düşünən, fikirləşən yaradıb. Çünki bizə materiya ilə yanaşı, bu materiyanı intellektual və sensual hala gətirən ilahi ruh üfürülüb.

Daha sirli sual isə budur: necə olub ki, həyatın meydana gəlməsi üçün kainatda parametrlər bu qədər dəqiqliklə qurulub? Bu suala indiyə qədər qənaətbəxş cavab verilməyib.

Biz fizika və kosmologiyanın sirlərini üzə çıxardıqca kainatın nə qədər mükəmməl, eyni zamanda, dolaşıq və son dərəcə mürəkkəb quruluşda olduğunu görürük. Hətta adi hissəciklərin kvant-mexaniki xassələrini izah etmək üçün bir neçə səhifəlik ali riyaziyyat hesablamaları da tələb olunur. Materiyanın zərrəcikləri nə üçün bu qədər mürəkkəbdir? Görünür, təbiətin ən adi elementi üçün nəzərdə tutulmuş gizli müdriklik, struktur, yaxud mürəkkəb plan mövcuddur. Məsələn, müasir fizikaya görə, təxminən, 13 milyard il bundan əvvəl enerjinin partlaması nəticəsində kainat yaranmışdır. Amma elm bu enerjinin mənbəyi və necə meydana çıxdığını izah edə bilmir. Bu partlayışdan sonra kvarklar (elementar hissəciklər) birdən-birə qruplaşıblar ki, proton və neytronları yaratsınlar. Onların elektrik yükləri isə elə dəqiq səviyyədə qurulub ki, daha sonra proton və neytronlardan ibarət nüvə yaratmaq üçün elektronları cəzb edib "ovlaya" bilsinlər.

Kainatda bir-biri ilə əlaqəli yüklər və güclər dəqiq və müvafiq miqdarda olmalıdır ki, atomlar yaransın. Onların daha böyük olanları ulduzların daxilindəki nüvə "yanğınlar"ında "bişdilər ki, həyatın yaranması üçün zəruri sayılan oksigeni, dəmiri, azot və karbonu meydana çıxarsınlar. Onlar, nəhayət, çox mürəkkəb spiral – DNT molekulunu – həyatın zülal əsasını yaratdılar.

Elm ardıcıllığın bu cür olduğunu deyir, amma bunun necə baş verdiyini izah edə bilmir. Yaşamağımız üçün lazım olan kosmoloji, fiziki, bioloji, kimyəvi və koqnitiv para-

metrlərin necə yaranmasını elm izah edə bilmir. Məsələni təsadüflə izah etsək, onda Böyük Partlayışdan sonra milyardlara təsadüf zəncirindən danışmalı olacağıq. Onda gərək, Ehtimallar nəzəriyyəsini də bir kənara ataq.

### Elm ilahi mahiyyətləri öyrənirmi?

Deyirlər ki, elm, xüsusən, təbiət elmləri Allahı inkar edir. Yalnız görünəni öyrənən bu elmlər təcrübi və empirik metodologiya ilə Allahı necə inkar edə bilər axı?!

Elm Allahın mövcud olmağı problemi ilə də məşğul olmur, olsa-olsa, insanı düşündürən, seçim qarşısında buraxan faktlar təqdim edir. Unutmayaq, həm metodologiyanın formatı, həm də öyrənilən obyektin böyüklüyü baxımından elm məhduddur, çünki insan oğlunun imkanları məhduddur. Öyrəndiyimiz, tədqiq etdiyimiz sahələr çoxaldıqca, yeni öyrənmə sahəsi genişləndikcə, qəribə və ilk baxışdan paradoksal görünən proses baş verir, daha az bildiyimizin fərqinə varırıq.

Mövcud biliklər məchul qalan mahiyyətlərlə müqayisədə çox azdır. Çoxotaqlı evin ancaq bir neçə otağını gəzdikdən sonra orada kiminsə olmadığını iddia etmək doğrudurmu?

Hətta Allah olmasa belə, Onu inkar etmək mümkün deyildir. Çünki elm maddi dünya ilə məşğul olur, Allah isə metafizik aləmə aid məsələdir.

Ümumiyyətlə, elmin köməyi ilə Allahın mövcudluğunu inkar etmək qəribə məşğuliyyətdir. Əvvəla, müasir elmi metod təcrübəyə əsaslanır, mühakimənin məntiqi düzgünlüyünü əsas götürür. Halbuki Allaha iman irrasionaldır və hər bir inanan insanın dini təcrübəsi fərdidir.



İkincisi, bayaq dediyimiz kimi, elm (biz təbiət elmlərini nəzərdə tuturuq) maddi dünyanı təşkil edən qanun və hadisələri öyrənməklə məşğuldur. Allah isə maddi dünyanın ekvivalenti deyil, o ki qaldı onun bir hissəsi olsun. Dini baxımdan Allah kainatın fövqündə dayanan mahiyyətdir.

Deməli, elm vasitəsilə Allahı inkar etmək qeyri-mümkündür. Çünki dinin əsas elementləri hesab olunan Allah, vəhy, axirət və digər anlayışlar irrasional mahiyyət daşıyır, odur ki, empirik-sensual elmi metodların tədqiqat obyekti deyildir. Yuxarıda göstərdik ki, dünyada elmin qəbul edilmiş formatı materiyanı rasional metodlarla öyrənməkdə ifadə olunub. O şey ki, materiya deyildir, sensual-empirik formatlı elmin tədqiqat obyekti olmaqdan çıxır. Məhz bu səbəbdən elm həmin şeyi nə təsdiq, nə də təkzib edir. Məsələn, filosof Emil Potro "Elm və din" adlı kitabında yazır: "Elm heç də bütün problemləri həll edə bilmir, çünki məhdud metodlarla məhdud varlıq aləmini öyrənir".

***Xülasə:***

1) Müasir elm hissi-empirik olub, materiyanı öyrənir;

2) Metodologiyası maddi mahiyyətləri, materiyanı, konkret-hissi dünyanı öyrənmək üçündür;

3) İmmanentlik xüsusiyyətinə malikdir.

4) Məqsəd olmayıb vasitədir, aksioloji-etik platforması yoxdur;

5) Varlığa dair əsas suallara cavab verə bilmir.

### Ateizm: mahiyyəti, metodoloji problemləri, elm və dinlə müqayisəsi

Ateizm nədir? Ateizm hər şeydən əvvəl inkardır. Çünki ateizm başlanğıcla, ibtida ilə əlaqəlidir, o, başlanğıcı inkar edir. Yəni, varlıq kateqoriyalarının ibtidada Allah tərəfindən yaradıldığını qəbul etmir. Bu baxımdan, o, inkarçı dünyagörüşüdür.

Ateizm dindirmi? Xeyr, deyildir. Çünki din ayrıca dünyagörüşü forması olub, ali qüvvəyə inamla şərtləşir, özündə əxlaq və davranış normalarını, ayinləri ehtiva edir. Ateizm isə ali qüvvəyə inanmır, ayinlərə və institusional məzmuna sahib deyildir.

Biz ateizmi müstəqil nəzəriyyə hesab etmirik, çünki ateizm immanentlik xüsusiyyətindən məhrumdur. İmmanentlik bir şeyin istifadə etdiyi metodların, gəldiyi nəticələrin öz təbiətinə xas olmasıdır. Elm immanentdirmi? Bəli, immanent-



dir, öz metodları, öz tədqiqat obyekti vardır, fəaliyyətində müstəqildir. Din immanentdirmi? Bəli, immanentdir. Din öz prinsipləri üçün öz "yanacaq"ından istifadə edir. Ateizm isə elmə möhtacdır, çünki çılpaq fəlsəfədir, başqalarının köməyinə, xüsusən, elmə ehtiyacı vardır. Din ayaqda qalmaq üçün öz anlayışlarına söykənir.

### Ateizmin metodoloji problemləri

Ateizm immanent olmadığı üçün özünəməxsus yoxlama mexanizminə, vasitələrinə sahib deyil. O, elmdən kömək istəyir, elm isə ona kömək edə bilmir. Çünki elm Allahı öyrənmir. Elmdən özünə lazım olan yoxlama mexanizmi borc götürə bilməz. Axı elmdə bu mexanizm mövcud deyil. Nə üçün? Axı elm rasional-empirik üsullarla metafizik mahiyyətləri tədqiqat obyekti seçmir.

Bu baxımdan elm elmi tədqiqatın obyekti olmayan şeyləri inkar etmir, ateizm isə edir. Burada ciddi paradoksallıq var. Ateizm özünün elmi olduğunu iddia edir, lakin elm ateizmin əsas obyekti olan Allahı öyrənmir, deməli, ilahi qüvvəni inkar və təsdiq etmək elmin işi deyil. Bu baxımdan ateizm kortəbii inkardan başqa bir şey deyildir.

Dedik ki, ateizm başlanğıcla əlaqəlidir və ilahi kreasionizmi inkar edir. Elm isə başlanğıcı izah edə bilmir. Bu haqda artıq danışmışıq. Əgər həyatın mənşəyi probleminə obyektiv yanaşılarsa, elm ateizmin xeyrinə heç nə demir. Sual veririk: SSRİ-də genetika elmini nə üçün qadağan etmişdilər? Çünki bu elmin gəldiyi bir sıra nəticələr "elmi" ateizmlə üst-üstə düşmürdü. Məsələn, indiyə qədər genetik kodun necə yaranmağı haqqında qənaətbəxş nəzəriyyə yoxdur.

Bu baxımdan müasir ateistlər həqiqəti axtarmırlar, onların məqsədi dini məhv etməkdir. Bir sıra suallara cavab verə bilmədiyi üçün hücum mövqeyi ilə öz çatışmazlıqlarını ört-basdır etmək istəyirlər.

Paradokslardan biri də budur ki, ateizm ölçülə bilən dünya ilə ölçülə bilməyən dünyanı müqayisə edir. Ateizmin təqdim etdiyi "faktlar"ı ya müasir elm inkar edir, ya da izah edə bilmir. Məsələn, ateizm təkamül nəzəriyyəsini əsas gətirməklə özünü təsdiqləməyə çalışır. Amma təkamül əşya və hadisələrin necə baş verməsinə cavab tapmır. Əgər bir şeyin necə baş verdiyini izah edə bilmiriksə, onun baş verdiyini necə iddia edə bilərik?! Fikrimizi izah edək: Təkamül nəzəriyyəsinin əsas prinsipi canlı olmayandan canlının yaranmasıdır. Hansı elm bunu sübut edib? Cansız materiyadan canlı meydana çıxarmı? Yəni, yoxdan varlıq yaranıb?! Məsələn, Lawrence Krauss bu müddəanı rədd edir, başlanğıc səbəb kimi təbiət qanunlarını göstərir!

Metodoloji kollaps ateizmi pessimist dünyagörüşü halına gətirir, nəticədə, o, ümidsizlik ifadə edir. "Mən kiməm", "Nə üçün yaşayıram", "Allahın olmadığına əmin olmaq üçün nə etməliyəm?" kimi suallara cavab verməyən bir təlimə etibar etmək olarmı, qiymətli ömrü, insan həyatını ona həvalə etmək doğrudurmu?

Nəticə etibarilə, elm bəşəriyyətə bir çox problemlərinin həllində kömək edir, ateizm isə etmir, əksinə, ilahi qüvvəni inkar edən subyektləri bəzən tərəddüdlə xarakterizə olunan psixoloji vəziyyətə salır, insana bioloji varlıq olaraq baxdığından əksər hallarda mənəvi normalardan imtina edir.

***Xülasə:***

a) Ateizm inkarçı dünyagörüşüdür, çünki əsas məqsədi Allahı inkar etməkdir;

b) Ateizm elm deyildir, çünki elm Allahı və ilahi mahiyyətləri öyrənmir, odur ki, ateizmin mövzusu ona yaddır;

c) Ateizmin immanent xüsusiyyəti yoxdur, çünki iddialarını isbatlamaq üçün elmə möhtacdır, elmi

nəticə və vasitələrdən öz məqsədi üçün istifadə edir;

d) Ateizmin əsaslandığı müddəalarla elm ya məşğul olmur, ya da bu müddəaları izah etməkdə çətinlik çəkir.

e) Ateizm problemi həll etmir, perspektiv təqdim etmir, insana bioloji varlıq olaraq baxır, aksioloji-etik normaları istisna edir, tərəddüd gətirməklə mənəvi iztirablara səbəb olur.

### İnkar adi iddia olaraq qalmamalı, nəzəriyyə halına gətirilməlidir

Nə istəyirsinizsə, düşünün, amma unutmayın ki, söhbət fantaziyadan, illüziyadan getmir, ciddi məsələdən gedir. Yəni, inkar etmək adi fantaziya ola bilməz. O, elmilik və akademik, deməli, mötəbər xarakter almaq üçün nəzəriyyə halına gətirilməlidir. Bir nəzəriyyə isə faktlara əsaslananda ciddi və tutarlı olur və bu faktları yoxlamaq, eksperimentdən keçirmək də mümkün olmalıdır.. Deməli, faktlar lazımdır, faktlar isə yoxlanılmalıdır. Verifikasiya!

Ateizm ali zəkanın, yəni Allahın olmadığını təsdiqləyən hansı faktları təqdim edir? Ümumiyyətlə, Allahın olmadığını isbatlaya bilirmi? Hansı metodologiyadan çıxış edir? Eksperimental bazası nədən ibarətdir?

Bir misala toxunaq. Bir neçə adam yığışaraq meşədə ayı gördüklərini müzakirə edir. Bu vaxt onların yanına başqası gəlir. Onların dediyini eşitdikdə təəccüblənir: "Nə! Meşədə ayı var? Harada?" Yanlarına bir neçə adam da gələrək ayını gördüklərini deyirlər. Yaxşı, meşədə ayının olmadığını isbatlamaq üçün nə etmək lazımdır? Haşiyəyə çıxaq: bir şeyi inkar etmək üçün onu təsdiqləməkdən daha çox bilik tələb olunur. Məntiqi qayda!

Savadlı və təhsilli insan Allahın mövcud olmadığına əmin olmaq üçün nə etməlidir?

Faktlar varmı? Varsa, onları necə təsdiqləmək olar? Hansı eksperimentlə?

Görünməyən, irrasional olan bir şeyi necə tədqiq edə bilərik?

Əgər inkar etdiyimiz bir şeyə dair rasional faktlarımız yoxsa və həmin şey başqa dünyagörüşünə aid məsələdirsə, deməli, metodoloji olaraq, həmin dünyagörüşünün faktlarını yoxlayacağıq. Yəni, dinin təqdim etdiyi təsəvvürləri öyrənməliyik. Metodoloji olaraq arqumentləri yoxlayırıq, dinin söykəndiyi prinsip və arqumentləri yoxlamalıyıq!

### Din nə təqdim edir?

Bəs din nə təqdim edir? İrrasional və metafizik mahiyyətlərin mövcudluğunu isbatlamaq üçün, ən azından, fərdi mənəvi təcrübə faktları təqdim edir. Və bizim qarşımızda şəxsi mənəvi təcrübəni əks etdirən faktlar var!

Bayaq soruşdum ki, savadlı və təhsilli insan Allahın mövcud olmadığına əmin olmaq üçün nə etməlidir?

O, dinin təqdim etdiyi faktları yoxlamalıdır! Bunu şəxsən həyata keçirmək mümkündür, fantastika tələb olunmur. Xaricində də, daxilində də dürüst olacaqsan! Bunun üçün qəlbinin vəziyyətinə diqqət yetirəcəksən! Bilirsinizmi, məşhur rus bəstəkarı, 52 yaşında dünyadan köçən Mixail Qlinka nə deyib? Deyib ki, gözəlliyi yaratmaq üçün gözəl qəlbə sahib olmaq lazımdır! Daxili və xarici gözəllik bir-birini tamamlamalıdır.

Unutmayaq, ilahi qüvvənin mövcud olduğunu intellekt yolu ilə təxmin etmək olar, amma Allahı yaşamaq Onu hiss etmək lazımdır. Yəni, ilahi mahiyyətlərə dair mənəvi təcrübəni əks etdirən faktları məntiqi təsəvvürlə, rasional qavrama ilə deyil, hissi, yəni sensual təsəvvürlə, qavrama ilə yoxlaya bilərik. Düzdür, nəticə fərqli olacaq, bu çəkilən zəhmətin həcmindən asılıdır. Bütün dünyəvi işlərdə eyni halla rastlaşmırıqmı?! Həm din, həm də ateizm antoqonist tərəflər olaraq bizə deyirlər: Allahın mövcud olub-olmadığını bilmək istəyirsən? Onda dinin göstərdiyi yolu yoxla, yəni o yerə get ki, ayını orada gördüklərini deyirlər. Bu sözü həm ayını görənlər, həm də bunu qətiyyətlə inkar edənlər deyirlər. Meşəyə get və sübut elə!

Din perspektiv təqdim edir: bioloji olaraq öldüyünüzdə yox olmayacaqsınız.

***Xülasə:***

a) Din insan oğlunu həmişə düşündürərək, müxtəlif fəlsəfi məktəb və təlimlərin yaranmasına səbəb olan həyatın mənşəyi, məqsədi və sonu haqqında əsas suallara birmənalı və lakonik cavablar verir;

b) İnsana bütöv varlıq olaraq baxır, onu materiya və ruhun birləşdiyi mahiyyət hesab edir, bioloji tələbatları ilə yanaşı, mənəvi ehtiyaclarını da nəzərə alır;

c) Dünya haqqında kompleks təsəvvür təqdim etməklə, insana məqsədyönlülük qazandırır.

ç) İnsanın bioloji mahiyyətinin təbiət qanunları ilə, mənəvi mahiyyətinin - ruhunun isə ilahi təlimlərlə tənzimləndiyini göstərməklə palçıq və ruhdan ibarət insana mənəvi kamillik düsturu təqdim edir.

Ateizm elm olmayıb dinə ziddir. Din isə elmə zidd deyildir. Çünki elm kainatın quruluşunu öyrənir, ikincisi isə bizə onun meydana çıxma səbəbini izah edir, bizə Allahla münasibət yaratmaq üsulunu təqdim edir.

# Yazılı abidələrimizin Çar Rusiyası dövründə başlanan faciəsi



**Məmmədəli Babaşlı,**
**i.f.d., dos.,**
**AİI-nin müəllimi**

Çar Rusiyası Azərbaycanı ilhaq etdikdən sonra, milli və dini baxımdan yad ünsür kimi gördüyü xalqımızın dilini, dinini və mədəniyyətini unutdurmaq siyasətinə üstünlük verdi. Müsəlman əhalinin zorla xristianlaşdırılması, İslamın və müsəlman ruhani zümrəsinin gözdən salınması bu siyasətin aparıcı istiqamətinə çevrildi. İslam dininə aid olmasından asılı olmayaraq, əsrlərlə istifadə etdiyimiz ərəb əlifbası ilə yazılan kitablar, məlumatlar kütləvi şəkildə yandırılıb məhv edilirdi. Müxtəlif növ imtiyazlarla Xristianlığın qəbulu mükafatlandırılır, pravoslav ruhanilərin missionerlik fəaliyyəti rəsmiləşdirilir, müsəlman məbədlərinin dağıdılması haqqında xüsusi fərmanlar verilirdi.

1828-ci ildən sonra Nizami Gəncəvinin xüsusi bir sənətkarlıqla qurulmuş, XIX əsrin əvvəllərinə qədər bütün Gəncəbasar mahalının ən böyük məqbərəsini ziyarət etmək yasaqlandı. Böyük şairin məqbərəsi rus hərbçilərinin atları üçün samanlığa çevrildi. Nəhayət, xalqın silahlı müqavimətinə rəğmən rus imperatorluğunun köməyi ilə onun sənət nümunəsi olan başdaşı fransızlar tərəfindən sökülüb Parisə aparıldı. Milli-memarlıq incilərindən Şirvanşahlar sarayındakı nadir maddi yazılı abidələr işğalçı rus əsgərləri tərəfindən nişangaha çevrildi.

Bu dövrdə Azərbaycan kitab mədəniyyətinin ən böyük talanlarından birinə, şübhəsiz ki, Ərdəbil şəhərində yerləşən "Darül-irşad" və ya Şeyx Səfi kitabxanaları məruz qaldı. Elmi-mədəni əhəmiyyəti baxımından, Orta Şərqin sayılı kitab xəzinələrindən sayılan və təxminən, beşəsrlik tarixə malik olan "Darul-irşad" Şah İsmayılın oğlu Şah Təhmasibin və nəvəsi Şah Abbasın himayədarlığı sayəsində zəngin bir xəzinəyə çevrildi. Uzun əsrlər boyu Yaxın və Orta Şərqin, eləcə də Azərbaycanın görkəmli katib, xəttat və digər kitab sənətkarlarının gərgin əməyinin məhsulu kimi meydana gələn elm və mədəniyyət xadimləri əsərlərinin ən nadir nüsxələri məhz bu kitabxanada toplanıb. Bu kitab xəzinəsi başqa Şərq xalqlarının yazılı abidələri və Azərbaycan mədəniyyət tarixi ilə bağlı çoxlu miqdarda əlyazmalarla da zəngin idi. Uzaq keçmişin çoxsaylı dəyərli incilərinin toplandığı kitabxanada Şeyx Sədinin öz avtoqrafı ilə Şeyx Səfiəddin İshaqa bağışladığı "Divan"ı kimi nadir nüsxələr var idi. Bir çoxunu miniatür boya sənətinin inciləri olan şəkillər bəzəyən dəri və kağız üzərində yazılmış həmin əlyazma əsərlərinə kitabxananı ziyarət edən Orta əsr Avropa alimləri də heyran qalırdı.

Rus tarixçisi V.Pottonun "Bütün Şərqdə şöhrət tapmış əlyazma kitabxanası" adlandırdığı həmin kitabxananın başına gətirilənlər utancverici bir hadisə kimi rus dövlətçilyi və elmi tarixində qara ləkə kimi qalacaqdır. Belə ki, bu kitabxananın Rusiyaya gətirilməsi alimlərin təklifi ilə dövlət səviyyəsində düşünülərək, silah gücünə, oğurluq və yalançılıqla həyata keçirilib. Əvvəlcə kitabxanadakı əlyazma nüsxələrinin elmi dəyərinə yaxından bələd olan rus şərqşünası, Peterburq Universitetinin professoru O.İ.Senkovski həmin xəzinəni ələ keçirmək məqsədilə "İran kitabxanalarında saxlanılan nadir Şərq əlyazmalarının alınması barədə layihə" hazırlayaraq, Rusiya Baş Qərargahının rəisi general İ.İ.Dibiçə təqdim etmışdir. Layihə müəllifini və onun havadarlarını ən çox Zaqafqaziyanın, xüsusilə Azərbycanın tarixinə dair kitablar maraqlandırıb. Baş Qərargah rəisi də öz növbəsində, bu işi Qafqaz Rus Ordusunun baş komandanı İ.F.Paskeviçə həvalə edib. Sonuncunun tapşırığı ilə kitabxananın ələ keçirilməsi Rusiyanın İrandakı diplomatik missiyasının rəhbəri Aleksandr Qriboyedovun öhdəsinə düşüb. Nəhayət, qarşıya qoyulmuş məqsədə çatmaq naminə hər cür vasitəni məqbul hesab edən A.Qriboyedovun təklifi ilə Qarabağdan general P.Suxtelinin başçılığı altında ayrıca bir qoşun Ərdəbilə göndərilib. Kitabların aparılmasının xalqın qəzəbinə səbəb olacağından çəkinən Suxteli riyakarlığa, hiylə və yalana əl atıb. Onun ilk işi müsəlmanların müqəddəs yerlərinə hörmətini sübuta yetirmək üçün böyük bir İran xalçası bağışlamaq olub. Generalın hədiyyəsinin minnətdarlıqla qəbul edilərək Şeyx Səfi ilə Şah İsmayı-

lın məzarları arasına sərilməsi faktı məqsədin hasil olduğunu sübut edirdi.

Daha sonra isə şəhərin nüfuzlü üləmalarına müraciət edən general, guya, Rusiya Hökumətinin özünün çoxsaylı müsəlman təbəələrinin mənəvi tərbiyəsi və rifahının qayğısına qaldığını əsas gətirərək, kitabxanadakı bütün kitabların üzünün köçürülməsi məqsədilə Peterburqa göndərilməsinə razılıq vermələrini xahiş edib. Yerli ruhanilər əvvəlcə Suxtelinin kitabların xəttatlar tərəfindən üzü köçürüldükdən sonra geri qaytarılacağına dair vədinə inamsızlıqla yanaşıblar. Sonuncunun onlarla bərabər məscidə gedərək, rus imperatorunun hədiyyəsi kimi içində 800 çevron olan bir kisə qızılı Şeyx Səfinin məzarı üzərinə qoymasından sonra lazımi razılıq alınıb. Əsərlərin üzünün köçürülməsinin başa çatmadığını düşünən yerli əhali öz əlləri ilə milli-mənəvi mədəniyyətin zəngin bir xəzinəsini həmişəlik Rusiya mülkiyyətinə təhvil verdiklərini uzun müddət anlaya bilməyib. Türkmənçay müqaviləsinin müddəaları arasında yer almayan və Rusiya Hökumətinin hərbi qənimət kimi dəyərləndirdiyi həmin əlyazmalar hələ də Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kitabxanasının Əlyazmaları Fondunda, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu Sankt-Peterburq şöbəsinin kitabxanasında və bu akademiyanın Sankt-Peterburq arxivində saxlanılır. Təəssüflər olsun ki, Rusiya tərəfindən düşünülmüş, dövlət siyasəti səviyyəsində həyata keçirilən bu hadisə Azərbaycanın çoxsaylı maddi-mənəvi abidələrinin itirilməsi və məhv edilməsinin başlanğıcı olub. Bununla da elm tariximiz nəfis elmi-ədəbi əsərlərlə yanaşı, Azərbaycanın qədim və Orta əsrlər tarixinə dair qiymətli



mənbələrdən məhrum edilib, həm də tariximizin saxtalaşdırılması üçün bədxahlarımızın əlinə fürsət düşüb.

Maraqlı burasıdır ki, Şeyx Səfi türbəsindəki kitabxananın faciəsi bununla bitməyib. Həmin kitabxananın yerləşdiyi Çinixana qismi 1934-cü ildə Rza şah Pəhləvinin məmurları tərəfindən yenidən qarət edilib, qəsb edilmiş əşyaların bir qismi Şah sarayına, bir qismi isə Tehrandakı Qədim İran Muzeyinə verilib. Bu gün kitabxanaya məxsus bir sıra abidələrin sorağının "İraniBasitan" Muzeyindən, Berlin və Vatikan Apostol kitabxanalarından gəlməsi bir daha Azərbaycanın ən böyük mədəniyyət mərkəzlərindən birinin yadellilər tərəfindən talan edilməsinin əyani sübutudur.

Bu qəbildən olan əvəzolunmaz itkilərdən biri də Paskeviçə verilən "yüksək imperator buyruğu" çərçivəsində Rus imperiyası tərəfindən talan edilmiş elm və mədəniyyət ocaqlarından sayılan Axalsixidə yerləşən "Əhmədiyyə" kitabxanasıdır. Orta əsr Şərq mütəfəkkirlərinin əsərlərinin dəyərli əlyazma nüsxələrinin saxlanıldığı həmin kitabxana Əhmədi paşa adlı bir şəxs tərəfindən bina edilərək, onun adını daşıyan məscidin nəzdində yerləşib. Kitabxanaya ayrı-ayrı şəxslər tərəfindən vəqf edilmiş əlyazma nüsxələri yeddi xəzinədə toplanmış və əsasən, elmi əsərləri, dərslikləri əhatə edib. Rusiya-Türkiyə müharibəsi zamanı Axalsixi şəhəri general N.N.Rayevskinin qoşunları tərəfindən işğal edildikdən sonra, Paskeviçin yanında tərcüməçi olan Abbasqulu ağa Bakıxanov polkovnik N.N.Muravyovla birlikdə hərbi qənimət kimi, "Əhmədiyyə" kitabxanasının ən qiymətli əlyazmalarının aparılması haqqında əmr alıblar. Tarixi mənbələrin verdiyi məlumata görə, 1828-ci ilin sentyabr-oktyabr aylarında A.Bakıxanov həmin kitabxanadan 148 ədəd elmi cəhətdən çox əhəmiyyətli və nəfis əlyazma kitablarını, həmçinin Qurani-Kərimin iki nadir nüsxəsini seçərək, onların siyahısını tərtib edib. Beləliklə, birbaşa elm üçün yazılmış

əsərlər və dərsliklərdən ibarət olan bu zəngin elm ocağı yadelli işğalçılar tərəfindən talanıb, orada olan əlyazmaların bir qismi Sankt-Peterburqa aparılıb. Xalqımızın mədəniyyət tarixindən bəhs edən yerdə qalan kitablar isə ayrı-ayrı əllərə düşərək Tiflisdə bədxahlarımız tərəfindən gizlicə məhv edilib.

XIX əsrin böyük alimi, pedaqoqu və kitabsevəri Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasına daxil olan və günümüzə qədər gəlib-çatmış son dərəcə qiymətli bir mənbə sayılan əlyazma nüsxəsi ilə təsəlli tapsaq da, itirdiklərimizin sayı qat-qat çoxdur. N.Tusinin Şərqin böyük mütəfəkkiri İbn Sinanın ”əl-İşarət vət-tən-bihat fil-məntıq vəlhikmə” adlı fəlsəfi traktatına yazdığı, XIII əsrin sonu XIV əsrin əvvəllərində köçürüldüyü ehtimal olunan bu nadir və əlimizdəki yeganə nüsxə hal-hazırda AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Bir zamanlar sahib olduğumuz mədəniyyət və elm incilərinin əksəriyyətinin aqibəti heç də uğurlu olmayıb. Fransız yazıçısı Aleksandr Dümanın (ata) Xalisəqarızadənin şəxsi kitabxanasının apardığı və qaytaracağına söz verdiyi üç qiymətli əlyazma nüsxəsinin aqibəti də istisna təşkil etmir.

İtirilmiş mənəvi sərvətdən bəhs edərkən onu da vurğulamaq lazımdır ki, əlyazma və kitablar, sadəcə, məşhur elm mərkəzləri, mədrəsə və ümumi kitabxanalarda toplanmayıb. Azərbaycanda son dərəcə qiymətli əlyazma və çap məhsullarının toplandığı şəxsi kitabxanalar, habelə məscid kitabxanaları da mövcud olub. Ərdəbil və Axalsıx məscidlərindən ələ keçirilən kitabxanalar təhsil və mədəniyyət mərkəzlərindəki məscid kitabxanalarının zənginliyi barəsində müəyyən təsəvvür yaradır.

XIX əsr ziyalılarının şəxsi kolleksiyalarında olan əlyazma və çap kitabları da dəyər baxımından heç də geri qalmırdı. Elm və mədəniyyət tariximiz üçün əksəriyyətini əlyazmaların təşkil etdiyi itirilən belə zəngin kolleksiyalardan biri də bibliofil Abbasqulu ağa Bakıxanova məxsus olub. Şərq ədəbiyyatı və tarixinə aid həm maddi, həm də mənəvi baxımdan son dərəcə qiymətli əsərləri əhatə edən bu kolleksiyanın şöhrəti Tiflisə və Peterburqa da çatıb. Elə buna görə də Bakıxanovun ölümündən bir neçə gün sonra Qafqaz canişini M.S.Vorontsovun tapşırığı ilə qafqazşünas alim N.V. Xanıkov həmin kitabxananı satın almaq üçün Qubaya gəlib. Naməlum səbəblərdən bu nadir kitabxana pulla satılmayıb, 1850-ci illərin əvvəllərində A.Bakıxanovun xanımı tərəfindən tam şəkildə Peterburq Universitetinə bağışlanıb. Mirzə Kazımbəyin Şərq və Qərb dillərində nadir kitablardan ibarət şəxsi kitabxanası da alimin ölümündən sonra Peterburq Unuversiteti tərəfindən alınıb.

Beləliklə, sadəcə, yadellilərin məkrli planları, soydaşlarımızın biganəliyinin, sadəlövhlüyünün qurbanı olmuş yazılı abidələrin itkisi Azərbaycanın kitab mədəniyyətinə vurulmuş sağalmaz yara kimi qalır. XX əsrin əvvəllərində Qafqazda baş verən erməni-müsəlman münaqişəsi zamanı müxtəlif yerlərdə ermənilər yüzlərlə, minlərlə Quran nüsxələrini, məscidlərin nəzdindəki əlyazma əsərlərini yandırmaqla mənəvi irsimizə ağır zərbələr vurublar. Milli mədəniyyətimizə bu qəbildən olan qəsdlər arasında istisna təşkil edən fərdi hadisələr də olub. Belə epizodlardan biri də görkəmli şair Mirzə Şəfi Vazehlə bağlıdır.

“Divani-hikmət” adlı ədəbi məclisdə ondan Şərq poeziyasının özünəməxsus çalarlarını öyrənən Fridrix Martin fon Bodenştedt vətəni Almaniyaya qayıdan vaxt tərcümə etmək məqsədilə yeganə əlyazma nüsxəsindən ibarət şeir məcmuəsini də özü ilə aparır. Həmin şeirlərin bir qismini alman dilinə tərcümə edərək özünün tarixi-etnoqrafik əsəri olan “Şərqdə min bir gün” kitabına daxil edir. Sonra Mirzə Şəfi barəsində xatirələrində yazan F.Bodenştedtd şeirləri ayrıca kitab şəklində çap etdirmək fikrinə düşdüyünü bildirir. 1851-ci ildə o, Mirzə Şəfinin şeirlərini “Mirzə Şəfinin nəğmələri” başlığı altında nəfis şəkildə çap etdirir. Şeirlərin Avropada sürətlə yayılaraq başqa dillərə də tərcümə edildiyini, bəstəkarların diqqətini cəlb etdiyini və müəllifinə böyük şöhrət qazandırdığını görən F.Bodenştedt 1870-ci ildə “Mirzə Şəfinin sələfindən” adlı ikinci bir kitabça çap etdirərək, şeirlərin özünə məxsus olduğunu və Mirzə Şəfi adının onun “ədəbi təxəllüsü” olduğunu iddia edir. Bununla da bir vaxtlar Mirzə Şəfinin dostuna çevrilən və etimadından sui-istifadə edən F.Bodenştedt müəlliminin irsinə kölgə salmaqdan çəkinməyib.

Bəhs etdiyimiz itkilərin yerini doldurmaq üçün çalışıb müxtəlif yollarla Azərbaycandan aparılaraq, dünyanın müxtəlif kitabxana və muzeylərində saxlanılan yazılı abidələrimizin, ən azından, surətlərinin əldə edilməsi və elm aləminə təqdim olunması əhəmiyyət kəsb edir.

# "NİCAT" və "SƏADƏT" xeyriyyə cəmiyyətlərinin Azərbaycan təhsil tarixində yeri



**İradə Tağıyeva,**
**f.f.d., AİI-nin müəllimi**

Xeyriyyə cəmiyyətlərinin tarixindən bəhs edərkən əvvəlcə onun yaranmasına təsir göstərən cədidçilik hərəkatından bəhs etmək əhəmiyyətlidir. XIX əsrin ikinci yarısından etibarən Rusiyada yayılmağa başlayan cədid hərəkatı 1905-ci il inqilabından, xüsusilə 17 Oktyabr manifestindən sonra daha aktiv bir şəkildə tarix səhnəsinə çıxmışdır. Bu aktivlik özünü ilk mərhələdə üsuli-cədid məktəblərinin açılması, klassik məktəb və mədrəsələrin bir qisminin üsuli-cədidə görə yenidən formalaşdırılması şəklində büruzə vermişdir. İkinci mərhələdə isə təxminən, inqilabdan sonrakı dövrdə, cədidçilik maarif hərəkatı olmaqla yanaşı, Rusiya müsəlmanlarının siyasi, iqtisadi və sosial sahələrdəki problemlərinə istiqamət verən bir hərəkata çevrilmişdir. Bu prosesdə müsəlmanların müxtəlif problemlərinin həlli istiqamətində çalışmalara başlanaraq, 1905-ci ildə keçirilən Rusiya müsəlmanları qurultayları təşkil olunmuşdur. Bu qurultaylarda müsəlmanların əsasən siyasi və sosial məsələləri, din və təhsil sahələrindəki problemləri prioritet mövzular olmaqda idi. Din haqqında aparılan müzakirələrdə millətlərarası, dinlərarası və məzhəblərarası tolerantlığa diqqət yetirilmiş, müsəlmanların dini qurumları ilə bağlı məsələlər gündəmə gətirilmişdir. Təhsil mövzusundakı iclasda isə üsuli-cədid məktəblərinin, yeni metodlu məktəb və mədrəsələrin, yeni metoddan xəbərdar ixtisaslı kadrların sayının artırılması hədəf olaraq qəbul edilmişdir. Təhsil müəssisələrinin artması bölgələrdə milli təhsilin inkişafı üçün maddi qaynağa ehtiyacın da çoxalması mənasına gəlirdi. Buna görə də qurultayın qərarı ilə bütün müsəlman bölgələrində təhsil üçün lazımi maliyyə tələblərini qarşılayacaq xeyriyyə cəmiyyətlərinin açılması müəyyənləşdirilmişdi. Spesifik olaraq Azərbaycanda da eyni proseslərin davam etdiyini tarixi mənbələrdən görmək mümkündür. Xeyriyyə cəmiyyətlərinin qurulması mərhələsinə baxsaq, hələ qurultaydan əvvəlki dövrdə H.Zərdabinin xeyriyyə qurumunun yoxsul uşaqların təhsilinə yardım məqsədilə öz işini həyata keçirdiyini görürük. Maliyyə problemlərinə bağlı olaraq uzun müddət fəaliyyətini davam etdirə bilməsə də, bu qurum milli tarixdə ilk xeyriyyə quruluşu vəzifəsini daşımışdır. Rusiya müsəlmanları qurultaylarının qərarları istiqamətində isə 1905-1906-cı illərdə "Nəşri-maarif", "Nicat", "Səadət", "Səfa" kimi xeyriyyə cəmiyyətləri müasir dövrümüzdə də nümunə təşkil edəcək böyük təhsil fəaliyyəti ilə çıxış etmişdir. Araşdırmanın mövzusuna uyğun olaraq yalnız "Nicat" və "Səadət" cəmiyyətlərinin milli maarifin inkişafındakı roluna toxunulacaqdır.

### "Nicat" xeyriyyə cəmiyyəti

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Nəşri-maarif" ilə əməkdaşlıq edən və onunla eyni ildə təsis olunmuş məşhur qurumlardan biri "Nicat" xeyriyyə cəmiyyəti idi. 1906-cı ildə nizamnaməsi qəbul olunan cəmiyyətin məqsədi müsəlmanlar arasında təhsili yaymaq, ibtidai, orta və ali təhsil müəssisələrində təhsil alan müsəlman tələbələrə Ana dili və ədəbiyyatın inkişafına maddi-mənəvi dəstək göstərmək şəklində müəyyənləşdirilmişdi. Bu məqsədləri həyata keçirmək üçün quruluş mövcud məktəblərə köməklik göstərməyi, yeni məktəblərin açılmasında başqa quruluşlarla əməkdaşlıq etməyi, ya da öz hesabına açdığı məktəblərdə yataqxanalar, professional kurslar və xalq kitabxanaları açmağı, kitab, dərslik, broşür, qəzet və jurnallar çap etdirməyi, məktəblərə təcrübəli müəllimlər tapmağı, pedaqoji kurslar və müəllim qurultaylarını təşkil etməyi, mövcud məktəblərdə və ya cəmiyyətin açdığı özəl məktəblərdə təcrübəli müəllimlər vasitəsilə milli müəllimlər yetişdirməyi, müsəlman şairlərin və yazıçıların bioqrafiyasını, əsərlərini nəşr etməyi, müsəlman şəhərlərində cəmiyyətin şöbələrini açmağı və s. planlaşdırmış və müəyyən ölçüdə müvəffəqiyyət qazanmışdı. "Nicat" və "Nəşri-



maarif" xeyriyyə cəmiyyətlərinin nizamnamələri müqayisə edildikdə böyük ölçüdə bənzərliyin olduğunu görmək mümkündür. Bu da hər iki cəmiyyətin hədəf və məqsədlərinin eyni olduğunun və ümumilikdə, formal və qeyri-formal təhsil sahələrində modern tələblərə uyğun inkişafı təmin etməyin ən əsas istiqamət olduğunun göstəricisidir.

"Nicat" cəmiyyəti 1906-1910-cu illərdə Bakı, Gəncə, Şamaxı, Ağdaş, Nuxa , Lənkəran şəhərlərində ibtidai məktəblər açmış, 1916-cı ildə isə ibtidai məktəblərin sayı 30-a çatmışdır. Polkovnik Pastuxovun 1911-ci il hesabatına görə, "Nicat"ın Şamaxı, Ağdaş və Göyçay məktəblərində cəmiyyətin şöbəsi kimi məktəb komitəsi mövcud olmuş, məktəblərə müəllim və ya başqa vəzifə sahibləri bu komitə tərəfindən seçilmiş və "Nicat"ın idarə heyətinin təsdiqinə təqdim edilmişdir. Maddi imkanlara görə 4, 6 və 8 illik məktəblər qurulmuş və lazım olduğunda cəmiyyət tərəfindən müəyyən məbləğdə yardımlar göstərilmişdir.

Dövlət məktəbləri ilə cəmiyyətin üsuli-cədid məktəbləri arasındakı fərqi Pastuxov belə açıqlamışdır: "Bu məktəblərdə tədris türkcə və ərəbcədir. Rusca yalnız üçüncü ya da dördüncü siniflərdə hər gün bir saat öyrədilir. Bütün dərslər türkcə keçilir. Ərəbcə qrammatika və Quran dərsləri ərəbcə keçilir. İslam tarixi və Türkiyə tarixi, coğrafiya və digər elmlər də türkcə tədris edilir. Bu məktəblərin bəzilərində gimnastika da öyrədilir. Demək olar ki, bütün dərs kitabları Türkiyədən gətirilmişdir. Müəllimlərə gəlincə, əhali hər zaman onları türklərdən seçməyə çalışır, olmadığında isə Türkiyədə təhsil almış kəslərdən seçilirdi. Türk müəllimlər isə həmişə məktəb müdürü ya da məktəb komitəsi başçısı təyin edilirdi...".

Müsəlman cəmiyyətinin türk müəllimlərə qarşı böyük hörmətinin olduğu, xeyriyyə cəmiyyətləri tərəfindən təşkil edilən məclislərdə həmin müəllimlərlə görüşdüyü və ictimaiyyətin maraqlandığı sualları cavablandırdığı həmin hesabatda ifadə edilmiş və ümumən üsuli-cədid məktəblərinin məqsədi vurğulanmışdır: "Üsuli-cədid məktəblərinin məqsədi Qafqaz müsəlmanlarının

türklərlə ortaq dilə sahib olmaları, onların adət və ənənələrini bilmələri, ruslaşmadan qaçmaları və bədənən və ruhən türk olmaları idi... Bütün bu məktəblər nə tədris popeçiteli, nə də idarə tərəfindən nəzarət altında deyil...".

"Nəşri-maarif" hesabatlarında olduğu kimi, burada da "Nicat"ın nəzarət altında saxlanması, rus qanunları xaricinə çıxılmaması xüsusilə qeyd olunurdu. Rus məmurları xeyriyyə cəmiyyətləri və məktəbləri mövzusuna olduqca diqqətli və detallı yanaşsalar da, müsəlmanlar Bakı Şəhər Duması, dövlət məktəbləri müdirliyi, bələdiyyələr ilə əməkdaşlıqdan çəkinməmiş və bu əlaqələri ilə məqsədlərinin millətin təhsil səviyyəsinin yüksəldilməsindən başqa bir şey olmadığını göstərmişdir.

Türkiyədən dəvət edilən müəllimlər və gətirilən dərsliklərə gəlincə, bu, qısa bir müddətdə çox sayda milli məktəblərin açılması nəticəsində yaranan müəllim və dərslik ehtiyacına bağlı olaraq ortaya çıxmışdır. Azərbaycandakı məktəb və mədrəsələrdə şəriət, din tarixi və İslam tarixi dərslərini tədris edəcək təcrübəli müəllimlərin fəaliyyət göstərməsinə baxmayaraq, fənn dərsləri üçün nə ixtisaslı kadr, nə də dərsliklər mövcud idi. Mədrəsələrdə istifadə edilən elmi kitablar müasir tələblərə cavab vermir, yeni dərsliklərin yazılması üçün isə vaxt lazım idi. Belə bir şəraitdə coğrafi baxımdan daha yaxın və ən vacibi məktəb strukturu etibarilə daha modern türk dərslikləri vasitəsilə bu problemin həllinə çalışılmışdır. Təhsilin tamamilə milliləşdirildiyi, eyni zamanda, orta və ali təhsil müəssisələrinin açıldığı AXC dövründə də eyni problemlərlə qarşılaşılmış və vəziyyətdən çıxış yolu olaraq Türkiyədən müəllim heyətinin dəvət edilməsi uyğun görülmüşdür.

"Nicat"ın maarif fəaliyyətinə gəlincə, xalq kitabxanalarında oxucuların sayı sürətlə artır və burada gigiyena, yoluxucu xəstəliklər, xüsusilə vəba haqqında seminarlar keçirilirdi. Bununla yanaşı, cəmiyyət bəzi məktəblərin nəzdində yetişkinlər üçün cümə və axşam kursları da təşkil etmişdi. Cəmiyyətin axşam kursları ilə əlaqəli hesabatında 1909-1910-cu ildə oktyabr-aprel aylarında hər gün iki saat verilən dərslərə 240 nəfər qatılmışdır; siniflər isə savadsız, azsavadlı və savadlı olmaqla üç qrupa bölünmüşdü. 1910-1911-ci tədris ilində isə yaşları 20-50 arasında dəyişən 115 tələbədən ibarət kursda tacirlər, sənətkarlar, çəkməçilər üstünlük təşkil edirdi.

1911-ci ildə şəhər məktəbindəki axşam kursunu ziyarət edən dövlət məktəblərinin II bölgə müfəttişi Qənizadə tələbələr arasında fəhlələrin, əsnafın, mollaların da olduğunu ifadə etmişdir. O, kursda təhsil alanların əsas məqsədinin gündəlik ehtiyaca çevrilən rusca qrammatika və danışma olduğunu vurğulamış, əhalinin marağını və kursların fəaliyyətini təqdir etmişdir: "...Bu baxımdan, kurslar dinləyicilərin tələblərini qarşılamaqdadır. Daha keçən il "Nicat"ın kurslarını bir neçə dəfə ziyarət etmişdim və hər dəfəsində aydınlanma üçün yanıb tutuşan yüzlərlə gənc və yaşlının dərslərə həvəslə qatılımı kimi xoş bir gerçəyin şahidi olmuş və əxlaqi məmnuniyyət qazanmışdım...".

Kursların tədris planına gəlincə, burada rusca (həftədə 6 saat), türkcə (3 saat) və riyaziyyat (3 saat) dərsləri keçilirdi. Bununla yanaşı, təbiətşünaslıq, gigiyena, tarix və fizika mövzularına da yer verilirdi. Mahmudbəyovun "Əlifba", "Yeni məktəb" və rus-müsəlman məktəbi müəllimlərinin hazırladığı "İkinci il" kitabları Ana dili dərslikləri olaraq istifadə edilirdi. Kursların müəllim heyəti, adətən, rus-müsəlman məktəblərindən və şəhər məktəblərindən dəvət edilir, kurslar da bu məktəblərin nəzdində fəaliyyət göstərirdi.

Cəmiyyət milli maarifin inkişafı, təhsil problemlərinin müzakirəsi və həlli üçün layihələrin hazırlanması məqsədilə müəllimlər qurultayı təşkil edirdi. Arxiv sənədinə görə, 1916-cı ildə baş tutan Bakı Müsəlman Müəllimlərinin Qurultayında ibtidai, orta və ali təhsildə din təhsili, müsəlman uşaqların məktəbəqədər təhsili (uşaq bağçalarının açılması, qarışıq təhsilin təşkili), müsəlmanların tələbləri istiqamətində dövlət məktəblərinin, ana dili və din təhsili proqramının yenidən formalaşdırılması, peşə məktəblərinin açılması, müsəlman qızların təhsili (ibtidai və peşə məktəbləri, müəllim seminariyalarının açılması), şagirdlərin bədən tərbiyəsi (gimnastika, oyunlar, idman, gəzinti, məktəbdə səhər yeməyi və

s.), məktəb xaricində təhsil (kitabxanalar, muzeylər, Cümə və axşam kursları və s.), müəllim seminariyaları, dərsliklər və s. kimi mövzular müzakirə olunmuşdur.

"Nicat" milli kadrların hazırlanması istiqamətində də səy göstərmiş və 1909-cu ildə məsələ ilə əlaqəli Bakı şəhər merinə müraciət etmişdir. Müraciətdə Qori seminariyasının türk dili şöbəsinin Tiflisdən Bakıya köçürülməsini və müstəqil seminariya kimi fəaliyyət göstərməsini bildirmişdir. Cəmiyyət Azərbaycanda digər şəhərlərin əhalisinin də seminariya tələbinin olmasına baxmayaraq, Bakının mərkəz seçilməsini bu meyarlarla əlaqələndirmişdir. Bakı müsəlman əhalinin sayına görə ən əhəmiyyətli şəhərdir; burada kadr ehtiyacının olduğu çox sayda rus-müsəlman məktəbləri mövcuddur; bu məktəblərlə yanaşı məscid məktəbləri də fəaliyyətini davam etdirir; "Nəşri-maarif", "Səadət" və "Nicat" xeyriyyə cəmiyyətləri yeni məktəblər açır və beləliklə, kadr ehtiyacı hər il artır; seminariyaların adətən mərkəzi şəhərlərdə açıldığını nəzərə çatdıran cəmiyyət Şərqi Qafqaz və Dağıstanın mərkəzi şəhərinin Bakı olduğunu ifadə etmişdir. Uzun müddət aparılan yazışmalara baxmayaraq, rəhbərlik şöbənin yerində hər hansı bir dəyişiklik etməmiş, yalnız burada türkcə dərslərin sayını artırmaqla kifayətlənmişdir (6). Hökumət seminariya, institut kimi qurumların müsəlman şəhərlərində açılmasına razı olmasa da, hər bir sahədə inkişafın baş verməsi, ictimai oyanış, bu istiqamətdə kütləvi tələblər qarşısında müqavimətini itirmiş və 1914-cü ildən etibarən bir neçə şəhərdə seminariyalar açılmışdır.

"Nicat" cəmiyyəti təhsillə yanaşı, incənət sahəsində də müəyyən işlərə imza atmışdır. Cəmiyyətin nəzdində qurduğu teatrda əsasən milli əsərlər səhnələşdirilir, yığılan pullar şagird və tələbələrə paylanırdı. Cəmiyyətin təşəbbüsü ilə "Leyli və Məcnun" operası ilk dəfə 1908-ci ildə nümayiş etdirilmişdir. "Nicat"ın incəsənətdəki fəaliyyətləri teatr ilə məhdudlaşmamış, bəzi incəsənət xadimlərinə Rusiyada və xaricdə təhsil alması üçün maddi dəstək də vermişdir.

### "Səadət" xeyriyyə cəmiyyəti

Qeyd olunan məşhur cəmiyyətlər arasında "Səadət" xeyriyyə cəmiyyəti əsasən orta təhsil sahəsindəki fəaliyyəti ilə məşhur idi. Bakı müsəlman ruhani cəmiyyəti olan "Səadət"in 7 iyun 1907-ci ildə nizamnaməsi qəbul edilmişdir. "Səadət"in məqsədi Bakıdakı klassik məktəb və mədrəsələri islah etmək, dövrün tələblərinə uyğun cədidüsullu mədrəsələr, müəllim institutları, digər orta və ali təhsil müəssisələri açmaqdı. Bu məqsədlərə çatmaq üçün cəmiyyət, xalq kitabxanaları açmağı, şagirdlərin, tələbələrin mütaliəsi üçün kitablar, dərsliklər, sorğu kitabçaları nəşr etdirməyi, ali dini məktəblər və mədrəsələr üçün təcrübəli müəllimlər tapmağı, pedaqoji kurslar və müəllimlər qurultayını təşkil etməyi, klassik məktəblərin uğurlu məzunlarını Rusiyanın və xarici ölkələrin ali məktəblərinə göndərməyi, axşam kursları təşkil etməyi, yeni məktəb və mədrəsələrdə tələbə yataqxanaları açmağı və s. hədəflərinə daxil etmişdi.

Cəmiyyət 1907-ci ildə Bakıda "Səadət" mədrəsəsi adlı orta təhsil müəssisəsi açmış və xalq tərəfindən böyük rəğbətlə qarşılanmışdı. İlk və orta siniflərdə şagirdlərə orta səviyyədə ümumi təhsil, böyük siniflərdə isə din xadimi yetişdirmək məqsədilə din təhsili verilməsi mədrəsənin təməl hədəfləri şəklində müəyyən edilmişdi. Hazırlıq sinfinə bir qayda olaraq, tamamilə təhsil almamış uşaqlar alınır və burada ərəbcə-farsca əlavə edilməklə rus-müsəlman məktəblərinin proqramına uyğun dərslər tədris edilirdi.

Mədrəsənin tədris planına elmihal, şəriət, Qurani-Kərim, fiqh, əqaid, İslam tarixi, türkcə, farsca, ərəbcə, rusca, almanca, hesab, coğrafiya, təbiət tarixi kimi dərslər daxildi. Mədrəsənin ruhani seminariyanın proqramına uyğun hazırlanmış əvvəlki tədris planında kəlam, fransızca, üsuli-dəftəri (mühasibə), hikməti-təbiiyyə (fizika), kimya, əsasi hifzis-sıhha (gigiyena), elmi-heyət (kosmoqrafiya), qavanini hökümət (siyasət) dərsləri də yer almaqdaydı. "Səadət" mədrəsəsi dil və elmlərlə zəngin, eyni zamanda gimnaziya və real məktəblərin proqramına bənzər şəkildə hazırlanan tədris planı və ödənişsiz təhsil verməsi səbəbiylə müsəlman məktəbləri arasında müasir tələbləri qarşılayan bir qurum olaraq milli maarif tarixində əhəmiyyətli yerə sahibdir.

Bakı qazısının 1918-ci il hesabatına görə, mədrəsədə 1913-cü ilə qədər Əli bəy Hüseynzadənin tədris proqramı, 1913-1915-ci il müddətində başqa bir proqram, 1915-1918-ci ildə ruhani seminariyasının, 1918-ci ildən etibarən yenə Hüseynzadənin proqramı əsasında təhsil verilməkdəydi. 1918-ci ildə mədrəsədə üç şöbə və bir sinif mövcud olub, dörd müəllim təlim-tərbiyə fəaliyyətini



davam etdirirdi. Müəllimlərin maaşı Bakı Dumasının qərarı ilə tədris edilən dərslərə görə müəyyən edilirdi. Lakin qazi son vaxtlarda müəllimlərin maaş ala bilmədikləri üçün başqa dövlət məktəblərində də işləmək məcburiyyətində qaldığını bildirmişdir. Məsələn, mədrəsə müdiri II gimnaziyada, müəllimlərdən molla Mirzə Ağa II real məktəbdə şəriət dərsləri aparırdı. Qazi müəllimlərin bu cür məktəblərdə yaxşı maaş qarşılığında işlədiyinə baxmayaraq, mədrəsəni buraxmadıqlarını da dilə gətirmişdir. Hesabata görə bu dövrdə məktəbdə cəmi 115 şagird mövcud olub, hamısı ödənişsiz təhsil alırdı.

Mədrəsənin gəlirlərini hər il ruhanilərdən, Peyğəmbərin mövludundan və başqa yardımlardan yığılan ianələr təşkil edirdi. O, 1913-cü ilə qədər Bakı Şəhər İdarəsinə, 1918-ci ilə qədər Maarif Nazirliyinə, bu dövrdən sonra isə cümhuriyyətin Məşixət idarəsinə tabe edilmişdir. Mədrəsənin mövcud vəziyyətini və problemlərini açıqlayan qazi onun inkişaf etdirilməsi üçün AXC hökumətinə belə bir müraciətlə çıxış etmişdir: *"İdarənin nəzarətində hal-hazırda mədrəsənin küsuratı, təcrübəli müəllimlərin olmaması, müdirin fəaliyyətsizliyi, müəllimlərə vaxtında məvacib verilməməsi (buna da səbəb idarənin pulunun olmamasıdır) və üzvlərin mədrəsə barəsində çalışmamaları, yəni ildə bir dəfə də olmuş olsa mədrəsəni təftiş edib küsuratını, maddi və mənəvi tərəfini nəzərə almamaları və dəxi bir çox səbəb olmuşdur. Lakin şagirdlərin azalmasına mədrəsənin idarəsinin mülkünü dəyişmək, müdirin fəaliyyətsizliyi mədrəsənin fəna bir halda nəzarət olması səbəb olmuşdur. Bəli, müxtəsəri-kəlam 1906-cı ildən davam edən ali bir mədrəsənin şimdi payimal olmasını nəzərə alıb çalışmamız ən birinci səylərdəndir".*

Qazinin müraciətindən sonra 1919-cu ilin yanvarında hökumət lazımi məlumatların toplanması məqsədilə mədrəsəyə dövlət məktəblərinin IV bölgə müfəttişi M. Mahmudbəyovu göndərmişdir. O, mədrəsənin quruluşu, məqsədi, strukturu, təhsil-tədris fəaliyyətini incələyərək, 1918-1919-cu il tədris ilində bu qurumun gəlir qaynağının tamamilə tükəndiyini vurğulamış və lazımi maliyyə hesablamalarını çıxararaq raportunda təqdim etmişdir. Bu cür ehtişamlı bir mədrəsə Birinci Dünya müharibəsi illərində nüfuzunu itirdiyindən, nəzarətdən və hər cür maddi-mənəvi dəstəkdən məhrum qaldığından, "Səadət"in çətinliklərə baxmayaraq, mədrəsənin əsasını təşkil edən din təhsili proqramının qorunması tələbindən, maaş səbəbiylə müəllimlərin başqa məktəblərdə işləməsinə bağlı olaraq təhsildə nizam-intizamın pozulduğundan, qurumdakı 315 şagirdi mədrəsənin hesabına oxutmağın imkansızlığından maarif nazirliyinə göndərilən hesabatda bəhs edilmişdir.

Yazışmalar nəticəsində din işləri idarəsi maarif nazirliyi ilə birlikdə mədrəsənin fəaliyyətini davam etdirməsi üçün lazımi dəstəyi vermişdir.

"Səadət" cəmiyyəti Güney Azərbaycandan gəlmiş işçilərin uşaqları üçün Bakıda "İttihad" və Tiflisdə açdığı "İttifaq" adlı məktəbləri ilə də məşhurlaşmışdı. Progimnaziya modelindəki bu məktəblərin təsis edilməsində Səadət idarəsi iranlı tacirləri də işə cəlb etmişdi. Bu haqda əldə edilmiş sənədə görə 1906-cı ildə Bakıda yaşayan iranlı tacirlər qubernatora məktub yazaraq, artıq rus-İran ticari əlaqələrində rus dilinin vacibliyi qənaətinə gəldiklərini, fəqət dövlət məktəblərində rus dili ilə birlikdə ərəbcə və farsca tədris edilmədiyindən "İttihad" adlı məktəbin açılmasını rica edirdilər. Maliyyə dəstəyinin müraciət edənlər tərəfindən qarşılanması şərtiylə məktəbin açılmasına icazə verilmişdir.

Məktəbdə 8-17 yaşlı şagirdlər təhsil alır, ərəbcə, farsca və türkcə xaricində digər progimnaziyalarla eyni tədris planı tətbiq olunurdu. Tiflis məktəbi təhsilin ödənişli olması ilə Bakı məktəbindən fərqlənirdi, lakin uğurlu və ehtiyac sahibi şagirdlər (birinci il 126 şagirddən 46-sı, ikinci il 132-dən 108-i, üçüncü il 300-dən 200-ü) cəmiyyətin maddi dəstəyi ilə təhsilini davam etdirirdi. "Səadət"in xalqın maarifləndirilməsi sahəsində yürütdüyü çalışmalardan biri də Bakıda kitabxanaların açılması ilə bağlı idi. Buradakı kitabların yığılmasına dövrün maarifçiləri rəhbərlik etmiş, kitab toplama kampaniyaları təşkil edərək müxtəlif dillərdə çox sayda kitabların kitabxanalarda yer almasına töhfə vermişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda milli maarifin inkişaf prosesi araşdırıldığında ona təsir edən başlıca faktorlar arasında üsuli-cədid hərəkatını görmək mümkündür. Hərəkatın təsiri ilə Ana dilli, üsuli-sövtiyyə adlı yeni metodla ibtidai və orta məktəblər açılmış və xalq tərəfindən də böyük rəğbətlə qarşılanmışdır.

XX əsrin başlarından etibarən cədidçilik bir maarif hərəkatı olmaqla yanaşı, müsəlmanların siyasi, sosial, iqtisadi, dini və s. problemlərinin həllində onları dəstəkləyici xüsusiyyətə də sahib olmuşdur. Bunun nəticəsində qeyd olunan problemlərin aradan qaldırılması istiqamətində müxtəlif vaxtlarda müsəlman qurultayları təşkil edilmişdir. Burada alınan qərarlara görə, milli məktəblərin sayının artırılması, milli təhsili inkişaf etdirmək üçün xeyriyyə cəmiyyətlərinin qurulması, dini sahədə şiə-sünni ruhani idarələrinin birləşdirilməsi və s. kimi əhəmiyyətli məsələlər nəzərdə tutulmuşdu.

Ümum-Rusiya müsəlmanları qəbul edilmiş bu qərarlar əsasında hərəkət edir, paralel olaraq Azərbaycanda da milli təhsilin inkişafı istiqamətində fəaliyyət davam edirdi. Bu fəaliyyət arasında xeyriyyə cəmiyyətləri öz təhsil çalışmaları ilə xüsusi əhəmiyyət kəsb etmişdir. "Nəşri-maarif", "Nicat", "Səadət" və "Səfa" xeyriyyə cəmiyyətləri bu cəhətdən ön planda olmuşdur. Spesifik olaraq "Nicat" və "Səadət" cəmiyyətlərinin fəaliyyəti üzərində dursaq, birincisi daha çox ibtidai, ikincisi isə orta təhsil sahəsində gördüyü işlər ilə məşhurluq qazanmışdır. Bir ruhani cəmiyyəti olan "Səadət"in eyni adla qurduğu mədrəsəsi üsuli-cədid üzrə açılan ilk orta təhsil müəssisəsi xüsusiyyətini daşımışdır. Din elmləri ilə yanaşı, müxtəlif dillərin və elmlərin öyrədildiyi bu qurum dövrünün müasir tələblərinə cavab verən milli məktəb idi. Ancaq arxiv sənədlərindən məlum olduğu kimi, "Səadət" mədrəsəsi Birinci Dünya müharibəsindən sonra maliyyə problemləri ilə qarşılaşmış, AXC dövründə isə onun fəaliyyəti üçün bir sıra tədbirlər görülmüşdür. "Nicat" cəmiyyəti də daha çox üsuli-cədid üzrə açdığı ibtidai məktəbləri, rus-müsəlman və şəhər məktəblərinin nəzdində təşkil etdiyi axşam və cümə kursları, kitabxanaları ilə tanınmışdır. "Səadət", "Nicat" və digər xeyriyyə cəmiyyətlərinin ana dildə dərsliklərin yazılması istiqamətindəki çalışmaları da dövrün mütərəqqi addımlarından olmuşdur.



**Aişə Baxşiyeva,**
**AİI-nin əməkdaşı**

# Ərəb Şərqində VII-VIII əsrlərdə kitab və kitabxana mədəniyyəti

Şərq xalqlarının dünya mədəniyyəti xəzinəsinə böyük incilər bəxş etməsi, bəşəriyyətin yaratmış olduğu elmin, təhsilin inkişafında yaxından iştirakı etməsi kimi məsələlər elm dünyasına məlumdur. Tarixin bütün dönəmlərində ərəb dövlətlərində biliyə, təhsilə böyük önəm verilib.

İslam yarandıqdan sonra, ərəb Şərqində din hakim mövqeyə malik oldu, eləcə də ərəb dili ədəbiyyat və özünüifadə vasitəsinə çevrildi. Təsadüfi deyildir ki, ərəb xilafətinin böyük şəhərləri dünyada elm və təhsil mərkəzləri kimi tanınır. İslam dininin meydana gəlməsi, mədəniyyətinin yaranması, formalaşması, hakim ideologiyaya çevrilməsi dünya sivilizasiyası tarixində yeni mərhələnin başlanğıcı oldu. Bəzi mənbələrdə İslam dini və elm bir-birinə tamamilə zidd təqdim edilir. İslam böyük mədəniyyət qurmuş, əzəmətli intibaha imza atmış bir dindir.

Məhəmməd peyğəmbərin elm, bilik haqqında olan kəlamlarına nəzər salsaq, aydın görərik ki, orada insanlar cəhalətdən uzaq durmağa, ibadət kimi davamlı olaraq elm öyrənməyə çağırılır. Quranın nazil olmuş ilk ayələrində qələmin qədr-qiymətini ucaldan, elmə yüksək dəyər verən məqamlar vardır. İlk ayənin mətnində "iqra" (oxu!) söz formasının işlədilməsi də buna əyani sübutdur.

Ərəb dili İslamdan əvvəl (Cahiliyyə dövründə) yaransa da, Quranda sabitləşib. Orta əsrlərdə ərəb Şərqində elm sahələri inkişaf edib, müxtəlif məzmunlu əlyazma kitabları yaranıb və yayılıb. Əlyazma kitablarının əksəriyyətini yunan, fars və hind dillərindən tərcümələr təşkil edirdi. Yazının, dilin, əlyazma kitabının inkişafı ərəb mədəniyyətinin formalaşmasına güclü təsir göstərib. Bu da bilavasitə kitabların toplanması, mühafizəsi kimi mühüm vəzifələri yerinə yetirən kitabxanaların yaradılmasını zərurətə çevirib. İlk vaxtlarda yaradılan kitabxanalar "ağıl evi", "zəka evi", "elm evi" adlandırılıb. Ərəbdilli əlyazma kitabının yaradılmasında ərəb imperiyasına tabe edilən xalqların da böyük rolu olub. Buradan belə nəticəyə gəlmək olar ki, ərəb mədəniyyəti özündə həm eyniadlı xalqlara məxsus, həm də xilafət tərkibinə daxil olan bir sıra Orta əsr xalqlarının ərəbdilli mədəniyyətini ehtiva edir.

Ərəb ölkələrində İslamın, yazının, təhsilin, kitabın yayılmasında müqəddəs yer – "Allahın evi" sayılan məscidlərin böyük rolu olub. Bu o deməkdir ki, məscidlər təkcə ibadət yerləri sayılmır, onlardan, həmçinin əhali arasında mədəni-maarif işlərinin aparılmasında ümumi toplanış yeri kimi də istifadə olunurdu. Fərmanlar, vəqfnamələr, fətvalar və s. sənədlər əhaliyə məhz məscid minbərlərindən çatdırılırdı. İlk vaxtar tədris işləri məscidlərdə cəmləşmişdi. VIII əsrin sonu, IX əsrin əvvəllərində məscidlərin nəzdində ayrıca tədris binalarının tikilməsi, dini məktəb və mədrəsələrin yaradılması İslam dininin elmə, biliyə qiymətinin göstəricisi hesab edilirdi. Məscidlərin elm mərkəzi kimi fəaliyyət göstərməsi kitabxana işinin inkişafına da bilavasitə şərait yaratdı. Belə ki, məscidlərin yanında kitabxanaların yaradılması, artıq bir ənənə halına çevrildi. Mahiyyət etibarilə məscidlər məhz dini ayinlərin icra edildiyi yer olduğundan, burada İslamın təbliğinə xüsusi diqqət yetirilirdi. Məscidlərdə Qurani-Kərim tədris olunur, İslamın biliciləri və təbliğatçıları olan ruhanilər yetişdirilirdi.

Elmə, biliyə göstərilən diqqət və maraq dini məktəblər şəbəkəsinin, mədrəsələrin yaranmasına və genişlənməsinə səbəb oldu. Mədrəsələr hərtərəfli dini təhsil verən, İslamın elmi əsaslarını dərindən öyrədən, dini bilikləri təbliğ etməyi bacaran islamşünaslar hazırlayırdılar. Bu işdə əsas hərəkətverici qüvvə olan kitab və kitabxanalar hesab edildiyindən, mədrəsə kitabxanalarının yaranmasına böyük ehtiyac duyulurdu. Məhz bu dövrdə yaranan məscid və mədrəsə kitabxanaları İslam dünyasında kitabxana işinin əsasını qoymuş oldu. Kitabxanaların yanında əlyazma kitab istehsalı ilə məşğul olan emalatxanalar fəaliyyət göstərirdi. Bu emalatxanalarda kitab istehsal edən sənətkarlar – xəttat, müzəhhib (əlyazma əsərlərini qızıl suyu ilə bəzəyən sənətkar), mücəllid (kitaba cild çəkən şəxs), nəqqaş-ornamentçi, miniatürçü, rəssam və başqaları fəaliyyət göstərirdilər. Zaman keçdikcə, bu kitabxanaların fondu daha da zənginləşərək, yal-



nız dini ədəbiyyatdan deyil, eyni zamanda, dünyəvi kitablardan da təşkil olunurdu. Kitabxanalar dövlət kitabxanası statusu daşıdığından, burada müxtəlif elm sahələrinə (hüquq, tibb və təbiət elmləri və s.) dair ədəbiyyatla yanaşı, dövlətçiliyə aid sənədlər də saxlanılır və rəsmi dövlət arxivi hesab edilirdi.

Abbasilərin hakimiyyəti dövründən başlayaraq, məscidlər yalnız ibadətgah və dini ayinlərin icra edildiyi məkanlara çevrildi. Ərəb ölkələri tarixində Abbasilər sülaləsinin hakimiyyəti dövrü ərəb dövlətçiliyinin möhkəmlənməsi, İslam mədəniyyətinin, elmin, təhsilin inkişaf etməsi dövrü kimi xarakterizə olunur. Bu dövrdə ərəb xəlifələri Bağdad şəhərini İslam dünyasının mərkəzinə çevirərək, orada bəşər mədəniyyətinə nadir incilər bəxş edən böyük mədəniyyət yaratmağa müvəffəq oldular. Abbasilərin idarəetməsi dövründə Bağdad öz kitabxanaları, məktəbləri ilə böyük elmi mərkəz kimi tanınırdı. Əlyazma kitabının inkişafı, əlverişli yazı materiallarının istehsalı bilavasitə kitab və kitabçılıq işinə öz töhfələrini verirdi. Kitabçılıq işinə marağın artması onun görünməmiş dərəcədə inkişaf etməsinə şərait yaratdı. Bir çox şəhərlərdə kitab emalatxanaları, kitab dükanları tikilib istifadəyə verilir, "kitab tacirləri" adlanan peşə sahəsi yaranırdı. Təkcə Bağdadda 100 kitab ticarətçisi fəaliyyət göstərirdi. Abbasilər dövründə xəttatlıq sənəti və kitab tərtibatı yüksək səviyyəyə çatdı. Bəhs edilən dövrdə kitab ornamenti və miniatür sənəti xeyli inkişaf etmişdi.

Kitabxanaların müstəqil şəkildə məscidlərdən ayri fəaliyyət göstərməsi kitabçılıq işinin inkişafında mühum mərhələ oldu. VIII əsrin ikinci yarısından etibarən, xəlifələrə məxsus saray kitabxanaları təşkil olunmağa başlandı. Məhz bu səbəbdən, bir çox xəlifələr kitabsevərləri, şairləri, musiqiçiləri, xəttatları və başqalarını himayə edir, öz ətrafında toplayırdılar. Öz sahəsinin kamil bilicilərindən biri olan şair Cahiz xəlifə tərəfindən qayğı və diqqət görən elm xadimlərindən biri idi. Onun biliyinə və zəkasına heyran qalan xəlifə Məmun onu sarayına dəvət edib, elmi araşdırmalarını həyata keçirmək üçün şərait yaratdı. Müxtəlif mövzularda kitablar müəllifi olan Cahizin "Heyvanlar haqqında" əsəri günümüzə qədər gəlib-çatmış ən dəyərli kitablardandır. Şair bu əsərində öz düşüncələrini heyvanların dilindən verərək, "heyvanları danışdırma" üslubunu tətbiq etmiş oldu. Daha öncə biz bu üslubda yazılan əsər kimi, "Kəlilə və Dimnə"nin mövcudluğundan xəbərdarıq. Xəlifə Mütəvəkkilin zamanında saraydan çıxarılan şair elmi fəaliyyəti dövründə 390-dan artıq elmi əsər yazmışdır. O, öz əsərlərində Aristotelin sitatlarına da geniş yer vermişdir. Tədqiqat aparmağa meyilli olan yazarın əsərlərinə bu gün də istinad edilir, kitabları müxtəlif dillərə tərcümə olunur. Belə əsərlərindən biri də rus dilinə tərcümə edilmiş "Tacirlər haqqında kitab"dır. Tarixi mənbələrdəki məlumata görə, dövrünün məşhur kitabsevərlərindən olan Cahiz bir əsəri sona qədər oxumamış əlindən qoymur, başqa işlə məşğul olmurdu.

Tarixi mənbələrdəki məlumatlara görə, yüz ilə yaxın ömür yaşayan alimin ölüm səbəbi böyük

məhəbbətlə bağlı olduğu kitablardan qaynaqlanır. Belə ki, evdə yalnız olduğu zaman böyük kitab dolabı üzərinə aşmış, elm adamı son nəfəsini kitablar arasında vermişdir. Onun kitablarının dili axıcı və səlis olduğundan, müxtəlif elm sahələrini əhatə etdiyindən, dövrün bütün mövcud kitabxanalarında əsərlərinə rast gəlmək mümkün idi.

Saray kitabxanaları ilə yanaşı, şəxsi ədəbiyyat şəbəkəsi də ərəb mədəniyyətinə xas əlamət idi. Belə ki, tarixi mənbələr də sübut edir ki, şəxsi kitabxanalar ölkənin elmi-mədəni həyatında yaxından iştirak edirdi. Xüsusilə xilafət tərkibinə daxil olan Bağdad, Qahirə, Kardova kimi vilayətlərdə şəxsi kitabxana şəbəkəsi geniş yayılmışdı. Bəhs edilən dövrdə öz kitablarını məscidlərə vəsiyyət etmək adəti kimi maraqlı bir ənənə mövcud idi.

Şəxsi kitabxanaların daha bir xüsusiyyəti ondan ibarət idi ki, orada qiymətli və nadir kitablar saxlanılırdı. Bununla da bir çox alim məhz bu kitabxanalardan bəhrələnirdi. Həmçinin evdə də kitablardan istifadəni təmin etmək üçün şəxsi kitabxanalarda şərait yaradılırdı. Kitabxanalarda kitab dövriyyəsinə xüsusi şəxslər nəzarət edirdi. Bu şəxslər, adətən, könüllü şəkildə xidmət göstərən kitabsevərlərdən və bibliofillərdən təyin edilirdi.

Çox təəssüflə qeyd edək ki, ardıcıl baş verən qanlı müharibələr kitabxanaların taleyinə təsir göstərirdi. Kitabxanaların bəziləri tamamilə məhv edilir, fonda ciddi zərər dəyirdi. Bu da heç şübhəsiz, elm və bilik sahəsinə təsirsiz ötüşmürdü.

Saray və şəxsi kitabxana şəbəkələri olan şəhərlərdən biri də Bağdad idi. Bağdad sultanlarından birinə aid olan kitabxana xüsusi binada yerləşirdi və fondu qiymətli kitablardan ibarət olduğuna görə, mühafizəsini təmin etmək məqsədilə idarəetmə heyətinə kitabxana inzibatçısı, kitabxanaçı və müfəttiş daxil idi. Burada bütün bilik sahələrinə aid olan kitabların toplanmasına xüsusi diqqət yetirilirdi. Kitabxana, eyni zamanda, maraqlı arxitektura ilə inşa edilmişdir. Belə ki, böyük foyedən və yan otaqları birləşdirən uzun, işıqlı salondan ibarət olan kitabxananın hər otağında divarboyu enli dolablar var idi. Hər otaqda bir elm sahəsinə aid kitablar xüsusi rəflərdə yığılırdı.

Şəxsi kitabxanaya sahib olan vəzir İbn Abbad dövrünün kitab eşqi ilə alışıb-yanan alimlərindən biri idi. X əsrin ikinci yarısında yaşamış alim öz kitabxanasında sözlərin sehrini ən gözəl şəkildə təqdim edən məşhur yazıçıların bədii əsərlərini toplamışdır. Texnika, tibb, riyaziyyat, astronomiya, musiqi, məntiq və s. elm sahələrinə dair əsərlərin toplandığı kitabxananın fondunu 117 min kitab təşkil edirdi. Dövlət xadimi və eyni zamanda, döyüşçü olduğuna görə ömrünün çox hissəsini səfərlərdə keçirən Abbad uzun yollarda vaxtının səmərəli təşkil üçün özü ilə hər zaman mütaliə etməyə kitablar götürürdü. Bunun nəticəsidir ki, döyüşçü alim, hətta özü də tibb sahəsinə aid böyük bir əsər yazır. Tarixi mənbələrdə maraqlı bir fakt kimi qeyd edilir ki, onun bir sıra ilə hərəkət edən dəvə karvanı məhz sistemli kitabxana fondunu xatırladırdı.

Əslən türk olan ərəb coğrafiyaşünası, səyyahı, tarixçi Yaqut əl-Həməvi xilafət dövründə (XII-XIII əsrdə) mövcud olan kitabxanalar haqqında araşdırmalar aparmışdır. Kitablara bağlı olan tarixçi özü də kitab üzü köçürmək və kitab alveri etməklə məşğul olmuşdur. Yaqut əl-Həməvi Aralıq dənizinin şərqində yerləşən ölkələri – İranı, Orta Asiyanı gəzmiş və sonda Mərv şəhərində yaşamışdır. Mərvdə çalışdığı üç il müddətində orada 12 ictimai kitabxananın fəaliyyət göstərdiyini yazırdı. Tarixçi Yaqut əl-Həməvi Mərv şəhərində mövcud olan kitabxana ilə bağlı maraqlı faktları öz əsərində qeyd etmişdir. Tarixçi bildirir: "Həmin kitabxanalardan birinin fondunda 10 mindən artıq kitab mühafizə olunurdu. Tarixçi-alimlərə heç bir əmanət qoymadan tədqiqat aparmaq üçün 200-ə yaxın kitabın evdə istifadəsinə icazə verilirdi. Uzun müddət kitab saxlanılan yerlər "hikmət xəzinəsi" adlandırılırdı. Zəngin əlyazma toplusundan ibarət olan ilk belə xəzinə 830-cu ildə Bağdadda təşkil edilmişdir. Zaman keçdikcə kitabxanalar yeni mənada – "Elm evi" kimi adlandırılmağa başlandı. Belə bir Elm evi Bağdadın qərb hissəsində, 994-cü ildə vəzir ibn Sabur tərəfindən qurulmuşdur. Kitabxanaların yaxınlığında ziyarətçi alimlər üçün yaşayış məntəqələri salınırdı. Buradakı kitab toplusu öz möhtəşəmliyi ilə seçilirdi. Bu müəssisədə 10 min adda kitab saxlanılırdı. Təkcə Quranın 100 nüsxəsi mühafizə olunan kitabxana 1058-ci ildə yanmış və fondun böyük hissəsi məhv olmuşdur". Kitabsevərlərin, şəxsi kitabxanaya sahib olanların siyahısını daha da geniş tutmaq olar.

XIII əsrdən başlayan monqolların hücumu zamanı kitabxanalara böyük zərbə vurulmuşdur. Bağdad kitabxanaları talan edilmiş, bir çox kitabxana fondu, demək olar ki, tamamilə məhv edilmişdir. Tarixi qeydlərdə yazılır ki, səlibçilər kitablardan insanların üzərindən keçə biləcəyi bir körpü yaratmış, çaydakı suyun rəngi mürəkkəblə qaralmışdır. Kitabxanaların məhv olması ərəb mədəniyyətinə öz mənfi təsirini göstərmişdir. Sonrakı illərdə bu mədəniyyətin bərpasına cəhd edilsə də, onu əvvəlki səviyyəyə çatdırmaq mümkün olmamışdır.

# Dörd məfhum



**Faiq Əhmədzadə,**
**f.f.d., AİI-nin müəllimi**

İslam inancı insan psixologiyası, onun sosial fəaliyyəti, həyat tərzini nəzərə alan, bu mövzuda insanı daha çox irəli səviyyəyə yönəldən bir dindir. Təəssüflər olsun ki, istər bu dinin mənsublarının, istərsə də fərqli inanc və təfəkkürdə olan şəxslərin İslam dininin bəzi anlayışlarını doğru şəkildə anlamaması ona haqsız formada yanaşmasına səbəb olub.

Müsəlmanların tarixən səhv başa düşdükləri dörd əsas məfhum vardır. Bu məfhumlar səhv başa düşüldüyü üçün müsəlmanların həyat tərzinə də sirayət edib və beləcə, İslam dininin tam uyğun formada yaşanmasına maneçilik törədib. Həmin məfhumların Qurani-Kərim bütünlüyü içərisində başa düşülməsi lazımdır ki, İslam dəyərləri ilə həmahənglik təşkil etsin və həyat tərzinə uyğunlaşdırılsın. Əks təqdirdə, həqiqi İslam anlayışından kənar bir yaşayışla qarşılaşmaq məcburiyyəti doğacaqdır. Doğru anlaşılmayan həmin məfhumlardan dördünə nəzər yetirək.

## SƏBİR

"Səbir etmək" deyəndə, sanki durub-gözləmək başa düşülür və əsla hərəkətə keçmək haqqında düşünülmür, ətalətdə-tənbəllikdə yaşamaq daha uyğun görünür. "Səbirli davranmaq" deyərkən hər şeyin vaxtının olduğu vurğulanır ki, bu da sadəcə, başına gələn hadisəyə razı olub, sakitcə heç bir davranış sərgiləmədən zamanın keçməsini gözləmək kimi qəbul edilir. "Səbir" təkcə gözləmək anlayışını əhatə etmir. Bu söz həm də gözləyərkən dözümlü olmaq fikrini özündə ehtiva edir. Oturub-gözləmək yerinə çarələr axtarıb tapmaq, hərəkətə keçmək deməkdir. Təsadüfi deyildir ki, Qurani-Kərimdə ***"Ey iman gətirənlər! Səbir və dua ilə (namazla Allahdan) kömək diləyin. Çünki Allah səbir edənlərlədir" ayəsi mövcuddur*** ("Bəqərə" surəsi, 153-cü ayə). Həmin ayə "Allah gözləyənlərlə birlikdədir" mənasına gəlməz və heç vaxt da gəlmədi. Bu ayədən əvvəlki və sonrakı ayələrə nəzər yetirilərsə, əsl mənanın təzahür etdiyini görmək mümkündür:

***"Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükür edin, Məni danmayın!"***

***"Ey iman gətirənlər! Səbir və dua ilə kömək diləyin. Çünki Allah səbir edənlərlədir".***

***"Allah yolunda öldürülənlərə "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz".***

Ayələrdən göründüyü kimi, düşmən hücumu zamanı oturub-gözləmək, Allahın xilas etməsini diləmək məsləhət verilmir. Əksinə, müdafiə etmək, hətta lazım gələrsə, canından belə keçmək, mübarizə ruhunu artırmaq insanın qarşısına məqsəd qoyulur. Buradan aydın olur ki, Allah insanı mücadiləyə, çalışmağa, boş durmamağa səsləyir. Müsəlmanlar "səbir etməyi" "gözləmək" kimi başa düşdükləri üçün Allahdan istədikləri onlara verilmir və bu da zəif qalmalarına, tez-tez problemlərlə qarşılaşmalarına səbəb olur.

## ŞÜKÜR

"Şükür" məfhumu, sadəcə, sözlə əhatə ediləcək qədər kiçik bir çərçivəyə sığışdırılmamalıdır. Şükür etmək, sadəcə, "Yarəb, sənə şükürlər olsun", – demək deyildir. Şükür Allahın bizə verdiklərini doğru şəkildə istifadə etməkdir. Yəni dildə deyildiyi qədər əməldə, davranışlarda da öz təzahürünü göstərməlidir. Var-dövləti kömək, sədəqə, təhsil, elm, inkişaf üçün xərcləmək əməldə şükür hesab edilir. Elmi lazım gəldiyində hər hansı bir əvəz gözləmədən paylaşmaq şükürdür. Sağlam orqanları günahlardan çəkindirmək şükürdür. Vəzifəni haqqı ilə vicdanla yerinə yetirmək, ondan sui-istifadə etməmək şükürdür. Yüksək məqam və vəzifələrdə ikən başqalarını aşağılamamaq, xor görməmək haqqı ilə şükürdür. Dilimizin şükrü insanlara xoş sözlər söyləmək, qeybətdən çəkinməkdir. Əks təqdirdə, bizim "Ya Rəbb, Sənə şükürlər olsun" cümləsindən sonra günahlara davam etməyimiz, Allahın verdiyi nemətləri, sadəcə, öz nəfsimiz üçün istifadə etməyimiz İslamdakı hansı şükür anlayışına uyğun gələcəkdir? "Fatihə" surəsinə diqqətlə baxılarsa, şükürdən sonra nə istənildiyi açıq-aydın görünəcəkdir:

***"Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha) – aləmlərin Rəbbinə…" ("Fatihə" surəsi, 2-ci ayə).***

***"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!"*** ("Fatihə" surəsi, 5-ci ayə).

Deməli, "şükür" məfhumu ancaq sözlə deyil, həm də ibadətlə dəstəklənməlidir. Bəs görəsən, "ibadət" məfhumu deyərkən nə başa düşülür?

Müsəlmanların hər zaman yanıldıqları məfhum:

## İBADƏT

***"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!"*** ("Zariyat" surəsi, 56-cı ayə).

Çoxu zənn edir ki, Allahın hər kəs üçün uyğun gördüyü yeganə hədəf namaz qılmaq, oruc tutmaqdan başqa bir şey deyildir. Halbuki belə olsa, Allahın sistemində, dinində problem olduğu mənasına gələr. Təkcə ayin və ya ibadətlərlə insan inkişaf etməz, həyatdakı və axirətdəki xoşbəxtliyinə nail olmaz. Allah bizi vicdanlı bəndə olmaq, kamilliyə doğru yönəlmək üçün yaratmışdır. Ayədəki ibadət heç kəsə, hətta öz nəfsinə belə kölə olmadan azadiradəli, hürr bəndə olmaq deməkdir. İbadət "abd" – bəndə mənasındakı sözdən alınmışdır. Bu məfhum, sadəcə, Allaha bəndə olmaq deməkdir. Yəni Allahın dediklərinə boyun əyən, Allahın sözünün qarşısına söz gətirməyən, eyni zamanda, hər yönü və davranışı ilə Allaha qulluq etməyə çalışan insan mənasına gəlir. Beləcə, ibadət etmək, sadəcə, namaz qılmaqdan ibarət deyil, həm də gündəlik həyatda qılınan namaza, tutulan oruca uyğun şəkildə davranmaqdır. Həzrət Peyğəmbərdən (s.ə.s.) belə bir rəvayət nəql edilmişdir: "Elə oruc tutanlar var ki, ac və susuz qalmaqdan başqa qazancları yoxdur. Elə namaz qılanlar var ki, yorğunluqdan başqa namazından əldə etdiyi bir şey yoxdur" (İbn Macə, Siyam, 21; İbn Hənbəl, 2/373). Qurani-Kərimin "Möminun" surəsinin ilk on ayəsində möminin vəsfləri sadalanarkən, sadəcə, namaz haqqında qeyd edilməyib, həm də başqa davranışlara da diqqət etməli olduğumuz vurğulanıb. Bununla yanaşı, Qurani-Kərimdə namazın, əslində, insanı pis və çirkin işlərdən uzaqlaşdırmalı olması qeyd edilib:

***"(Ey Rəsulum) Quranda sənə vəhy ediləni oxu və vaxtında namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək, şübhəsiz ki, daha böyükdür. Allah*** nə etdiklərinizi bilir!" ("Ənkəbut" surəsi, 45-ci ayə).

"Fatihə" surəsində keçən ayədə "Sadəcə, Sənə ibadət edirik" ifadəsindən sonra gələn "Sadəcə, Səndən kömək diləyirik" ifadəsi namazla birlikdə bir tək Allaha sığınaraq davranışlarımızda, sadəcə, Ondan kömək istəməli olduğumuzu göstərir. Nəticədə Allah Ona sığınaraq dua etməyimizi bizə göstərir. Bəs dua anlayışı necə olmalıdır?

Başqa bir məfhum və ən çox yanıldığımız:

## DUA

Dua edərkən "müqəddəs" gecələr, günlər, yerlər, sözlərin mütləq kömək etdiyi düşünülür, yaxud Allahın, ancaq müsəlmanların duasını qəbul etməli olduğu qəbul edilir. Vəziyyət isə ortadadır: qəbul etmir. Kəbəyə hər il milyonlarla insan axın edir və həmin milyonlarla insanın ağzından ən çox bu dua səslənir: "Allahım, müsəlmanlara sülh, əmin-amanlıq bəxş elə!". Nə hikmətdirsə, Allah qəbul etmir. Allah quru sözlərə etibar etməz, quru sözlərlə qərar verməz. Siz qarşı tərəfin quru, səmimiyyətsiz sözləri ilə hərəkət edərsinizmi? Müsəlman o duanı edərkən əgər müsəlmanların əmin-amanlığı üçün bir barmaq belə qaldırmırsa, bir anlıq düşünüb alnını qırışdırmırsa, bir saniyə belə işlərindəki tərsliklərə üzüldüyü qədər o gələcəyi məhv olan müsəlman uşaqları üçün üzüntü hissi keçirmirsə, Allah o duaları əsla qəbul etməz. Həzrət Peyğəmbər (s.ə.s.) də istəsəydi, mücadilə etməz, dua edərdi və böyük ehtimalla, Allahın ən sevimli bəndəsi kimi onun duası daha tez qəbul olunardı. Bədr müharibəsində, hətta müsəlmanların məğlubolma ehtimalları yüksək ikən belə, dua etmədən əvvəl bəzi hazırlıqları tamamlayır. Müsəlmanların həm say, həm təchizat cəhətdən zəif vəziyyətdə olmalarına baxmayaraq, Həzrət Peyğəmbər (s.ə.s.) silahları, ordunu yoxlayır. Müharibə edəcəkləri meydanı da hətta süpürür ki, heç kəsin ayağının altında daş qalmasın, heç kəs büdrəməsin. Beləcə, hazırlıqları tamamladıqdan sonra öz çadırına çəkilib dua edir: "Allahım, Sənin dinini müdafiə edən bir ovuc müsəlmanıq, bizi burada üstün qıl!". Qurani-Kərimdə də "Allah, ancaq quru sözlərlə dua edəni eşidir", – deyə bir ifadə mövcud deyil. Əksinə, Allahın insana çalışdığı qədər verdiyi vurğulanır: "İnsana, ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar" ("Nəcm" surəsi, 39-cu ayə).

Mövzunu öz duam ilə bitirmək istəyirəm:

Allahım, bizi haqqı ilə layiqli səbir edən, şükür edən və ibadət edənlərdən qərar ver. Amin...

# Səmavi dinlərdə müqəddəs bayramlar



**Mehrixanım Miryaqubqızı,**
AİI-nin əməkdaşı

### Səmavi dinlərə ümumi baxış

Səmavi dinlərə "haqq dinləri" də deyilir. Xristianlıq, Yəhudilik və İslam dini səmavi dinlər hesab olunur. İslam dininə görə, ilk insan eyni zamanda, həm də ilk peyğəmbərdir. Həzrət Adəmdən Həzrət İsayadək bütün peyğəmbərlər insanlara Allahın birliyini və ona necə ibadət ediləcəyini anladıblar. Mənbələrə görə, səmavi dinlərdən Yəhudilik Həzrət Musa, Xristianlıq Həzrət İsa, İslam dini Həzrət Məhəmmədin gəlişi ilə təşrif buyurub.

Səmavi dinlər yalnız bir ölkə, bir xalqın yaşadığı ərazidə deyil, həmçinin müxtəlif məkanlarda yayılıb. Hər üç dinin yolu böyük, cığırları çoxdur. Dünya əhalisinin böyük hissəsi bu üç dinə etiqad edir. Bu dinlərin öz peyğəmbərləri, öz ənənələri, müqəddəs kitabları və dini bayramları mövcuddur. Səmavi dinlərdən hesab olunan Yəhudiliyə etiqad göstərən yəhudilər qədim İsrail çarlığında yaşayan əhalidən yaranıb və dünyanın bütün ölkələrinə yayılıblar. Yəhudilərin tarixi şəcərəsi Həzrət İbrahim, onun oğlu Həzrət İshaq və nəvəsi Həzrət Yaquba gedib dayanır. Yəhudiliyin miladdan öncə XIII yüzillikdə Həzrət Musaya gələn vəhylə başlandığı rəvayət edilir. Yəhudilər dini qanunlarına riayət etməklə yanaşı, həmçinin bayramlarını da lazımi şəkildə qeyd edirlər. Bunlardan biri "Şənbə günü" adlanır. Şənbə günü ailənin bütün üzvləri bir yerdə yemək yeyir və ziyafət zamanı ailə başçısı əlinə bir piyalə şərab (şərab Yəhudilik və Xristianlıqda halaldır, amma şərabdan çox istifadə zamanı yaranan sərxoşluq haram və qəbahət hesab olunur) alaraq dua oxumağa başlayır və ailə üzvlərinə ötürür. Ailə üzvlərinin hamısı bir-bir şərabdan içir.

İkincisi "Yubil ayı" bayramıdır ki, 50 ildən bir baş tutur. Həmin günlərdə bayram münasibətilə bir çox insan humanist və nəcib əməllər həyata keçirir. Yəhudilərin digər bayramı "Fish"dir ki, (pesəh və yaxud paska) təntənəli surətdə qeyd edilir. Təmtəraqlı qeyd olunmasının əsas səbəbi bəni-İsrailin Fironun zülmündən xilas olması münasibətilədir. Bu bayram Tövratda "Xuruc 12" mərasimi kimi qeyd olunur.

Yəhudilikdə "Həftələr bayramı" adlanan bir mərasim də var ki, Pasxadan əlli gün sonra, yeni Pasxadan yeddi həftə keçməsi və məhsulların hazır olması ilə bağlı qeyd olunur. Bu bayramın ibri dilindəki adı "Şavuut"dur.

"Yovmu Kipur" adlı bayram Yəhudilikdə kəffarə günü kimi qəbul olunur. Bu da Yəhudilikdə çox önəmli bayramdır. Bu günü "Aşura", həmçinin "Aşura və yaxud onuncu gün" adlandırırlar. Yəhudilər həmin günlərdə günahlarının kəffarəsini vermək məqsədilə oruc tuturlar. Həmçinin bu bayram günü işləmək haram hesab edilir. "Kölgəliklər və yaxud çadırlar" bayramı Yəhudilikdə təntənəli şəkildə qeyd olunur. Teşti ayının 22-də bəni-İsrailin Həzrət Musanın (ə) zamanında Sina səhrasındakı çadırlarda yaşamalarını anmaq məqsədilə bir həftə çadırlarda və kölgəliklərdə yaşayırlar.

Yəhudilikdə "Xanuka" adlanan bir bayram da mövcuddur ki, İsrailin əsas dini bayramlarından biri hesab olunur. Noyabr-dekabr aylarında qeyd olunan bayram yəhudi təqviminin kiselev ayının 25-ci günündə başlayır və səkkiz gün davam edir. Bayramın yaranma tarixi isə çox qədimdir. E.ə. 165-ci ildə yunan ağalığına qarşı Makkaveylər sülaləsinin başçılığı altında üsyan qaldıran yəhudilər düşməni 3 il müddətində bütün torpaqlardan qovurlar. Üsyanın sonunda yenicə azad olmuş Qüdsdəki müqəddəs məbədə daxil olan yəhudilər bu məkanı işıqlı saxlamaq üçün yalnız birgünlük yağ ehiyatı aşkar edirlər. Möcüzəli şəkildə qızıl şam səkkiz gün ərzində məbədə işıq salır. Bu müddətdə isə əhali yeni yağ ehtiyatı toplayır. Beləliklə, məbəd zülmətə qərq olmur. Bu əlamətdar tarixi yad etmək üçün bayramın birinci günü bir şam, ikinci günü iki şam və beləcə, sonuncu bayram günü səkkiz şam yandırılır. Uşaqlara pul və oyuncaqlar hədiyyə olunur, məktəblilər tətilə çıxır. Bu mərasim böyük sevinc və Allaha minnətdarlıqla dolu olan bayram kimi qeyd edilir.

Yəhudilikdən sonra ikinci səmavi din hesab olunan Xristianlıq bizim eranın I əsrində Roma imperiyasının tərkibindəki Fələstin torpağında, yəhudilərin arasında yaranmış, sonradan digər əyalət-

lərdə və xalqlar arasında yayılmışdır. Xristianların inancına görə İsa "məsh olunmuş ilahi varlıqdır (Məsihdir)". Allahdır, və bəşəriyyəti xilas edəcək Məsihdir. “Xristian” sözü yunanca "khristianos" kökündən gəlir. İsanın adı bu dildə “khristos” olaraq keçir. Bu kökdən çıxan "khristianos" və "khristian" sözləri “İsaya keçid”, “onun yolundan gedən” mənasını verir.

Yəhudilikdə olduğu kimi, Xristianlıqda da dini bayramlar təntənəli şəkildə qeyd edilir. Bunlardan “Krismas və yaxud Mövlud” adlanan mərasim “Məsihin bayramı” mənasını kəsb edir. O, Həzrətin dekabr ayının 25-də ehtimal olunan doğum gününə təsadüf edir. Bu bayramdan 7 gün sonra Yeni il bayramı başlayır və yanvar ayının 1-i qeyd olunur.

"Pasxa" və ya "Ester" adlanan digər mərasim isə üç gün sonra qeyd olunan Xristian festivalıdır. Pasxa bayramı xristianların ən mühüm dini bayramlarından hesab edilir. Bu bayram Həzrət İsa Məsihin ölüm üzərində qələbəsi və ölülərin arasından qalxması münasibətilə onun çarmıxa çəkilməsinin 3-cü günü bütün xristianlar tərəfindən qeyd edilir.

Milad bayramında İsa Məsihin insan bədənində dünyamıza gəlişi, doğulması qeyd edilir. Gələcəyi bütün peyğəmbərlər tərəfindən bildirilən Dünyanın Xilaskarı olacaq İsa Məsihin doğum günü məhz bu mərasimin əsas səbəbidir.

Dekabrın 25-i dünyada bütün xristianlar müqəddəs bayramları olan Milad bayramını – İsa Peyğəmbərin doğulduğu günü qeyd edirlər. Həmin gündə minlərlə xristian zəvvar İordan çayının qərb sahilində yerləşən Betlehemdə Manqer meydanına gəlir. Xristianların inancına görə, meydan Məryəm Ananın İsa Məsihi dünyaya gətirdiyi ərazidir, həmin məkan əsrlərlə mövcud olan Doğuş Kilsəsinin qarşısında yerləşir. Amerikalılar, artıq bir neçə həftədir bayrama hazırlıq görür, hədiyyələr alır, evlər şam ağacları, rəngarəng işıqlarla bəzədilir. Bu gün ilin ən gözəl təqvimi hesab edilir. Bir çox xristian həmin gün kilsələrə gedir, dünyaya sülhün zəruriliyindən danışır, dini mahnılar oxuyur. İsa Məsih dünyamıza gəlişi ilə tarixi iki böyük hissəyə böldü: Miladdan öncə və Miladdan sonrakı dövrlər.

Milad bayramında bütün imanlı xristianlar kilsədə bir yerə toplaşır, dualar edir, ilahilər oxuyur və milad şirniyyatlarını bölüşərək, bu mübarək günü qeyd edirlər. Sözü-



gedən mərasim simvolik tarixdə – hər ilin 25 dekabrında qeyd edilir.

Xristianlıqdan sonra sonuncu səmavi din hesab edilən İslam dininə hazırda dünya əhalisinin, təqribən, 1,2 milyardı etiqad edir. İslam dini səmavi dinlərin sonuncusu hesab olunur və bu fikri Allah tərəfindən göndərilən peyğəmbər və Müqəddəs Kitab olan Qurani-Kərim də təsdiq edir. İslam sülh, barışıq, bərabərlik və yardımlaşma dinidir. İslam dini VII əsrin əvvəlində Ərəbistan yarımadasının mərkəzində – Məkkə və Mədinə şəhərlərində təşəkkül tapıb və tezliklə dünyanın böyük hissəsinə yayılıb. Müsəlmanlara görə, İslam dini Allahın elçisi və böyük Peyğəmbəri kimi məşhur olan Həzrət Məhəmmədlə inkişaf edib. Həzrət Məhəmməd “İslam” adı verilən bu ilahi müjdəni təkcə ərəblərə, yaxud təkcə Məkkə, Mədinə və Ərəbistana deyil, bütün dünyaya və bütün bəşəriyyətə yetirmişdir. İslam dininin Müqəddəs Kitabı Qurani-Kərim hesab edilir. Müsəlmanlar Quranı Allah kəlamı, ilahi vəhy hesab edirlər. İslam dinində də digər dinlər kimi, dini bayramlar xüsusi şəkildə qeyd edilir. Müsəlman aləminin böyük bir qismi müqəddəs bayramlarda öz süfrələrini müxtəlif nemətlərlə bəzəyir, bir-birinin evinə qonaq gedərək bayramlaşır, həmin günün təmtəraqlı keçməsinə önəm verirlər. İslamın müqəddəs bayramları sırasında Ramazan mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfqətli və ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Bu ayın gecələrinin birində müqəddəs Qurani-Kərim nazil olub. Həmin gecə "Qədr" və ya "Əhya" gecəsi də adlanır. Müsəlmanların inancına görə, bu ayda oruc tutmaq bütün günahları bağışlayır. Müsəlmanların digər dini bayramı isə Qurbandır. Qurban bayramı Ramazan kimi, İslam dünyasında ən müqəddəs bayramlarından biridir. Həmçinin təkcə İslam aləmində deyil, Yəhudilik və Xristianlıqda da müxtəlif formalarda qurbanlıq mövcuddur. İnsanları halallığa, paklığa səsləyən Qurban Bayramının çox maraqlı tarixi və şərtləri var. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Uca Allah bunu öz elçisinə rəva görmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurban bayramında kəsilən qurbanlara "İsmayıl qurbanı" da deyirlər. İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı, İsmayılı nəsib etdi. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması Peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir.

Digər bir mərasim isə “Mövlud” bayramıdır ki, Məhəmməd peyğəmbərin (s) doğum gününün qeyd olunmasıdır. Məhəmməd peyğəmbər (s) Fil ilində, milad tarixi ilə 570-ci il rəbiül-əvvəl ayının 17-də dünyaya göz açıb. Müsəlmanlar həmin həftəni dünyanın hər yerində bayram edirlər. Buna “Mövlid”, yaxud Azərbaycanda olduğu kimi, “Mövlud bayramı” deyirlər. “Mövlid” ərəbcədən tərcümədə "doğum yeri", yaxud "doğum vaxtı" deməkdir.

Ümumiyyətlə, İslamda bəzi gecələr müqəddəs, qiymətli gecələr sayılır: Qədr gecəsi, Merac gecəsi, Mövlud gecəsi belələrindəndir. Ümumilikdə, qeyd etmək istərdim ki, istər səmavi, istərsə də qeyri-səmavi dinlər daxil olmaqla, dilindən, irqindən, mill mənsubiyyətindən asılı olmayaraq, bütün insanların müqəddəs günləri onların dini bayramlarıdır və həmin gün onlar birlik nümayiş etdirir, sevinclərini paylaşmaqla xoşbəxtliyi, sevinci tərənnüm edirlər.



Aygül Məmmədova,
Aİİ-nin əməkdaşı

# Əbül-Müin ən-Nəsəfinin yaradıcılığında insanın iradə azadlığı

***İnsan davranışları mövzusu iradə azadlığı şəklində araşdırılmış, insan feillərinin yaranmasında təsiri olub-olmaması məsələsi hər zaman müzakirə obyektinə çevrilmişdir. Hər bir alim mövzuya fərqli aspektdən yanaşaraq, özünəməxsus düşüncələr təbliğ etmişdir. Biz də bu tezisimizdə Maturidi Kəlam məktəbinin qabaqcıl alimlərindən hesab edilən Əbül-Müin ən-Nəsəfinin qəza-qədər müstəvisində insan davranışları haqqında olan görüşlərinə nəzər salmağa çalışacağıq.***

Nəsəfiyə görə, insan öz hərəkətlərinin icrasında azaddırmı? Hərəkətlərimizə görə məsuliyyət daşıyırıqmı? Allahın insan feillərinin yaradıcısı olması iradə azadlığına əngəldirmi? Suallara cavab tapmağa çalışdıq. Qabaqcıl alimlərdən biri kimi qəbul edilən Əbül-Müin ən-Nəsəfi 418 (h.q.) – 1028-ci (m.) ildə Səmərqənddə doğulub.

Nəsəfi insan feilləri haqqında olan görüşlərini iki təməl üzərində inşa edib. Birincisi, insanın öz əməllərində yaratma qüdrətinin Allaha aid olması, ikinicisi, insanın kəsbinin (qazanmasının) nəticə olaraq hər hansı bir feilə sahib olmasıdır. Nəsəfiyə görə, insanın həyata keçirdiyi feillər kəsb (qazanma) yönündən şəxsə aiddir. İnsan sahib olduğu azad iradəsi və davranışları reallaşdırmaq istəyir. Bu istək və məqsəd onun kəsbidir. Nəsəfiyə görə isə bu zaman kəsblə birlikdə yaratma qüdrəti Allaha aiddir. Allahdan başqa heç bir varlığa yaratmaq qüdrətini aid etmək düzgün deyildir. Bu düşüncə nəqli və əqli dəlillərin nəticəsidir. Nəsəfi insanın seçim ixtiyarının olması düşüncəsini qəbul edib, lakin insanın davranışları onda olan qüdrətdən qaynaqlanmırsa, o zaman insan bu hərəkətin sahibi yox, icraçısına çevrilər. Nəsəfinin qeyd etdiyinə əsasən söyləyə bilərik ki, insan ona təqdim olunan seçimlərdən hər hansı birini bəyənməklə real həyatda tətbiq etdikdə, davranış və əzm sahibidir. Allah insana təklif etdiyi seçimlərdən sonra insanın qəbul etdiyinin feilini yaradır, insan da bu yaradılan feili öz hürr iradəsi ilə kəsb edir. Nəsəfi Allahın iradəsinin öz zatı ilə əbədi və əzəli olduğunu, bütün hadisələrin – cövhər-ərəz, xeyir-şər, pis-yaxşı nə varsa, hər birinin Allahın iradəsi ilə meydana gəldiyini söyləmişdir. Həmçinin Nəsəfi bütün müsəlmanların “Allahın istədiyi olar, istəmədiyi olmaz” mövzusunda ittifaq etdiklərini bildirib. Nəsəfiyə görə, Allah aləmi yoxdan var edib. Bu prinsipi əsas tutaraq, “Qəbih (pis) feillərin də yaradıcısı Allahdır” ifadəsinin doğru olmadığını söyləyib. Təbii ki, hər şey Allahın iradəsi daxilində yaransa da, mənfi əməllər, Allahın qadağan etdiyi feillər insanın iradə gücünun daxilində yaranan təzahürlərdir. İradə azadlığı fərdin öz feillərini istədiyi şəkildə həyata keçirməsidir. Nəsəfiyə görə, insanın feillərinə təsir edəcək əsas məsələ onun qüdrətidir. Qüdrət Allahın insanın iradi feillərini həyata keçirməsi üçün ona verdiyi xüsusiyyətdir. Buna baxmayaraq, Nəsəfi insanın yaratmaq qüdrətinə sahib olduğunu iddia etməyin aləmdə birdən çox yaradıcının olduğu fikrinə aparıb-çıxardığını və bunun da tövhid əqidəsinə zidd olduğunu vurğulamışdır. İnsanın yaratmaq qüdrətinə sahib olmadığı, ancaq özünəməxsus iradə azadlığının olduğunu qeyd edən Nəsəfi kəsb və yaratmağın fərqli mənalar ifadə etdiyini irəli sürmüşdür. İradə hər hansı bir vasitəyə bağlı olaraq meydana gəlir. Qüdrət isə heç bir səbəb, vasitəyə bağlı olmayaraq yaranır. O, yaratmaq gücü olmadığı üçün insanın xaliq deyil, kəsb sahibi olduğunu qeyd edib.

Deyilənlərdən aydın olur ki, Nəsəfi yaratma qüdrətinin ancaq Allaha məxsus olduğu görüşünü qəbul edib. Deməli, insanın feili də yaratmaq baxımından Allaha məxsusdur. Allahdan başqa bir yaradıcı qüvvənin olduğunu qəbul etmək Allahın aciz olduğu görüşünün yaranmasına səbəb ola bilər. Beləliklə, Nəsəfiyə görə, Allahdan qeyrisi yaratmaq gücünə sahib deyildir. Allahın qüdrəti nəticəsində insanda mövcud olan feili yerinə yetirə bilmə gücü haqqında düşüncəsini qəbul edən Nəsəfi görüşlərini bu aspektdən əsaslandırıb. Təbii ki, insanın feillə bağlı müəyyən gücü vardır, lakin bu, yaratmaq gücü deyil, etmək gücü-

dür. Əslində, Nəsəfi bu görüşləri qəbul etməklə kəsbi də qəbul etdiyini vurğulayıb. Nəsəfiyə görə, bir şey iki qüdrətlə yaradıla bilməz. İnsan qüdrətin yaradılmasına təsir edə bilməz.

Nəsəfi insanın müstəqil olaraq feillərini həyata keçirə bilməyəcəyini fərqli aspektlərdən izah etməyə çalışmışdır. Bu isbatlara əsasən Nəsəfinin qəbul etdiyi əsas məsələlərdən biri, insanın feillərini müstəqil şəkildə həyata keçirə bilməsi üçün bu feillər haqqında geniş, hərtərəfli məlumatlara sahib olmasının zəruriliyidir. Əgər insan yaratmaq gücünə sahib olsaydı, feilin meydana gəlmə keyfiyyəti ilə birlikdə həmin felin sifətlərini, hallarını, hərəkətlərini dəqiqliyi ilə bilməli idi. Nəsəfiyə görə, insanın bunlar haqqında biliklərə malik olmaması onun yaratmaq gücünə sahib olmamasına dəlalət edir. Nəsəfinin feildən əvvəl elmin mütləqliyi barəsində başqa bir dəlili də yoxluqdan varlığa çıxarmaq məsələsi haqqında insanların heç bir məlumata sahib olmamasıdır. Heç kim etdiyi feillərin vəsflərini bilməz.

Nəsəfiyə görə, insanın feilləri Allahın məxluqudur. Allahın feili əzəli sifət olub, O-nun zatı ilə baqidir. Allah o feilləri yoxdan var edib, insan isə onu kəsb etmişdir. Beləliklə, insanın feili və yaratması Allahın feili və yaratması kimi deyildir. Yəni Allah feilə mahiyyətini, insan isə o feilə varlığını verir. Nəsəfi "Allahdan başqa heç bir varlıq yaratma gücünə sahib deyildir" dediyi zaman feilləri zəruri və ixtiyarı olaraq iki hissəyə ayırmış, zəruri feillərin tamamilə Allahın gücü, iradəsi nəticəsində yarandığını, ixtiyarı feillərdə isə insanın iradəsinin olduğunu qeyd etmişdir. İnsan sahib olduğu kəsb vasitəsilə feillərini meydana gətirir. Nəsəfi Allahın feillərin yaradıcısı olduğu fikrini digər tərəfdən belə əsaslandırıb: "Allah hər bir şeyi bilir və bizə bildirir. Əgər məlumatlar bizə Allahın bildiyi şəkildə hərtərəfli çatdırılsaydı, o zaman bu bizim üçün bilik hesab edilərdi. Yox, əgər Allahın bildikləri olduğu kimi bizə çatdırılmasa, bu zaman o bizim üçün cəhalət olar. Allahın bizi qüdrət sahibi olaraq yaratması da belədir. Əgər bizə qüdrət verərsə, yaratmaq xüsusiyyətlərini əhatə edən qüdrət verər. Yox, qüdrət xüsusiyyətlərini əhatə etməsə, o zaman bu, qüdrət sayılmaz. Nəsəfi qüdrətin insanda öncədən mövcud olmadığını vurğulamışdır. Ona görə, insan feillərini icra etdiyi zaman qüdrət yaranır və bunun vasitəsilə insan feillərini həyata keçirir, insan feillərini iradəsi ilə etmiş olur. Bu feil və iradə ilə birlikdə Allah insanda qüdrəti yaradır. Beləliklə, insan etdiyi feillərə görə kəsb sahibi olur. Qüdrətin feildən öncə yaranması insanın Allaha ehtiyacı olmadığı görüşünə gətirib çıxarır".

Nəsəfi, həmçinin insanın yaratmaq gücünün olmamasını əqli və hissi dəlillərlə təhlil edərək ağlın da insanın birbaşa yaratmaq qüdrətinə sahib olmadığını əsaslandırmağa çalışıb. O, hesab edir ki, insan feillərinin yaradıcısı olmadığı üçün hər zaman bu feillərin nəticəsi istədiyi şəkildə yekunlaşmaz, bəzən heç gözləmədiyi şəkildə də nəticələnə bilər. Əgər insan feillərinin yaradıcısı olsaydı, o zaman işin nəticəsi insanların istədiyi şəkildə olardı. İnsanın yaratmaq qüdrətinin olmadığını söyləyən Nəsəfi bu məsələni hissi-təcrübi cəhətdən araşdırıb izah etməyə cəhd edir. İnsan ona qəmqüssə gətirən iztirablı hadisələri yaşamaq istəməz. Buna baxmayaraq, insanın bəzən heç də arzulamadığı reallıqlarla qarşılaşması, istədiyi nəticələri yaşaya bilməməsi, həmin əməlləri yaratmaq qüdrətinin ona aid olmamasının dəlilidir.

Gəldiyimiz nəticəyə əsasən söyləyə bilərik ki, Əbül-Müin ən-Nəsəfiyə görə, bir feilin iki yaradıcısının olması mümkün deyildir. İnsanın bütün feil və davranışlarında yaratmaq qüdrəti Allaha, kəsb etmək qüdrəti isə insana aiddir. İnsan sahib olduğu feil, davranışlarını öz iradə və istəyi ilə həyata keçirir. İnsanın reallaşdırmaq istədiyi feillərin Allah tərəfindən yaradılması onun hürriyyətinə maneə təşkil etmir. Əbül-Müin ən-Nəsəfinin düşüncəsinə görə, qüdrətin var ola bilməsi üçün feilin varlığına ehtiyacı var.

### Əbül-Müin ən-Nəsəfi kontekstində "İnsan feillərində azaddırmı?" mövzusu

İnsanın yaradılış tarixi qədər qədim olan iradə hürriyyəti problemi bütün dövrlərdə maraq dairəsində olan və müzakirə edilən mövzulardan olmuşdur. Bu mövzunun araşdırılmasında Əbül Müin ən-Nəsəfinin də rolu olduqca böyükdür. Buna görə də biz onun insan feilləri mövzusu haqqında olan görüşlərini bəzi vacib qaynaqlar əsasında araşdırıb, insan feilləri haqqında fərqli düşüncələrini izah etməyə çalışdıq. Tezisimizin əsas məqsədi insanı bütün varlıqlardan üstün və fərqli qılan iradə hürriyyətinin Əbül-Müin ən-Nəsəfiyə görə, əhəmiyyətini müəyyən etmək, iradə hürriyyəti ilə bağlı olan Allah-insan münasibəti məsələsinin teoloji-fəlsəfi mahiyyətini mümkün qədər açıqlamaqdır.



**Ələddin Məlikov,**
**f.f.d., dos.,**
**AİI-nin müəllimi**

# Görkəmli empirik alim əl-Biruni

Xarəzm hələ qədim dövrlərdən yüksək mədəniyyət mərkəzi olub. Nəhəng sarayları, məscidləri, mədrəsələri bu qədim dövlətin əzəmətindən xəbər verirdi. Ərəb xilafəti süquta uğradıqdan sonra, müstəmləkə əsarətindən xilas olan dövlətlər müstəqillik əldə etdi. X-XI əsrlərdə Orta Asiya dövlətlərinin ərazilərində Əbu Nəsr Farabi, İbn Sina və Biruni kimi dünyaşöhrətli mütəfəkkirlər yetişdi.

Əbu Reyhan Məhəmməd əl-Biruni Xarəzm şəhərinin qədim paytaxtı "Kayat" şəhərində dünyaya gəlib. Uşaqlıqdan valideynlərini itirib, tərbiyəsi ilə bir yunan məşğul olub və onda təbiətşünaslığa maraq yaradıb. Biruni cild-cild kitablar oxuyaraq ulduzları, mineralları öyrənib, Orta Asiyada ilk dəfə Yer kürəsinin qlobusunu ixtira edib, elə buna görə də adı tarixə düşüb.

Biruni ilk feodal imperiyaları – Qaraxanilər və Qəznəvilər sülalələrinin yüksəlişi və süqutunun şahidi olub. Sosial toqquşmaların küləyi, feodal müharibələrinin, barbar basqınlarının gözünün qarşısında baş verməsi onu tarixə müraciət etməyə məcbur edib. 27 yaşında ikən "Qədim xalqların xronologiyası" əsərini tamamlayıb. Əsər haqqında yazıb ki, "Mənim bu kitabda qarşıma qoyduğum məqsəd müxtəlif eraların davam etmək müddətini müəyyənləşdirmək olmuşdur". Müəllif əsərini insan yaranandan böyük dünya daşqınına, Navuxodossor və makedoniyalı İsgəndər dövrünə qədər davam etdirib. Oxucu ərəb, yunan, fars və digər xalqların təqvim sistemləri haqqında məlumat alır. Bu əsərdə şahların və qəhrəmanların tarixi, xalqların mədəniyyətləri, adətləri və zövqləri tarixi ilə çulğalaşır. "Qədim xalqların xronologiyası" əsərini sırf tarixi əsər deyil, həmçinin bu gün də öz dəyərini itirməyən tarixi-etnoqrafik tədqiqat işi hesab etmək olar. Yalnız Biruninin əsərində Soqdia təqvimi və sənədləri haqqında məlumat vardır. Xarəzmin müsəlmanlığa qədərki dövrünün ilk məlumatlarını onun əsərindən əxz etmək mümkündür.

X əsrdə Orta Asiyanın ucqar əyaləti hesab olunan Xarəzm Samanilər dövlətinin tərkibinə daxil olsa da, praktiki olaraq siyasi müstəqilliyini qoruyub saxlaya bilib. Bu diyarı Xarəzmşahlar idarə edirdi. Xarəzm Orta Asiya, Monqolustan, Çin, İran və Volqa boyundan gələn beynəlxalq ticarət mərkəzlərinin əsas yollarının birində yerləşirdi. Bundan başqa, Xarəzm köçəri tayfalarla ticarət əlaqəsinə malik idi. X əsrin II yarısında Şərqi Avropa ilə ticarətin genişlənməsi ölkənin iki müstəqil dövlətə bölünməsinə şərait yaratdı. Paytaxt "Ürkənc" olmaqla, Şimali Xarəzmi əmir idarə edirdi. Paytaxt Kayat olmaqla, Cənubi Xarəzmi Xarəzmşahlar idarə edirdi.

Biruninin uşaqlığı haqqında məlumatlar azdır. Ona verilən bu ləqəb haqqında müxtəlif fikirlər mövcuddur. Bəziləri şəhərkənarı, şəhərə bitişik, yaxud sahildə dünyaya gəldiyi üçün ona Biruni ləqəbinin verildiyini və bu adla da tanındığını fərz edir.

XII əsrin məşhur coğrafiyaşünas alimlərindən biri də Yaqut Xarəzmdə olub. O, başqa bir fərziyyə irəli sürərək, özünün bioqrafiya lüğətində yazırdı ki, Biruni öz vətənini üç dəfə tərk edib. Xarəzm sakinləri öz vətənini tərk edib-gedənlərə "Biruni" deyirdilər. Dövrünün bütün elmləri ilə məşğul olan Biruni, demək olar ki, hər sahədə özünün ensiklopedik biliyi ilə seçilib. Elmi biliklərin təsnifatında isə Biruni özünü daha çox astronom kimi göstərib.

Biruninin müəllimi Xarəzmşahın əmisioğlu Əmir Əbu Nəsir Mansur ibn İraq olub. O, astronomiya, riyaziyyat, xüsusilə, həndəsə sahəsində fundamental əsərlər yazıb. 21-22 yaşlarında elə bir alət yaratmışdı ki, onun köməyi ilə Xarəzmin bir sıra yaşayış məskənlərinin koordinatlarını müəyyən etmək mümkün olub. Elə həmin dövrdə o, bir sıra astronomik əsərlər yaza bilib.

990-cı ildən başlayaraq, Xarəzm köçəri tayfaların basqınlarına məruz qalıb. Belə ağır vəziyyətdə Biruni İrana gedir və bir müddət İranda yaşayır. Sonrakı dövrdə isə bir sıra şəhərlərə köçməklə öz elmi araşdırmalarını davam etdirir. Ən mühüm əsərlərini Qəznə şəhərində yazıb. Riyaziyyatın, astronomiyanın, astronomik alətlərin, coğrafiyanın, naturfəlsəfənin, mineralogiyanın, farmakologiyanın, tarixin, etnoqrafiyanın, xronologiyanın, filologiyanın və s. elmlərin mühüm məsələlərinə dair əsərlər qələmə alıb. Tədqiqatçılar onun 150-yə qədər əsərinin olduğunu qeyd ediblər. Birunini maraqlandıran problemlər arasında

təbiətşünaslığın fəlsəfi məsələləri xüsusi yer tutur.

Biruni zamanını o qədər qabaqlayıb ki, onun parlaq kəşfləri böyük alimlər dəstəsi üçün əlçatmaz olub. İlk olaraq təəccüb doğuracaq universal formulu dövriyyəyə çıxararaq, Yer kürəsi çevrəsinin uzunluğunu müəyyən edib. Yerin Günəş ətrafında dövr etməsi haqqında fikirlər söyləyib, həm də bir geoloji dövrün digəri tərəfindən vaxtaşırı əvəz olunması ideyasını inkişaf etdirib. Yer kürəsinin geoloji inkişaf nəzəriyyəsinin əsası kimi onu da irəli sürüb ki, "zaman keçdikcə, dəniz quruya və yaxud quru dənizə çevrilir". Bu fərziyyənin kökündə duran əsas sual budur ki, onun zaman kəsiyində belə vəziyyətlərə düşməsinə nə şərait yaradır?

1010-cu ildə Biruni Xarəzmdə "Məmun Akademiyası"na daxil olur. Həmin vaxt zəmanənin ən böyük alimləri – filosoflar, təbiətşünaslar, tarixçilər, riyaziyyatçılar və başqaları "Məmun Akademiyası"nda birləşmişdilər.



XI əsrin əvvəllərində Xarəzmdə iqtisadi inkişaf yüksək səviyyədə idi. Elmin inkişafına xəzərlər, bulaqlar, Ural tayfaları, Qərbi Sibir xalqları ilə ticarət əlaqələri kömək edirdi. Elmin inkişaf etdiyi zəmin olduqca məhsuldar idi. Hələ də yaddaşlarda ənənələr yaşayırdı. "Qonşu Hindistanın müdrikliyi və Uzaq Ellada"nın bitkin aydınlığı həmin ənənəyə əlavə olunurdu. Biruni yunan fəlsəfəsi və elmi fikrindən iqtibaslar gətirməklə onlarla tanış olduğunu bir daha sübut edib. O, Platonun "Fedon" traktatını, Aristotelin, Arximedin, Demokritin əsərlərini oxumuşdu. Biruni yunan fəlsəfəsinin mühüm cəhətlərini yüksək qiymətləndirib.

XI əsrdə Şərq ölkələrində çaxnaşmalar başlayır. Mahmud Qəznəvinin ordusu minlərlə insanı əsir götürür, onların arasında Biruni də olur. XI əsrin 20-ci illərində həyatının ağır keçməsinə baxmayaraq, alimin yaradıcılığı çox məhsuldar olur. O, ayın təsiri ilə dəniz suyunun qabarma və çəkilməsini öyrənməyə çalışmışdır. Eləcə də Hindistan haqqında böyük əsər yazmağı düşünürdü. Bütün bunlar isə onun elmi təfəkkürünün zirvəsinə çevrilib.

Biruniyə qədər Hindistan ərəb və fars ədəbiyyatında möcüzələr ölkəsi kimi təqdim olunub.

Hindlilər astronomiyada, hesabda xeyli irəliləyiş edərək, öz yazı əlifbalarını yaratmışlar. Onlar tarixdə nümunəvi-peşəkar həkim və şahmatı kəşf edənlər kimi məşhurlaşıblar. Biruni dövründə şahmat intellektual oyun hesab olunurdu. Şeir yaradıcılığı və heykəltəraşlıq sahəsində də Hindistan inkişaf edirdi.

Qəznədə Biruni əsir düşmüş hind alimləri ilə tanış olur. Onlarla təmas onda bu möcüzəli ölkəyə maraq yaradır. O, 45 yaşında sanskrit dilini öyrənməyə başlayır, bir neçə dəfə Hindistanda olur.

Biruni Evklidin "Elementlər" kitabını və digər əsərləri tərcümə edib. Hind kasta sistemi, fəlsəfəsi, dəqiq elmlər, din, qanunlar və adətlər, əfsanələr, ölçü və çəki sistemi, yazı, coğrafiya və s. Biruninin əsərində öz əksini tapıb. Öz əsərində 14 yunan müəllifinin 24 əsərindən iqtibas gətirərək, 40 sanskrit mənbəyindən faydalanıb. Digər xalqların mədəniyyətinə dərin hörmətlə yanaşan Biruninin Mahmud Qəznəvinin oğlu Məsudun hakimiyyəti illərində vəziy-

yəti xeyli yaxşılaşıb. Yeni hökmdar zəmanəsinin ağıllı maarifpərvər adamlarından biri olub, elmə və incəsənətə qayğı göstərib. Müasirləri Biruni haqqında deyirdilər: "İldə iki bayram gününü çıxmaq şərti ilə onun əli qələmdən, gözləri müşahidə etməkdən, ağlı düşüncələrdən ayrılmamışdır".

Orta əsr Şərq elminin naturfəlsəfi problemləri arasında təbiətdə fasiləsizlik və diskretlik, hərəkətin mahiyyəti və ötürülməsi, materiyanın quruluşu və çevrilməsi, həmin dövrün fizika və kimyasının bəzi problemləri mühüm əhəmiyyət daşıyırdı. Orta əsr Şərqində naturfəlsəfənin tərcüməsi və şərhi inkişaf etməyə başlamışdır. Bu sahədə, hətta müəyyən standart qaydalar da mövcud olub. Aristotelin əsərlərinin şərhi təbiət hadisələrinin hər cür öyrənilməsinin başlanğıc mərhələsi hesab olunurdu.

Aristotelin şərhçiləri arasında məşhur alimlərdən Farabi, Bitruci, İbn Baccə, İbn Rüşd, İbn Sina və başqalarını xüsusi qeyd etmək lazımdır.

Bizə İbn Sina ilə Biruninin Aristotelin əsəri haqqında yazışmaları gəlib çatıb. Burada Biruninin sualları və İbn Sinanın ona cavabları mühüm yer tutur. On sual-cavab Aristotelin "Səma haqqında" əsəri ilə, 8 sual-cavab isə "Fizika" əsəri ilə əlaqədardır. Yazışma Biruni yaradıcılığının Xarəzm dövrü ilə əlaqədardır və onun təşəbbüsü daha aydın şəkildə hiss olunur.

Yazışmada riyaziyyatın əsaslarının fəlsəfi problemləri, hərəkətin mahiyyəti məsələləri, boşluğun mövcudluğu haqqında, istiliyin yayılması və cisimlərin istidən genişlənməsi haqqında işığın əksi və şərhçilərinin əksəriyyətinin ehkamcasına müdafiə etdiyi mücərrəd müddəalar kəskin surətdə əleyhinə yönəldilib. Həm burada, həm də özünün elmi əsərlərində təcrübi elmləri əqli nəticələrə meylə qarşı qoyur. İbn Sina isə Aristotelin müdafiəçisi rolunda çıxış edir.

Səciyyəvi cəhət budur ki, həmin dövrün ictimai rəyi İbn Sinanın tərəfində dururdu. Bu yazışma nəticəsində onun müasirlərindən biri yazırdı ki, Biruni İbn Sina ilə mübahisə edirdi. Abstraktlığın dərinliyinə varmaq onun işi deyildi. Heç bir insan Yaradıcının əvvəlcədən müəyyən etdiyindən artıq heç nəyə nail ola bilməz. Məlumdur ki, Biruni İbn Sinanın cavabları ilə razılaşmayıb və ona öz etirazını göndərib. Onun hərəkətin növləri, işığın yayılması və sınması haqqındakı fikirləri də maraq doğurur. Biruninin İbn Sinanı müdafiə etməsinə baxmayaraq, Aristotelin bir çox müddəalarının səhv olduğunu qeyd etməsi də maraqlıdır.

Ümumiyyətlə, Biruni daha çox təbiətşünas və riyaziyyatçı kimi tanınıb. Onun humanitar irsi də maraqlıdır. Nəhəng, erudisiyalı, ensiklopedik biliyi, materialların toplanmasında vicdanlılıq mövqeyi diqqət cəlb edir. Eyni zamanda, təbiətşünaslıq sahəsindəki fundamental əsərlərində elmi problematika humanitar problematika ilə qarışmışdır. Konkret materialın ifadə edilməsində onun hərtərəfli biliyi bütün sahələrdə öz sözünü deməyə imkan verir.

Qeyd etdiyimiz kimi, Biruni qədim xalqların tarixi, Orta əsr xalqlarının tarixi, xüsusilə Orta Asiya xalqlarının tarixi, etnoqrafiyası, dini, elm və mədəniyyəti ilə yaxından maraqlanıb, yeri gəldikdə, özünün dəyərli mülahizələrini bildirib.

Biruni filoloq kimi hind şeiri və ərəb poeziyası, müxtəlif dillərdə elmi terminologiyadan istifadə etməklə, onların tərcüməsi ilə də maraqlanıb. Fəlsəfə sahəsində onun fəaliyyəti hind dini-fəlsəfi sisteminin tədqiqi və şərhi, İbn Sina ilə yazışması, "xronologiya"nın bir sıra fəsillərindəki fikirləri, o cümlədən "Geodeziya" və "Qanun" əsərlərindəki ayrı-ayrı hissələrdə özünü göstərir. Filosofun humanitar irsinin zəngin problematikası onu Orta əsrlər Şərqinin təkcə təbiətşünas alimi deyil, həm də humanitar elmlər sahəsində ən böyük tədqiqatçısı hesab etməyə imkan verir. Qəznəvilər dövründə böyük hörmətə malik olan Biruni Sultan Masudla tez-tez elmi mübahisələrə girişirdi. O, əsas əsərini də Sultan Masudun adı ilə "Məsudun Qanunu" adlandırıb. Əsər astronomiyaya və ulduzlara həsr olunub. Məsud onun elmlə məşğul olması üçün hər cür şərait yaradıb.

Biruninin əsərləri onun dünyagörüşünü dəqiq surətdə xarakterizə etməyə imkan verir. O, Allaha inansa da, Onu yalnız ilk səbəb olaraq, dünyanın yaradıcısı hesab edir, eyni zamanda, Yaradanın cəmiyyət və təbiətin həyatına gündəlik müdaxiləsini inkar edirdi. Aydındır ki, bu cür dünyagörüş "deizm" adlanır. Biruni deist olduğundan, demək olar ki, həmişə elmi və dini təsəvvürlər arasında hədd qoyub. Hindistana həsr etdiyi əsərində o yazırdı ki, çox az hindli tapılar ki, naturfilosoflar kimi səma hadisələrinin mahiyyəti ilə, kometləri öyrənən dəqiq elmi axtarışlarla məşğul olsun. Bu məsələlərdə hindlilər öz dini rəhbərlərinin sözlərindən çıxmırdılar.

Özünün əsas əsərlərində Biruni təbiəti onun hadisələrindən çıxış edərək öyrənirdi. O, təbii və maddini şüur və hisslərdən asılı olmayan müstəqil kimi nəzərdən keçirirdi. Təbiət hadisələrinin təhlilində o aspektdən çıxış edir ki, təbiətdə səbəbiyyət qanunu hökm

sürür, eyni səbəblər eyni nəticələri doğurur, müxtəlif qüvvələrin təsiri altında təbiətdə daim dəyişikliklər baş verir. Qeyd etmək yerinə düşər ki, onun dünyagörüşü rəsmi İslam prinsiplərindən uzaq olub və öz dövrünün qabaqcıl mütəfəkkiri kimi olduqca məşhur idi.

Bir sıra tədqiqatçılar bu filosof-alimi Şərq renessansının “oğlu” hesab ediblər. Biruniyə görə materiya konkretlik paltarını geyərək, bu və ya digər amil kimi özünü təzahür etdirir. O sübut edirdi ki, canlı varlıqlar, o cümlədən, insan öz psixikası ilə təbiətin inkişafının nəticəsidir və ilahiyyata qarşı çıxış edir. Onların fikrincə, təxəyyül və fikir birincidir. Biruni təbiətin hiss orqanları və məntiqi köməyi ilə dərk edilməsini irəli sürürdü. Böyük humanist Əbu Reyhan Biruni işğalçı müharibələrin əleyhinə çıxıb.

Biruni öz yaradıcılığı ilə Şərqin bir sıra alimlərindən fərqlənirdi, çünki Şərq alimlərinin əksəriyyəti əsas diqqəti abstrakt fənlərə – İlahiyyata, Hüquqşünaslığa, Quranşünaslığa, sırf fəlsəfi problemlərə verirdilər. Böyük mütəfəkkirin əsərlərinin əsas hissəsi isə fizika-riyaziyyat və geologiya-coğrafiyaya həsr olunmuşdu. Dəqiq elmlərə aid olmayan əsərlərində də (“Xronologiya”, “Hindistan” və s.) alimin əsas prinsipi olan tənqidi-analitik metod özünü aydın şəkildə göstərirdi. Həmin əsərlər iri humanitar əsərlər hesab olunurdu. Biruni müqayisəli metoda dərindən yiyələndiyi üçün ondan bacarıqla istifadə edirdi. Onun özünəməxsus metodu indinin özündə də dəyərini qoruyub saxlamaqdadır.

Biruni yaradıcılığında səciyyəvi cəhətlərdən biri də yalançı elmlərə – mövhumat və cəhalətə tətbiq etdiyi rasional skeptisizm hesab olunur. O, əlkimyanı cadugərliyin bir növü hesab edir və ona skeptik münasibət bəsləyirdi. Biruninin əsərləri onun fəlsəfi baxışlarını izləməyə imkan verir, qeyd etdiyimiz kimi, deizmi müdafiə edirdi. Onun dini-fəlsəfi təlimi Allahı dünyanın yaradılmasının ilk səbəbi kimi götürür, lakin dünya yaradıldıqdan sonra təbiətin və cəmiyyətin işinə gündəlik qarışmasını inkar edirdi. Təbiətşünas kimi Biruni bu nəzəriyyəyə izahat verməyə cəhd edib, həmişə dini və elmi anlayışları dəqiq surətdə bir-birindən ayırıb, elmlərin differensiyası məsələlərində düzgün mövqedə durub. “Geodeziya” əsərinin girişində insan cəmiyyətinin inkişafını və insanın elmə qiymətini dəqiq ifadə edib.

Alimin fikrincə, varlıq inkişaf və dəyişmələrlə özünü büruzə verir. Bu isə təbiət qüvvələrinin gücünü göstərir. Təbiət hadisələrinin elmi baxımdan izah edilməsi, elmi dindən cidd-cəhdlə ayırmaq arzusu Biruninin başlıca xidməti hesab olunmalıdır. Mövhumat və cəhalətlə bütün ömrü boyu mübarizə aparan böyük mütəfəkkirin dindarlığı fanatiklikdən uzaq, sırf elmi əsaslarla izah olunmalıdır. Orta əsr Şərq alimlərinin əksəriyyətindən fərqli olaraq, Biruni ilahiyyat və Quranın şərhi məsələləri ilə məşğul olmayıb. Onun rasional skeptisizmi, dini cəhalətə mənfi münasibəti, dinlərin bərabərliyi haqqında dəfələrlə söylədiyi fikirlər diqqəti cəlb edir. Mərasim və ritualların maarifdən uzaq kütləni cəlb etmək üçün yaradıldığını xüsusi vurğulamışdır. Onun sosiologiya, etika, əxlaq haqqında maraqlı fikirləri var. Azad əməyə hörmətlə yanaşan Biruni varlı əcdadların olmasının, sərvətin insanların taleyini həll etməsinin əleyhinə çıxıb. Dinlərin bərabərliyini irəli sürərək, dövrünün digər alimləri kimi cəmiyyətin strukturunu, tarixi hadisələrin gedişini idealist mövqelərdən izah edib. O, insan cəmiyyətini avam kütləyə və maariflənmiş elitaya bölürdü. Maariflənmiş elita dini daha dərindən başa düşürdüsə, sadə, avam kütlə onu səthi anlayırdı. Biruni özünü cəmiyyətin ən yaxşı hissəsinə aid edirdi. O, dini məsələləri rasional mövqedən qiymətləndirməyi irəli sürürdü. Böyük alim insanları düzdanışan və qəhrəman hiss edirdi. Elə o özü də həmin insanlardan biri idi. Həqiqi qəhrəmanlığı əxlaqi keyfiyyətlərə malikolma kimi irəli sürürdü.

Biruni xalqların etnoqrafik tarixini, bayram və mərasimlərin kənd təsərrüfatının təşkili ilə əlaqədar olduğunu xüsusi vurğulayıb. Əfsanələr, hökmdarlar, yəhudilərin Misirdən çıxması, hökmdar – əjdaha Zəhhak, İbrahim, Musa Yusif, Yaqub və s. haqqındakı rəvayətlər onun əsərlərində mühüm yer tutur. Xristian hökmdarları İsa, Nikeya yığıncağı, Roma dövrü haqqındakı məlumatlar da bu qəbildəndir. Xarəzmin tarixi xalq hərəkatları haqqında məlumatlar da olduğu kimi əks olunub. Filologiya və poeziya məsələləri haqqındakı fikirləri Biruninin həmin sahədə kifayət qədər biliklərə malik olduğunu göstərir. Alimin hind qrammatikası və materiki, onların təhsil sistemi haqqındakı fikirləri zəmanəmizə qədər gəlib çatıb.

Qeyd etdiyimiz kimi, hindlilərin və yunanların fəlsəfi sistemlərinin təhlilində Biruni təbii-elmi mövqeyə daha çox diqqət yetirib. O, mütərəqqi cəhətləri alqışlayaraq, səhv hökm və göstərişləri tənqid edib. Özünün təbiətə baxışlarını bütün əsərlərində əks etdirib.

E.Nurullahoğlu,
f.f.d., dos.,
Aİİ-nin müəllimi

# İbn Heysəm optika problemlərinin müsəlman tədqiqatçısı kimi

Əbu Əli Hüseyn ibn Həsən ibn Heysəm optika, riyaziyyat, həndəsə, fizika, göz təbabəti və fəlsəfə sahələrində böyük uğur qazanmış Orta əsr ensiklopedik müsəlman alimidir. Elmi kəşfləri və nailiyyətlərinə görə elmdə qazandığı şöhrət Orta əsr Avropasında onu "İkinci Ptolemey" (lat. Ptolemaeus Secundus) və "fizik" kimi məşhurlaşdırıb. Qərbdə "Alhazen" tanınıb. Bəzi mənbələrdə isə "Alhacen", "Avenetan", "Avennathan" olaraq göstərilmişdir. Əslində, İbn Heysəm XVI əsrədək Avropada "Alhacen" adlı ilə tanınmışdır. Onu adını "Alhazen" olaraq elm aləminə daxil edən isə alman riyaziyyatçısı Fridrix Rizner (1533-1580) olmuşdur. Belə ki, sonuncu tərəfindən İbn Heysəmin məşhur "Kitab əl-mənazir" (Görmələr kitabı) kitabı 1572-ci ildə "əl-Kunz əl-bəsəri: əl-kutub əs-səbə lil-Həzən əl-ərəbi" (Optika xəzinəsi: Ərəb əl-Həzənin Yeddi Kitabı) adı altında çap edilmişdir .

İbn Heysəmin adı elm dünyasında məşhur olsa da, həyatına dair kifayət qədər məlumat yoxdur. O, 965-ci ildə İraqın Bəsrə şəhərində anadan olmuşdur. Həmin vaxt Bəsrə Ümumİslam mədəniyyətinin əsas mərkəzlərindən biri sayılırdı. İbn Heysəm ilk dini təhsilini burada almış, dövrünün biliklərinə yiyələnmişdi. Həm əsli, həm də tərcümə edilmiş kitabları mütaliə edən İbn Heysəm ilk təhsilini doğma şəhəri Bəsrədə aldıqdan sonra Bağdada getmiş, orada riyaziyyatı, astronomiyanı, fizikanı, optikanı, təbabəti, fəlsəfəni öyrənmişdir . O, yunan filosofları və mütəfəkkirlərindən Aristotelin, Ptolemeyin, Galenin, Evklid və başqalarının ərəb dilinə tərcümə edilmiş əsərlərini oxuyaraq bilik dairəsini genişləndirir.

İbn Heysəm həmin dövrdə Büveyhilər dövlətinə tabe olan Bəsrə şəhərində bir müddət şəhər divanxanasında işləmiş, elmi araşdırmalarına mane olduğu üçün vəzifəsindən ayrılmışdır .

XII-XIII əsrlərin məşhur ərəb tarixçisi və təbibi Cəmaləddin Əbülhəsən əl-Qifti yazırdı ki, İbn *Heysəm deyibmiş: "Əgər Misirdə olsam, Nil üçün elə bir iş görərəm ki, suyu gur və az olan vaxtlarda (insanlara) fayda gətirər"*. Bu xəbəri eşidən Fatimi hökmdarı Hakimbiəmrillah (985-1021) İbn Heysəmi Misirə dəvət edib, layihəsini həyata keçirməsi üçün onu hər bir şeylə təmin edir . İbn Heysəm Yuxarı Misirdə yerləşən Asuan ərazisində araşdırmalar aparır və məlum olur ki, o dövrün imkanları ilə Nilin üzərində bənd tikmək mümkün deyildir. Bunu başa düşən İbn Heysəm xəlifə Hakimbiəmrillahdan layihəsini həyata keçirə bilmədiyi üçün üzr istəyir . Xəlifə qəzəbini boğur və İbn Heysəmə divanxanada vəzifə verir. Xəlifənin hər an onu cəzalandıra biləcəyindən qorxan İbn Heysəm özünü dəliliyə vurur, xəlifənin vəfatınadək ev dustağı edilir . Həyatının mühüm hissəsini Misirdə keçirən İbn Heysəm bu vaxt ərzində – 1011-1021-ci illər ərzində özünün məşhur "Kitab əl-mənazir" əsərini yazır. Hakimbiəmrillahın 1021-ci ildə vəfatından sonra rahatlıq tapır, sərbəst şəkildə elmi tədqiqatlar aparır . O bu vaxt ərzində Əzhər universiteti ilə əlaqə yaradır, fizika, riyaziyyat və astronomiyaya dair onlarla traktat yazır.

İbn Heysəm 1040-cı ildə Misirdə vəfat etmişdir. İslam dünyasında elm və mədəniyyətin zirvəyə ucaldığı bir dövrdə yaşamış İbn Heysəm mötəzili alimi Qazi Əbdülcəbbar, əş`əri kəlamçısı Əbubəkr əl-Baqillani, filosoflardan İbn Miskəveyh və İbn Sina, astronomlardan əl-Biruninin müasiri olmuşdur.

İbn Heysəmin ensiklopedik alim olub dünya elminə verdiyi əvəzsiz töhfələr birmənalı şəkildə qiymətləndirilmişdir. Məsələn, Aydakı kraterlərdən birinə onun adı verilmiş, 1999-cu il fevral ayının 7-də kəşf olunmuş asteroidlərdən biri "Alhazen 59239" adlandırılmışdır .

İbn Heysəm dövrünün bütün elmlərində öz sözünü demiş nadir dahilərdən olmuşdur. Riyaziyyat, həndəsə, fizika, astronomiya, təbabət, optikaya dair sanballı əsərlər yazmış, xüsusən optika sahəsində o vaxta qədər məlum olmayan nəzəri və praktik metodologiyanın əsasını qoymuş və onu inkişaf etdirmişdir. O, antik dövrün həndəsə və astronomiyaya dair biliklərini ciddi surətdə tədqiq etmiş, mübahisəli və səhv tərəflərini üzə çıxarmış, elmi şəkildə tənqid etdikdən sonra yeni nəzəriyyələr irəli sürmüşdür. İlk dəfə olaraq həndəsəni məntiqə tətbiq etmiş, Evklidin həndəsi və hesablama metodlarını inkişaf etdirmiş, həndəsə və riyaziyyatın memarlıqda tətbiqinə dair fikirlər səsləndirmiş, Aristotelin geosentrizm təliminə şübhə ilə yanaşmışdır. Astrofizika elminə aid bir sıra məf-

hum və qanunların izahını verməyə çalışan İbn Heysəm "Astronomiyaya dair xülasə" və "Tərəzi haqqında söz" traktatlarında kütlələrin bir-birinizi cəzb etməsi, ağırlıq qüvvəsi və mərkəzləri, cazibəsindən danışmış, "Ay işığına dair söz" traktatında isə ilk dəfə olaraq göstərmişdir ki, Ay özündən işıq saçmır, əksinə, Günəşin şüalarını əks etdirir. O, sonuncu traktatında riyazi astronomiyanı fizika ilə uğurlu şəkildə əlaqələndirə bilmişdir.

İbn Heysəmin astronomiya sahəsində qələmə aldığı əsər və traktatlardan məlum olur ki, o, qədim yunanların astronomiyaya dair bir sıra görüş və nəzəriyyələri ilə razılaşmamışdır. Məsələn, "Ptolemey haqda şübhələr" traktatında Ptolemeyin səhvlərini açıb göstərmiş, onun əsərlərindəki ziddiyyətləri aşkara çıxarmışdır. O, Ptolemeyin planetlərin xaotik hərəkəti ilə bağlı görüşlərini rədd edirdi. İbn Heysəm Ptolemeyin astronomik sistemini, mütləq dairəvi hərəkətin fiziki xassələrinin öyrənilməsində istifadə etdiyi ekvant anlayışını, bir çox nəzəriyyələrini müşahidə, təcrübə ilə deyil, intuisiya əsasında yaratmasını ciddi şəkildə tənqid etmişdir.

İbn Heysəm həndəsi analizin ən qədim məsələlərindən sayılan konus kəsiyi sistemini işləyib hazırlamış və Saylar nəzəriyyəsini təsis etmişdir. Sonralar Rene Dekart analitik həndəsinin inkişaf etdirilməsində İbn Heysəmdən təsirlənəcək, nəzəriyyələrindən istifadə edəcəkdi. Əbəs deyildir ki, alman şərqşünası Maks Meyerhof (1874-1945) İbn Heysəmi heyranlıqla "kölgəsində Evklid və Ptolemeyin qaldığı dahi" olaraq təsvir etmişdir.

İngilis tarixçisi və filosofu Kolin Ronan (1920-1995) tərəfindən "Müsəlmanların ən böyük fiziki" adlandırılan İbn Heysəm "Məkana dair" traktatında mexanika və dina-



mikaya dair bəzi qeydlər aparmış, Nyutondan əsrlər qabaq itələmə qüvvəsindən danışmışdır. O bildirirdi ki, xarici təsir olmadıqca cisimlər daima hərəkətdədirlər. İbn Heysəm ətalət qanununun kəşf olunmasına aparıb çıxaran bu ideyanı inkişaf etdirməmiş, sürtünmə qüvvəsinin tərifini verməklə kifayətlənmişdi.

İbn Heysəmin universal və ensiklopedik zəkaya sahib olmasının göstəricisi idi ki, o, ilk dəfə olaraq musiqinin heyvanlar üzərində təsirini öyrənmişdi. Halbuki XIX əsrədək Qərbdə elə zənn edirdilər ki, musiqi ancaq insanlar üzərində təsirə malikdir. Quşlar, sürünənlər və əhliləşdirilmiş heyvanlar üzərində apardığı təcrübələrinin nəticələrini "Nəğmələrin canlıların ruhuna təsiri" adlı traktatında toplayan İbn Heysəm, məsələn, deyirdi ki, musiqi dəvələrin daha sürətli getməsinə səbəb olur. Bəzi müasir tədqiqatçılar İbn Heysəmi eksperimental psixologiyanın banisi hesab edirlər .

İbn Heysəmin yaradıcılığının əsas hissəsi optika tədqiqatlarına həsr olunub. Əslində, İbn Heysəmin adı riyaziyyat və astronomiyaya dair tədqiqatlarından daha çox optika sahəsində inqilab yaratmış kəşfləri sayəsində məşhurlaşmışdır. Elə buna görə də o, XVII əsrədək optika tarixinin ən qüdrətli nümayəndəsi olaraq qəbul edilir. İngilis tarixçi-filosofu Arnold Toynbi (1889-1975) "İslam irsi" kitabında optikanın İbn Heysəmin tarix səhnəsində görünməsi ilə zirvəyə çatdığını qeyd etmiş, belçikalı kimyaçı Corc Sarton (1884-1956) onu "bütün dövrlərin nadir optika tədqiqatçılarından biri" adlandırmışdır. Alman şərqşünası Maks Meyerhofun nəzərində isə İbn Heysəm "Optika sahəsində islam elminin mədari-iftixarı"dır.

İbn Heysəmin optika sahəsində apardığı tədqiqatların nəticələri, əsasən "Kitab əl-mənazir" (Görmələr kitabı) kitabında toplanmışdır. Əslində bu kitab, həm də optika sahəsinə dair qədim dövrdən onun yaşadığı əsrə qədər mövcud olmuş bütün bilikləri, nəzəriyyə və yanaşmaları ehtiva edir. Müəllif yeddi cilddən ibarət bu fundamental əsərdə gözün anatomiyası, görmənin fizioloji və optik mahiyyəti, işıq, sınma və əksolunma hadisələri haqda danışır. Latın dilinə tərcümə edilmiş bu kitab Qərb optika tarixində inqilab yaratmış, xüsusən Rocer Bekon və İohan Keplerin yaradıcılığına təsir göstərmişdi .

İbn Heysəmin optika sahəsində apardığı tədqiqatları, bu elmə gətirdiyi yenilikləri bəndlər şəklində bu cür göstərmək mümkündür:

1. İbn Heysəmin optik tədqiqatları güzgülər, xüsusən kürəşəkilli, batıq və qabarıq güzgülər vasitəsilə optik sistemlərin, sferik abberasiya hadisəsinin, linzaların böyütmə gücünün öyrənilməsinə həsr olunmuşdur .

2. İşığın mahiyyətinin öyrənilməsində ənənəvi yanaşmanı – fəlsəfi metodu tənqid edərək onu riyazi-empirik metodla əvəzləmiş, klassik müddəaların çoxunun səhv

olduğunu göstərmiş, öz fikir və nəzəriyyələrini düzəltdiyi alət və qurğularla isbatlamağa çalışmışdır.

3. İşıq mənbələrini, işığın xassələrini tədqiq etmiş, optika elminə "birinci işıq" və "ikinci işıq" anlayışlarını gətirmişdir. İbn Heysəm bildirirdi ki, işıq düz xətt üzrə hərəkət edir və bunu isbatlamaq üçün "qaranlıq otaq" təcrübəsini aparmışdır. Bu təcrübə nəticəsində İbn Heysəm müəyyənləşdirmişdir ki, həm "birinci", həm də "ikinci" işıqların düz xətt boyunca hərəkət edir.

İbn Heysəm ilk dəfə olaraq stenop və kamera-obskura fotoqrafik cihazlarını təsvir etmişdir. Düzdür, ondan əvvəl yunan filosofu Aristotel, yunan riyaziyyatçısı İsgəndəriyyəli Teon, müsəlman filosofu əl-Kindi kiçik dəlikdən keçən işıqla bağlı təcrübələr aparmışdılar, amma onlardan kimsə bu işığın ekranda linza dəliyinin qarşısındakı hər şeyin surətini əks etdirməsi hadisəsindən söz açmamışdır. İbn Heysəm ilk dəfə olaraq çıraqlar (lampalar) vasitəsilə bu təcrübəni aparmış, daxili ekranda ətrafdakı əşyaların surətini əks etdirə bilmişdir. Apardığı təcrübə haqda əsərlərinin birində söz açmışdır . Maraqlıdır ki, "kamera" sözü ərəb dilindəki "qumra" (qaranlıq otaq) sözünün latın formasıdır.

İbn Heysəmin işığın əks olunması hadisəsinə dair tədqiqatları təxminən altı əsr ərzində Avropada məşhur olmuşdur . Onun bu sahədə optika elminə verdiyi töhfələr Qərb optika fikrində XVII əsrdən sonra "Alhazen problemi" adı altında öyrənilmişdir . Alhazen probleminin məzmunu bundan ibarətdir ki, əksedici səthin üzərindəki iki nöqtənin birindən gələn şüa həmin səthin harasında əks olunmalıdır ki, digər nöqtədən geri qayıtsın? O, işıq şüalarının kürə və parabola şəkilli güzgülərdə əks olunmasını, şəffaf cisimlərdən, o cümlədən sudan keçərkən yaranan sınmaları araşdırmışdır. İbn Heysəm qeyd etmişdir ki, işığın düşmə və sınma bucaqları bərabərdir. Optik sınma hadisəsini atılan daşın hərəkətinin müqaviməti güclü və ya zəif mühitlərdə dəyişməsi kimi mexaniki analogiyalarla izah etmişdir .

Yer atmosferinin işıq şüalarına təsirini öyrənən İbn Heysəm təcrübi olaraq belə bir qənaətə gəlmişdir ki, havanın sıxlığı artdıqca atmosferin şüalara təsiri artır, bununla da hava təbəqəsi optik yanılmaya səbəb olur. O da maraqlıdır ki, alim işığın şəffaf maddələrdə daha sürətlə hərəkət etdiyini bildirmişdir. İbn Heysəmə görə, bu sürət sıxlığı az mühitlərdə sıxlığı daha çox olan mühitlərlə müqayisədə yüksəkdir; şəffaf və qeyri-şəffaf mühit işıq şüasının sürətinə təsir edir. Bu iddiada diqqəti çəkən məqam budur ki, İbn Heysəm hər nə qədər açıq şəkildə bildirməsə də, işığın, müasir fizikanın isbatladığı kimi, fotonlardan təşkil olunması və sürətinin molekulyar mühitin şərtlərinə görə dəyişilməsi hadisəsinə toxunmuşdur.

4. İbn Heysəmin optika sahəsində dahiliyinin göstəricisidir ki, o, görmə hadisəsini elmi surətdə izah etmiş və bu hadisəni izah edən klassik yunan nəzəriyyəsinin səhv olduğunu aşkara çıxarmışdır. Amerikalı kimyaçı, fotoqraf Con Uilyam Dreperin (1811-1882) sözü ilə desək, İbn Heysəm "Yunanlardan görmə hadisəsi haqqında qalan səhv bilikləri təshih edən ilk şəxs"dir. Bu dahi müsəlman alimi isbatlamışdır ki, görmə hadisəsini gözdən çıxan şüalar ilə izah edən şüalanma nəzəriyyəsi həqiqəti əks etdirmir. Belə ki yunan alimləri, o cümlədən Evklid və Ptolemey iddia edirdilər ki, göz baxdığı əşyaya şüa göndərir və bu şüalar həmin əşyaya çatıb onun surətini gözdə əks etdirdikdə görmə baş verir. İbn Heysəm isə görmənin fiziki hadisə olduğunu bildirmiş, əşyadan gələn işıq şüaları vasitəsi ilə baş verdiyini riyazi yolla göstərmişdir. İbn Heysəmə görə, görmə – əşyadan əks olunan şüaların gözə düşərək birləşməsi və gözün həmin əşyanı "tanıması" nəticəsində yaranır.

5. İbn Heysəm göy qurşağının elmi izahını verərkən Günəş şüalarının yağış damcılarında sınaraq əks olunduğunu və xoşagələn mənzərə yaratdığını bildirmişdir.

Son olaraq qeyd edək ki, İbn Heysəmin elmi yaradıcılığı və elmə bəxş etdiyi töhfələr bütün tərəfləri ilə araşdırılıb ortaya çıxarılmasa da, əsərlərinin böyük hissəsi itib-batsa da, onun dünya elmindəki yeri Dan ulduzu qədər parlaq və danılmazdır. Bu dahi alimin dünyanın elm nəhəngləri sırasına daxil ola bilməsinin sirrini onun fizika, optika, riyaziyyat, həndəsə və astronomiya məsələlərinə dair yeni və orijinal fikirlər irəli sürməsində, o dövrün məhdud imkanları ilə nəzəriyyələrini isbatlamasında axtarmaq lazımdır.

# Azərbaycanı dünyaya tanıdan dahi

***Azərbaycan Orta əsrlərdə dünya elminə böyük alimlər bəxş edib. Onlardan biri – Nəsirəddin Tusi hələ sağlığında ikən Yaxın Şərqdə yaxşı tanınmışdı. Alimin kəşflərindən dünyanın bir çox ölkələrində geniş istifadə olunması onun dərin zəkaya, iti riyazi ağıla, fitri istedada malik olmasını təsdiq edirdi.***

Böyük filosof alim, astronom, riyaziyyatçı, tarixçi, ilahiyyatçı, hüquqşünas, dövlət xadimi Xacə Nəsirəddin əbu Cəfər Məhəmməd ibn Məhəmməd Tusi 1201-ci il fevral ayının 17-də (bəzi mənbələrdə 18 fevral) Tus şəhərində anadan olub. İranda anadan olsa da əslən azərbaycanlı idi. Ona görə də bir neçə mənbədə o, salnaməçilər tərəfindən səhvən iranlı kimi qələmə verilib.

Nəsirəddin ilk təhsilini atasından alıb, sonra Həmədan və Tus şəhərlərində zəmanəsinin tanınmış alimlərindən olan İbn Sina və Bəhmənyar əl-Azərbaycaninin davamçılarının yanında təhsilini davam etdirib.

Əldə etdiyi hərtərəfli və dərin biliklər Nəsirəddini qısa vaxtda elmi mühitdə məşhurlaşdırıb. Hələ gənc yaşlarından etibarən onun iti zəkası, dərin biliklərə malik olması, bir sıra kəşfləri Yaxın Şərq ölkələri hökmdarlarının diqqətini cəlb edib. Otuz yaşında ikən Kuhistan ismaililərinin rəhbəri Nasirəddin Möhtəşəm onu sarayına qonaq çağırıb və gənc alimdən əxlaq barədə kitab yazmasını xahiş edib. Otuz dörd yaşında ikən, yəni 1235-ci ildə Nəsirəddin Tusi sonralar ona dünya şöhrəti gətirən və bir çox dillərə tərcümə olunan məşhur "Əxlaqi-Nasiri" əsərini tamamlayıb. Bir müddət sonra müəyyən narazılığa görə Tusi həbs olunaraq, Ələmut qalasına aparılıb. Nəsirəddin Tusi ismaililərin yanında keçirdiyi 12 ildən bir qədər artıq müddətdə, sürgün həyatındakı mənəvi sıxıntılarına baxmayaraq, qaladakı zəngin kitabxanadan istifadə edərək elmi yaradıcılığını davam etdirib. Görkəmli alim 1242-ci ildə tamamladığı məşhur "Şərh əl-İşarat" (Əbu Əli ibn Sinanın "İşarələr və qeydlər" adlı fəlsəfi risaləsinə şərh) əsərinin sonunda yazırdı: "Mən bu kitabın əksər fəsillərini olmazın dərəcədə ağır bir şəraitdə yazdım. Ürək bundan artıq sıxıntı çəkə bilməzdi".

1253-cü ildə Çingiz xanın nəvəsi Hülaku xan Yaxın Şərqə hərbi yürüş etdi. Monqol qoşunları 1256-cı ildə fətholunmaz sayılan Ələmut qalasını tutub, İsmaililər dövlətinin hakimiyyətinə son qoydu, Tusini və digər alim məhbusları azad etdi. Monqol sərkərdəsi ilə söhbətdən sonra Nəsirəddin Tusi Hülaku xanın şəxsi məsləhətçisi təyin edilir.

Hülaku xan 1260-cı ildə Azərbaycan ərazisində yeni dövlət yaradır. “Elxanilər” adlanan bu yeni dövlətin başçıları "elxan"lar (el xanları) idi. Hülaku xan öz dövlətinin paytaxtı kimi əvvəlcə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Marağanı, sonra isə Təbrizi seçir. Həmin vaxtda Nəsirəddin Tusi məşhur Marağa rəsədxanasının tikintisinə başlayır.

Tusi 25 iyun 1274-cü ildə (18 zilhiccə 672-ci il), yetmiş beş yaşında Bağdadda vəfat edib və öz vəsiyyəti ilə Bağdad yaxınlığındakı Kazımeyn şəhərində, Kazımiyyə məscidində şiələrin yeddinci İmamı olan İmam Museyi-Kazımla onun nəvəsi, on iki imam şiələrinin doqquzuncu imamı sayılan İmam Məhəmməd Təqinin məzarlarının ayaq tərəfində dəfn olunur.

Böyük alimimiz həmişə öz doğma Vətəni olan Azərbaycanı sevib, ona xidmət edib. Salnaməçi İbn əl-Füvəti yazır ki, Nəsirəddin Tusi Marağaya gələndə oradakı zadəgan ailəsindən olan Fəxrəddin Loğman Məhəmməd oğlu Marağayi ilə görüşüb, ona belə bir tapşırıq verib: Ərbil, Mosul və Əlcəzirəyə getsin, son 40 il ərzində Marağa və Təbrizi tərk etmiş ailələri vətənə qayıtmağa razı salsın. Fəxrəddin Marağayi 500-ə qədər ailəni geri qaytara bilir. Bu, Nəsirəddin Tusinin öz azərbaycanlı həmvətənlərinə dərin məhəbbət hissini parlaq ifadə edir.

Ensiklopedik zəkaya malik olan Nəsirəddin Tusi elmin müxtəlif sahələri ilə dərindən maraqlanıb. Onun qələmindən çıxan yüzdən artıq dəyərli əsər elmin astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrinə həsr olunub. Bununla belə Nəsirəddinin yaradıcılığında astronomiya və riyaziyyat üzrə tədqiqatlar xüsusi yer tutur. Tusi bu sahələrdə aparılmış iyirmidən artıq

uğurlu araşdırmanın müəllifidir. Riyaziyyata həsr etdiyi əsərlər yalnız ərəbcə, astronomiya üzrə tədqiqatları isə həm fars, həm də ərəb dillərində yazılıb.

Böyük riyaziyyatçı alimin ən məşhur əsərləri arasında "Şəklülqita" ("Bütöv çoxtərəfli haqda" risalə), "Came'ül-hesab" ("Lövhə və tozun köməyi ilə hesab toplusu"), "Dairənin ölçüsü", "Təhrir Öqlidis" ("Evklid "Başlanğıc"ının təsviri") kimi kitablar xüsusi yer tutur. Dörd hissədən ibarət "Zici-İlxani" ("İlxanilərin astronomik cədvəlləri") əsəri isə alimin adını dünya astronomiya tarixinə salıb.

Müasir tədqiqatçıların bir çoxu Nəsirəddin Tusini hər şeydən öncə riyaziyyatçı hesab edir. Onun əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynayıb. 1594-cü ildə Romada ərəb, sonra isə latın dilinə tərcümədə çap olunan "Evklid "Başlanğıc"ının təsviri" əsəri Tusi ideyalarını Avropada yayıb. Alimin beş kitabdan ibarət yazdığı "Bütöv dördtərəfli haqqında risalə" də Avropada triqonometriyanın inkişafında əhəmiyyətli rol oynamış əsər kimi məşhurdur. Dünya elmi tarixində ilk dəfə bu əsərdə triqonometriyaya müstəqil elm sahəsi kimi yanaşılır. Bu risalə ingilis, rus və fransız dillərinə tərcümə olunub. Tusinin cəbr sahəsində araşdırmaları arasında bütün dərəcələrdən kökalma metodu və Binom düsturu daha çox tanınır. Bundan başqa, alimin tarixə, mineralogiyaya, fizikaya, tibbə, iqtisadi biliklərə, coğrafiyaya, musiqiyə və təbii ki, astronomiyaya dair çoxsaylı əsərləri də diqqəti cəlb edir. Bunların arasında "Bağdadın tarixi", "İşığın əks olunması və sınması haqda risalə", "Evklid optikası", "Göy qurşağının öyrənilməsinə dair risalə", "Qiymətli daşlar haqqında kitab", "Tibb qanunları", "Dövlət maliyyəsi haqqında risalə", "Xoşbəxt günlərin seçilməsi" (astrologiya) və başqa əsərlərin adları çəkilə bilər.



Ensiklopedik alim olan Nəsirəddin Tusinin bir çox əsərləri hazırda dünyanın müxtəlif kitabxanalarında mövcuddur. Bunlara Bakı, Paris, Berlin, Vyana, Oksford, Kembric, Leypsiq, Münhen, Florensiya, Qahirə, İstanbul, Moskva, Sankt-Peterburq, Qazan şəhərlərinin muzey və kitabxanalarında rast gəlmək mümkündür.

Tusi Şərq dünyasında etikaya dair "Əxlaqi-Nasiri" adlı məşhur əsəri ilə və Marağa rəsədxanasının banisi kimi xüsusi rəğbət qazanıb. Professor Həbibulla Məmmədbəyli Nəsirəddin Tusinin astronomiya və riyaziyyat elmləri sahəsindəki xidmətlərini geniş surətdə tədqiq edib.

Qeyd etməliyik ki, Marağa rəsədxanasının yaradılması Tusinin ən böyük uğurlarından biri olub.

Tusi özü "Zici-Elxani" adlı əsərində belə yazır: "Hülaku xan ətraf vilayətlərdən astronomik müşahidələr apara bilən alimləri çağırmağı tələb etdi: Dəməşqdən Müvəiddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini, Qəzvindən Nəcməddin Dəbiranini"... Digər qaynaqlardan isə dövrün ən tanınmış alimlərindən Qütbəddin Şirazi, Şəmsəddin Şirvani, Cəmaləddin əz-Zeydi Buxari, Çindən Fao Mun-Çi və digərlərinin də Marağa rəsədxanasında çalışdıqları məlum olur. Görkəmli dövlət xadimi və tarixçi Rəşidəddinin öz salnamələrində yazdığına görə, həmin dövrdə Cəmaləddin Buxariyə də Pekində rəsədxana qurmaq tapşırılmışdı. Lakin o, bu tapşırığın öhdəsindən gələ bilmirdi. Nəhayət, Çin alimi Fao Mun-Çi ilə birlikdə Marağaya gəlib Nəsirəddinlə məsləhətləşmələr apardıqdan və rəsədxana tikilişi üçün zəruri olan alətlərin layihələrini əldə etdikdən sonra, Pekində də işlər başa çatdırılır. Burada haşiyə çıxaq ki, Marağada rəsədxana yaradılması üçün külli məbləğdə pul qoyuluşu tələb edilirdi və ona görə də Hülaku xan bu işi məqsədəuyğun saymırdı.

Tanınmış tarixçi Hacı Xəlifə özünün "Dünya haqqında kitab"ında bununla əlaqədar baş verən hadisələri belə təsvir edir: "Xacə Nəsir Marağadakı astronomiya rəsədxanasının tikintisinə başlamaq üçün lazım gələn məsarifi Hülakuya deyəndə, o, məbləğin böyüklüyünə şübhə ilə soruşdu: "Yəni, ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?". Nəsirəddin cavabında söylədi: "İzn verin, bir nəfər həmin dağa qalxıb, oradan boş bir tası yerə atsın, ancaq bunu elə eləsin ki, heç kəs bilməsin". Belə də edirlər. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülaku xanın ordusu vahiməyə düşür. Nəsirəddin isə bu zaman xanla birlikdə sakitcə oturub, qoşundakı vahiməni seyr edirdi. Nəsirəddin xana deyir: "Hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, yer üzündə həmişə belə rahatlıq hökm sürər". Nəsirəddinin sözləri Hülaku xanı elə inandırır ki, o, rəsədxananın tikintisinə razılıq verir və bu məqsədlə 20 min dinar pul ayırır. Sonralar böyük alim rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik donluq (maaş) kəsilməsinə də nail olur.

Göstərmək vacibdir ki, rəsədxa-



nanın nəzdində 400 min qiymətli kitab saxlanılan kitabxana və bu elmi mərkəzi kadrlarla təchiz etməkdən ötrü məktəb fəaliyyət göstərirdi. Maraqlı burasında idi ki, rəsədxanada müsəlmanlarla bərabər xristianlar, buddistlər, nestorianlar və iudaistlər də çalışırdı. Bunlar türklər, farslar, ərəblər, monqollar, çinlilər, gürcülər, tatarlar, yəhudilər və digər millətlərin nümayəndələri idilər. Tusinin tikdirdiyi rəsədxana öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyurdu.

Nəsirəddin Tusinin zəngin ədəbi və elmi irsi var. O, bir çox alimlər yeyişdirərək elmimizə töhfə verib. Marağa rəsədxanasının nəzdində təsis etdiyi məktəbdə özünün bir çox davamçılarını hazırlayıb. Mütəfəkkirin fəlsəfi məktəbinin görkəmli nümayəndələri arasında Nəcməddin Qəzvini (1203-1277), Qütbəddin Şirazi (1236-1311), Cəmaləddin Hilli (1250-1325) daha çox məşhurdur. Onlar da müəllimlərinin fəlsəfi mövqeyindən çıxış etmişlər.

Göründüyü kimi, böyük alimin zəngin irsi var və bunu bir məqalədə əhatə etmək mümkün deyil. Gələcək saylarımızda böyük alimin fəaliyyətindən söhbət açacağıq. Yalnız bir faktı qeyd edək ki, 1981-ci ildə Tusinin anadan olmasının 780 illik yubileyi geniş qeyd olunub, şərəfinə medal təsis edilib, həyatı haqqında qısametrajlı “Nəsirəddin Tusi” adlı sənədli filmi çəkilib, portreti yaradılıb, ölkənin bir neçə yerində onun şərəfinə heykəl və büstlər ucaldılıb. Azərbaycan Respublikasının bir sıra elm, təhsil və mədəni-maarif müəssisəsinə, o cümlədən, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasına, küçələrə (məsələn, Naxçıvan şəhərindəki Nəsirəddin Tusi küçəsinə), Bakı şəhərindəki Nəsirəddin Tusi adına klinikaya, Bakı şəhərinin Yasamal rayonundakı 173 saylı məktəbə onun adı verilib.

UNESCO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd edilib. Bu münasibətlə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı ilə yubiley komissiyası yaradılıb. Elmin zirvəsinə yüksəlmiş korifey alimin yubileyi müxtəlif tədbirlərlə və böyük təntənə ilə keçirilib. Onun işıqlı siması qəlbimizdə əbədi yaşayır və yaşayacaqdır.

*İnternet materialları əsasında hazırladı:*
***Rəhilə İsmayılqızı***

# İslam əxlaqına görə nəfs tərbiyəsinin önəmi



**Namiq Abuzərov,**
i.f.d., dos.,
Aİİ-nin müəllimi

*Əgər çəyirdək torpağa qarşı inad edərsə, ağac ola bilməz.*
Həllac Mənsur

İslam mənbələrində "nəfs" kəlməsinin müxtəlif məna çalarları yer alır. Təfsir, kəlam, fəlsəfə, hədis, fiqh, təsəvvüf, psixologiya və əxlaq sahələrində nəfs ilə bağlı fərqli, bəzən bir-birinə zidd mülahizələr irəli sürülüb. Bu fəsildə nəfsin semantik mənasından daha çox onun əxlaq sahəsindəki rolunu və funksiyasını araşdıracağıq. Əxlaq sahəsini mənbə ilə təmin edən Quran, hədis, təsəvvüf və psixologiya (ilmun-nəfs) elmlərində də nəfsin daşıdığı məna və funksiya tədqiq ediləcək.

Lüğəvi baxımdan ruh, həyat, nəfəs, varlıq (əşyanın özülü və ya həqiqəti), zat, insan, cin, canının nəzərdə tutulduğu axıcı qan kimi mənalarla yanaşı, "həvəs, şəhvani hisslərin mənbəyi" mənalarını da ifadə edir. Nəfs əsas etibarilə Quran və hədislərdə ruh, Allahın zatı ("Ali-İmran", 3/30), insan, qəlb və ya könül kimi mənalarda işlədilir. Nəfs, əsas etibarilə hədis, təsəvvüf və əxlaqda yuxarıdakı mənaların xaricində insanın daxilindəki mənfi hisslərin, məşru olmayan arzuların mənbəyi kimi də tərif edilir. Əlbəttə ki, nəfsin bu mənası İslam ənənəsində daha çox mənfi surətdə özünü büruzə vermişdir.

Nəfsin mənfi cəhətini vurğulayan ifadələrə həm Qurani-Kərimdə, həm də hədislərdə rast gəlmək mümkündür. Quranda insanın ilahi xitaba müxatəb tutulmasının səbəbi onun nəfs daşıması ilə irtibatlandırılmışdır. Quranda nəfs pisliyi əmr və təlqin edən ("Yusuf", 12/53), pislikləri qınayan ("əl-Qiyamat, 75/2) və aram tapan ("əl-Fəcr", 89/27) olaraq müxtəlif funksiyaları daşıyır. Xeyir-şər, savab-günah və yaxşılıq-pislik kimi bir-biri ilə təzad təşkil edən məsələlərin əsas mövzusu olması baxımından nəfsin müxtəlif xüsusiyyətləri ön plana çıxarılıb.

Quran və hədislərdə nəfsin müxtəlif xüsusiyyətlərindən bəhs olunur. Bu da həqiqi mənanı ifadə etmir, ancaq haqqında bəzi məlumatlar verir. Məhz nəfsin məna çalarlarını çatdırmaq istəyən İslam alimləri bu məlumatlardan istifadə ediblər. Səhabə və tabiin nəslinin alimləri Quran və hədislərdəki məlumatlarla kifayətlənib, ona tərif verməyə ehtiyac görməyiblər.

İnsan nəfslə bədənin birləşməsindən meydana gəlib. Bədənə həyat verən, onu idarə edən nəfsdir və insan bu ikisinin birləşməsindən yaranıb. Nəfsə verilən təzadlı mənalara əsaslanaraq, onda 3, 4, yaxud 5 nəfsin mövcud olduğunu iddia edən alimlərlə yanaşı, İslam alimlərinin əksəriyyəti onun vahid və bölünməz olduğunu müdafiə edirlər. İmam Qəzzali və Fəxrəddin Razi nəfsi bədəndə mövcud olan "mənəvi, nurani, şərəfli və lətif bir cövhər" kimi izah ediblər. Lətif və canlı olan nəfs mahiyyət etibarilə bədəndən ayrıdır. Belə ki, o, alovun kömürə və yağın südə yayılması kimi bədənin hər təfərinə sirayət edərək onu hərəkətə gətirir. Nəfs bədəni hissetmə, hərəkətə keçirmə və iradə kimi hallarla təmin edir. Orqanlar öz vəzifəsini icra edə bilmədikdə isə nəfs bədəndən ayrılır və ruhlar aləmindəki yerini alır (İbn Qəyyum əl-Cövziyyə, ər-Ruh, s. 178). İbn Qəyyum yuxarıdakı görüşü irəli sürdükdən sonra, onun Qurana, sünnəyə, icmaya, rasional dəlillərə və fitrətə uyğun olduğunu qeyd edir. Belə ki, İbn Qəyyuma görə, Allah nəfsə "Ey xatircəm olan nəfs! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən!" ("əl-Fəcr", 89/27) ayəsi nəfsin başa düşən, düşünən, dönən, Haqdan razı olan və Onun rizasını əldə edən bir varlıq olmasına sübutdur. Bu xüsusiyyətləri daşımayan bir varlığa Allahın xitab etməsi mümkün deyildir.

Təsəvvüf elmi "nəfs" məfhumunu kəlam və fəlsəfə elmlərindən fərqli şəkildə izah edir. Sufilər əsas etibarilə nəfsin mahiyyəti, sayı, cisim, yaxud cövhər, habelə qədim və hədis olması kimi məsələlərə toxunmayıblar. Onlar daha çox nəfsin zəif xüsusiyyətləri, pisliklərin mənbəyi olması, xəstəlikləri və onların müalicəsi, bir sözlə, nəfs tərbiyəsi məsələlərini təhlil ediblər.

Sufilərə görə, nəfs şər və günahın mənbəyi hesab edilən, pislikləri əmr edən, təlim və tərbiyəyə ehtiyacı olan varlıqdır. Onlar "Sənə gələn yaxşılıq Allahdandır, sənin

başına gələn bəla isə sənin nəfsindəndir" ("ən-Nisa", 4/79) kimi ayələri və "Allahım! Nəfslərimizin şərindən Sənə sığınırıq" (Darimi, Nikah, 20) və "Allahım! Sənin mərhəmətinə ümid edirik. Bizi bir gözqırpımı qədər nəfsimizlə başbaşa qoyma!" (Əbu Davud, Ədəb, 110) kimi hədislərə istinad edərək, onun şeytanın müttəfiqi olduğunu və pislikləri əmr etdiyini qeyd ediblər.

İslam Peyğəmbərinin hədislərinə nəzər saldıqda, onun da nəfsin şərindən Allaha sığındığı, bu barədə möminlərə xəbərdarlıq etdiyi aydın olur. Məsələn, Fədalə ibn Ubeyd Allah rəsulunun vida həccindəki xütbəsində belə dediyini rəvayət edir: "Diqqətlə dinləyin, sizə mömini tərif edirəm. O, insanların can və mallarını etibar etdiyi kimsədir. Müsəlman, insanların əlindən və dilindən zərər çəkməyən kimsədir. Mücahid, Allaha itaət etmək məqsədilə nəfsinin arzularına qarşı mübarizə aparan kimsədir. Mühacir isə xəta və günahları tərk edən şəxsdir" (Tirmizi, Fədailul-cihad, 2).

Müsəlmanların fəthlər nəticəsində dünya nemətinin fərqinə vardıqlarını hiss edən Peyğəmbərimiz son nitqində müsəlmanların maddi nailiyyətlər nəticəsində qarşılaşacağı təhlükələrə qarşı xəbərdarlıq edib. Bu təhlükə məhz nəfsin dünyəvi istəkləri, ehtirası və tamahkarlığı idi. Bunun fərqində olan Peyğəmbərimiz yuxarıdakı hədisdə hər kəsin bildiyi "cihad" və "mücahid" məfhumlarını yeni məna çalarları ilə müsəlmanlara təqdim edib. Belə ki, Nəbi (s.ə.s.) mücahidi "Allaha itaət etmək məqdəsilə nəfsinin arzularına qarşı mübarizə aparan şəxs" kimi izah edərək, "insanın öz istək və arzuları ilə mübarizə aparması" ifadəsini vurğulayıb və cihad məfhumuna fərqli bir məna verib. Nəfsani və dünyəvi arzulara qarşı mübarizənin cihad hesab edilə bilməsi üçün onun "Allah yolu"nda olması şərti irəli sürülüb. Yəni fərqli məqsədlərlə deyil, məhz əxlaqi inkişaf naminə, Allah rizası üçün nəfslə aparılan mübarizə həqiqi cihad sayılır. Rəsulullah müsəlmanın valideynləri və övladları üçün ruzi qazanmasını, bununla yanaşı, haramdan uzaqlaşmaq məqsədilə nəfslə aparılan mübarizəni də "Allah yolunda cihad" kimi izah edib (Beyhəqi, əs-Sünənül-kübra, VII, 754).

Qurani-Kərimə görə nəfs şeytanın vəsvəsələrini və təlqinlərini asanlıqla qəbul edir. Şeytan qiyamət günü nəfsin etdiyi pisliklərə şərik olmur və insanı tək qoyur (İbrahim, 14/22). Quranın bəyanına görə, nəfs özü də insana bəzi pislik və günahları təlqin edir. Məsələn, "And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik" ("Qaf", 50/16). "Ancaq nəfslərdə xəsislik həmişə mövcuddur" ("ən-Nisa", 4/128) kimi ayələr nəfsi pis duyğuların mənbəyi və təlqinedicisi kimi təqdim edir. Əlbəttə, bu duyğular insan fitrətinin ayrılmaz hissəsidir, lakin onları islah etmək lazımdır. Məhz Həzrət Yusuf *"Mən özümü təmizə çıxarmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər"* ("Yusuf", 12/53) deməklə insanın nəfsində mövcud olan neqativ təmayülə işarə edir.

Qurani-Kərim insan nəfsində olan mənfi təmayüllərin bir neçəsini hekayətlər vasitəsilə nəql edir. Əhli-kitabın əksəriyyətinin haqqının aşkar surətdə təzahür etməsinə baxmayaraq, onu inkar etmələri və möminləri öz dinlərindən uzaqlaşdırma cəhdləri onların nəfsindəki qısqanclığın nəticəsidir. Buna paralel olaraq, Həzrət Adəmin oğlu Qabili öz qardaşı Habili öldürməyə təşviq edən də məhz nəfsi idi ("əl-Maidə", 5/30). Yaqub peyğəmbərin (ə.s.) övladlarını da öz nəfslərinin arzularına tabe olaraq, Həzrət Yusufu quyuya atmaları və onun köynəyinə qan yaxıb öz atalarına təqdim etmələri başqa bir nümunədir. Peyğəmbərin övladları olmasına baxmayaraq, nə Həzrət Adəmin, nə də Yaqub peyğəmbərin oğulları öz nəfslərinin təlqinindən uzaqlaşa bilməyiblər. "Yunus" qissəsində, hətta vurğulandığı kimi, peyğəmbərlər də nəsfin arzu və istəklərindən qorunmaq üçün cəhd göstəriblər.

İslam Peyğəmbərinin hədislərində göstərildiyi kimi, mömin nəfsin əmr etdiklərinə boyun əymədiyi zaman nəfsin təlqinlərinə görə məsuliyyət daşımır (Tirmizi, Təlaq, 8). Nəfsin təlqin etdikləri davranış şəklində təzahür etdiyi zaman mömin məsuliyyətdən qurtula bilməz. Hər bir insanın fitrətində nəfsin təlqinləri ilə pisliklərə və günahlara təmayül mövcuddur. Məhz əxlaqi fəzilət sayəsində nəfsdə fitrətən mövcud olan mənfi xüsusiyyətləri cilovlamaq mümkündür. Dünyanın müxtəlif dini ənənələrində nəfsin təlqinlərinin qarşısını almaq üçün fərqli metodlar tətbiq edilir. Məhz tərki-dünyalıq bunlardan biridir. İslam ənənəsinə görə, Allah insanı cəmiyyət içərisində yaşamaq üçün yaradıb, tərki-dünyalıq və nəfsə zülm və iztirab verərək, bədəni zəiflətmək məqsədəuyğun bir tərbiyə üsulu deyildir.

İslam əxlaqına görə nəfsi zəiflətmək və əziyyət etmək (çəkmək) deyil, əksinə, onu təzkiyə edib saflaşdırmaq şərtdir. Belə ki, Uca Allah *"And olsun nəfsə və onu yaradana (ona biçim verənə); sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, nəfsini (günahlardan) təmizləyən (təzkiyə edən) mütləq*



*nicat tapacaqdır! Onu (günaha) batıran isə əlbəttə, ziyana uğrayacaqdır"* buyurur ("əş-Şəms", 91/7-10). İslam alimlərinə görə, nəfsin təzkiyəsi həm pis xasiyyət və əməlləri tərk etmək, həm də təfəkkürlə yanaşı, Allahı zikr edərək, gözəl xasiyyətləri qazanmaqla mümkündür.

Nəfs təzkiyəsinin üsullarından biri də insanın öz nəfsini tez-tez sorğu-suala çəkməsidir. Məhz xəlifələrdən biri bunu "Haqq-hesab günü gəlməzdən əvvəl, özünüzü sorğu-suala çəkin və böyük hesab gününə özünüzü hazırlayın! Çünki qiyamət günü sorğu-suala çəkilmək, ancaq özünü bu dünyada sorğu-suala çəkənlər üçün asan olacaq" surətində ifadə edib.

Allah Rəsulu hədislərinin birində bizə həm ağıllı insanın əlamətlərini izah edir, həm də nəfslə necə mübarizə aparacağımızı öyrədir. Belə ki, o, "Ağıllı insan nəfsini cilovlayan və ölümdən sonrası üçün cəhd edəndir. Zavallı (bədbəxt) insan isə nəfsinin arzularına tabe olan (və buna baxmayaraq) Allahdan yaxşılıq umandır" (Tirmizi, Sifatul-qiyamə, 25) buyurub. Peyğəmbərimiz (s.ə.s.) yuxarıdakı hədisdə nəfsani arzuların əsiri olan insanların "zavallı və bədbəxt" olduğunu qeyd edir.

Günahları tərk edilmədiyi halda, Allahdan bağışlanma və yaxşılıq ummaq, habelə Onun günahlara rəğmən insanı bağışlayacağı hissini daşımaq da şeytanın təlqinlərindən biridir. Qurani-Kərimin *"Şeytan sizi Allaha arxayın edib tovlamasın!"* ("Loğman", 31/33) ayəsində də vurğulandığı kimi, "Allah Öz bəndələrini bağışlayacaq və bütün günahlarından keçəcək" təlqini vasitəsilə şeytan və nəfs asanlıqla insanın düşüncələrinə nüfuz edir. İslam əxlaqına görə, fəzilət və kamillik şeytanın və nəfsin təlqinlərinə qarşı insanın səbir etməsidir. Mömininin nəfs və şeytanla mübarizə aparmaq surətilə həm əxlaqi baxımdan kamilliyə çatması, həm də Allahın rizasını qazanaraq cənnətə layiq bəndə olması mümkündür. İslam Peyğəmbəri (s.ə.s.) nəfsin təlqinlərinin nəticəsini belə izah edir: "Cəhənnəm (nəfsin xoşuna gələn) şəhvani hisslərlə, cənnət isə (nəfsin xoşuna gəlməyən) çətinliklərlə əhatə olunmuşdur" (Buxari, Riqaq, 28)

İslam əxlaqına görə, mömin bir tərəfdən, nəfsani istəklərə qarşı səbir göstərmək, digər tərəfdən, dua və zikr ilə nəfsini təsfiyə etmək və əməllərinin nəticəsini düşünmək məcburiyyətindədir. Məhz elə buna görə də Peyğəmbərimiz bəzi dualarında nəfsinin təlqinlərindən Allaha sığınıb və səhabələrinə sabah açıldıqda və axşam olduqda bu duanı oxumağı tövsiyə edib: "Ey göylərin və yerin Yaradanı, gizlini və aşkarı bilən Allahım, Sən hər şeyin sahibisən. Səndən başqa ilah olmadığına mələklər də şahidlik edər. Biz nəfslərimizin və (Allahın rəhmətindən) uzaqlaşdırılmış şeytanın şərindən, onun bizi şirkə sövq etməsindən və habelə, özümüzə və hər hansı bir müsəlmana pislik etməkdən Sənə sığınırıq" (Əbu Davud, Ədəb, 100).

Nəfslərinin arzu və istəklərinə tabe olub, Allah-Taala ilə əlaqəsini kəsən insanlar haqqında Quran belə buyurur: *"Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin!"* ("əl-Həşr", 59/19). Müfəssirlərin əksəriyyəti "Allahın onları özlərinə unutdurması" ifadəsini "Rəbbə qarşı bəndə olma vəzifələrini yerin yetirməyənlərə Allah yaxşılıq etməyi və pislikdən uzaqlaşmağı

unutdurur və beləliklə də, onlar dünya və axirət xoşbəxtliyindən məhrum olur" kimi təfsir ediblər. Eyni ayəni "insanın yalnız nəfsini (özünü) tanıması, yəni var olma məqsədini idrak etməsi vasitəsilə Rəbbini tanıması mümkündür" kimi məna verən müfəssir və sufilər mövcuddur. Məşhur əndəlüslü müfəssir İbn Ətiyyə yuxardakı ayəni Həzrət Əlinin "Nəfsini bilən Rəbbini bilər" və ya "Sən nəfsini tanı ki, Rəbbini də tanıyasan!" kəlamı ilə təfsir edir. Həzrət Əlinin bu sözü sufi alimlər arasında məşhurdur. Onların əksəriyyəti məhz nəfsi təzkiyə və təsfiyə etmək məqsədilə insanın öz həqiqi mahiyyətini tanıyacağını ifadə edib. İnsanın Rəbbini həqiqi mənada tanıması da nəfs tərbiyəsi vasitəsilə öz həqiqi mahiyyətini idrak etməsindən asılıdır.

İslamın ilk dövrlərində yaşayan abid, zahid və mürşidlər mənəvi və əxlaqi inkişafın önündə ən böyük əngəl kimi şeytanı və nəfsi, yəni nəfsani arzuları görmüşlər. Onlara görə günah və pislik etməyə təmayül edən nəfs ibadətdən və xeyirli işlərdən təkidlə uzaq durur. Elə buna görə də "zühd həyatında nəfsə müxalifət etmək və onun istək və arzularını reallaşdırmamaq" prinsipi kimi qəbul edilib. Cihadi-Əkbər adlandırdıqları bu mübarizə şeytan və nəfsin təhlükələrinə qarşı ən böyük sipərdir. Əxlaqi inkişafın önündə ən böyük maneə olan şeytan nəfsdən istifadə edərək, insanı günah işləməyə vadar edir. İnsan isə etdiyi günahlara baxmayaraq, şeytanın təlqinləri ilə bəhanələr gətirərək etdiyi günahları əsaslandırır və nəfsini təmizə çıxarır. Elə buna görə də hər şeyi görən və bilən Allah-Taala *belə buyurur: "Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir. O, sizi torpaqdan yaradanda da, sizi analarınızın bətnində rüşeym halında olanda da yaxşı tanıyırdı. Özünüzü təmizə çıxarmayın!"* ("ən-Nəcm", 53/32).

Sufi alimlərinə görə, nəfsi-əmmarə insanın bütüdür. *"Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü?"* ("əl-Ğasiyə", 45/23) ayəsi məhz bu xüsusu ifadə edir. Sufilərə görə Haqqa çatmaq üçün nəfsi tamamilə qırmaq lazımdır. Özünü nəfsani arzulardan uzaqlaşdıran kimsənin cənnətə gedəcəyini xəbər verən ayə ("ən-Naziat", 79/40) buna işarət edir. Nəfs özünü bəyənir, özünü "tanrı" hesab edir, özünə heyrandır, eqoistdir, xəsisdir, tamahkardır, qısqanc və təkəbbürlüdür. Məşhur sufi Əbu Talib əl-Məkkiyə görə zəiflik, xəsislik, şəhvət və cəhalət nəfsin əsas xüsusiyyətləridir. Bədən evi nəfs və ruhun mübarizə meydanıdır. Mövlanə Cəlaləddin Rumiyə görə, ruhdan fərqli olaraq nəfs torpaqdan yaranıb və onun məkanı dünyadır. Ruhun məskəni isə cənnətdir. Mübarizə dünyada, başqa bir ifadə ilə nəfsin evində gedir. Elə bu səbəbə görə də nəfs əksər halda mübarizənin qalibidir. İnsan, nəfsin təbiətinə uyğun olaraq dünyəvi arzu və istəklərini azaltdığı təqdirdə, onun müqavimətini qıra bilər.

Bütün dövrlərdə olduğu kimi, müasir çağımızda da cəmiyyətlərin əxlaqi tənəzzülünin əsasını insanın öz nəfsinin əsiri olması təşkil edir. Günümüzdə öncəki əsrlərə nisbətən nəfsin arzu etdiyi əlamətlərin artması, insanların aza qane olmayıb ehtiyacı olmadığı halda çoxu istəməsi, texnologiyanın insanı yalnızlaşdırması, gənclərin ətraf mühitin mənfi təsirinə məruz qalmaları, insanların Allahın bəxş etdiyi nemətlərə qarşı biganəliyi və s. kimi amillər nəfslə mübarizəni çətinləşdir. Həm Quranın və Allah elçisinin, həm də İslam alim və əxlaqçılarının israrla vurğuladıqları kimi, əxlaqi kamilliyin yeganə yolu nəfsin qeyri-məşru istəklərinə qarşı mübarizə aparmaq və mənəvi baxımdan inkişaf etməkdir. İslam Peyğəmbəri bir tərəfdən, nəfslə mübarizə apararkən, digər tərəfdən, ruhun mənəvi qidası olan Quran oxumağa və zikr etməyə davam edirdi. Peyğəmbərimizin nəfs mübarizəsi ilə əlaqədar tez-tez oxuduğu dualardan biri ilə mövzunu yekunlaşdırmaq mümkündür: "Allahım, acizlikdən, tənbəllikdən, qorxaqlıqdan, xəsislikdən, qocaldıqdakı taqətsizlikdən, qəbir əzabından sənə sığınıram. Allahım, nəfsimə səndən qorxma şüurunu (təqva) ver və nəfsimi saflaşdır. Onu ən yaxşı saflaşdıran sənsən. Onu himayə edəni də, ağası da sənsən. Allahım, faydasız elmdən, (səndən) qorxmayan qəlbdən, doymayan nəfsdən və qəbul edilməyən duadan sənə sığınıram." (Nəsai, İstiazə, 13)

# Nur və zülmət



**Hilal Ağamoğlanov,**
**Aİİ-nin əməkdaşı**

Yaşadığımız aləmdə bəzən bir-birinə zidd anlayışlarla qarşılaşırıq. Bunlardan biri də nur və zülmətdir. İki ziddiyyətin bir yerdə cəm olması ümumi qanuna əsasən mümkün deyil. Məsələn, su eyni vaxtda həm soyuq, həm də isti ola bilməz. Bu qanuna əsasən də birinin varlığı digərinin yoxluğuna səbəb olur.

Bəs, əvvəlcə zülmət var idi, yoxsa nur? Bunun cavabı üçün həmin kəlmələrin mənalarına nəzər salaq.

Rağib İsfəhani "Müfrədat" kitabında "zlm" hərfləri barədə buyurur: "Zülmət – nurun olmamasıdır. Bu kəlmə ilə cahillik, Allaha şərik qoşmaq və pis işlər də ifadə olunur" (Rağib İsfəhani, "Müfrədat" səh.315).

O, həmin kitabda "nvr" hərflərindən formalaşan kəlmələr haqda danışarkən isə deyir: "Nur – yayılan bir işıq və ziyadır ki, əşya və həqiqətləri göz və bəsirətlərə əyan edir" (Rağib İsfəhani, "Müfrədat" səh.508).

Kəlmələrin mənasından aydın olur ki, həqiqət mövcud olduqca nur da mövcuddur. Zülmətin varlığı isə həqiqəti ortadan qaldırdıqda və ya üzəri örtüldükdə yaranır. Bu örtülmə dində "küfr" adlanır. Belə ki, "küfr" sözünün ərəb dilində lüğəti mənası "bir şeyin üstünü örtmək"dir.

Əvvəldəki sualımızın cavabı artıq aydın olur. Uca Allah məxluqatı yaratmazdan əvvəl yalnız Özü mövcud idi. Yəni, daim var olan yeganə varlıq Allahdır ki, nə əvvəli mövcuddur, nə də sonu. Demək, Uca Allah həmişə var olan Əbədi və Əzəli varlıqdır, bu bir həqiqətdir. Həqiqət isə nurdur. İmam Əli (ə) buyurur: "Hər bir haqq işin həqiqəti var, hər bir həqiqət isə nurdur" ("əl-Kafi" c.2, səh.54, hədis 4). Allahın varlıq həqiqətinin nuru başlanğıcdan nurun varlığını isbatlayır. Yaradılışdan öncə nurun olması da zülmətin yoxluğunu labüd edir.

Quran bunu daha dəqiq və daha aydın bəyan edir: ***"Allah yerin və göylərin nurudur"***("ən-Nur" surəsi, ayə 35). Bu ayə yuxarıda qeyd etdiklərimizi isbat etmək üçün ən yetərli dəlildir.

Maraqlı cəhətlərdən biri budur ki, "od" sözü də əslini "nur" kəlməsindən götürür. Ərəb dilində "nar" kimi tələffüz olunan bu sözün əsli "nəvər"dir. Qaydaya əsasən, "vav" hərfi "əlif"ə çevrilmişdir. Cəhənnəmdə insanların odla cəzalandırılması da bu kəlmənin mənası ilə uzlaşmaqdadır. Orada əzab görən insanlar həqiqəti danan və ona qarşı çıxanlardır. Onların məhz həmin həqiqətin nurundan yaranmış odla cəzalandırılması İlahi ədalətin təzahürüdür. Onlar əslində həqiqətin–nurun özü ilə cəzalanır. Demək, dolayısı ilə onlar dandıqları həqiqətlərlə cəzalanırlar.

Həqiqət çox inkar edildikcə, odun şiddəti də artır. Cəhənnəm təbəqələrinin ardıcıllıq sırası ilə bağlı rəvayətlərə diqqət yetirdikdə, ən alt təbəqənin özünü Allah elan edən şəxslərə aid olduğunu görürük. Bu günah digər günahlarla müqayisəyə gəlmir. Digər günahlar bəzi cəhətlərdən inkar və küfrə yol verir. Allahlıq iddiası insanın keçmişi, indini və gələcəyi danmasından və varlığından tam uzaqlaşmasından doğur, fani və möhtac insan həqiqətinə daban-dabana ziddiyyət təşkil edir. Bir sözlə, insanı həqiqətdən uzaqlaşdırır.

Digər maraqlı cəhət isə "zülm" və ya "zalım" kəlmələrinin "zlm" samitlərindən yaranmasıdır. Bu kəlmələrin mənasına diqqət yetirdikdə onların insana zülmət gətirdiyini və nurunu söndürdüyünü anlamaq olur.

Alimlər nurun iki qisim olduğunu bildirirlər. Birincisi, bəsit nurdur ki, (görmə, eşitmə, dadma, toxunma və iyləmə kimi) hiss üzvlərimiz onu dərk edə bilmir. Bu nur ali aləmlərə məxsus nurdur. Məsələn, mələklər nurdan xəlq olublar. Onun bu cür yaradıldığı hədislərdə öz əksini tapır. İmam Sadiq (ə) buyurur: *"Allah mələkləri nurdan yaratdı"* ("əl-İxtisas" səh.109).

İkincisi isə hiss olunan nurdur. Bu nur dünyaya xasdır, o özü də iki növə ayrılır: gözlə dərk olunan və gözlə dərk olunmayan nurlar. Gözlə dərk olunan nurlar günəş, od və s. kimi işıq mənbələridir. Gözlə dərk olunmayan nurlar isə Quran, elm, saleh əməl və s.dir. Ayə və hədislərdə iman və saleh əməllərin nur olduğu bildirilir. Bu növ nurlar yalnız bəsirətlə dərk olunur.

İndi isə ***"Allah yerin və göylərin nurudur"*** ayəsinin daşıdığı zahiri mənalara nəzər salaq. Təfsir kitablarının birində bu barədə belə deyilir: "Nurun əhəmiyyəti nədir?". Cavab: "Nur əşyalara həqiqi ifadələrini verir". Belə ki, bu əşyalar öz

təbii varlıqları ilə aşkar olmur. Hər bir əşyanın mövcud olduğu şəkildə görünməsi üçün nura ehtiyac duyur. Qədim alimlər nuru belə tərif etmişlər: "Nur - özü işıq, başqası üçün isə işıqlandırıcıdır".

Bəs "nur" kəlməsi Allaha necə aid edilir? Axı Allahı zaman və məkandan kənar bilirik. Bunu belə ifadə etmək olar: Ayədəki nurun Allaha istinad edilməsi məcazdır və digər məxluqların öz varlıqlarında əsaslandıqları Varlığı bəyan edir.

İkinci nəzər isə sözün həqiqi mənasını daşıyan fikirdir. Yəni, Allah Özü bir nurdur və Onun nuru ilə yer və göylər aydınlanır. Bunu iddia etmək Allaha məkan istinadı ilə nəticələnir. Həmin nurun qaynaqlandığı bir mənbəyə ehtiyac duyulur. Belə nəzərdən Allaha sığınırıq.

Yer və göylərin "nur" kəlməsilə söz birləşməsi təşkil etməsi isə onlarda olan hər bir şeyin yalnız Allahın təsdiq və mərifətilə öz həqiqətini ifadə etməsidir" (cild: 16, səh.352).

Quranda "nur" kəlməsi çox geniş mənalarda istifadə olunur. Onların ümumi mənası yenə də haqqın bəyan olunmasında cəmlənir.

Nurun saçdığı işıq "ziya" adlanır. Buna əsasən, "ziyalı" kəlməsi də elm və həqiqətlə nurlanmış şəxs mənasını ifadə edir. Yerin və göylərin nurunun Allah olduğu və insanın bu iki məkan daxilində yaşayan məxluq olması nəzərə alınmaqla İslama görə, ziyalının həmin həqiqətlərdən nurlanan şəxs olması lazımdır. Bəzən bu məna öz həqiqətindən uzaq istifadə edilir. Məsələn, sovet dövründə insana Xaliqin yoxluğunu isbat etməyə çalışan "alimlərə" cəmiyyət ziyalı deyirdi.

Həmçinin mənəviyyatsız alimlər də insanlıq üçün potensial təhlükə mənbəyidir. Məgər kütləvi qırğın silahlarını ixtira edənlər, insanları "təcrübə vasitəsinə" çevirən təbiblər və şəxsi maraqları naminə xalqını başqalarına təslim edən diplomat və siyasətçilər həmin ziyalı təbəqədən sayılmırlarmı?!

***Uca Allah Quranda buyurur: "Heç (küfrlə) ölü olub diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur verdiyimiz kimsə zülmət içində qalıb oradan çıxa bilməyən şəxs kimi ola bilərmi?"*** ("əl-Ənam" surəsi, ayə 122).

İnsan dünyaya göz açdığı andan fitrət etibarilə inanan bir varlıqolduğu üçün, həmçinin inkar və günahdan xali olması səbəbilə də nura sahibdir. Yalan, inkar, tamahkarlıq, pul-mal hərisliyi, təkəbbür, zülm, inad və s. mənfi səbəblərdən yaşadığı müddətdə nurunu itirməyə başlayır. Nuru tam çəkildikdə isə o şəxsin daxilini zülmət bürüyür. Bu zaman onun gözünün görmək qabiliyyəti daxilinin nuru səbəbindən deyil. Əksinə, yalnız maddi səbəblərə bağlı işıq mənbələrinin sayəsində olur. Kənar işıq mənbələrinin işıqlandırdığı əşya və hadisələr onun daxili zülmətində itir və düzgün təhlil qabiliyyətindən məhrum olur. Belə şəxs yalnız maddi aləmi görən kameradan fərqlənmir. Uca Allah bu barədə buyurur: ***"İldırımın çaxması az qalır ki, onların gözlərinin işığını alsın. (Şimşək) onlara işıq verdiyi zaman (onun ziyası ilə) yeriyirlər, üzərlərinə qaranlıq çökdükdə isə dayanıb dururlar"*** ("əl-Bəqərə", 20).

Belə şəxslərin elmləri məlumatdan savayı bir şey deyil. Allah, din, qəbir əzabı, Qiyamət və məhşər onların nəzərində quru söz, nağıl və əfsanədir. Aldığı qərarlar, verdiyi hökmlər isə əşyanı əlini toxundurmaqla təyin edən kor şəxsin həmin əşyanı ifadə etməsi misalındadır, bəsirəti zülmətə büründüyü üçün baş verən həqiqi hadisələrdən qəflətdədir. İnsan tövbə ilə öz itirdiyi nura tərəf yönəlməsə, ölüm anından başlayan əzabların həqiqətilə üz-üzə qalması labüd olacaq, bu əzablar axirət aləmində əbədilik möhürü ilə möhürlənəcək.

"əl-Hədid" surəsinin 12 və 13-cü ayələrində Uca Allah buyurur: ***"O gün (Qiyamət günü) mömin kişilərin və qadınların nurunun önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını görəcəksən. "Bu gün sizin müjdəniz altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!". Bu, böyük qurtuluşdur. O gün münafiq kişi və qadınlar iman gətirənlərə: "Bizi gözləyin ki, nurunuzdan bir qədər işıq alaq! – deyəcəklər. Onlara belə cavab veriləcək: "Geriyə (mümkündürsə, dünya həyatına) dönüb nur axtarın!".***

Ayədən göründüyü kimi, axirətdə insanın hərəkət etməsi üçün nura ehtiyac duyulur. Möminlərin münafiqlərə etdikləri xitabdan aydın olur ki, həmin nurun mənbəyi dünya həyatıdır.

Bəs dünya həyatında həmin nuru necə qazanmaq olar? Hədislər bunu gözəl şəkildə bizə bəyan edir. Allahın elçisi (s) buyurur: *"Namaz nurdur"* ("ət-Tərğib vət-tərhib", c.1, səh.156, hədis 12).

Digər bir hədisdə isə buyurur: "Quran oxu! O sənin üçün dünyada nur, axirətdə isə azuqədir" (həmin mənbə, c.2, səh.349, hədis 10).

Peyğəmbər (s) "Mən məhşərə nurla gəlmək istəyirəm" deyən şəxsə cavabında buyurur: "Heç kəsə zülm etmə ki, Qiyamət günü məhşərə nurla gələsən" ("Kənzul-ümmal", hədis 44154).

Beləliklə, Allahın insan övladına yaradılışı ilə bərabər bəxş etdiyi fitri nuru öz əməllərimizlə azalda və ya artıra bilirik. Bunun üçün elmə və həqiqətə yönəlməli, haqqı sevib qəbul etməli, zülmdən çəkinməli və saleh əməllərə meyil etməliyik.

# Əxlaq və din



Məhəmməd Əliyev,
Aİİ-nin III kurs tələbəsi

Əxlaq və din arasında xüsusi bir bağlılıq mövcuddur. Dinlərin göndərilmə səbəblərindən biri isə əxlaq normalarını bərpa etməkdir. Din və əxlaq normalarının araşdırılması, cəmiyyətdə nə dərəcədə mühüm əhəmiyyət kəsb etməsi insanların həyatında vacib bir sahədir. Bununla da din sosiologiyası elmlə məşğul olur, dinin cəmiyyətə və cəmiyyətin dinə təsirlərini öyrənir.

Ortaq maddi və mənəvi fəaliyyətdən doğan münasibətlərə sosial münasibətlər deyilir. Bu münasibətlər cəmiyyəti təşkil edən insanlar arasındakı oxşarlıq və fərqlərdən yaranır, cəmiyyətə mənsubiyyət hissi ifadə edir. Cəmiyyətdə sosial-mədəni quruluşun vacib bir elementi olaraq sosial münasibətlərin müəyyənləşdirilməsində din öz yerini tutur.

Zaman durmadan irəliləyir. İnsan zaman və məkan daxilindəki məhdud çərçivədə bir dünya qurur – bu da insan həyatıdır. Buna isə "sosial həyat" deyirik.

Sosial, vicdani, yaxud dini səbəblər əxlaqın əsasını təşkil edir. Əxlaq insanların gündəlik həyatında fərdi və sosial münasibətlərini, davranışlarını tənzimləyən prinsiplər və dəyərlər sistemidir; həmçinin bəşəriyyət tərəfindən qəbul edilən, digər əminliklə ölçülə bilməyən hərəkətlərimizin ölçü və meyarının cəmidir. İnsanlar arasındakı müzakirələri tənzimləyən qaydalar sistemi şəklində ifadə olunur. Əxlaq deyiləndə, ağla gələn şüurlu varlığın duyğu, düşüncə, münasibət və davranışları olur. Sosial həqiqət baxımından əxlaq insani bir dəyərdir, zehin və ruh dünyası ilə əlaqəli bir mənaya sahibdir. Bu duyğu və düşüncələr insanın digər varlıqlarla qarşılıqlı təsir zamanında ortaya çıxır və görünən olur.

Əxlaq pisliklərdən qaçmaq və yaxşı olan hərəkətləri etmək deməkdir. Fərdi və cəmiyyət baxımından əxlaqi dəyərlər vacibdir.

Məlumdur ki, tarix boyunca hər bir insan, yaxud toplumun zehniyyət və əxlaqı olub. Bu mənada, əxlaq müəyyən ölçüdə bir struktura malikdir. Bəşəriyyətin böyük əksəriyyət üzərində müttəfiq olduğu vacib hesab edilən – adam öldürməmək, oğurluq etməmək, haqqa girməməkkimi əxlaqi dəyərlər mövcuddur."Əxlaq" deyiləndə "ən yüksək yaxşı" ağla gəlir. İnsanın əxlaqi mənada idealı isə "ən yüksək yaxşı"nı əldə etmək və onu həyatına tətbiq etməkdir. Ən yüksək yaxşı nədir və necə əldə edilir? İnsan bunun üçün nə etməlidir? Burada onu da qeyd edək ki, "hər şeyin yaxşılığı başqa biri ilə əlaqəli olmadan, öz-özlüyündə araşdırıla bilər. Bu mənada, yaxşının Tanrı olduğu aydındır, çünki O, yaratdıqlarından ölçülməz dərəcədə daha tam və daha taysız-bərabərsizdir". Əxlaq sosiologiyasının ümumi olaraq mövzusu əxlaq ilə ictimai strukturlar arasındakı əlaqələrin araşdırılmasıdır.

İctimai-siyasi həyatı və ictimai həyatla mənəvi həyatı bir-birindən heç zaman ayırmayan müqəddəs Simon ortaq mənəvi fikirlərə malik bir cəmiyyətin olmadığını, insan inkişafının müxtəlif mərhələlərinə görə təyin olunan və bu etaplara uyğun tətbiq edilən fikir və tətbiq qaydalarının mövludluğunu irəli sürür. Saint Simonun bu düşüncələri söylədiyi dövrdə və ondan çox-çox əvvəldə əxlaq "fərdi şüurun, şəxsin, vicdan"ın bir məhsulu olaraq, daha doğrusu, insanlara verilən Tanrının vergisi kimi qəbul edilib. Əslində, əxlaqi anlayış qiymətləndirmələrə əsaslanır.

Həyatın mənası, ancaq təməl dəyərlər çərçivəsində mənalı olur. İnsan dünyaya gəldikdə boş zehnə sahib olur və hər keçən gün yeni bilgilər öyrənməkdə, dolmaqda və inkişaf etməkdədir. Beləcə, insan sosial həyatda bəzi təməl prinsiplərinin olduğunu da təcrübədən keçirir. Bu məzmunda dini və əxlaqi dəyərlərə qarşı çıxmaq, onları sosial fakt olaraq qəbul etməmək sosial həqiqətə qarşı çıxmaq kimi düşünülə bilər. Bu nöqteyi-nəzərdən din və əxlaqın doğru, yaxud səhv olmasından daha çox, onların sosial bir fakt kimi mövcudluğu, bütün toplumlarda inanılan və yaşanılan sosial həqiqət olması önə çıxır.

Dini və əxlaqi ünsürlər bir cəmiyyətin mənəvi sferasında da mövcuddur. Eləcə də fərdlərin ruhu və qəlbləri ilə əlaqəli ehtiyaclarının ödənilməsində mühüm rol oynayır.

Cəmiyyətdəki sosial bütövlüyün zəifliyi o deməkdir ki, əməkdaşlıq, razılaşma və həmrəylik xüsusiyyətləri aşağı, rəqabət, müxalifət və



qarşıdurma əlamətləri isə yüksəkdir.

Məcburilik xarakteri sosiologiyanın mövzusu olub, bu elmin irəli sürdüyünə əsasən əxlaq müəyyən cəmiyyət hadisəsidir. Bir çox dəyərlər kimi, əxlaq sosial şüurun fərdi şüurda yansımasıdır. Yaxşılıq, pislik, doğruluq, yanlışlıq, kömək, şəfqət, mərhəmət, kin, səmimiyyət, yalan, aldatma kimi əxlaqi dəyərlər adlandırdığımız davranışların, alışqanlıqların qaynağı cəmiyyətdir.

Əxlaqın problemini yaxşılıq təşkil edir. Əxlaq hər şeydən əvvəl pisliklərdən qaçmaq və yaxşı davranışlarla davranmaq deməkdir. Din isə təməlindən müqəddəslə qurulan əlaqələrə söykənir. Bununla birlikdə, tarix boyunca din və əxlaqın mövzuları arasında o qədər də ziddiyyət görünmür. Əksər dinlərdə dini və əxlaqi əmrləri bir-birindən ayırd etmək mümkün deyildir. Ayrıca hər dinin bir əxlaq anlayışı vardır. Dini inanclar böyük ölçüdə yaxşılıq-pislik, günah-savab kimi dəyərlərlə əlaqəli olduğundan, fərdi davranışın səbəblərini ortaya qoymada xüsusi aydınlaşdırıcı funksiya görür.

Mac İverə görə, din əxlaqın orada yaranıb, inkişaf etdiyi ana rəhmini təşkil edir. Həzrət Peyğəmbər (s.a.s.) "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim", – sözləri kimi, İslam dini də inanc və ibadətə nisbətən əxlaqa böyük diqqət göstərib və daha çox əxlaqi qaydaları təbliğ edib. Belə ki, İslamda dini öhdəliklərlə əxlaqi öhdəliklər arasında tam bir sədd çəkilməmiş və bunların hamısı dini inanclara söykənmişdir. Bu baxımdan, orada dindən başqa hansısa əxlaqdan söz açıldığına o qədər də rast gəlmək olmur. İslam alimləri əxlaqi öhdəlikləri – Allaha və Peyğəmbərə qarşı öhdəliklər; ailəyə, qohumlara, yaxınlara, millətə, eləcə də bütün insanlığa qarşı öhdəliklər olaraq bölümlərə ayırmışlar. Onlar, həmçinin əxlaq nəzəriyyəsi ilə əlaqəli-yaxşılıq və pisliyin Allahdan gəldiyini, Onun vəhy yolu ilə "həsən" bildirdiyi nəsnələrin yaxşı, "qəbih" olaraq bildirdiklərinin isə pis olduğunu qəbul etmişlər. Əxlaqın mövzusunu təşkil edən yaxşı-pis ayrı-seçkiliyini dini təməllərlə əlaqələndirmişlər.

Tarixən din və əxlaq mövzuları arasında o qədər də ziddiyyət görünmür. Ayrıca götürüldükdə hər dinin müəyyən əxlaq anlayışı mövcuddur.

Dini inanclar böyük ölçüdə yaxşılıq-pislik, günah-savab kimi rəmzlərlə əlaqəli olduğundan, fərdi davranışın səbəblərini ortaya çıxarmada xüsusi aydınlaşdırıcı funksiyanı həyata keçirirlər.



Ayşən Aslanova,
AİI-nin əməkdaşı

# Media və din

*Hadisələrin sürətlə cərəyan etdiyi bir dövrdə yaşayırıq. Bu sürətin ən vacib səbəblərindən biri isə texnologiyanın gündən-günə həyatımıza daha dərindən nüfuz etməsidir. Bu yeniliklər insanların ünsiyyət sahəsində özünü daha çox büruzə verir. Qloballaşma həm fərdə, həm də cəmiyyətə rabitə texnologiyaları vasitəsilə güclü təsir edir. İnternetin yaranması və yayılması cəmiyyət həyatında əhəmiyyətli dəyişikliklərə səbəb olub. Dünya əhalisinin böyük bir hissəsinin gündəlik həyatında internetdə məlumat mübadiləsi, alış-veriş, dost qazanmaq və sosial mediada vaxt keçirmək vacib yer tutmağa başladı. Bu vəziyyət internetin insanın davranışını və qarşılıqlı əlaqəsini müşahidə etmək, ictimai fenomen və quruluşları araşdırmaq üçün sosial müşahidə obyektinə çevrilmişdir.*

Ortaya çıxan yeni araşdırma sahələrindən biri də internet və dinin qarşılıqlı əlaqəsidir. İnternet istifadəçiləri dini bilik qazanmaq, bəzi dini təcrübələri həyata keçirmək, yaxud virtual dini icmaların üzvü olmaq kimi bir çox fəaliyyət sayəsində virtual mühitdə dinin müxtəlif ölçülərini yaşamağa başladı.

Sosial media da qloballaşan dünyada hazırda insanlar üçün daha əlçatan işlərin həllində daha rahat vasitəyə çevrilib. Buraya feysbuk, tvitter, instaqram və yutub kimi sosial şəbəkələrin daxil olduğu geniş bir rabitə vasitəsi və böyük fəaliyyətə malik məkan nəzərdə tutulur. Sosial media dünyada əvvəlkindən daha asan və daha sərbəst ünsiyyət imkanını təmin edir. İnternet istifadəsi artdıqca, sosial media tətbiqlərinin üzvlərinin sayı da artır.

Sosial media təkcə ünsiyyət üçün limitsiz mühit yaratmaqla kifayətlənmir, eyni zamanda, insanların məlumat almaq ehtiyacını da təmin edir. Nəzərə alsaq ki, sosial medianın müasir dünyada din anlayışını və bu sahədə fəaliyyətin yayılmasında mühüm bir funksiyası da mövcuddur, o zaman din fenomeni yeni ünsiyyət mühitində öz yerini tutdu. Dinlər isə kütləvi informasiya vasitələri ilə dinləyicilərinə çatmaq imkanına sahib oldu.

Sosial şəbəkələrdə dini məlumatlar paylaşan hesabların, səhifələrin və bloqların sayı gün-gündən artır. Bu bloqlar və qruplar cəmiyyəti inandırır, ona təsir göstərir. Araşdırıldığı zaman ayələrdən hədislərədək bir çox mövzuda saysız hesabların olduğunu görürük. Bu səhifələrdə izləyicilərin sayı olduqca çoxdur.

Təəssüflər olsun ki, belə səhifələrin bir çoxunda dini mövzuda yanlış məlumatların yazılmasının, terror təşkilatlarının öz fəaliyyətini yaymasının şahidi oluruq. Müsəlmanlar terrorçu elan edilir. İslamofobiya fenomenə çevrilir. Dünyada da sosial medianın bu sahədə nə dərəcədə təsirli olduğunu görürük.

İslamın nüzulundan günümüzədək gələn islamafobiya problemi hazırda daha bariz forma alıb. Xüsusilə demokratiyanın əsəri sayılan media bu gün İslama qarşı güclərin əsas silahına çevrilib. Dünyada İslam dininin yayılmasının qarşısını almaq istəyən güclər media vasitəsilə İslama qarşı savaş elan ediblər. Dillərdə dolaşan "İslam terroru" kəlməsi bu kirli oyunlardan xəbər verir. Əgər dünyanın müxtəlif yerlərində baş verən qanlı hadisələr "xristian terroru", yaxud "yəhudi terroru" olaraq qeyd edilmirsə, hansısa qüvvələrin əməllərinin bəşəriyyətə sülh, əmin-amanlıq gətirən İslamla əlaqələndirilməsi dinimizə qarşı qərəzdən başqa bir şey deyil.

Müasir dünyamızda müsəlmanlar mediada İslamın həqiqi mahiyyətindən uzaq dezinformasiya və saxtakarlıqlarla dolu olan bir kampaniyanın şahidinə çevriliblər. Bu fikirlər, bütün bu təbliğat təkcə İslam dinini, mədəniyyətini bilməyən Qərb kütləsinə yönəlməyib. Belə oyunlar İslam dininin iman və əqidə əsaslarına dərindən bələd olmayan, lakin özünü müsəlman sayan və Qərb mədəniyyətinin ciddi təsirinə məruz qalmış sadə insanlara yönəlib. İslama qarşı baş verən belə məkrli siyasət təsadüf və ya hansısa ateistin fərdi təşəbbüsü

deyil, bəzi siyasi dairələrin dinimizə qarşı apardığı qara piardır.

Belə qruplarla mübarizə isə olduqca vacibdir. Bu gün yalan informasiya yayan, din pərdəsi altında gizlənmiş, İslamı tənqid edən qüvvələr çirkin əməlləri üçün sosial medianın imkanlarından çox effektli şəkildə istifadə edirlər. Sosial şəbəkə ölkədə sabitliyi pozmaq istəyənlər üçün güclü təbliğat obyektidir. Ölkəmizdə mövcud olan tolerant və multikultural mühitə yad təsirlərin qarşısını almaq, onlarla mübarizə aparmaq isə hər birimizin borcudur.

İnternet və dinin qarşılıqlı əlaqəsi ilə ortaya çıxan yeni hadisələrdən biri də virtual dini icmalardır. Bu gün, demək olar ki, bütün dinlərə, məzhəblərə və ya dini qruplara məxsus virtual icmalar meydana gəlməyə başladı. Eyni dini inanclı insanlar tərəfindən yaradılan virtual icmalara əlavə olaraq, müəyyən bir inanc, məzhəb və ya fərqli dini təfsir istifadəçiləri tərəfindən yaradılan virtual təşkilatlar bir araya gəldi. Bu virtual icmalar dağılmış icma üzvlərinə vaxt və məkan maneələrindən kənarda ünsiyyət qurmağa imkan verir. Bu, dini qruplara və ya icmalara diaspor üzvlərini bir araya gətirməkdə və bir-biri ilə münasibətlərini davam etdirməkdə mühüm üstünlüklər verir. Məsələn, müsəlman, yəhudi və ya hind qrupları tərəfindən yaradılan virtual icmalar onlara diasporaları və icmaları ilə əlaqələrini qorumağa kömək edir. Virtual icmalar kontekstində aparılan tədqiqatlarda ən çox yayılan mövzular; ənənəvi dini qrupların virtual mühitə köçürülməsi, istifadəçilərin virtual icmanı necə və hansı şəkildə təşkil etməsi, virtual icmaların ənənəvi icma quruluşundan fərqli və oxşar cəhətləri.

Texnologiyaların və internetin daha geniş yayıldığı müasir dünyada gənclərin tərbiyəsində ilk yeri ailə tutursa, ikinci və üçüncü yerlərdə media və məktəblər dayanır. Göründüyü kimi, media ailədən sonra gənclərin formalaşmasında, cəmiyyətə adaptasiyasında daha böyük rol oynayır. Bütün bunlar da mətbuatın gücünün dəyərləndirilməsi məsələsini aktuallaşdırır. Bu sahədə müəyyən addımlar atılsa da, təəssüf ki, hələ radikal qüvvələrin qarşısı tam alınmayıb. Radikalizmlə mübarizə mexanizmi təkmilləşdirilməlidir. Cəmiyyətə sosial media vasitəsilə İslam dininin dəyərlərini çatdırmaq üçün aktiv olmaq lazımdır. Din xadimləri bu yöndə sosial şəbəkələrdə fəaliyyətlərini artırmalı, media sosial şəbəkələrdə yayılan qərəzli məlumatların qarşısını almaqda, müzakirələrin daha doğru istiqamətdə getməsinə kömək göstərməlidir. Bunun üçün media nümayəndələri də dini mövzuda məlumatlandırılmalı, təkcə islami biliklərə deyil, eləcə də bütün dinləri əhatə edən bilgilərə sahib olmalıdırlar. Necə ki, iqtisadi xəbərlərin yazılması ilə məşğul olan bir jurnalist vergi, enerji, məzənə və s. kimi məsələlərdən agah olur, dini mövzuda yazan mətbuat nümayəndəsi də dinin əsaslarını təşkil edən təməl qaynaqları bilməlidir. Necə ki, hər hansı sahədə bir xəbərin hazırlanmasını onun mütəxəssisinə həvalə edirlərsə, bu, dini sahədə də özünü göstərməlidir.

Ölkəmizin sabitliyi və inkişafı, o cümlədən gənclərin mənəvi əxlaqi tərbiyəsi ilə bağlı məsələlərə daha da ciddi yanaşmaq hamımız üçün ən vacib məsələlərdən olmalıdır.





Fərid Qasımzadə,
Aİİ-nin III kurs tələbəsi

# Fatimilər dövlətində vəzirlərin rolu

*Miladi tarixi ilə 909-cu ildə Übeydullah əl-Məhdi tərəfindən əsası qoyulan Fatimilər Şimali Afrika, Misir, Suriya və digər bölgələri əhatə edən bir dövlət olub. "Fatimilər" xanədan adı isə Həzrət Peyğəmbərin qızı olan Həzrət Fatimədən götürülüb. Bu dövlətin qurucuları Həzrət Fatimə və Həzrət Əli yolu ilə Məhəmməd peyğəmbər nəslindən olduqlarını iddia edirlər.*

Ümumi məlumatlara görə, onların nəsli Həzrət Əli ailəsinə aid deyil, İmam Sadiqdən sonrakı İmam onun oğlu İsmayıldır. Onlar İsmayılın atası hələ həyatda olarkən bu fikir yayğınlığına düşüblər. Bir qismi onun ölmədiyini, digər qismi isə bunun Abbasilərin şərindən çəkinmək üçün təqiyyə olduğunu iddia edib. Afrikada ortaya çıxan Fatimilər dövlətinin əsası İsmaililik hərəkatı vaxtı, altıncı İmam Sadiqin oğlu İsmayılın ətrafında yaradılan mübahisələrlə meydana gəlib.

Hadisələrin sonrakı gedişatında Fatimilər dövləti yaradıldıqdan sonra, miladi 921-ci ildə Mehdiyyə şəhəri inşa etdirilib və paytaxt da bura olub. Sonrakı xəlifələr 948-ci ildə Qeyravan yaxınlığında olan Mənsuriyyə şəhərini qurub və burada yerləşib. 973-cü ildə xəlifə əl-Muin Tunisdən Misirə köçüb, bundan sonra Fatimilər dövləti yüz il hökmranlıq edib. Onlar bura köçməzdən dörd il əvvəl Fatimi komandanı olan Cövhər buranı fəth edib. Fatimilər uzun müddət çoxlu əraziləri öz tabeliyində saxlamağı bacarıblar. Sonralar hakimiyyət uğrunda mübarizələr gedib, sonda Şavər öldürülüb və Nurəddinin ordusu Misirə daxil olub.

1169-cu ildə Əsədəddun Şirkuh vəzir təyin edilib, lakin iki ay sonra vəfat edib. Bu səbəbdən, xəlifə Azid onun qardaşı oğlu Səlahəddin Əyyubini vəzir təyin edib. Beləcə, Misirdə və Orta Şərqdə yeni bir dövr başlanıb. Səlahəddin Əyyubinin göstərişinə əsasən, Fatimilər adına xütbələrə son verilib.

Fatimilərə Tunis, Əlcəzair, Fas, Liviya, Siciliya, Sardinya, Korsika, Malta, Misir, Suriya, Livan, Fələstin, Hicaz, İordaniya, Yəmən daxil olub. Atlantik okeanından Oman dənizinə kimi olan, həmçinin İtaliya, İspaniya torpaqlarınadək gedib-çıxan bu imperiyaya Hindistanın Pəncabında belə tabe olan dövlətlər var idi. Fatimilər dövləti 1171-ci ildə süqut etdi.

Fatimilər dövlətinin hakimiyyətindəki torpaqlarda müxtəlif irqlərə mənsub və dəyişik sosial fikir nümayəndələri yaşayırdı. Fatimilər dövləti siyasi baxımdan məğriblilərə, türklərə, deyləmlilərə güvənirdilər. Zimmilərin təcrübələrindən və xüsusilə maliyyə işlərində qiptilərdən istifadə edirdilər. Dövlətdəki bəzi ayrı-seçkiliklərə görə parçalanmalar yarandı. Fatimilər dövləti öz siyasi strukturlarında fəthlərə də geniş yer verdilər. Fatimilər dövlətinin ortaya çıxmasından Abbasilər də narahat olmağa başladılar. Ona görə də Abbasi xəlifələri Fatimilərin Misiri ələ keçirmək siyasətini əngəlləmək istəyirdilər. Büveyhilərin də Abbasilərin yanında olması onlara böyük kömək demək idi. Bu, Fatimilərin İraqa hücum etməsinin qarşısını ala bilərdi. Büveyhilərin Fatimilərə qarşı savaşan Qarmatilərə yardım etməsi də elə bunu göstərirdi. Büveyhilər siyasi iqtidarın onların əllərində qalmasından əmin olsaydılar, hakimiyyəti əldən verərdilər. Necə ki, Fatimi dəvətçilərinin işləmələrinə göz yummuşdular. Fatimilərin özlərinə rəqib olduğunu görə Büveyhilər dövləti Fatimilərə qarşı mübarizə aparmağa başladı.

Fatimilər dövlətinin meydana gəlməsindən Hamdani, Mirdasi və Ükaylilər də çəkinirdilər. Hamdanilərin qarmatiləri Şamı istila etməyə çağırdıqlarını görməkdəyik. Fatimilər təhlükəsini aradan qaldırmaq üçün çox ciddi səylə çalışdılar. Fatimilər əl-Muiz lidinillah zamanından bəri Hicaz bölgəsinə nüfuz etməyə çalışırdılar. Məkkə və Mədinəyə hakim olmaq, İslam aləminin mənəvi liderliyi demək idi. Əl-Muiz Həzrət Həsən övladı ilə Cəfər Əbi Talib övladı arasında baş verən anlaşılmazlıqdan sonra, Hicazı ələ keçirməyi məqsəd bildi. Bundan sonra anlaşılmazlığı aradan qaldıran əl-Muiz siyasi üsulla Hicazı ələ keçirdi. O, ölənədək Hicazda adına xütbələr oxundu. Fa-



timilər sonralar Siciliyanı, Maltanı, Sardinyanı da ələ keçirdi. Düzgün siyasət nəticəsində Misirə, oradan da Afrikaya gedib, Bərbərilər arasında şiə fikirlərini yaymışlar. Ağləbiləri və İdrisiləri məğlub edib, Şimali Afrikaya hakim olmuşlar.

### Əziz Billah və vəziri

Əl-Əziz Billahın zamanı bolluq, rahatlıq, dini və mədəniyyət baxımından zəngin olmuşdur. Əl-Əzizin dövrü Misirdə islami dəyərlərin parlaq olduğu bir mərhələdir. Camiül-Əzhəri bugünkü şöhrətinə gətirən də o olmuşdur. Camiül-Əzhər daha öncə şafei fiqhinin oxudulduğu və namaz qılınan xüsusi bir mədrəsə idi.

Əl-Əziz Billahın zamanında yeni qulam əsgərlərdən bir ordu yaradılma təşəbbüsü irəli sürüldü və çox keçmədən bu qoşun növü yaradıldı. Xəlifə Əziz Billah zamanında Fatimilər Misirə böyük diqqət verirdilər. Ölkədə geniş inşaat işləri həyata keçirilirdi. Suvarma sistemi üçün Nil çayı kənarlarında yeni kanallar inşa edildi. Güclü bir sistemin qurulması üçün dövlət tərəfindən vergi gəlirlərinin və ölkədə mədəni pul həcminin artırılması üçün sürətli işlər görüldü. Xəlifə Əziz Billahın Qahirə dönəmində mədəni inkişaf geniş vüsət aldı. Qahirədə qurulan bir kitabxana üçün 2 milyon cild əlyazma əsərlər toplandı.

Əziz Billah hakimiyyəti zamanı Yaqub Binkillisi özünə vəzir seçdi. Binkillis 979-991-ci illərdə vəzirlik vəzifəsini icra edirdi. Əziz Billah öz vəzirinə geniş imkanlar yaratdı. Yaqub Binkillis 988-ci ildə İslam dünyasında önəmli bir mədəniyyət mərkəzi olaraq, zamanımıza qədər əhəmiyyətini itirməyən öyrətmək və elm mərkəzi olan "əl-Əzhər" Universitetini yaratdı. Bundan əlavə, Yaqub Binkillis digər vəzifələri də icra edirdi. Əl-Əziz xilafət məqamına gəlincə, dövlət idarəsində bir sıra dəyişiklik etdi. Onun bu dəyişikliklərindən biri də Yaqub Binkillisi vəzir təyin etmək oldu. Yaqub Binkillis vəzirlik vəzifəsini icra etdiyi 12 il ərzində öz işinin öhdəsindən tam gəldi. Xəlifə Əzizə dövlət işlərində də kömək edirdi. Yaqub Binkillis 991-ci ildə vəfat etmişdir.

Əl-Hakim əl-Mənsur 985-ci ildə doğulub. Hələ atası tərəfindən kiçik yaşlarında olarkən vəliəhd təyin olunmuşdu. Atası vəfat etdikdən sonra, xalq ona beyət etdi. Vəsiliyini tərbiyəçisi və müəllimi olmuş Bərcuvan əl-Hadim boynuna götürdü. Qırx üç yaşında olarkən əl-Hakim vəfat etmişdir. O, Qasr Şarkil-Kəbirdə mədfun olan atası əl-Muizin yanında dəfn edilmişdir.

Əl-Hakim taxta çıxdıqdan sonra, əlinə fürsət düşmüşkən, Kutamilər ayaqlanaraq, İsa Nasturusun nüfuzdan salınması və öz liderləri olan Əbu-Hasan Ammarın vali olaraq göndərilməsini istədilər. Əks təqdirdə, ona itaət etməyəcəklərini və vergi ödəməyəcəklərini bildirdi-

lər. Misirdəki Fatimi dövlətində xeyli güclü təsir bağışlayan Kutamilərin bu istəklərini qəbul etmək məcburiyyətində qalan əl-Hakim məlumat toplamaq işini İbn Ammara həvalə etdi. Çox keçmədən İbn Ammarın yaxşı bir idarəçi olmadığı meydana çıxdı. O, Kutamilərlə həddindən artıq pis davranırdı, türklərin fikirlərini qəti olaraq rədd edirdi. Elə bundan istifadə edən Bərcuvan İbn Ammarla mübarizə aparırdı. Elə bu çəkişmələrin sonunda İbn Ammar öz yerini Bərcuvana verdi. Əl-Hakim bu vəzir nüfuzunun əlindən alınacağını hiss edincə, ondan hər vəchlə yaxa qurtarmağa çalışdı. Nəticədə, Bərcuvan evinin bağçasında öldürüldü. Belə ki, artıq vəzirlik işlərində əl-Hakim ehtiyatlı davranmağa başladı. Seçdiyi vəzirlər, əksinə, ona qarşı çıxır və etibarını doğrultmurdular.

Əl-Hakimin 386-390-cı ilə kimi olan hakimiyyəti dövrünə nəzər salsaq, onun heç bir idarəçilik işində söz sahibi olmadığını görə bilərik. Hakimiyyətin bir hissəsi İbn Ammarın, bir hissəsi isə Bərcuvanın əlində idi. Vəzirlərin sonradan bir-birlərinə qarşı mübarizə aparması nəticəsində, birinin digərini məğlub etməsi, o birisinin isə zəifləməsindən sonra, əl-Hakim onu da öldürüb güclü bir hakimiyyət qurdu. Sonrakı fəaliyyətində əl-Hakim zimmilərə aman vermiş, İbn Abdun kimi bəzi xristianları da vəzirlik məqamına gətirmişdir. Vəzirlik işlərində isə idarəçilik işinə İsa ibn Nasturusun qardaşı Zəra ibn Nastrusu hakimiyyətə gətirmişdi. Zəra vəfat edənədək vəzirlik işini yerinə yetirdi. Əl-Hakim vəzirlərə istədiyi azadlığı vermir və onlardan ehtiyatlanırdı. Sonradan vəzirlərin xristianlardan təyin olunmasına görə, müsəlmanlar onlara nifrət etməyə başladılar. Əl-Hakim öldürülənədək təyin etdiyi vəzirlərə güclü nəzarət etmişdi.

Əl-Hakim özü isə 1021-ci ildə öldürülmüşdür. Onun zamanında Darül-Hikmə inşa edildi. Burada fəqih, münəccim, lüğətçilər çalışırdılar. Bundan başqa, onun hakimiyyəti vaxtı bir çox kitabların saxlanılıdığı Darül-ilm adlı kitabxana açılıb fəaliyyət göstərdi.

### Əz-Zahir dinillah və vəziri

Əbu Haşim əz-Zahir atasının öldürülməsindən bir neçə gün sonra xilafətə keçdi. Onsuz da insanlar əl-Hakimi ortadan qaldıranadək Əz-Zahirin zühurunun gözləntisində idilər. Əz-Zahir hakimiyyətə gələrkən 16 yaşı var idi. Gənc xəlifənin ilk illərində vəsiliyini bibisi Sittül-Mülk öhdəsinə götürmüşdü. Sittül-Mülk idarəçilik məsələlərini yaxşı bacardığı üçün işlərə uğurla rəhbərlik edirdi.

Əz-Zahir sonradan nəcibüddövlə Əli bint əl-Cərcani vəzirliyə gətirmiş oldu. Əslən İraqdan, Carcariyyədən olan nəcibüddövlə sonralar Qahirəyə yerləşdi. Əl-Hakim tərəfindən bəzi divanların idarəsi ona tapşırıldı. Çox keçməmiş öz işlərini düzgün yerinə yetirmədiyinə görə, əl-Hakim iki əlinin də biləklərindən kəsilməsini əmr etmişdir. Əz-Zahir onu vəzirliyə gətirinə qədər çox etibar edirdi. Əz-Zahir xoşgörünüşlü, ağıllı və mülayim bir insan idi, dövlət işlərində heç kimə güzəştə getməzdi. Vəzirlik sistemində də, bütün dövlət sahələrində olduğu kimi, ciddi nəzarət var idi. Əz-Zahir vəzirlik işində əl-Hakimin siyasətindən fərqli olaraq vəzirliyə müsəlmanları gətirirdi. Əz-Zahir bu baxımdan çox uğurlu siyasət yürütmüş oldu.

Əz-Zahir vəzirlik sistemində bir sıra dəyişikliklər etmişdir. Bunların əsas məzmununu dövlət orqanlarına nəzarətin gücləndirilməsi, heç kimə son dərəcə güzəşt edilməməsi təşkil edirdi. Əz-Zahirin hakimiyyəti zamanı bir sıra mühüm işlər görülmüşdür. Əz-Zahir lidinillah abadlaşdırılma işləri aparmışdır. O, Qasri-Qabri yaxınlığında Qahirənin ən gözəl binalarından birini inşa etdirmişdir ki, bu bina Manzaratu-lülülüyi idi.

Əz-Zahir xilafətdə heç də çox qalmadı. İstisqa xəstəliyinə görə vəfat etdi. Elə onun vəfatından sonra, vəziri olan Cərcani Müstənsirə biət etdi. Bununla da əz-Zahir lidinillahın hakimiyyəti yekunlaşmış oldu.

Əz-Zahir lidinilallahdan sonra əl-Müstənsir hakimiyyətə gəldi. Fatimilər dövlətində hər zaman mövcud olmuş vəzirlik sistemində onun hakimiyyəti zamanında bir sıra dəyişikliklər edilmişdir.

### Əl-Müstənsir Billah və onun vəziri

Əl-Müstənsir yeddi yaşında ikən xəlifə olaraq ona biət edildi. O, əlli səkkiz il hakimiyyətdə qaldı. Əl-Müstənsir xəlifələrdən ən çox hakmiyyətdə olanıdır. O, heç də hakimiyyətə gəldikdən sonra xoş gün görmədi. Əksinə, onun dövründə qarışıqlıqlar daha da artdı, hətta Fatimilər dövlətinin süqutu təhlükəsi belə yarandı. Əl-Müstənsir, daha öncə əl-Hakim tərəfindən iki əli biləkdən kəsilmiş olan əl-Kədaini özünə katib götürdü. Hələ atasının zamanında vəzir vəzifəsini icra edən əl-Cərcanini öz işində saxladı. Belə ki, əl-Cərcani öz vəzifəsini vəfat edənədək icra etdi. Əl-Müstənsir əl-Cərcanini ona görə hakimiyyətdə saxlamışdı ki, o, idarəçiliyini düzgün yerinə yetirirdi. Lakin əl-Cərcani vəfat etdikdən sonra, onun yerinə vəzir Əbu Mənsur Sadaqa Yusuf əl-Fəllahi

keçdi. Bu vəzirin zamanında xəlifə yəhudi olan Sad ət-Tüsterinin nüfuzu çox güclənmişdi. Belə ki, vəzirliyin, sadəcə, adı qalmışdı. Bu səbəbdən, əl-Fəllahi Yəhudiliyə kin bəsləməkdə idi. Onu türklərin rəisi olan Reyhanı zəhərləyib öldürməkdə ittiham etdi. Sonra isə üç kişi Sad ət-Tüsteriyə hücum edib onu öldürdü. Başqalarına dərs olsun deyə, onun cəsədini təhqir etdilər. Əl-Müstənsir idarə işlərindən birini Sadın oğluna verdi ki, onun ailəsi ilə düzgün davranılsın. Bir müddət keçdikdən sonra, demək olar ki, artıq hamı əl-Fəllahinin ət-Tüsterini öldürməsini unutsa da, onun evində əvvəlcə cariyə olan, sonra isə xəlifə əz-Zahirlə evlənə anası bunu unutmamışdı.

Nitekim əl-Fəllahi xəlifənin yoldaşı olmasından sonra, onun əmri ilə tutulub həbs edildi, sonra isə öldürüldü.

Əslində, əl-Fəllahi müsəlmanların duyduğu kimi, onu insanların gözündən salmaq üçün belə etmişdir.Amma nəticəsi gözləniləndən daha ağır oldu. Ət-Tüsterinin müsəlmanlarla amansızlıqla davrananların yəhudi soydaşlarını dövlət vəzifəsinə yerləşdirməsi müsəlmanların ona nifrət etməsinə səbəb oldu. Əl-Fəllahi isə demək olar ki, vəzirlik vəzifəsinin əlindən getdiyini görüb, onu öldürmək qərarına gəldi.

Əl-Müstənsir hakimiyyətinin ilk illərində Suriya, Fələstin, Hicaz, Siciliya və s. yerlərdə öz adına xütbə oxutdurmaqda idi. Çox keçmədi, iki ölkənin əksər əraziləri onun əlindən çıxdı.O zaman təhlükəli xəstəlik olan vəbanın yayılması nəticəsində çoxlu insan həlak oldu. Eyni zamanda, böyük qıtlıq illərinin baş verməsi də onun dövrünə təsadüf etdi.

Misirdə hakimiyyətin qarışması dövlətə zərər verirdi. Həmin zamanlarda vəzir əl-Yazurinin qətlə yetirilməsi doqquz il ərzində qırx vəzirin hakimiyyətə gətirilməsinə səbəb oldu. Nəhayət, xəlifənin vəzir vəzifəsinə gətirdiyi Bədrul Cəmali yaranmış bu fitnələrdən dövləti təmizliyə bildi, bütün bu vəziyyəti aradan qaldırdı.

Əl-Müstənsirin zamanında vəzirlik vəzifəsinə çoxlu adam gətirildi. Qeyd etdiyimiz hadisələrdən sonra, yanlız Bədrul Cəmali gəldikdən sonra vəziyyət sabitləşdi.

### Əl-Müstəli Billah və vəziri

Əl-Müstənsirin vəfat etməsindən sonra, daha öncə vəliəhd təyin edilmiş oğlu Əbu Mənsur Nizara deyil, digər oğlu əl-Müstəliyə biət edildi. Əl-Müstənsir Nizara vəliəhd olaraq biət almağa başlamışdı. Vəziri əl-Əfdal xəlifənin fikrini yayındırmış, vəfat etmiş, nəticədə oğlu Nizara biət alma işlərini tamamlamadan vəfat etmişdi. Əl-Əfdalın belə hərəkət etməsinin səbəbləri bir sıra rəvayətlərdə qeyd edilir. Bəzi rəvayətlərə görə, bir dəfə Nizar əl-Əfdala acıqlanmışdı. Bu səbəbdən, əl-Əfdal ona kin bəsləməyə başlamışdı. Nəticədə, əl-Əfdal Müstənsirin ölümünü fürsət bilib, Nizara qarşı qüvvə yığıb, ona qardaşı Əbülqasım Əhmədi xəlifəliyə gətirməyi təklif etdi, lakin bu qərar Nizarı qane etmirdi. Əl-Əfdal öz istədiyini edərək, Nizarin digər qardaşlarından da Əhməd üçün biət aldı. Bütün bunlara baxmayaraq, vəzir əl-Əfdalın planları alındı.Əl-Müstəli hakimiyyətə gəldi. İsgəndəriyyə valisi ona "Lidinillah" ləqəbini verdi.

Bütün bunlardan sonra isə əl-Əfdal istədi ki, Nizari ilə döyüşə çıxsın. Burada da uğurlu olmayaraq, Qahirəyə geri qayıtdı. Əl-Müstəli döyüşə hazırlaşmağa başladı. Bütün bunlar Əfdalın planını pozdu.

Əl-Müstəli hakimiyyətə gəldikdən sonra, bu xilafəti əl-Əfdal ilə bir yerdə ələ keçirmişdi. Ona görə də vəzir əl-Əfdal bundan istifadə edərək, Misiri ələ keçirmişdi. Bununla da o, istədiyini, əldə etmiş sayılırdı.

Bu arada xaçlı orduları Suriya sahillərinə hücum etməyə başlamışdı. Bunu eşidən kimi, əl-Əfdal Misirdə ordu toplayaraq, xaçlıları geriyə çəkilməyə məcbur etdi, sonra o yenidən Misirə döndü.

Əl-Müstəli lidinillahini hakimiyyətə elə əl-Əfdal özü gətirdi. Buna görə də o, öz istədiyini əl-Müstəlinin hakimiyyəti zamanında edə bilirdi. Əfdal bacarıqlı vəzir idi. Elə bu xüsusiyyətinə görə də digərlərindən seçilirdi. Onun yürütdüyü siyasət nəticəsində hakimiyyətə Nizarın əvəzinə, qardaşı Müstəli gəldi. Əfdal öz istədiyini etmək üçün Müstəlini hakimiyyətə gətirdi. Eyni zamanda, nizar ilə qərəzi də var idi. Misiri özünə məskən edən Əfdal burada möhkəmləndi. Sonrakı vaxtlarda da – istər xaçlı hücumları ərəfəsində, istərsə də başqa hadisələr zamanı Misirdə olurdu. Digər tərəfdən, qeyd etmək lazımdır ki, əl-Müstəlinin hakimiyyəti uzun sürmədi. Əfdalın öz hakimiyyətini qurmaq planlarının olması digər mənbələrdə qeyd olunmuşdur. Lakin bunun nə dərəcədə doğru olması haqqında heç bir məlumat yoxdur. Xəlifə əl-Müstəlidən sonra hakimiyyətə gələn əl-Amirində vəziri elə ilk illərdə əl-Əfdal idi. O, həmin zamanlarda böyük nüfuza sahib olub, idarəçi idi.



**Şahin Ələsgərov,**
**AİI-nin əməkdaşı**

# Nəcib Məhfuz:
## Başqaları üçün yaşanan ömür

*Nəcib Məhfuz (1911-2006) - tanınmış Misir yazıçısı, ərəb ədəbiyyatının ilk Nobel mükafatı laureatıdır. O, "Beynəl-Qəsreyn", "Xan əl-Xəlili", "Əl-Middaq dalanı", "Yeni Qahirə", "Fivin mübarizəsi", "Radobis", "Bildirçin və payız" kimi otuzdan artıq roman və çox sayda hekayələrin müəllifidir. "Həmvətənlərim istədikləri vaxt mənə yaxınlaşıb söhbət edə bilərlər. Unutmayın ki, mənə Nobel mükafatını qazandıran - xalqın mənəvi dəstəyi və öz sevimli yazıçısının kitablarını oxumasıdır" - deyən Məhfuz, mövqeyindən asılı olmayaraq, bütün insanlara eyni münasibət bəsləyən parlaq zəkalı, qeyri-adi bir insan idi.*

*Oxuculara yazıçının "Başqaları üçün yaşanan ömür" və "Uşaqların cənnəti" hekayələri təqdim olunur.*

Axşamlar Əbdürrəhman evinin qarşısındakı bağa düşməyi çox sevirdi. Uzun illər boyu təkrarlanan bu axşam gəzintiləri onun üçün özünəməxsus adətə çevrilmişdi. Boş vaxtlarını evdə keçirməyə öyrəşdiyindən, yalnız vacib işi olduqda onu tərk edərdi.

Sərin sentyabr günlərininin birində yenə hərzamankı kimi bağa düşüb ətrafa ötəri nəzər saldı. Əyri-üyrü yollarla aramla addımlayıb, qızılgül kollarına və yerdə sıra ilə düzülmüş dibçəklərə baxdı. Bağda bir qədər gəzişdikdən sonra, gəlib evini qonşununkundan ayıran tikanlı məftildən çəkilmiş çəpərin yaxınlığında qoyulmuş divanda əyləşdi. Qoltuğunun altında gəzdirdiyi axşam qəzetlərindən birini açıb oxumağa başladı.

Oturuşunda, duruşunda hər zaman təmkin, vüqar sezilirdi. Onu bu an görən qarşısında oturanın ev sahibi və ailə başçısı olduğuna zərrə qədər də şübhə etməzdi. İstər hərəkətlərində, istərsə də üzünün ifadəsində sakitlik, ağayanalıq hiss edilirdi. Gözlərinə fikir verdikdə onlardan bir comərdlik yağdığını görərdin. Yekə başı və lopa bığına baxan ona qırx yaşdan çox verərdi. Əslində, otuz beş təzəcə tamam olmuşdu. Qəzetə o qədər aludə olmuşdu ki, qəfildən eşitdiyi incə səs onu sanki yerindən silkələdi:

– Salam, əmi!

Qəzeti bir kənara qoyub, sevincdolu nəzərlərlə qonşu bağa tərəf boylandı. Səsləyən qonşunun qızı idi. Onun Əbdürrəhmana baxan qara gözlərindən məsumluq və sadəlövhlük yağırdı. Əbdürrəhmana bir anlıq elə gəldi ki, sifətinə, sanki jasminətirli sərin, xəfif yel vurdu.

– Xoş gördük səni, Səmra!

Qız gülümsəyərək yanındakı balaca ağ iti ilə oynamaqda davam etdi. Onaltıyaşlı bu qızın füsunkar siması, qədd-qaməti, gənclik təravəti qənirsiz gözəlliyini təcəssüm etdirirdi.

– Bu gün halı necədir? – Əbdürrəhman iti göstərərək soruşdu.

– Şükür Allaha, sağalıb.

– Görünür, İsgəndəriyyənin havası ona düşməmişdi, – gülümsəyərək dedi.

– Əksinə, orda sevindiyindən bütün günü sahildə ora-bura qaçırdı.

Səmranın Günəşdən qaralmış sifətinə nəzər yetirən Əbdürrəhman təəccübünü yumşaq tərzdə bildirdi:

– Nə yaman qaralmısan!

Səmranı bərk gülmək tutdu. Elə bu an it yerindən götürüldü. Qız da çevrilib onun arxasınca qaçdı.

Səmranın həyətdə görünməsi ilə Əbdürrəhmanın sifətində sübh tezdən sezilən ciddilik yox olub, yerini həlimliyə verdi. İndi onun ürəyində sevinc və arzudolu hisslər baş qaldırmışdı. Səmranın kətildə oturub itlə oynamasına arabir gizlin-gizlin tamaşa etmək ona zövq verirdi. O, incə barmaqları ilə itin sıx tüklərinə tumar çəkir, it də bundan xoşhallanıb qızın əlini yalayır, qabaq ayaqlarını onun dizlərinə qoyub quyruğunu bulayırdı.

İtlə beləcə əyləndiyi vaxtda Səmranın zərif ipək telləri boynuna və yanaqlarına tökülürdü. Ona baxmaqda davam edən Əbdürrəhmanın gözlərindən bəxtəvərlik yağırdı ki, birdən ürəyi bərk sıxıldı. Gözləri qaraldı. Qabağa baxdı, bir neçə saniyəliyə heç bir şey görə bilmədi. Özünə gəldikdən sonra, halının dəyişmə səbəbini başa düşdü. Yadına saldı ki, Səmra hələ körpəykən, təzə-təzə yeriməyə və gəlinciklərlə oynamağa başlayanda da onu "Əmi" deyə çağırırdı. Aradan illər ötsə də, Səmra yeniyetməlik çağını yaşasa da, dəyişən heç nə yox idi. On il bundan əvvəl onu belə çağı-




randa ürəyi sevincdən atlanırdı. Bu, qızın və atasının ona qarşı dost münasibətini göstərirdi. İndi isə o, bu sözdən, yəni "əmi" çağırılmasından inciyirdi. Bəzən isə bir az bundan əvvəl olduğu kimi, ürəyi sıxılır, üzünü kədər bürüyürdü.

Əbdürrəhman yenə də Səmraya nəzər yetirdi. Neçənci dəfə idi ki, o, öz-özünə sual edirdi: "Məgər Səmranın günlərin bir günü mənim arvadım olma ehtimalı yoxdur?". O dəqiqə də başını yelləyib, "Yox, bu mümkün deyil", – söyləyir, sanki bu ehtimalın nə vaxtsa həyata keçməsinin qeyri-mümkünlüyünə özünü inandırmağa çalışırdı. O, mübarizəsiz təslim olmaq da istəmirdi. Yenə öz-özünə sual verdi: "Axı niyə də olmasın?! Onun mənim arvadım olması yolunda nə maneə var ki ?!.". Yaş fərqi... Bəli, əsas maneə yaş fərqinin böyük olması idi. Onaltıyaşlı Səmradan fərli olaraq, onun bu gün-sabah otuz altı yaşı olacaqdı. İyirmiillik uzun yol onları bir-birindən ayırırdı. Məhz bu məsafə ona qızın gözündə "əmilik" statusu qazandırmışdı.

Yaxşı, bəs "əmisi" birdən onunla ailə qurmalı olsa, bu, nə dərəcədə düzgün addım olacaq?! Əslində, çoxları yaş fərqini böyük bir maneə hesab etmir. Bunu, hətta çox vaxt əhəmiyyətsiz bir şey sayırlar. Ancaq nəzərə alınmalıdır ki, bəzən əldə olunan xoşbəxtliyin qarşılığını ödəmək lazım gəlir. Görəsən, beynində tutduqları həyata keçdiyi təqdirdə, onun ödəyəcəyi məbləğ nə qədər olacaqdı? Yaxud o, nələri qurban verməli idi?

Düzünə qalsa, o, hal-hazırda Daxili İşlər Nazirliyində, sadəcə, kiçik məmur kimi çalışır. Məvacibi on beş futdan artıq deyil. Xülasə, xarici görkəmində olan qüsurları örtəcək nə var-dövlətə, nə də elə bir vəzifəyə sahibdir. Buna baxmayaraq, o, bu qızı sevir. İçini yeyən əzabdan – ürəyini aça bilməməkdən necə qurtulacağını da bilmir. Səmra düz, on altı ildir ki, onun gözləri önündə böyüyür. Bu qızcığaz ağır tənhalıq illərində taleyin bəlkə də, ona bəxş etdiyi yeganə varlıqdır. Sevgi Əbdürrəhmanın ürəyinə, özü də bunun fərqinə varmadan, sakit bir şəkildə nüfuz etmiş və bütün ruhuna hakim kəsilmişdi. Bu hiss Nilin sahilində əyləşib ətrafı uzun-uzadı seyr edən adama mürgü gətirən xəfif yelə bənzəyirdi.

Əvvəllər Səmranın səadətdolu və qayğısız keçən uşaqlığından, sadəcə, zövq alır, bununla da qəlbinin dərinliklərində kök salmış və kənardan kimsənin duymadığı tənhalıq hissindən qurtulmaq yolunu onu seyr etməkdə görürdü. Elə ki qıza vuruldu, iztirab onu çənginə alıb sakit həyatına son qoydu. Hər şey – təsadüfi görüşlər də, ayaqüstü söhbətlər də ona əzab verməyə başladı, çünki Səmra ona hər dəfə uşaq sadəlövhlüyü ilə yanaşır, belə anlarda bir qadının bir kişiyə münasibətini bildirən hissləri büruzə vermirdi. Əbdürrəhman ona sevgidolu nəzərlərlə baxır, bundan bixə-

bər olan qız isə bu baxışlara cavab verə bilmədiyindən, ona sadəcə olaraq, "Əziz əmim", – deyə müraciət edirdi. Birdən evlənmək təklifi etsə, qızın buna cavabı necə olacaq? Yəqin ki, onun üçün gözlənilməz olan bu təklifdən quruyubqalacaq. Atasına bu barədə nə deyəcək? Ümumiyyətlə, ürəyində ona qarşı nə hiss keçirəcək? Bundan sonra onun barəsində nə fikirləşəcək? Ən əsası, bu söhbət açılsa, Səmranı həmişəki kimi bağda oynayan, gülən, əylənən, söhbət edən görə biləcəkmi? Yoxsa onu birdəfəlik itirəcək? Onunla aralarında mövcud olan bu zəif bağlar da kəsiləcək?

Tutaq ki, o, cəsarət toplayıb yaxın dostu olan Səmranın atasına bu ciddi məsələ barədə söz açdı. Bəs onun buna münasibəti necə olacaq? "Offf... Düşdüyüm vəziyyətə bax!". Uzun-uzadı düşündü. Gözlərini yumub, beynində dostu ilə edəcəyi söhbəti canlandırdı: "Əziz dostum, ciddi bir söhbətlə bağlı yanına gəlmişəm. Bəlkə də heç vaxt inanmazdın ki, belə bir məsələ ilə bağlı sənə müraciət edə bilərəm. Doğrusu, heç özüm də buna inana bilmirəm. Sənin buna razı olacağına əmin deyiləm. Ola bilsin, bunu səndən istəməyə haqqım da çatmır. Nəticənin mənim üçün elə ürəkaçan olmayacağını güman etsəm də, bu söhbəti sənə açmağa məcburam".

Beynində canlandırdığı dialoqu sona çatdırmağa macal tapmamış Səmranın məlahətli səsi onu dərin fikirdən ayıltdı:

– Yatmısan?

Ürəyi tez-tez döyünməyə başladı. Qorxuyabənzər hiss ona hakim kəsildi. Cavab verdi:

– Yox.

– Bağışla! Elə bildim, yatmısan.

– Yox. Sadəcə, gözüyumulu fikirləşirdim.

– Nə barədə fikirləşirdin?



Çaşqın halda qızın gözlərinə baxdı. İndi ona nə cavab versin? Desin ki, sənin barəndə fikirləşirdim? Yox. Bunu əsla etmək olmaz. Ehtiyatsız hərəkətin pis fəsadları ola bilər. Ən yaxşısı, susmaqdır.

Səmranın qara gözlərinə tamaşa etdikcə ürəyi fərəhlənsə də, hiss elədi ki, həyəcandan üzü qızarmağa başlayır. Bu qızcığazın onu meyxoş etməsi Əbdürrəhmanın özünün də çaşqınlığına səbəb olmuşdu. Sonra bir müddət bir-birlərinə heç nə demədən donuq vəziyyətdə qaldılar. Birdən Səmranın simasında dəyişikliklər sezilməyə başlandı. Əbdürrəhman qızın yanaqlarının qızardığını, dodaqlarının həyəcandan titrədiyini gördü. Səmranın baxışları onun çiyinləri üstündən o yana zillənmişdi. Qəfildən qız yerindən götürülərək evə sarı qaçmağa başladı. Nə baş verdiyini anlamayan Əbdürrəhman arxaya dönəndə yaşca özündən kiçik qardaşı Ənvəri gördü və daha da təəccübləndi. Ənvər gülə-gülə ona yaxınlaşdı. Anidən səbəbini bilmədiyi qorxu və kədər hissi Əbdürrəhmanı bürüdü. Ürəyi tez-tez döyünməyə başladı. Özünü toparlayıb qardaşını gülə-gülə salamladı:

– Necəsən, doktor?

– Deyirəm, nə xoşbəxt adamsan! – Ənvər bərkdən gülərək dedi.

Qardaşının nəyi nəzərdə tutduğunu gözlərindən və danışığından artıq anlayan Əbdürrəhmanı yenə narahatlıq bürüdü. Lakin özünü o yerə qoymayıb:

– Durduğun yerdə bu nə sözdü deyirsən?

– Demək istədiyim odur ki, kim ki Səmra ilə söhbət etmək şərəfinə nail olur, o, özünü xoşbəxt hesab edə bilər.

Əbdürrəhman qımışaraq öz-özünə fikirləşdi: "Bu uşaq özünü ya tülkülüyə qoyur, ya da axmaqlığa, çünki nə dediyini özü də başa düşmür. Xoşbəxt o kəs deyil ki, Səmra ilə söhbət edir. Xoşbəxt o kəsdir ki, Səmra onunla söhbət etməyə utanır, onu görən zaman yanaqları qıpqırmızı olur, yaxud başqa çıxış yolu tapmayaraq qaçıb gözdən itir. Bax, xoşbəxt odur! Məgər bu uşaq bütün bunları başa düşmür? Bəlkə, məni ələ salır?".

Keçirdiyi hissləri qardaşından gizlətmək üçün söhbətin mövzusunu tez dəyişdi:

– Dünən gecə necə keçdi?

Ənvər onun yanında oturub söhbətə başladı:

– Dünən Qasrül-eyn adamla dolu idi. Çoxlu maraqlı hadisə baş verdi. Gecəyarıyadək orada oldum.

Qardaşına qulaq assa da, fikri başqa yerdə idi. Sevgi və nəvazişdolu böyük ürəyə sahib Əbdürrəhman qardaşını çox sevirdi. Necə ki, əvvəllər digər qardaşlarına yardım etmişdi, eləcə də indi Ənvərə hər cür köməklik göstərir, onun qayğısına qalırdı. Hərdən isə ürəyini narahatlıq bürüyürdü. Səbəb qəlbinin bir küncündə Ənvərə nifrət etməsi idi. Bu hal, xüsusilə də, qardaşının Səmranın adını dilinə alması zamanı baş verirdi. Qızın təkcə adının çəkilməsi ona olmazın əzab verirdi. Səmra ilə rastlaşan kimi qardaşına olan nifrəti yox olub gedirdi. Qardaşına qarşı keçici olan bu mənfi hiss ona olan sevgisinə zərrə qədər xətər yetirmirdi. Əksinə, Ənvərin gələcəyinə böyük önəm verən Əbdürrəhman bu yolda nə qədər əzab çəkmiş, neçə-neçə çətinliyə sinə gərmişdi. Görəsən, kiçik qardaşın böyüyün ürəyində olanlardan xəbəri vardımı? Əlbəttə ki, yox. Ənvərin heç ağlına da gəlməzdi ki, qardaşı kimi birisi bu gözəl qıza aşiq ola bilər.

Qardaşların hər ikisi fikrə dalmışdı. Birinin ürəyində olanlardan o birinin xəbəri yox idi. Qeyri-ixtiyari yaranmış sükutu kiçik qardaş pozdu:

– Bir vacib məsələ ilə bağlı məsləhətini almaq istəyirəm.

Əbdürrəhman hisslərini büruzə vermədən, sakitcə təklif etdi:

– Əvvəlcə bir paltarını soyun, rahatlan, sonra söhbət edək.

Ənvər söhbətə tez başlamaq üçün yerində vurnuxurdu.

– Zəhmət olmasa, mənə bir dəqiqəlik qulaq as! Çıxılmaz vəziyyətdə qalmışam.

Əbdürrəhman qardaşına təmkinlə qulaq asmaqda idi.

– Bir neçə aydan sonra xəstəxanada təcrübəçi həkim kimi fəaliyyətim başa çatır. Doktor Braun sənədlərimi Tibb fakültəsinə verməyi məsləhət görür.

Əbdürrəhman bu xəbərdən yüngülləşdi və tez sevincək əlavə etdi:

– Təbrik! Təbrik! Sən buna, şübhəsiz, layiqsən.

Qardaşının sözünü axıra çatdırmadığını Əbdürrəhman, artıq başa düşmüşdü. Ənvər tərəddüd içində boğuq səslə davam etdi:

– Bilirsən, necədir?! Demək istəyirəm ki... Gedəsi olsam, tək getmək istəmirəm.

– Heç nə başa düşmədim.

Əslində, o, hər şeyi çox gözəl başa düşürdü. Ən azından, ürəyinə gələn qəfil qorxu hissinin mənbəyi artıq ona məlum idi. Ənvər, nəhayət, həyəcanını boğub içindəkiləri açıb söylədi:

– Allah qoysa, evlənib getmək istəyirəm.

– Bıy! Bu, haradan çıxdı belə?! Əvvəl bu barədə heç bir söhbət olmamışdı axı! Bəlkə də olub, mənim xəbərim yoxdur.

– Yox. Olmayıb.

– Birdən ağlına gəldi?

– Düzü, əvvəldən istəyim var idi, sadəcə, səfərin alınmasını gözləyirdim.

Əbdürrəhman təmkinini pozmadan əsas sualı verdi:

– Belə başa düşürəm, seçimini artıq çoxdan etmisən?

– Səmra, – Ənvər başı ilə qonşularının evinə işarə edərək cavab verdi.

Ortaya yenə xoşagəlməz sükut çökdü. Qardaşının heç nə danışmadan sakit dayanması Ənvəri narahat etməyə başladı. Səbri çatmadı, sükutu pozmaq məcburiyyətində qaldı:

– Nə fikirləşirsən? Seçimim xoşuna gəlmədi?

– Niyə ki, yaxşı seçimdir. Çox yaxşı seçimdir, – Əbdürrəhman tələsik cavab verdi.

Ənvərə elə bil qanad verdin.

– Çox sağ ol! Nə olar, gəl ləngitməyək! Günü sabah durub atasının yanına gedək! Yəqin ki, o, etiraz etməz.

– Necə istəyirsən, amma tələsməyə nə lüzum var?

– Tələsmək lazımdır. Cəmi bir neçə ayım var. Bu müddətdə gərək həm evlənim, həm də İngiltərə səfərinə hazırlıq görüm.

Sonra gülərək əlavə etdi:

– Axı mən də tanınmış adamlar kimi bal ayımı xaricdə keçirmək istəyirəm.

Böyük qardaşı da gülümsədi. Ənvər sağollaşıb evə sarı getdi.

Əbdürrəhman qardaşı gözdən itənədək onun arxasınca baxdı. Sonra divana əyləşib uzaqlara dalğın halda tamaşa eləməyə başladı. Qaş qaraldığından, ətrafa sükut çökmüşdü. Ürəyi sıxıldığından, durub bağın içində kədərli halda gəzişməyə başladı. O baş-bu başa iki dəfə gedib-gələndən sonra yenidən özünü divana atdı. Sanki bəxtsiz taleyinin ona "bəxş etdiyi" bu üzgünlüyü oturduğu divanda kiritmək istəyirdi.

Xəyalı bir gözqırpımında onu keçmişə, düz, iyirmi il bundan öncəyə apardı. Ömrünün o çağlarında həyat ona bir kündə xəmir kimi gəlirdi. O kündədən ürəyi istədiyi şeylər hazırlaya bilərdi. Həmin xəyalları bugünün amansızlığından böyük məsafə ayırırdı. Çiyni qayğılarla yüklənmiş və üzündən hüzn yağan bu ortayaşlı kişi o vaxt qəlbi arzularla dolu şən, gülərüz və ərköyün bir uşaq idi. Ailənin birinci övladı olduğundan, ata və anasının döyünən ürəyiydi. Elə uşaq vaxtından təbiətindəki müsbət tərəflər özünü büruzə verməyə başlamışdı.

Sonra məktəb həyatı gəldi. İlk günlərdən çalışqanlığı ilə seçilirdi. Fitri istedadı, ağlı, zəkası, yaxşı hazırlığı olduğuna görə, hamı onu parlaq gələcəyin gözlədiyini deyirdi. O, potensialının yalnız cüzi bir hissəsindən istifadə edirdi. Bütün istedadını ortaya çıxarması üçün fürsət gözləyirdi. Düzdür, fürsət düşdü, ancaq atasının vəfat etməsi bütün işləri korladı.

Ailə başçısının dünyadan köçməsi dul qadını dörd övladı ilə birgə çətin vəziyyətdə qoydu. Uşaqlar arasında yaşca böyük gənc Əbdürrəhman idi. Ailə bundan sonra ananın dörd fut təqaüdü ilə dolanmalı idi. Beləliklə, böyük ümidlərlə yaşayan bu cavan oğlanı həyatın amansızlıqları haqladı. Məsuliyyəti birə-beş artdı. Ailənin bütün ehtiyaclarını ödəmək üçün uşaqlığı bir kənara qoyub, arıq çiyinlərində ən ağır yükləri daşımalı oldu. Hər şeydən əvvəl istəklərinin üstündən xətt çəkməyə məcbur idi. Uşaqlıq arzuları bir arzu olaraq qalacaq, bütün gücünü, qüvvəsini ailəsinin xoşbəxt gələcəyi yolunda sərf edə bilməsi üçün Allahın ona bəxş etdiyi istedaddan, artıq imtina etməli olacaqdı. Bir sözlə, mərhum atasının qoyub-getdiyi ailənin qayğısını o çəkməliydi. Həmin vaxt o hələ tam mənası ilə dərk edə bilmirdi ki, ilk baxışda şərəfli olan bu vəzifə onun bütün arzuları ilə vidalaşmasına gətirib çıxaracaq.

Kədər, üzgünlük, məyusluq və yorğunluq dolu günlər bir-birini əvəz etməyə başladı. İlk günlər çox sıxıntı keçirməsinə baxmayaraq, qəzəbini boğub taleyin bu gərdişinə üsyan etmədi. Həyatını bundan sonra yalnız və yalnız anasına və qardaşlarına həsr etməklə az da olsa, özünə təskinlik verə biləcəkdi. Arzuları dəyişmişdi. İndi bütün arzuları onun özünün deyil, qardaşlarının xoşbəxt gələcəyi ilə bağlı idi. Atasının yerini tutmaqla vaxtından xeyli qabaq kişiləşmişdi. Başqaları üçün yaşanan ömür qazandığı yeni xoşbəxtliyi idi.

Gördüyü və görəcəyi işlərin, ürəyində olan arzuların çoxluğuna baxmayaraq, daim içində ağrıverici boşluq hiss edirdi. Yalnız ailəsinin xoşbəxtliyini düşündüyündən, evlilik barədə bütün fikirlərini kənara atmışdı. Səbir etməyə çoxdan öyrənmişdi. Zamanı gəldiyində məlum oldu ki, qardaşları ondan daha az səbirlidirlər. Onlardan biri Polis Akademiyasından zabit olaraq məzun olan kimi evləndi və ailənin bütün yükünü böyük qardaşın çiyinlərində qoyub getdi. Çox keçmədi, qardaşlardan ikincisi də mühəndis ixtisası üzrə təhsilini başa vurub, ailə həyatı qurdu. Əbdürrəhman isə hələ də subaylığın daşını ata bilməmişdi. Nəhayət, həyatına rəng qata biləcək bir qızdan xoşu gəlmişdi ki, onun barəsində ümidləri uğursuzluğa düçar oldu.

Qəfildən eşitdiyi səs onu dərin fikirlərdən ayırdı.

– Əbdül, qaranlıqda niyə durmusan?

Bu, canından əziz sevdiyi anası idi. Aman Allah! Qaranlığın necə düşdüyünü belə hiss etməmişdi. Oturduğu yerdən ağır-ağır qalxıb, evə doğru addımlamağa başladı. Arxasınca evə daxil olan anası dilləndi:

– Ənvər səninlə söhbət eləmədi?

– Elədi.

– Bu barədə nə fikirləşirsən?

– Yaxşı seçimdir. Sabah qonşumuza baş çəkib bu məsələ barədə onunla bir söhbət eləmək istəyirəm.

– Səndən savayı köçəri quştək hamı bu evi tərk edir, – anası təəssüfqarışıq nəvazişlə söylədi.

Əbdürrəhman heç bir cavab vermədi.

Bəlkə də başına gələnləri faciə kimi qəbul eləməyi düzgün olmazdı. Ən azından ona görə ki, bu gün yaşadıqları yaxın keçmişdə baş verənlərin yanında heç nə idi. Həyatın bundan sonra ona hələ hansı sürprizlər hazırladığını da bilmirdi. Otuzbeşillik elə də uzun görünməyən ömür yolu ona səbirli olmağı öyrətmişdi. “Xoşbəxt olmaq istəyirsənsə, başqalarını xoşbəxt etməyə çalış!” – həyatın ona öyrətdiyi ən böyük şey məhz bu idi.

# Uşaqların cənnəti

**Elif Yusif**

– Atacan...

– Nədi?

– Rəfiqəm Nadya ilə həmişə bir yerdəyik.

– Lap yaxşı.

– Dərsdə də, tənəffüsdə də, yeməkdə də...

– Çox gözəl, qızım! Rəfiqən mehriban, həm də tərbiyəli qızdır.



– Amma din dərslərində mən bir sinfə gedirəm, o başqa.

Ata başını qaldırıb, süfrənin üstünə naxışlar tikən anaya baxdı. Arvadı dodaqaltından gülürdü. O da öz növbəsində, qızına gülərək cavab verdi:

– Özün dedin axı, bu ancaq din dərslərində olur, başqa vaxt hər gün bir yerdəsiniz.



– Axı niyə, ay ata?

– Çünki sənin öz inancın var, onun da öz inancı.

– O necə olur elə?

– Sən müsəlmansan, o, xristian.

– Niyə, ay ata?

– Hələ balacasan, böyüyəndə bilərsən.

– Mən artıq böyümüşəm.

– Yox, əzizim, sən hələ balacasan.

– Mən niyə müsəlmanam?

Müasir tərbiyə metodlarına xələl gətirməmək üçün səbir eləmək və bir az ehtiyatlı davranmaq lazım idi.

– Atan da, anan da müsəlmandır, ona görə də sən də müsəlman sayılırsan.

– Bəs Nadya?

– Nadya da, həmçinin atası, anası xristian olduğundan, xristian sayılır.

– Bu, onun atasının eynək taxması ilə



bağlıdır?

– Yox, eynəyin buna dəxli yoxdur. Sadəcə, onun babası da xristian olub.

İstədi ki, nəsildə nə qədər adam var, hamısını qızına misal çəksin, o da özü axırda bezib, başqa mövzuya keçsin. Ancaq qızı əl çəkmək fikrində deyildi:

– Bəs hansı yaxşıdır, xristian olmaq, yoxsa müsəlman?

– O da, bu da, – ata bir qədər düşünüb cavab verdi.

– Axı yəqin ki, hansısa o birisindən yaxşıdır?!

– Hər iki din yaxşıdır.

– Bəlkə, Nadya ilə həmişə bir yerdə olmaq üçün mən də xristian olum?

– Yox, qızım! Bu, mümkün deyil. Hər kəs öz valideynlərinin inancı ilə getməli, onu qorumalıdır.



– Axı niyə?

Doğrudan da, müasir dövrdə tərbiyə asan məsələ deyil.

– Sən böyüyənə qədər gözləmək istəmirsən? – Atası ondan soruşdu.

– Yox, ay ata!



– Nə deyirəm, yaxşı. Qızım, bilirsən, dəb nə deməkdir? Biri bir dəbə üstünlük verir, digəri başqa bir dəbə. Müsəlman olmaq sonuncu dəbdir, ona görə də sən müsəlman olaraq da qalmalısan.

– Deməli, Nadya köhnə dəbdə qalıb?

Ay sənin Nadyana da, mən nə deyim?! Nə qədər ehtiyatlı dav-

ransa da, deyəsən, səhvə yol vermişdi. İndi vəziyyətdən çıxmaq lazımı idi.

– Düzdür, bu, ağızdadı kimi bir şeydir, adam istəsə, başqa dini də seçə bilər. Hər bir insan öz valideynlərinin dinində qalmalıdır.

– Olar, mən ona deyim, sən köhnəfikirlisən, amma mən təzə dəblə gedirəm?

Başa düşdü ki, bu an tez cavab verməlidir:

– Hər bir din öz-özlüyündə yaxşıdır. Həm müsəlmanlar, həm də xristianlar Allaha inanırlar.

– Bəs onda niyə ayrı-ayrı otaqlarda ibadət eləyirlər?

– Hər kəs bunu öz bildiyi şəkildə edir.

– Necə yəni öz bildiyi şəkildə?

– Bunu sən ya gələn il, ya da ta sonrakı il biləcəksən. İndi müsəlmanların da, xristianların da eyni Allaha inandığını bilməyin kifayətdir.

– Allah kimdir, ay ata?

Bir az qarıxdı. Xeyli fikirləşdikdən sonra soruşdu:

– Məktəbdə müəlliməniz bu barədə nə deyib?

– O, bizə iyirminci surəni oxudu, biz də onu əzbərlədik. Amma mən yenə də bir şey başa düşə bilmədim: Allah kimdir, ay ata?

Bir az da fikirləşib, gülərək qeyri-müəyyən cavab verdi:

– Dünyada hər şeyi xəlq edən.

– Nə varsa, hamısını?

– Hə, hamısını.

– Bəs “xəlq edən” nə deməkdir?

– Yəni o, hər şeyi özü düzəldib, yaradıb.

– Necə yaradıb?

– Hər şeyə qadir iradəsi ilə.

– Bəs O, harada yaşayır?

– Dünyanın hər yerində.

– Bəs dünya olmayanda harada yaşayırdı?

– Çox-çox yuxarılarda...

– Göydə?

– Hə.

– Mən onu görmək istəyirəm.

– Bu, mümkün deyil.

– Hətta televizorda da görmək mümkün deyil?

– Hətta televizorda da.

– Heç kim də onu görməyib?

– Heç kim.

– Bəs onda haradan bilirsən ki, yuxarıdadır?

– Çünki bu belədir.

– Onun yuxarılarda olmasını birinci kim bilib?

– Peyğəmbərlər.

– Peyğəmbərlər?

– Hə, misal üçün, Məhəmməd peyğəmbər.

– O, bunu necə müəyyən eləyib, ay ata?

– Özünün əlahiddə gücü sayəsində.

– Onun yaxşı görmə qabiliyyəti olub, hə?

– Hə.

– Niyə, ay ata?

– Çünki Allah özü onu elə yaratmışdı.

– Yenə də: niyə?

Yerdə qalan hövsələsini də itirərək cavab verdi:

– Çünki o, istədiyini eləməyə qadirdir.

– O, necə birisidir?

– Çox güclüdür, hər şeyə qadirdir, hər şeyi bacarır.

– Sənin kimi, hə, ay ata?

Gülməyini güclə saxladı.

– Onun bənzəri yoxdur.

– Bəs O, niyə göydə yaşayır?

– Yer onun üçün çox kiçikdir. Amma o, hər şeyi görür.

Uşaq bir az fikrə getdi, sonra dedi:

– Amma Nadya deyir ki, o, yerdə yaşayıb.

– O, yəqin ona görə belə deyir ki, Allah yerdə baş verənlərin hamısını bilir.

– Nadya isə deyir ki, adamlar onu öldürüblər.

– O, həmişə sağdır, heç vaxt da ölə bilməz.

– Axı Nadya deyir ki, öldürüblər.

– Yox, əzizim, insanlar elə bilirmiş ki, onu öldürüblər, ancaq o sağdır.

– Babam da sağdır?

– Yox, o, ölüb.

– Onu adamlar öldürüb?

– Yox, öz əcəli ilə ölüb.

– Necə ölüb?

– Xəstələnib ölüb.

– Bacım indi xəstədir. O da öləcək?

Arvadının acıqlı sifətini görən kişi də üz-gözünü turşutdu.

– Yox. Allah qoysa, sağalar.

– Babam nədən ölüb?

– O, həm xəstə idi, həm də qocalmışdı.

– Sən də xəstə olmusan, həm də qocasan. Bəs niyə ölmürdün?

Anası dözməyib uşağın üstünə təpindi. Nə baş verdiyini anlamayan balaca qızcığaz baxışlarını anasından atasına sarı çevirdi.

– Allah nə vaxt istəsə, o vaxt da öləcəyik, – atası, nəhayət, cavab verə bildi.

– Bəs o, niyə bizim ölməyimizi istəyir?

– Hər şey onun iradəsi altındadır.

– Ölüm yaxşı şeydir?

– Yox, əzizim!

– Bəs onda Allah niyə pis iş görür?

– Allah belə istəyirsə, deməli, insanlar ölməlidir.

– Axı indicə özün dedin ki, ölüm yaxşı şey deyil.

– Mən səhv elədim, əzizim!

– Sənin ölməyindən danışanda bəs anam niyə əsəbiləşdi?

– Çünki Allah indi bunu istəmir.

– Bəs nə vaxt istəyəcək?

– O, bizi bu dünyaya göndərir, buradan köçmə vaxtını da özü

müəyyən edir.

– Niyə axı?

– Gedənə qədər xeyirli işlər görək deyə.

– Bəlkə, heç getməyək, elə burada qalaq?

– Əgər insanlar buranı vaxtında tərk eləməsələr, sonra hamıya qalmağa yer olmaz.

– Gedəndə yaxşı nə varsa, hamısını burda qoyub gedəcəyik?

– Gedəcəyimiz yer buradan da yaxşı olacaq.

– Haradadır o yer?

– Göydə.

– Yəni Allahın yanında?

– Hə.

– Onda onu görəcəyik?

– Hə.

– Bu, yaxşı əlamətdir?

– Əlbəttə.

– Buna görə də getmək lazımdır?

– Amma biz hələ bacardığımız yaxşılığın hamısını eləyib qurtarmamışıq.

– Bəs babam eləyib?

– Hə.

– Misal üçün, nə eləyib?

– Ev tikib, bağ salıb.

– Bəs dayıoğlum Tutu neyləyib?

Ata ümidsiz halda arvadına baxıb, kömək istədi. Sonra məcburən özü cavab verməli oldu:

– O da getməmişdən əvvəl bir evcik tikmişdi.

– Bəs qonşunun oğlu Lulu necə, o da yuxarı gedəcək? O ki məni hər dəfə döyür, heç bir yaxşı iş də görmür.

– O, avaradır.

– O da öləcək?

– Allah nə vaxt istəsə, hə.

– Yaxşı heç bir iş görməsə belə?

– Hamı öləcək. Kim yaxşı əməllərə sahibdir, Allahın yanına gedəcək, pislik eləyənlər isə odda yanacaq.

Qız dərindən nəfəs aldı, bir az susdu. Ata isə tamamilə əldən düşdüyünü hiss elədi. Onu narahat edən bir məsələ varı idi – görən suallara düzgün cavab verə bilmişdi?! Qızının verdiyi bu suallar ata qəlbinin dərinliyindəki bütün şübhələri indi tam üzə çıxarmışdı.

Qızcığaz durub-durub birdən yenə qayıtdı:

– Mən həmişə Nadya ilə bir yerdə olmaq istəyirəm.

Ata çaşıb qaldı, qızcığaz isə izahat verməyə tələsdi:

– Hətta din dərslərində də...

Ata bərkdən qəhqəhə çəkdi. Ananı da gülmək tutdu. Əsnəyə-əsnəyə üzünü arvadına tutub dedi:

– Təsəvvür eləməzdim ki, bu mövzuları uşaqlarla müzakirə eləmək olar.

– Yaxşıdır da. Day qızımız böyüyəndə bütün şübhələrini daha rahat şəkildə onunla bölüşərsən.

Başını döndərdi ki, görsün, arvadı zarafat eləyir, yoxsa ciddidir. O, isə bayaqkıtək tikişi ilə məşğul idi.





**Tural Türksoy,**
**BDU-nun İlahiyyat fakültəsinin məzunu**

*Haqq aşığı Dədə Ələsgərin pak-mübarək ruhuna ithaf olunur*

# ƏLİFBA

İlk hərfimiz "A"dır – Allah!
"Be" – Baqidir, daim yaşar.
"Ce" – Cabbardır, məcbur edər,
Həyat qədərlə uzlaşar.

"Çe" – Çalab dünyanı qurar,
"De" – Dəyyandır, savab verər.
"E" – eşidər, cavab verər,
Diləyimiz gerçəkləşər.

"Ə" – Əfüvv əfv edər, keçər,
"Fe" – Fəttah qapılar açar.
"Ge" – gözəldir, gövhər saçar,
Şöləsindən göz qamaşar.

"He" – Həlimdir, şəfqətlidir,
"Xe" – Xaliqdir, xilqətlidir.
"İ" – izzətli, taqətlidir;
Sığınan yoxuşlar aşar.

"Je" – jaləylə eşdə gərək,
"Ke" – Kərimdir, xərcdə gərək.
"Qe" – Qəvidir, gücdə gərək;
Əmr etsə, insan daşlaşar.

"Le" – Lətif, görünməz, qaib,
"Me" – Malikdir mülkə sahib.
"Ne" – Nurdan bizə üfləyib,
Odur ki, eşqimiz coşar.

"O" – hər vaxt oyaqdır məgər!
"Ö" – öfkəli, sahibvüqar.
"Pe" – Padişah, Pərvərdigar!
Saymayan müşkülə düşər.

"Re" – Rəhmandır, rəhmi çoxdur,
"Se" – Səbur səbirdən toxdur.
"Şe" – Şəriksiz, tayı yoxdur,
Di gəl, azğınlar şirk qoşar.

"Te" – Təvvab; tövbə et barı!
"U" – ucadır görklü Tanrı!
"Ü" – ülvidir, həm də arı;
Napaklar yolundan çaşar.



"Ve" – Vəhhab ehsanı boldur,
"Ye" – Yezdan yavəri-quldur.
"Ze" – Zahirün ələl-külldür,
"Ze" – Zahirün ələl-külldür,
Türksoysa aciz bir bəşər.

* * *

Baqi (ərəbcə) – əbədi
Cabbar (ərəbcə) – məcbur edən
Çalab (əski türkcə) – yaradan, Tanrı
Dəyyan (ərəbcə) – əməllərin qarşılığını verən, mükafatlandıran
Əfüvv (ərəbcə) – əfv edən, bağışlayan
Fəttah (ərəbcə) – xeyir qapılarını açan
Xilqət (ərəbcə) – yaradılış
İzzət (ərəbcə) – güc, qüdrət
Jalə (farsca) – şeh
Eş (türkcə) – bənzər
Kərim (ərəbcə) – səxavətli
Qəvi (ərəbcə) – qüvvətli
Lətif/qaib (ərəbcə) – gözəgörünməz
Malik (ərəbcə) – hökmdar, mülkün sahibi
Məgər (farsca) – yalnız
Öfkəli (türkcə) – qəzəbli
Vüqar (ərəbcə) – əzəmət, ucalıq
Səbur (ərəbcə) – çox səbirli
Şirk (ərəbcə) – şərik
Təvvab (ərəbcə) – tövbələri qəbul edən
Görklü (əski türkcə) – gözəl, görkəmli
Ülvi (ərəbcə) – uca
Arı (əski türkcə) – pak, təmiz
Vəhhab (ərəbcə) – bol nemətlər verən, paylayan, hədiyyə edən
Ehsan (ərəbcə) – yaxşılıq, lütf
Yezdan (farsca) – yaradan, Tanrı
Yavəri-qul (farsca) – qulun yardımçısı
Zahirün ələl-küll (ərəbcə) – hər kəsdən/şeydən üstün, qalib, xəbərdar

# SAYLAR

Allah birdir şəkk-şübhəsiz,
İki mələk xeyir-şər yazar.
Üç – şəriət, təriqət, həqiqət;
Uymayan yolundan azar.

Ol dörd müqəddəs kitablar,
Allah kəlamını qaplar.
Həm günahlar, həm savablar
Bəyan edib düz yol cızar.

Beş nəfər ali-əbadır :
Əhməd, Zəhra, Müctəbadır,
Heydar, Şahi-Kərbəladır;
Sevənlərə Sən qıl nəzər!

Xaliq bu dünyanı qurdu,
Altı günə başa vurdu.
Yeddi qat göyü qaldırdı,
Səkkiz cənnəti-laləzar.

Doqquz – Musa möcüzatı,
On – Aşura müsibəti.
On bir – Hu, on iki əimməti,
Türksoy, xatırla, eylə zar!

***Qeyd: Aşıq şeiri şəkillərində (qoşma, gəraylı və s.) hecalanma sözlərin yazılışı yox, dialektik tələffüzünə əsasən aparılmalı, hecalarının sayı normanı aşan misralardakı sözlərsə sürətlə tələffüz edilməlidir. Bu şeirin ilk və son bəndlərindəki müvafiq misraların deyilişində də bu ənənəvi qayda nəzərə alınsa, problem yaranmaz, inşallah.***

1. O.
2. Əba əhli, Əhli-Beyt.
3. Peyğəmbərimizin adlarından biri.
4. Hz.Fatimənin ləqəbi.
5. İmam Həsənin ləqəbi.
6. İmam Əlinin ləqəbi.
7. İmam Hüseynin ləqəbi.
8. Laləli/gülüstan cənnət.
9. Məhərrəm ayının 10-u.
10. Allahın adlarından olan “Hu”nun əbcəd dəyəri 11-dir.
11. “Əimmət” ərəbcə “imamlar” deməkdir.
12. İnləyib ağlamaq.



**Azad Məmmədov,**
**AİI-nin magistrantı**

# Dəyərlərimizə sahib çıxsaq, SARSILMAZ BİRLİYİMİZ

***"Hamımızın ümumi vəzifəsi xalqımızda vətənpərvərlik, Vətənə, torpağa, millətə sədaqət, Vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".***

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Vətən insanın yurd saldığı, yaşadığı məskəndir. Heç evsiz-eşiksiz insan, vətənsiz də millət, xalq təsəvvür etmək olarmı? Bu, mümkün deyildir. Bir millətin, xalqın Vətənə olan tələbatı körpənin isti ana qucağına olan ehtiyacı kimidir. Bizi sevən, qoruyan anadır, Vətən alıb ağuşuna isidir bizi. Şeirdə deyildiyi kimi:

*Anadır hər kişiyə öz vətəni,*
*Bəsləyib sinəsi üstündə onu...*

Vətən sevgisi ən nəcib, ən ali sevgilərdən biridir. Bu sevgi ana qucağından başlayır. Bu hisslərə və anlayışlara yaxşı bələd olan ulu öndər Heydər Əliyev "Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətən- daşın həyat prinsipi, həyat qanunu, nizamnaməsi olsun", – deyərək bizlərə bunun əhəmiyyətini bildirmişdir. O, vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, Vətənin taleyinin tərkib hissəsi hesab edirdi. Buna görə də Heydər Əliyev vətənpərvərliyə və dövlətçiliyə əsaslanan AZƏRBAYCANÇILIQ məfkurəsini ortaya ataraq bu məqsədini "əməli surətdə həyata keçirdi".

Vətən, sadəcə, bir ömür üstündə gəzilən, gözəlliklərindən, imkanlarından istifadə edilən bir məkan deyildir. Fərd olaraq bizim Vətən qarşısında bir sıra vəzifə və borclarımız vardır. Vətənimiz bizim üçün uğrunda fədakarlıq edəcəyimiz ən dəyərli varlığımızdır. Keçmişimizə nəzər yetirərək əcdadımızın bizə bu vətəni necə əmanət etdiyinin şüuruna sahib olmalıyıq. Müqəddəsliyini yenə mərhum şairimiz Abbas Səhhətin dili ilə desək:

*Saxlaram gözlərim üstə onu mən,*
*Ölərəm, əldən əgər getsə, Vətən.*

Vətənpərvərlik şüurunun əsası Vətənə dərin məhəbbət və onu canı bahasına qorumaqdır. Dar məqamda Vətəni qorumaq üçün döyüşmək Vətən sevgisinin bir təzahürüdür. Dədə Qorquda aid edilən məşhur söz vardır: Bir torpağı əkib-biçməyəcəksənsə, qorumağa, qorumayacaqsansa, əkib-biçməyə gərək yoxdur". Əgər bir torpağa Vətən deyib yurd salsaq, ev-eşik tiksək, onu qorumalıyıq. Orada əcdadlarımızın məzarı, laylasını dinlədiyimiz anamızın səsinin avazı, uşaqlıqda oynadığımız, atılıb-düşdüyümüz, hər qarışına bələd olduğumuz torpağı, daşı vardır.

Bəli, bizlər bir millət olaraq, Vətənin müstəqilliyi üçün qanları ilə dastanlar yazan, şəhid və qazilərlə dolu ulu bir millətin davamçılarıyıq. Torpağı Vətən edən onun şəhidləridir.

*Torpaq əgər uğrunda ölən*
*varsa Vətəndir...*

Tariximizə nəzər saldıqda, Vətən uğrunda canından keçən saysız qəhrəman oğul və qızlarımızın olduğunu görərik. Onlar gənc nəsil üçün gözəl nümunədir. Biz onları qəlbi Vətən sevgisi ilə dolu və Vətənin dərdini çəkməyə namizəd uca qamətlər olaraq tanıyırıq. Onlar Vətənin işğal edilməsinə və millətin bölünməsinə razı olmayan, canlarını fəda edərək, Vətənin əbədiliyini qoruyan xalqın igid, mübariz oğullarıdır. Hər bir Azərbaycan vətəndaşı şəhidlik zirvəsinə ucalan bu qəhrəmanların xatirəsini yaşatmalı, gəncliyə nümunə olaraq göstərməlidir. Bizim üzərimizə düşən vəzifə belə qəhrəman igidlərlə dolu tariximizdən örnək almaq və artıq vətənin qeyrətini çəkmək vəzifəsinin bizim üzərimizdə olduğu şüuruna sahib olmaqdır.

Biz milli-mənəvi dəyərlərə sahib olan bir millətik. İnsan mənəviyyatının bir göstəricisi əxlaqi prinsip sayılan Vətən və millət sevgisidir. Bunun üçün Vətən sevgisi ana sevgisinə bərabərdir və Vətə-

nin namusu ananın namusu kimi qorunmalıdır. Din bizə canı, malı və namusu qorumağı buyurur, bu yolda dünyasını dəyişənləri də şəhid adlandırır. Vətən uğrunda şəhid olanlar Allah qatında peyğəmbərlərdən sonra ən yüksək mərtəbədədirlər. Şəhidlik belə bir yüksək zirvədir, əbədiyyətə gedən yoldur. Bu mərtəbəyə ucalmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik şüuru, Vətən-millət sevgisi, yüksək əxlaqi keyfiyyətlər vardır. Şəhid olmaq ölmək deyil, əbədiyyətə qapı açmaqdır. Müqəddəs Kitabımız Qurani-Kərim açıq şəkildə bu amilə işarə edir: ***"Allah yolunda öldürülənlərə ölü deməyin. Çünki onlar diridir, lakin siz bilmirsiniz"*** ("Bəqərə", 2/154). Peyğəmbərimiz də şəhidliyin qarşılığında böyük bir mükafat olacağını şəkildə bildirir: "Cənnətə girdikdən sonra heç kim dünyaya gəlməyi arzu etməz. Yalnız şəhidlər müstəsnadır. Şəhid gördüyü mükafatlara görə dünyaya qayıdıb on dəfə şəhid olmağı arzu edər".

Deyirik ki, Vətəni sevirik, amma bunu nə dərəcədə göstərə bilirik? Məsələnin ciddiyyətinə hakim ola bilmişikmi? Sual budur. Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda gedən Qarabağ döyüşlərində, həmçinin yaxın keçmişdə baş verən Aprel döyüşlərində bir çox vətənpərvər insanımız öz sevgisini sübut edə bildi.

Vətəndaş olaraq hər birimizin üzərinə müəyyən vəzifə düşür. Kimisi məmur, kimisi həkim, kimisi səngərdə əsgər, kimisi də müəllim olaraq dövlətçilik uğrunda vəzifəsini icra edir. Vətənə olan sevgini göstərmənin yolu onu layiqincə qorumaqdır. Müəllimin vəzifəsi dövlətə, millətə layiqli xidmət edəcək gənclər yetişdirməkdir. Gənclər olaraq bizim üzərimizə düşən vəzifə isə bilikli, savadlı və dünyagörüşlü olmaqdır. Ölkəni layiqincə təmsil edərək, dövlətin iqtisadiyyatına və siyasətinə xidmət etməklə adımızı ən inkişaf etmiş ölkələr sırasına yazmalıyıq.

Vətənimizə göz dikən düşmənlər çoxdur. Yaxşı bilirik ki, onların məqsədi millət olaraq bizi bölmək, Vətənimizi parçalamaqdır. Varlığımızı qorumanın, millət olaraq birlik və bərabərliyimizin əbədi olmasının tək şərti Vətənimizi sevmək, bu sevgini lazım gəldiyində canımız bahasına qorumaq, AZƏRBAYCANÇILIQ məfkurəsini inkişaf etdirmək, təbliğ etmək, dövlət qarşısındakı vəzifə borclarımızı yerinə yetirmək və savadlı bir nəsil olaraq yetişməkdir.

Unutmayaq ki, bizi bir-birimizə bağlayan, parçalanmaz millət halına gətirən Vətən, millət və bayraq sevgisidir. Bu üç dəyərə sahib çıxsaq, birliyimiz əbədidir, sönməzdir!



# Aİİ haqqında təəssüratlarım



**Firudin Həmidli,**
**Aİİ-nin məzunu**

Azərbaycan İlahiyyat İnstitutundakı təhsil həyatım barədə ümumi təəssürat və bəzi xatirələrimi yazmağa başlarkən, bir etiraf etmək istəyirəm. Belə ki, bir neçə il öncə ali təhsil almaq məqsədilə imtahan verib, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinə qəbul olunsam da, istədiyim sahə olmadığından, ali təhsilə həvəs və marağım xeyli azalmışdı. Bu təhsil ocağına addım atarkən rastlaşdığım mənzərə fikirlərimi tezliklə dəyişdi. Fakültənin ab-havası, rəhbərliyin yeni tələbələrə qarşı xüsusi diqqəti, keçilən fənlərin tədris olunma keyfiyyəti məni valeh etdi. Müəllimlərin səmimi rəftarı, doğma münasibəti, dərsdən əlavə daim öyüd-nəsihət verərək bizdə İlahiyyat elminə qarşı məsuliyyət şüuru yaratmaq arzusu məni cəlb etdi. Yuxarı kurs müdavimlərindən də üstün mənəvi məziyyətlər və nümunəvi davranışlar gördükcə, bu fakültədə tələbə olmağın ilkin sevinci və heyrəti qəlbimə doldu.

Tələbəyə həmişə elm öyrənmək həvəsi aşılayan belə mühitdə dəyərli, sahəsinə kamil şəkildə bələd olan müəllimlər bizə 3 il ərzində bir sıra dini və dünyəvi fənləri tədris etdilər. Müxtəlif elmlərə dair yazılmış qiymətli əsərlərlə zəngin kitabxanamızda tanış olduq. Bu müddətdə paytaxtdakı müxtəlif tarixi abidə və muzeylərə təşkil edilmiş səfərlər də dünyagörüşümüzü artırmaq, həm də asudə vaxtımızı təmin etmək baxımından faydalı oldu.

Təhsilimizin 4-cü ilinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Fərmanı ilə 9 fevral 2018-ci il tarixində təsis olunan Azərbaycan İlahiyyat İnstitutunda davam etdik. Gənc təhsil ocağı olsa da, işinə istək və diqqətlə yanaşan rəhbərlik və cidd-cəhdlə çalışan peşəkar kollektiv sayəsində tez zamanda bir çox uğurlara imza atdı. İlahiyyat İnstitutu ölkəmizdəki din təhsili sahəsinə yeni nəfəs gətirdi. Dini elmlər daha aydın şəkildə, daha obyektiv halda tədris olunmağa başlandı. Qısa müddət ərzində lazımi dərs kitabları tərtib edilib nəşr olundu və tələbələrə pulsuz paylandı. Dünyəvi fənlərin tədrisi də genişləndirildi. Habelə Yəhudilik və Xristianlığın müqəddəs kitabları ilə tanış ola bilmək üçün tələbələrə ibrani dili öyrədilməyə başlandı. Dövlətimizin uğurlu din siyasətini layiqincə tətbiq edərək, İlahiyyat elmini qəlbən öyrənmək istəyən tələbələrə düzgün və obyektiv şəkildə bu elm tədris edildi.

Azərbaycan İlahiyyat İnstitutunun yaradılması bizim üçün – Bakı Dövlət Universitetinin tərkibindən ayrılaraq, bu yeni təhsil müəssisəsinə verilən İlahiyyat fakültəsi tələbələri üçün də xeyli sevindirici hadisə oldu. Tələbələrin yüksəksəviyyəli tədrisi İnstitutun ali hədəfinə çevrildi. Asudə vaxtımızı dəyərləndirmək üçün bir sıra yazıçılar və elm adamları ilə tez-tez görüşlər və seminarlar təşkil edildi. Həftəsonlarında film nümayişləri və kitab müzakirələri həyata keçirilirdi. Tələbələrin yemək, geyim və dərs vəsaiti kimi ehtiyaclarına öz qayğı və dəstəyini göstərən İnstitut, həmçinin müxtəlifmövzulu konfranslar, "dəyirmi masa"lar hazırlayaraq, ölkəmizdəki dini və elmi araşdırmalara da öz töhfələrini verdi.

Bu ilin fevral ayında Şamaxı şəhərində təşkil edilmiş üçgünlük "Qış məktəbi" layihəsi isə bizim üçün ən yaddaqalan xatirələrdəndir. Layihənin məqsədi üzrə tələbələrin həm müxtəlif seminarlar, həm də bir sıra dini və tarixi əhəmiyyətli məkanlara (Şamaxı Cümə məscidi, Dəmirçi məscidi, Şamaxı Rəsədxanası, Şamaxı Tarix və Diyarşünaslıq Muzeyi) ekskursiyalar ilə maariflənməsi, həmçinin istirahətinin təşkili uğurlu şəkildə həyata keçirildi.

Azərbaycan İlahiyyat İnstitutunun ilk məzunlarından biri olaraq əminliklə deyə bilərəm ki, bu təhsil ocağı cəmiyyətimizin din sahəsindəki boşluqlarını ən münasib və ən layiqli şəkildə bərpa edəcək olan savadlı kadrlar yetişdirməkdədir. Təhsil aldığım müddətdə tələbələrin İlahiyyat elminə duyduqları sevgi və məsuliyyəti mən hazırda – İnstitutun bu tədris ilində daha coşqulu və daha inamlı şəkildə görürəm. Bu, şübhəsiz, tələbələrin mənəvi dəyərlərə dərin ehtiyac və dini doğru şəkildə öyrənmək arzusundan qaynaqlanır. Qəlbən inanıram ki, belə ehtiyac və arzu ilə dirçələn gənclər sayəsində Azərbaycandakı din tədrisi və cəmiyyətdəki dini savadlılıq günbəgün daha da nizama düşərək inkişaf edəcək və bu yüksək məramda Azərbaycan İlahiyyat İnstitutu daim uğurla fəaliyyət göstərəcəkdir.

# Miniatürlər



**Rəhilə Misirxanlı,**
AİI-nin əməkdaşı

## Qulaqcıq əhvalatı

Yaşlı qadın piyada keçidinin pilləkənləri ilə aşağı düşürdü. Çətinliklə addımlayırdı, üstəlik, əlindəki çanta yeriməsini bir qədər də yavaşıdırdı. Birdən ayağı büdrədi. Onunla paralel düşən gənclərə səsləndi:

– Ay bala, mənə kömək eləyin.

Gənclər əhəmiyyət vermədən ötüb-keçdilər. Ağbirçək ana dönüb gileyli-gileyli arxadan gələnlərə üzünü tutdu:

– Zəmanə dəyişib, ay oğul, cavan uşaqlar qocalara hörmət eləmirlər. Barı siz mənə köməklik göstərin...

Bu arada 25-30 yaşlarında cavan oğlan qadına yaxınlaşıb əlini uzatdı, düşməsinə kömək etdi və gülümsəyərək dedi:

– Ay xala, eşitmədilər, qulaqcıq taxmışdılar. İndiki cavanlar musiqiyə qulaq asa-asa yol getməyi çox xoşlayırlar...

## Marşrutda

Nahar fasiləsi idi. Tələbələr və məktəblilərin dərsdən çıxan vaxtları olduğundan, "Elmlər Akademiyası" metro stansiyası ilə üzbəüz dayanacaqda adam əlindən tərpənmək mümkün deyildi. Hamı səbirsizliklə avtobusun gəlməsini gözləyirdi. Marşrut avtobusu isə gecikirdi. Nəhayət, "14" nömrəli avtobus gəldi, hamı minməyə tələsdi. Adətən, belə hallarda marşrutda bir qədər sıxlıq yaranır. Salonda səsgücləndirici vasitəsilə yaşlılara, əlillərə və uşaqlılara yer verməyi tez-tez elan edirdilər. Yaşlı bir qadın əsaya söykənib narahatlıqla dayanmışdı. Yanında da 9-10 yaşlarında bir oğlan uşağı vardı. Görünür, nəvəsi idi. Balaca cüssəsi ilə xanımın əlindən elə tutmuşdu ki, guya yıxılsa, kömək edə biləcəkdi. Qadın avtobusun salonuna nəzər saldı. Boş yer yox idi. Bu arada diqqətini birinci sırada oturan oğlan cəlb etdi. Qadının üzünə baxanda əziyyət çəkdiyi, narahat olduğu dərhal duyulurdu. Gözlədi ki, cavan, sarışın oğlan duracaq, ona yer verəcək. Axı, bu bizim yazılmayan qanunumuz, mental dəyərimizdir. Ona görə də qocalarımız da öyrəşib. Hətta bəzən qanuni tələb kimi cavanları mühakimə də edirlər. Ağbirçək ana gözləsə də, oğlandan səs çıxmadı, yerindən tərpənmədi. Dözməyib dilə gəldi:

– Oğlum, mənə yer verərsən, oturum? Ayaqlarım yaman gündədir, dura bilmirəm.

Özünü eşitməzliyə vuran cavan oğlan birdən narazı halda xanıma baxıb rus ləhcəsi ilə Azərbaycan dilində deyindi:

– Ayaqüstə dura bilmirsən, xəstəsən, qaxıl otur evində də, çöldə, avtobusda nə işin var? Staraya bolnaya jenşina. Başımız bəxtəvər.

Deyinərək handan-hana ayağa durdu, heç "otur" da deməyib, əsəbi halda üzünü əks tərəfə çevirdi...

...Nə acı səhnə idi. Birdən heç kəsin gözləmədiyi halda, qadınla gələn balaca uşaqdan əsəbi bir qışqırıq səs çıxdı:

– Nə deyinirsən? Mənim babam cəbhədə şəhid olanda sən evdə yorğana bürünüb yatırdın. İndi nənəmə rişxəndlə yer verirsən. Kişisən, get cəbhəyə, yaralan, biz də sənə yer verərik.

...Suçlu olduğunu bilən "mədəni", rusdilli oğlan növbəti dayanacağa çatan kimi avtobusdan düşdü...

## Biabır olduq...

Ramid APU-da oxuyurdu. Qış imtahan sessiyasını uğurla başa vurub tətilə çıxmışdı. Valideynləri yolunu səbirsizliklə gözləyirdi. Üzüağ idi, imtahanlardan yüksək qiymət almışdı, yaxşı oxuyurdu. Rayona gəlişi ilə ailəyə sevinc bəxş elədi. Birdən anası Firuzənin gözü oğlunun şalvarının dizlərində olan sökük yerlərə sataşdı, narahat oldu, dişi bağırsağını kəsdi. Uşağının üzünə vurmadı. Kasıblıqla uşaq oxutdurması ona dərd oldu. Daldaya düşən kimi həyat yoldaşı ilə acı-acı dərdləşdi:

- Ay kişi, uşağın şalvarına baxey. Kasıblıqla uşaq oxutdurmağın axırı da belə olur.

Şam yeməyini yeyib bir az söhbətləşdilər, yatmaq vaxtı çatdı. "Uşaq yol gəlib. Yorulub, həm də neçə imtahan verib, yataq, o da dincəlsin", – deyə Firuzə ana, sanki yatmaq komandasını verdi. Hamı yerinə girdi. Ürəyi narahat ana sakitcə Ramidin yatdığı otağa keçib, onun dizlərıcırıq şalvarını götürüb ərinə göstərdi. Ağlayıb, yenə də gileyləndi:

– Ay kişi, sabah get, qardaşın-

gildən borc elə, uşağa dəyişənək şalvar al.

Anaların kövrələndə kişiləri günahkar bilib belə komanda vermələri olur hərdən. Yazıq Firudin dinməz-söyləməz başını aşağı salıb getdi yatmağa. Bu, həm də o demək idi ki, oldu, Firuzə xanım.

Firuzə ana da oturub şalvarın cırıqlarını tikdi və sakitcə aparıb yerinə qoydu. Ramid səhər yuxudan ayılıb şalvarı əyninə geyinəndə cırıqların tikildiyini görüb acıqlandı:

– Ay ana, bu nədir? Niyə tikmisən bu şalvarı?

Firuzə ana sızıldaya-sızıldaya dilləndi:

– Ay bala, atan gedib, əmindən bir az borc götürəcək, təzə şalvar alarsan, geyinib dost-tanış içinə çıxarsan, cırıq şalvarla gəzməyəcəksən ki! Hələlik qapıda belə hərlən. Yaxın vaxtda alacağımız var, alıb ödəyərik borcu da.

– Ay ana, mənə şalvar lazım deyil, varımdı. Nə borc, nə zad? Mən o şalvarı bilirsən, neçəyə almışam, 80 manata. O cırıqlar dəbdi indi.

Firuzə ana donub Ramidin üzünə baxa-baxa qaldı. Bircə bunu deyə bildi:

– Ay bala, cırıq şalvardan da dəb olar? Biabır olduq...

## Sındırılmış fincan

Hər səhər işə gələn kimi, ilk işim mətbəxə çay üçün getmək olurdu. Zəhrimar şəkər məndə belə bir vərdiş yaradıb. Bufetçimiz səliqəli-sahmanlı, yarlı-yaraşıqlı Mətanət adlı bəstəboy bir xanımdı. Əslən Füzulidən olan bu xanımın əlindən çay içmək mənə xoş gəlirdi.

Özünün də sadə, bəzəksiz bir fincanı vardı. Di gəl, onu bir əzizləyərdi ki! Çayı da dəmli süzər, elə şirin-şirin içərdi ki, istəməyən



də iştaha gələrdi. Sonra da xəyallara dalardı, arabir mətbəxin pəncərəsindən çölə baxmağı da vardı. Yaşı qırxı haqlamışdı. Onun bu fincana olan qeyri-adi sevgisi mənə maraqlı idi. Amma aydınlıq gətirməyə çalışmırdım. Yersiz alınardı. Arabir söz atardım ki, “Ay Mətiş, sən də o “bahalı” fincanını elə əzizləyirsən ki. Elə bilirəm düşüb əlindən sınsa, dünya dağılar.

– Dağılar, bajı, əlbəttə, dağılar.

– Ay qız, sənə bir gözəl fincan alaram ki...

– Alarsan, inanıram. Amma onu əvəz edə bilməz.

...Yazağzı idi. Çərşənbələr yenicə başlamışdı. Təbiətin oyanan vaxtı, insanlar xoş əhval-ruhiyyə ilə işə gəlirdilər. Adətim üzrə mətbəxə keçdim ki, çay gətirim. Mətanətin qanı qara idi. Mətbəx dolabını ələk-fələk eləyirdi – fincanını axtarırdı. İçəri girəndən, özünə yaxın adamlardan “Fincanım rastınıza çıxmayıb?” – deyə soruşurdu. Soraqlaya-soraqlaya otaqlara baş çəkdi, “gördüm” deyən olmadı. Bikef oturmuşdu. Duruxa-duruxa fincanın tarixçəsini danışdı:

– Füzulidə yaşadığımız zaman atam ad günümdə samovarı qaynatdı, çay qutusunu açanda içindən bu fincan çıxdı. Atam gülə-gülə dedi ki, hələ balama bunun beşini də alacağam. O da olacaq onun servizi.

Hamımız gülüşdük. Böyüklər, yaxın qonşular, qohumlardan bilib gələnlər zarafatlaşdılar: “Ay kişi, işini, deyəsən, yüngülləşdirmək istəyirsən, madonnalar alacaqsan”. O da “Təki sağlıq olsun”, – dedi...

## Qabilin uzunqulaq alveri...

İranla sərhədin açılması alış-verişi qızışdırmışdı. Qabil də eşitdi ki, uzunqulaq oralarda yaxşı qiymətə gedir. Benzin baha olduğundan, əhali bu nəqliyyat növünə üstünlük verir. Kənddən ucuz qiymətə uzunqulaq alıb yola hazırlaşdı. Heyvanı həyətdə güclə yerə yıxdı, ayaqlarını cütləşdirib bağlamaqda çətinlik çəkdi. Eyvandan həyat yoldaşı və dörd qızı bu mənzərəni seyr edirkən acıqlandı:

– Nə baxırsınız? Elə bilin, dədənizdi, yıxılıb yerə. Gəlin, kömək edin də.

Qızlar tez aşağı düşüb atalarına kömək etdilər. Uzunqulağın ayaqlarını bağlayıb, maşının arxasına qoydular.

Qabil qonşu Məhəmmədəli ilə gecəyarı durub yola düzəldilər. İstəmirdilər ki, yol polislərinə “ilişsinlər”. Yenicə Cəlilabadı keçəcəkdilər ki, polis maşını saxladı:

– Hardan gəlib, hara gedirsiniz? Sənədlərinizi göstərin, nə aparırsınız? Baqajı açın!

Qabil dilləndi:

– Nəçənnik, anamın dişi yaman pis ağrıyır, aparırıq aşağı obada həkim var, onun yanına.

Bu məqamda üstünə örtük salınmış uzunqulaq başını maşının pəncərəsindən bayıra çıxarıb, bir anqırdı ki, gəl görəsən...

# Bəhruzun macəraları

## Məktəbdə

Bəhruzun oxumaqla arası yox idi. Məktəbə gec-gec gedir, ya da heç getmirdi. Sinif rəhbəri Adil müəllim atası Şəmsinin qapısını döyüb, Bəhruzu məktəbə çağırmaqdan təngə gəlmişdi..



Uzun fasilədən sonra məktəbə gələn Bəhruz bir dərsdən sonra müəllimdən icazə istəyir. Müəllim əsəbiləşir: "Bu gün gəlmisən, hələ bir icazə də istəyirsən".

Zəng içəri vurulanda Bəhruz heç nə olmayıbmış kimi, kitablarını götürüb yaxınlıqdakı bibisigilə gedir. Günortadan sonra evlərinə dönəndə anası soruşur:

– Bu gün neçə dərsiniz oldu, ay Bəhruz? Yaman gec gəldin.

– Az, nə dərs, mamamgildən gəlirəm. Sinifdə bir az oturdum, gördüm ki, yorulmuşam, getdim Subuş mamamgildə dincəlib gəldim...

## Qorxaqlıq

Anası dərsdən gələn oğluna yemək qoyurmuş. Qonşusu Aygünü çağırıb deyir ki, az, o Bəhruzu yolda döyürdülər. Get məktəbə, müəllimlərə, məktəbin direktoruna şikayət elə. Qoy qarşısını alsınlar. Dünya dərəbəylik deyil ki...

Aygün əsəbi halda içəri girib oğlundan soruşur:

– Yolda kim imiş səni döyənlər?

Bəhruz başını aşağı salıb cavab vermir.

– Niyə cavab vermirsən? Səni yolda döyürlər?

– Ana, gedəndə deyirsən, ya gələndə?..

## Alver

Aygün evə alınası şeylərin siyahısını tutub Bəhruza verib mağazaya göndərir; qənd, çay, yuyucu toz, sabun və s. Bəhruz Adilin mağazasına gəlir, yazılanların əksəriyyətini alır, şəkərtozu olmur. Satıcı deyir ki, bizdə "pesok" yoxdur. Keç yolun o üzündəki dükana, orada var.



Bəhruz əlində siyahı keçir yolun o tayına. Siyahını uzadır dükançıya və deyir:

– Şaiq dayı, al bunları yığ.

Satıcı siyahıda yazılanları yığır zənbilə. Bəhruz bazarlığını götürüb gedir. Dükana gələnlər şəkərtozunun ağ iz saldığını görüb təəccüblə deyirlər ki, görəsən, hansı binəvanın imiş, şəkərtozunu tökətökə gedib. Biri izinə düşüb gedir. Görür ki, ağ iz Şəmsinin qapısında qurtarır. Şəkərtozu gözləyən Aygün bazarlığı görüb acıqlanır:

– Bu nədi, meyvələrim xarab olur, sən hər şeydən iki dənə almısan, bircə "pesok"u az almısan, o da nə abırdadır.

– Xoşun gəlmir, get özün al..

***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi***
***Azərbaycan İlahiyyat İnstitutu***

***Ünvan:*** *AZ1141, Bakı şəhəri, Əhməd Cəmil, 41/A*
***Telefon:*** *(+99412) 510-65-45*
***Rəsmi səhifə:*** *www.ait.edu.az*
***Email:*** *info@ait.edu.az*
***Facebook:*** *ilahiyyatinstitutu*
***İnstagram:*** *ilahiyyatinstitutu*
***Twitter:*** *azeilahiyyat*

*"Azərbaycan" nəşriyyatında çap olunub.*
*Sifariş: 2189*